AZƏR… CA… ƏHSİL NAZİRLİYİ
AZƏR… YCA… UNİVERSİTETİ

"İqtisadi coğrafiya və təbii resurslardan istifadə" kafedrası

# AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ VƏ SOSİAL COĞRAFİYASI

## Dərs vəsaiti

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10.07.2003-cü il tarixli 685 nömrəli əmri ilə çap olunur.

BAKI – 2003

Rəyçilər: c.e.n. **N.Paşayev**
dos. **A.H.Məmmədov**

Müəlliflər: dos. **T.B.Hüseynov** I fəsil;
dos. **V.Z.Mehdiyeva** II fəsil;
dos. **T.Ş.Quliyev**, dos.**Z.M.Abdullayeva** III fəsil; c.e.n. b/m. **F.B.Eminov**, k/t. e.n., b/m.**A.S.Məmmədov** IV fəsil; dos.**T.Q.Süleymanov**, dos. **R.N.Kərimov** V fəsil; dos. **S.İ.Əmrahov** VI fəsil; b.e.n. b/m. **T.R.Tarverdiyev** VII fəsil; prof.**M.M.Fərzəliyev**, c.e.n. b/m. **İ. B. Xəlilov** VIII fəsil; prof. **R.H.Məmmədov** IX fəsil;

Elmi redaktor: prof. **R.H.Məmmədov**

**Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası "Coğrafiya bölməsinin" 30.06.2003-cü il tarixli qərarı ilə çapa təqdim edilmişdir. (protokol № 7)**

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | Giriş | Səh. |
| Fəsil 1 | Azərbaycan Respublikası ərazisinin formalaşması.................................. | 3-6 |
| Fəsil 2 | Azərbaycanın təbii şəraiti, təbii sərvətləri və onların iqtisadi cəhətdən qiymətləndirilməsi.......................................... | 7-19 |
| Fəsil 3 | Əhali və əmək ehtiyatları...................... | 20-34 |
| Fəsil 4 | Azərbaycanın sənaye sahələrinin coğrafiyası............................................. | 35-80 |
| Fəsil 5 | Azərbaycan Respublikasının aqrar-sənaye kompleksi........................................ | 81-101 |
| Fəsil 6 | Xidmət sahələri.................................. | 101-123 |
| Fəsil 7 | Azərbaycan Respublikasının nəqliyyatı və iqtisadi əlaqələri................................ | 124-139 |
| Fəsil 8 | Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi və ekoloji problemləri........... | 140-179 |
| Fəsil 9 | Azərbaycan Respublikasının iqtisadi rayonlaşdırılması.............................. | 180-263 |


1). Şəkillər mətndə də verilməli idi!

2. Mövzuların həcmi düzgün bölünməyib. Necə deyərlər və cibizim az həcm verilmişdir.

# GİRİŞ

ədris planına əsasən Azərbaycan Dövlət İqtisad sitetində və respublikanın bütün iqtisad təmayüllü ali blərində «Azərbaycan Respublikasının iqtisadi və sosial ıfiyası» əsas kurslardan biri kimi tədris olunur. «Azərbaycan ublikasının iqtisadi və sosial coğrafiyası» coğrafiya elminin üm bir hissəsi olub iqtisad qanunlarına əsaslanaraq tələbələri məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinin elmi əsasları ilə tanış edir. Onlara respublikanın iqtisadi rayonları üzrə istehsalın müasir inkişaf səviyyəsi və onun xüsusiyyətləri haqqında faktiki materiallar verir. Ayrı-ayrı təsərrüfat sistemlərində ictimai əmək bölgüsü məsələlərinin həllində bu fənnin bir elm kimi rolu böyükdür.

Ekoloji problemlərin həllində də iqtisadi və sosial coğrafiyanın təklifləri böyük iqtisadi səmərə verir. Digər tərəfdən yüksək ixtisaslı iqtisadçı kadrların hazırlanmasında bu fənnin əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Lakin indiyədək Azərbaycan dilində dərslik və dərs vəsaitinin azlığı həmin kursun yaxşı mənimsənilməsinə və yüksək ixtisaslı iqtisadçıların hazırlanmasına mənfi təsir göstərir. Odur ki, müəlliflər Dövlət İqtisad Universitetinin tələbələri üçün azərbaycan dilində «Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası» dərs vəsaitinin hazırlanmasını lazım bilmişlər.

Şübhəsiz ki, bu dərs vəsaitində respublikanın digər ali məktəblərinin tələbələri və orta məktəblərin coğrafiya müəllimləri də istifadə edə bilərlər.

Dərs vəsaiti Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən iqtisad ali məktəbləri üçün təsdiq olunmuş proqram əsasında tərtib edilmişdir.

İqtisadi-coğrafi məlumatların bir hissəsi kitabarası cədvəllərdə verilmişdir.

## AZƏRBAYCAN RESPUBLİKASI ƏRAZİSİNİN FORMALAŞMASI

Azərbaycan Respublikasının ərazisi dünyanın ən qədim insanlarının məskunlaşdığı guşələrindən biri hesab edilir. Bunu respublikanın ərazisində Fizuli şəhərindən 14 km şimal – qərbdə yerləşən Azıx mağarasında tapılmış qalıqlar sübut edir. Bu tapıntıların tədqiqi həmin ərazidə təqribən bir milyon il əvvəl insanların həyat sürdüyünü bir daha təsdiq edir.

Eramızdan əvvəl birinci minilliyin yarısında Cənubi Azərbaycan ərazisində ən qədim dövlət olan Manna yaranmışdır. Paytaxtı İzurtu olmaqla Manna dövləti cənubda Diyala və Kiçik Zab çaylarının yuxarı axınlarına, şərqdə Xəzər dənizinə, şimalda Araz çayına, qərbdə Urmiya gölü sahillərinədək uzanaraq uzun illər Assuriya və Urartu dövlətlərinin hücumlarının qarşısını cəsarətlə alsa da eramızdan əvvəl VII əsrin 50-ci illərində özünün siyasi əhəmiyyətini və rolunu get-gedə itirməyə başlamışdır. Ona görə də VII əsrin axırlarına yaxın Azərbaycanın cənubunda böyük bir imperiyaya Midiya dövləti Mannanın ərazisini də özünə qatır. Nəhayət, eramızdan əvvəl VI əsrin ortalarında Midiyada hakimiyyət Əhəmənilərin əlinə keçmiş olur.

Midiya dövlətinin ərazisi Orta Asiya və İran körfəzinə daxil olmaqla Araz çayınadək olan sahələri əhatə edirdi. Lakin Midiya dövləti də uzun ömürlü olmadı. Miladdan əvvəl VI yüzilliyin ortalarında fars tayfaları üsyan edib, hakimiyyəti ələ keçirmiş və nəticədə Azərbaycanın böyük bir hissəsi bu dövlətin hakimiyyəti altına keçmişdir.

Miladdan əvvəl VI yüzilliyin ortalarında Makedoniyalı İsgəndərin qoşunları tərəfindən Midiya dövləti Böyük Midiya və Kiçik Midiyaya parçalanır. Bu zaman İsgəndərin tərəfində keçmiş Atropat özünü Kiçik Midiyanın hökmdarı elan edir. Kiçik Midiya əsasən Cənubi Azərbaycan vilayətlərini, İran Kürdüstanının bir hissəsini, Şimali Azərbaycanın bəzi rayonlarını əhatə edirdi. Yeni yaranmış dövlət öz adını banisinin adından – Atropatdan götürülmüşdür. Nizaminin əsərlərində isə ölkəmizin adı Azərbadkan

göstərilmişdir. Bizim fikrimizcə Azərbadkan Azərbaycan adının ən düzgünü hesab edilməlidir.

Atropatena ilə bərabər Azərbaycan torpaqlarında paytaxtı Qəbələ olan Albaniya dövləti də yaranmışdır. Onun ərazisi indiki Şimali Azərbaycanın bəzi ərazilərini, habelə, Dağıstanın cənub hissəsini əhatə etmişdir. Paytaxtı Bərdə olan Girdiman dövləti də öz qudrəti ilə tanınmışdır.

Deyilənlərdən göründüyü kimi Azərbaycan ərazisi tarixdə dəfələrlə xarici işğalçıların hücumuna məruz qalmışdır. Belə ki, III əsrin ortalarında Sasanilər onun ərazisinin xeyli hissəsini tutmuş, IV əsrdən onun ərazisi Roma imperiyası ilə İran arasında gedən müharibələr meydanına çevrilmiş, VIII əsrdə isə ərəblər əraziyə hücum etmişlər. Ərəblərin özbaşınalıqlarına dözə bilməyən xalq IX əsrin II yarısında ərəb xəlifələrinin hakimiyyətini satsıtdı. Nəticədə, burada bir neçə feodal dövlətləri yaradılmış oldu. Bunlardan Şirvanşahlar dövləti xüsusilə tanınırdı.

XI əsrin ortalarında səlcuqların başçılığı ilə köçəri türkdilli qəbilələrin Azərbaycana axını baş verir. Səlcuq hökmdarı zəiflədikdən sonra XII əsrdə Şirvanşahlar, Kəsranilər, Eldəgizlər dövlətləri daha da yüksəlməyə başladılar.

XIII əsrin 30-cu illərində monqolların hücumuna məruz qalan Azərbaycan XIV əsrdə Teymurləngin ordusu ilə üzləşməli olur.

XVI əsrdə Azərbaycan torpağına Səfəvilər dövləti yaranmış olur ki, o da öz ərazisini Sirdəryadan Dəclə çayına qədər artırmışdır.

Səfəvilər dövləti ilə Türkiyə arasında XVI əsrdə müharibənin başlanması Şərq ölkələrində iqtisadi-ictimai durumun zəiflənməsinə səbəb oldu. İran-Türkiyə müharibəsində isə Azərbaycan əraziləri dəfələrlə əldən-ələ keçir. Bu müharibənin baş verməsinə Avropanın xristian dövlətlərinin təfriqəçilik fəaliyyətləri səbəb olmuşdur.

XVI əsrin sonu XVII əsrin I yarısında – I Şah Abbas dövründə Şəfəvilər dövlətinin paytaxtı Qəzvin şəhərindən İsfahana köçürülür. Bu zaman İran əyyanlarının fəaliyyəti artaraq bir neçə Azərbaycanlı sərkərdələr ordudan uzaqlaşdırılırlar.

VIII əsrin 40-cı illərində İranla Türkiyə arasında bağlanan müqaviləyə əsasən Azərbaycan yenidən İranın hakimiyyəti altına düşmüş və onun ucqarlarının birinə çevrilmiş olur.

XVIII əsrdə İranın zəifləməsi Azərbaycanda kiçik feodal xanlıqlarının yaranmasına şərait yaratmışdır. Bunlardan Quba, Qarabağ, Bakı, Gəncə, Şirvan, Lənkəran, Şəki xanlıqlarının adlarını göstərə bilərik.

Şah İsmayılın hakimiyyəti dövründə Azərbaycan ərazisindəki bütün dövlətlər birləşdirilərək vahid Azərbaycan dövləti yaradılmışdır. Təəssüf ki, Şah İsmayılın ölümündən sonra ölkədə yenidən parçalanmalar baş vermişdir. Bu dövrlərdə Azərbaycanın ərazisi 200 min kfadrat kilometrdən çox olmaqla onun cənub sərhəddi Urmiya gölünün cənub və cənub-şərq hissələrinə qədər uzanmışdır.

Rusiya ilə İran arasında 1804-1813 və 1826-1828-ci il müharibələri nəticəsində Azərbaycan torpağı, eləcə də Azərbaycan xalqı iki hissəyə parçalanmışdır. 1828-ci ildə İrəvan, Naxçıvan xanlıqlarının istilasından sonra Şimali Azərbaycan Rusiyaya birləşdirilmişdir. Rusiya ilə İran arasında 1813-cü ildə bağlanılmış Gülüstan və 1828-ci ildə imzalanmış Türkmənçay müqavilələri əsasında Azərbaycanın Şimal hissəsi Rusiyanın müstəmləkəsinə çevrilməklə, Cənub hissəsi İrana verilmişdir. Azərbaycanın hal-hazırda 30 milyon nəfərə qədər əhalisi İranın tabeliyində indi də qalmaqdadır.

Azərbaycanın ərazisinin Şimal hissəsinin Rusiyaya birləşdirilməsinin siyasi nəticələrindən biri burada azadlıq, müstəqillik, suverenlik ideyalarının get-gedə daha da artması, Türk dünyası və eləcə də İslam aləmində ilk dəfə 28 may 1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyətinin (ADC) yaranması oldu. Azərbaycan Demokratik Cümhuriyyəti Rusiya tərəfindən tanınmasa da bir çox dünya dövlətləri tərəfindən tanınmış oldu. Bu, Azərbaycan xalqının öz müqəddəratını həll etməyə qadir müstəqil, suveren dövlət 23 aydan sonra süquta uğradıldı. Onun əvəzində 1920-ci il aprelin 28-də Azərbaycan Sovet Respublikası elan edilmiş oldu. Bu zaman Azərbaycan Demokratik Cümhuriyyətinin sahəsi 114 min kfadrat kilometrdən çox, sərhədlərinin ümumi uzunluğu isə 3504 km təşkil edirdi.

Rusiya Azərbaycan Demokratik Cümhuriyyətinin ərazisini təkrar işğal etməklə kifayətlənmədi. O, qədim Azərbaycan torpaqları olan İrəvan xanlığının yerində və digər qonşu ərazilərimizdə Ermənistan adlı qondarma bir dövlət yaratdı. Bununla kifayətlənməyən Rusiya 1924-cü ildə Azərbaycan Demokratik Cümhuriyyətinin Zəngəzur, Şərur-Dərələyəz qəzalarının, Göyçə mahalını, Qazax qəzasını yarıdan çoxunu Azərbaycandan qoparıb yaratmış olduğu Ermənistana pay verdi.

Nəhayət, bu azmış kimi Rusiya Ermənistanla 1920-ci ilin dekabrında dostluq, əməkdaşlıq haqqında müqavilə də imzaladı. Bununla Naxçıvan ərazisi Azərbaycandan ayrı salınaraq həmişəlik mühasirə vəziyyətinə salındı. Digər tərəfdən Rusiyanın təkidi ilə 7 iyul 1923-cü ildə qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.

Muxtariyyət prinsiplərinə müvafiq olaraq 9 fevral 1924-cü ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Dünyanın siyasi xəritəsində öz əksini tapmış oldu.

Son vaxtlar Azərbaycanın ərazisi necə deyərlər gözümüz baxa-baxa daha 28 min kvadrat kilometr azaldılaraq, 86,6 min kvadrat km-ə endirilmişdir.

1922-ci il martın 12-də Azərbaycan ZSFSR, həmin ilin 30-u dekabrında ZSFSR tərkibində SSRİ, 1936-cı ilin dekabrın 5-də isə «müstəqil» müstəqil respublika kimi SSRİ-yə daxil olunmuşdur.

Ermənistan uzun illərdən bəridir ki, qonşu dövlətlərin ərazisi hesabına Böyük Ermənistan adlanan bir dövlət yaratmaq xülyasına düşmüşdür. Bu məqsədlə də hələ 1948-1951-ci illər ərzində indiki Ermənisatndan-Azərbaycanın əzəli torpaqlarından 200 minə yaxın azərbaycanlılar məcburi köçürülmüşlər. Bu siyasət davam etdirilərək 1988-ci ildən bu vaxta qədər yenidən 207 min azərbaycanlı əhalisi qədim dədə-baba yurdlarından çıxarılaraq kütləvi şəkildə qovulmuşlar. Sonrakı hadisələrin gedişi və müharibənin başlanması nəticəsində Ermənistan Azərbaycan Respublikasının ərazisinin 20 faizini xarici qüvvələrin köməyi ilə zəbt etmişdir.

1991-ci ilin 8 dekabrında SSRİ dağıdıldıqdan sonra müttəfiq respublikalar hamısı müstəqillik qazandılar. 1991-ci ilin 18 oktyabrında müstəqil və suveren Azərbaycan dünyanın siyasi xərtiəsində öz ədalətli yerini bir daha tapmış oldu.

Şimaldan-Cənuba 400 km məsafədə uzanan Azərbaycan $38^0 25^1$-$41^0 55^1$ şimal enlikləri və $44^0 50^1$-$50^0 54^1$ şərq uzunluqları arasında ön Qafqaz regionunda yerləşərək şimaldan 289 km məsafədə Rusiya ilə, şimal-qərbdən 340 km məsafədə Gürcüstan Respublikası ilə, cənubdan 618 km məsafədə İran İslam Respublikası ilə, cənubi-qərbdən 11 km məsafədə Türkiyə Respublikası ilə və cənubi-qərbdən 766 km məsafədə Ermənistan Respublikası ilə sərhəddə malikdir.

## Azərbaycanın təbii şəraiti, təbii sərvətləri və onların iqtisadi cəhətdən qiymətləndirilməsi

Respublikanın təbii şəraiti və təbii ehtiyatlarının rəngarəng olması təsərrüfatın inkişafı üçün əlverişli imkanlar yaradır. Azərbaycanın təbii şəraiti məhsuldar qüvvələrin inkişafına təsir göstərən mühüm amillərdən biridir. Ərazi istehsal komplekslərinin inkişafı və yerləşməsi təbii şərait və ehtiyatlarla sıx əlaqədardır. Buna görə də müasir cəmiyyətin maddi texniki bazasının yaradılması vəzifəsinin həlli bilavasitə təbii şərait və təbii ehtiyatların dərindən öyrənilməsi, düzgün qiymətləndirilməsi, elmi əsaslarla onlardan səmərəli istifadə olunması və mühafizə edilməsi ilə bağlıdır. Repsublikada məhsuldar qüvvələrin inkişafı və səmərəli yerləşdirilməsi buradakı düzənlik, dağətəyi, düzən sahələr, zəngin neft, qaz, metal və qeyri-metal qazıntılarının, rəngarəng torpaq, bitgi örtüyü və heyvanlar aləminin olması ilə xarakterizə edilir.

**Relyef.** Respublikanın relyefi mürəkkəbdir. Ərazi relyefinə görə aşağıdakı hissələrə bölünür: Böyük Qafqaz dağ sistemi; Kiçik Qafqaz dağ sistemi; Talış dağ sistemi və Lənkəran ovalığı. Kür-Araz ovalığı.

Respublikanın ərazisində arxeozoy erasından başlanmış müasir dövrə qədərki bütün çöküntü süxurlarına təsadüf olunur. Ərazidə müxtəlif dövrlərdə baş vermiş vulkan püskürmələri ilə əlaqədar vulkanik süxurlar da yayılmışdır. Respublikamızın relyefi cavandır. Əsas relyef formaları üçüncü dövrdə başlanmış və indi də davam edən Alp dağ əmələgəlməsi ilə əlaqədardır. Relyefin dəniz səviyyəsindən – 28 metrdən başlayaraq 4466 (Bazar düzü zirvəsi) metrədək yüksəlməsi ilə əlaqədar olaraq ərazidə hündürlük qurşaqları əmələ gəlmişdir. Prof.R.X.Piriyevin hesablamalarına görə respublika ərazisi hündürlük qurşaqları üzrə faizlərlə aşağıdakı kimi bölünür: - 28-0 metr – 18,0%, 0-200 metr – 24,0%,J 200-500 metr – 15,5%, 500-1000 metr – 15,5%, 1000-1500 metr – 12,0%, 1500-2000 metr – 7,5%, 2000-2500 metr- 4%, 2500 metrdən hündürdə cəmi 3,5%.

Göründüyü kimi respublika ərazisinin yarıdan çoxu – 57,5 faizi və ya təqribən 50 min kv. km sahəsi 500 metrdən, o cümlədən 36 min kv. km.dən artıq sahəsi 2000 metrdən aşağıda yerləşir. Respublikanın əsas sənaye mərkəzləri, intensiv əkinçilik rayonları, nəqliyyat magistralları bu qurşaqlarda yerləşir. Hündürlük və yamacların meyli artdıqca ərazinin mənimsənilmə dərəcəsi və kənd təsərrüfatının ixtisaslaşdırılmış sahələrinin miqdarı azalır. Respublika ərazisinin 1000 metrə qədər hündürlükdə yerləşən sahələri əsasən yaxşı, 1500 metrədək hündürlükdə olan sahələri qismən yaxşı mənimsənilmişdir. 1500 metrdən hündürdə yerləşən sahələrdən əsasən yay otlaqları kimi istifadə edilir. Həmin sahələrdə gec əriyən qar örtüyü, gur bulaqlar, 3000 metrdən hündür olan sahələrdəki buzlaqlar çayların qidalanmasında, onların su və enerji ehtiyatlarının sabitləşməsində əhəmiyyətli rol oynayır.

Relyefin hündürlüyü ilə bərabər ekspozisiyası və meyli də ərazinin kənd təsərrüfatında istifadə edilməsinə ciddi təsir göstərir. Belə ki, respublikanın dağlıq ərazilərində əkinçilik üçün əsasən meyli 6-10 dərəcə olan sahələrdən istifadə edilir. Meyli 10-15 dərəcə olan ərazilərdə heyvandarlıq üstün yer tutur. Əkin sahələri kiçik talalar şəklindədir. Meyli 15 dərəcədən artıq olan sahələrdə kənd təsərrüfatı qoyunçuluq istiqamətindədir.

Respublikanın ərazisinin 15%-ni təşkil edən və 1500 metrdən hündürdə yerləşən sahələrin relyefinin mürəkkəb xarakteri (dik yamaclar, sıldırım qayalar, keçilməz erozion dərələr, sürüşmələr) təbii sərvətlərin mənimsənilməsini və nəqliyyatın işini çətinləşdirir.

Qeyd edilməlidir ki, təbiətin ən mühüm amillərindən biri də iqlimdir. Azərbaycan Respublikası ərazisinin nisbətən çox kiçik olmasına baxmayaraq, onun iqlimi rəngarəngdir. Belə ki, yer kürəsində mövcud olan 13 iqlim tipindən 9-u respublikanın ərazisində vardır.

Respublikanın iqlimi termik ehtiyatların bolluğu ilə səciyyələnir ki, bu da əlverişli rütubət və düzgün aqrotexniki tədbirlərin keçirilməsi şəraitində yüksək məhsuldarlığın təminatı üçün mühümdür. Ərazinin təqribən 1/2-dən çox hissəsində fəal

temperatur cəmi 4000° ilə 4700° arasında tərəddüd edir. Bu, bir təsərrüfat ilində eyni sahədə iki dəfə məhsul yetişdirmək üçün kifayət edən termik ehtiyatdır. Ən yüksək orta illik temperatur Şirvan, Muğan, Mil, qarabağ düzlərində və Lənkəran ovalığında, Abşeronda, Mingəçevir su anbarı ətrafında müşahidə edilir. Bu, yerlərdə orta illik temperatur 14-14, 5° S olub, pambıq, zeytun, çay kimi çox istilik sevən bitgilərin becərilməsinə imkan verir. Dağətəyi düzənliklərdə və alçaq dağlıq ərazilərdə (800-900 m) orta illik temperatur 10-12°S arasında tərəddüd edir. Qeyd edilməlidir ki, respublika əhalisinin 90%-dən çoxu illik orta temperatur 10°S və daha yüksək olan ərazilərdə məskunlaşmışdır. Dağlarda orta illik temperatur azalaraq 2000 m hündürlükdə 4,5-6,5°S, 3000 m-dən hündürlükdə isə 0°-dən aşağı düşür.

Ölkə ərazisi üzrə yağıntılar qeyri-bərabər paylanmışdır. Abşeron yarımdaasının cənubunda ildə 200 mm-dən az yağıntı düşdüyü halda, Lənkəran ovalığının cənubunda 1700 mm-dən çox yağıntı düşür. Kür-Araz ovalığında, Naxçıvan MR-də, Arazboyunda, Samur-Dəvəçi ovalığında, Gəncə-Qazax düzənliyinin çox hissəsində, Ceyrançöldə, Bozdağda, Abşeron yarımadasının şimalında illik yağıntının miqdarı 200-400 mm arasındadır. Dağətəyi maili düzənliklərdə və alçaq dağlıq sahələrdə 400-600, orta dağlıq zonada 600-1200 mm yağıntı düşür. Qanıx-Əyriçay vadisi yağıntı ilə yaxşı təmin olunur (600-1000 mm).

Yağıntıların qeyri-bərabər paylanması geniş suvarma proqramının həyata keçirilməsini tələb edir. Belə ki, aran və dağətəyi roayonlarda yağıntıların əsas hissəsi payızın sonunda və qışda düşür. Bitgilərin fəal vegetasiya dövründə isə illik yağıntının ancaq 10-20%-ə qədəri düşür. Bu dövrdə torpağın səthindən buxarlanmanın miqdarı 1000-1100 mm-ə çatır.

Dağlıq və dağətəyi ərazilərə yaz-yay aylarında yağıntının xeyli hissəsi kənd təsərrüfatına zərər gətirən dolu halında düşür. Respublika iqliminin digər səciyyəvi xüsusiyyətlərindən biri şaxtasız dövrün uzun müddətli olması, qışın mülayim, yay aylarının isti və quraq keçməsidir. Buna görə də bir sıra sənaye qurğularını açıq hava şəraitində tikmək mümkün olur.

Məlumdur ki, təbii resursların bir qismi insanın iştirakı olmadan formalaşaraq təbii mühitin bir hissəsini təşkil edir və sonradan təsərrüfat dövriyyəsinə cəlb olunmuşdur. Təkrar istehsala cəlb olunmuş digər qism təbii sərvətlər bilavasitə və yaxud dolayısı yolla insan əməyinin nəticəsi kimi çıxış edir. Onları bir əlamət – insan tələbatını ödəmək imkanı ümumiləşdirir.

Məhz bu əlamət təbii sərvətlərin qiymətinin müəyyənləşdirilməsində əsas sayılır. Təbii sərvətlərin qiymətinin müəyyənləşdirilməsində mühüm iş ondan ibarətdir ki, elmi-texniki tərəqqi əsrində bütün növ təbii sərvətlər bu və ya digər formada istifadə edilə bilərlər: Bu vaxt hər şey təminat və elmi-texniki tərəqqinin inkişafı səviyyələrindən asılıdır.

Cəmiyyətin inkişafında təbii ehtiyatların böyük əhəmiyyəti məlumdur. Belə ki, cəmiyyət təbii sərvətləri təkcə əmtəə istehsalının elementi kimi deyil, cəmiyyətin inkişafının elementi kimi qiymətləndirməlidir. Qiymətləndirmə o qədər faktiki xərcləri deyil, nə qədər təbii sərvətlərin təsərrüfat üçün olan əhəmiyyətini özündə əks etdirməlidir. Özü də əmtəə-pul münasibətlərinin saxlandığı bir dövrdə qiymətləndirmə dəyər formasında özünü biruzə verməlidir.

Təbii sərvətlərin qiymətləndirilməsini tez-tez ancaq onlara görə olan haqla əlaqələndirirlər. Lakin bu haqqın qiymətləndirmənin elementi olmasına baxmayaraq, bu mənalar eyni deyildir. Belə ki, daha keyfiyyətli təbii sərvətlər istehsalat kollektivlərinə izafi xalis məhsul almağa imkan verirsə, onda cəmiyyət onu təbii sərvətlərə görə differensasiyalı haqq yolu ilə almalıdır, lakin bu sərvətin qiyməti deyildir.

Təbii sərvətlərin dəyərinin qiymətləndirilməsində həm iqtisadi, həm də texniki, coğrafi, geoloji və digər amilləri nəzərə almaq vacibdir. Təbii sərvətlərin qiymətləndirilməsində ekoloji amillər, onların bərpa olunmaq, əvəz olunmaq və keyfiyyət xüsusiyyətləri təsir göstərir. Ona görə də müxtəlif növ təbii sərvətləri müxtəlif cür qiymətləndirirlər. Deməli, geoloji, coğrafi, ekoloji, iqtisadi və digər qiymətləndirmə növlərini ayırmaq lazımdır.

Təbii sərvətlərin iqtisadi qiymətləndirilməsi təkcə istehsalın təkrar istehsal prosesində, ekoloji qiymətləndirilməsi isə insanın təbiətlə əlaqəsində başa düşülə və qiymətləndirilə bilər. Lakin, həm

iqtisadi, həm də ekoloji qiymətləndirmə istehsalın xarakteri ilə müəyyənləşdirilir.

**Faydalı qazıntılar**. Repsublikamızın ərazisi faydalı qazıntılarla, xüsusən neft və qaz ~~yataqları~~ ilə olduqca zəngindir. Respublika ərazisinin 70%-i neft və qaz ehtiyatı cəhətdən perspektivli strukturlara malikdir. Yüz əlli ildən artıqdır ki. Abşeron yarımdasındakı neft yataqları sənaye miqyasında istismar olunur. Xəzər dənizinin şelf zonasında,xüsusən Abşeron və Bakı arxipelaqlarında zəngin neft və qaz ehtiyatları kəşf edilmişdir. Bununla yanaşı quruda, xüsusən Qobustanda, Şirvanda, Muğanda iri neft yataqları vardır. Neft-qaz cəhətdən Xəzər dənizi və respublikanın qərb rayonları geniş perspektivə malikdir. Son illərdə Şərqi Gürcüstanda və Şəmkir rayonunda (Tərsdəllər) kəşf edilib istismara verilmiş perspektivli neft yataqları və burada gedən kəşfiyyat qazması bunu sübut edir. Hasilata başlanılandan keçən dövr ərzində respublikanın potensial neft ehtiyatlarının beşdə ikisindən bir qədər çoxu, qaz ehtiyatlarının isə beşdə birindən azı mənimsənilmişdir. Qaz ehtiyatlarının 80%-i dənizdə kəşf edilmiş sərbəst qaz yataqlarının payına düşür. Qaz kondensat ehtiyatının isə 90%-dən çoxu dəniz yataqlarında cəmlənmişdir.

Neft və qaz kondensat ehtiyatlarının dərinliklər üzrə aşağıdakı qaydada bölündüyü güman edilir; bütün ehtiyatların 26%-i 3000 m dərinlikdə; 53%-i 3000-5000 m arasında və 21%-i 5000-7000 m dərinlik arasında cəmlənmişdir. Neft və qaz ehtiyatının yarıya qədəri Xəzər akvatoriyasının payına düşür. Ehtiyata görə digər rayonlardan Abşeron, Muğan-Salyan, Xaçmaz əraziləri fərqlənir.

Təbii qazın dərinliklər üzrə yerləşməsi isə neftdən bir qədər fərqlənir. Belə ki, bütün qaz ehtiyatının onda birindən azı 3000 m qədər olan dərinliklərdə, beşdə ikiyə qədəri 3000-5000 m arasında, yarıdan çoxu isə 5000-7000 m dərinlikdə yerləşir.

Respublikamızda neft və qazla yanaşı metallurgiya xammalı ehtiyatlarının da mühüm əhəmiyyəti vardır. Ərazi xüsusən alunit, polimetal filizləri, dəmir filizi və metallurgiya istehsalı üçün zəruri olan qeyri-filiz xammalı ehtiyatları ilə zəngindir. 1964-cü ildən istismar edilən və Gəncə aliminium zavodunu xammal ilə təchiz edən

Daşkəsən Zəylik alunit yatağı ehtiyatına görə ÇXR-da olan yataqdan sonra dünyada ikinci, MBD dövlətləri içərisində isə birinci yeri tutur.

Zəylik aluniti kompleks xammaldır. Emal zamanı ondan gil-torpaq aliminium oksidi, sulfat turşusu istehsal edilən kükürd qazı və kalium gübrəsi istehsalı üçün kalium duzu alınır. Bunlardan əlavə alunitin tərkibində vanadium və qallium kimi nadir metallar da vardır. Xammalın emalı zamanı yuxarıda göstərilən məhsullarla yanaşı nadir metalların istehsalının təşkili çox böyük iqtisadi səmərə verə bilər.

Respublikanın ərazisində polimetal filiz yataqları daha geniş yayılmışdır. Ağdərə rayonunda Mehmanə, Naxçıvan MR-də Gümüşlü polimetal filiz yataqları və Parağaçay, Qapıçıq mobildən yataqları daha yaxşı öyrənilmişdir. Ehtiyatına görə Zaqatala-Balakən polimetal filiz rayonu ən böyük hövzələrdən biridir.

Kiçik Qafqaz regionu digər əlvan metal filizləri ilə yanaşı civə ilə zəngindir. Sevan-Qarabağ və Somxit-Ağdam tektonik zonalarında, Qazax sinklinarisində və Naxçıvan qırışıq zonasında 50-dən artıq civə yatağı aşkar edilmişdir. Kəlbəcər rayonundakı Şorbulaq, Ağyataq və Löhçay yataqlarının isə balans ehtiyatları müəyyən edilmişdir.

Keçən əsrin 50-ci illərindən bəri Gürcüstanın Rustavi metallurgiya kombinatını dəmir filizi konsentratı ilə təmin edən Daşkəsən yatağı Qafqazda istismar olunan ən böyük dəmir filizi yatağıdır. Kiçik Qafqazın şimal yamacı kobalt, kükürd kolçedanı, mis filizi, qranit, mərmər, flüslük əhəng daşları, barıt və s.-ə zəngindir. Xaşbulaq yatağında yüksək keyfiyyətli flüslük əhəng daşının təsdiq edilmiş ehtiyatı 50 milyon tondan artıqdır.

Qazax rayonundakı Daşsalahlı bentonit gil yatağının xammalından əsasən qara metallurgiyada geniş istifadə olunur. Azərbaycan Respublikasında bentonit gillərindən neft hasilatı, tikinti materialları sənayesində, irriqasiya qurğularının tikintisində, şərabçılıqda və s. geniş istifadə olunur. Neftayırma sənayesində bentonit gillərdən daha geniş istifadə etmək imkanı vardır. Belə ki, respublikanın həmin sənaye sahəsinin ehtiyacını ödəmək üçün hər il Gürcüstandan külli miqdarda qumbirin daşınırdı. Qumbirinin 1 tonunun daşıma xərci onun dəyərinin 30%-ni təşkil edir. Respublikanın neftayırma sənayesinin ehtiyacının Daşsalahlı bentonit

gili ilə ödənilməsi hər il nəqliyyat xərclərini xeyli miqdarda azaltmağa imkan verə bilər.

Respublika digər qeyri-filiz xammalı ilə də zəngindir. Bunların arasında müxtəlif kimyəvi xammallar mühüm yer tutur. Neftçala, Xıllı, Babazənən, Mişovdağ, Muğan, Böyük Şor və Şirvan yodlu-bromlu su yataqları diqqəti cəlb edir. Kəşf edilmiş ehtiyatına görə orta həcmli qrupa aid edilən bu yataqlar brom və yodun miqdarına görə yüksək keyfiyyətlidir. Hazırda Neftçala və Xıllı yataqları Neftçala yod-brom zavodunu xammal, yəni su ilə təmin edir. Mişovdağ və Babazən yataqları əsasında yod və brom məhsulları istehsalını genişləndirmək üçün real imkanlar vardır.

Respublikada çox böyük mineral su ehtiyatları vardır. Xüsusən bir sıra göstəricilərinə görə bütün dünyada məhşur Karlovı Varıdan üstün olan Kəlbəcər rayonundakı İstisu, Naxçıvan MR-dəki Sirab, Badamlı, Vayxır, Darıdağ, Şuşa rayonundakı Turşsu və Şirvan, Dəvəçi rayonundakı Qalaaltı və başqaları ehtiyatlarına, müalicə əhəmiyyətinə görə fərqlənirlər. Bununla yanaşı respublikada xeyli termal su ehtiyatı da vardır.

Naxçıvan MR-da olan daş duz yatağının ümumi ehtiyatı təqribən 1 milyard tondur. Abşeron və Qobustanda çöküntü duz ehtiyatları vardır.

Respublikamızda yüksək keyfiyyətli və kifayət qədər ehtiyata malik, Zaqafqaziyada ən böyük Yuxarı Ağcakənd gips (35,2 mln. ton) yatağı yerləşir. Respublikada çıxarılan gips və gəc də sənayedə və kənd təsərrüfatında istifadə edilir.

Hacvəlli kvars qumu yatağı (ehtiyatı 14 mln. tona yaxın) respublikada mineral su doldurma və şərabçılığın qaba olan böyük tələbatının ödənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu yatağın kvars qumu zənginləşdirilmədən birbaşa tutqun rəngli şüşə istehsalına yarayır.bunlarla yanaşı ərazidə sement sənayesi üçün külli miqdarda xammal ehtiyatı vardır. Respublika həmçinin böyük miqdarda ehtiyatı olan əhəng daşı, qum daşı, tuf, mişar daşı, mərmər, mərmərəbənzər əhəng daşı, travertin kimi üzlük daş, tikinti daşı, kərpic, keramit gili, çınqıl və qum yataqlarına malikdir.

Respublikada sənaye cəhətdən istifadəyə hazırlanmış 50 mln. t. ehtiyatlı iri flüslü əhəngdaşı, 82,4 mln.t ehtiyatlı bentonitli gil yataqları

mövcuddur ki, bunlar da qara metallurgiya üçün mühüm xammal rolunu oynayır.

Azrəbaycanda digər yataqlar da kəşf edilmiş və sənaye cəhətdən istifadəyə hazırlanmışdır. Dünya təcrübəsində ilk dəfə olaraq Gəncə aliminium zavodunda alunitin kompleks emalı təşkil olunmuş və nəticədə aliminium oksidi, sulfat turşusu, kalium gübrələri və vanadium istehsal edilmişdir. Əfsus ki, zavodun slikatlı tullantılarından bir tikinti materialı kimi hələ istifadə edilmir.

Son 20-25 ildə aparılmış geoloji kəşfiyyat işləri nəticəsində Şəki-Zakatala zonasında zəngin polimetal filizi yatağı kəşf edilmişdir. Ancaq, bu yatağın sənaye cəhətdən istismarı bəzi ciddi məsələləri ortalığa çıxarır. Daha doğrusu, yataqların daha səmərəli şəkildə istismarı növlərinin seçilməsini, polimetal filizlərin emalının tullantısız və susuz emalı texnoloiyalarının işlənməsini, yataqların təsərrüfat cəhətdən istismarının ekoloji nəticələrinin öyrənilməsi vacibdir.

Nəzərə alsaq ki, polimetal filizi yatağı Zakatala qoruğunun yaxınlığında və əsasən aqrar-sənaye xüsusiyyətli rayonda yerləşir, deməli burada filizlərin çıxarılması və emalı üzrə müəssisələrin yerləşdirilməsi ətraf mühitin çirklənməsi üçün ciddi şərait yaradır.

Respublikada sənaye cəhətdən istismara hazırlanmış nadir kimya xammalı, daha doğrusu, yod-brom suları, daşduz, dolomitli əhəndaşı və digər xammal yataqları mövcuddur.

Məlum olduğu kimi, Azərbaycan zəngin daşduz yataqlarına malikdir ki, onların ən böyüyü Naxçıvandadır. Ancaq bu duzun kristal formadan lazımi şəklə salınması texnologiyası hələ də müasir tələblərə cavab vermir.

Naxçıvan duz yatağının yaxınlığında zəngin dolomit yataqlarının olması, onların az vəsait sərf etməklə kompleks halında emal nəticəsində çox lazımi kalsium sodcasının alınmasına imkan verir.

Ərazimiz təsdiq olunmuş ehtiyatı sutkada 18,8 min kub m-lik mineral sularla, kvarslı qum, müxtəlif növlü tikinti materialları (üzlük, daşları, kərpic-kirəmit gili, anhidrit, çınqıl-qum materialı), əhəndaşı, soda xammalı yataqları və s. ilə zəngindir.

Azərbaycan Respublikası zəngin hidroenerji ehtiyatına malikdir. Potensial hidroenerji ehtiyatları 37,1 mlrd. kvt-saat hesablanmışdır ki, onun da 16 mlrd. kvt-saatı texniki cəhətdən istehlaka yararlıdır. 7 mlrd. kvt-saat isə iqtisadi cəhətdən səmərəlidir. Lakin 7 mlrd. kvt.-saatın ancaq 21,4%-indən istifadə edilir. Göstərilən ehtiyat Gürcüstan Respublikadan 4,3 dəfə az, Ermənistan Respublikasından 2 dəfə çoxdur.

Araz çayının potensial hidroenerji ehtiyatı təqribən 7 mlrd. kvt-saata bərabər götürülür ki, onun da 3,5 mlrd kvt-saatı İranın payına düşür.

Yanacaq-energetika balansına günəş və hidrotermal enerji mənbələri də müəyyən təsir göstərə bilərlər. Ancaq həmin mənbələrdən istifadə baha başa gəldiyi və bunun üçün lazımi texniki materialların olmamasından hələlik mümkün deyildir. Lakin, bizə belə gəlir ki, gələcəkdə yanacaq-energetika balansının strukturunda ciddi dəyişikliklər baş verməlidir. Bu cür dəyişikliklərin əsas istiqamətləri hidroenerjinin xüsusi çəkisinin artmasından, bərpa olunan enerji mənbələrinin artırılmasından, təbii qazdan istifadənin genişləndirilməsindən və s. ibarət olmalıdır.

Azərbaycan Respublikası bərpa olunan sərvətlərlə də (torpaq, su, meşə ehtiyatları) zəngindir. Bunlardan biri torpaq ehtiyatlarıdır.

Respublikanın torpaq fondu 8641,5 min ha-a bərabərdir. Adambaşına 0.65 ha kənd təsərrüfatına yararlı torpaq, 0.21 ha şum yeri düşür.

Hal-hazırda kənd təsərrüfatı məhsullarının istehsalında istifadə olunan torpaqlar respublika ərazisinin təqribən 1/3-dən artıq bir hissəsini təşkil edir. Məhz həmin torpaqlara da şəhər, nəqliyyat, tikinti, istirahət zonaları tərəfindən böyük tələbat mövcuddur. 1980-1990-cı illərdə 90 min ha-a qədər torpaq sahəsi sənaye obyektlərinin, avtomobil və dəmir yollarının tikintisi, qoruqların və digər qeyri-kənd təsərrüfatı obyektlərinin yaradılmasına ayrılmışdır.

Kənd təsərrüfatına yararlı sahələr ümumi torpaq fondunun yarısını təşkil etdiyi halda, şum və çoxillik bitgi əkinləri onun 42,9%-ə qədərini əhatə edir. Kənd təsərrüfatına yararlı sahələrin çox hissəsi (54,5%) otlaqlar, biçənəklər və digər təbii yem əkin

mövcuddur ki, bunlar da qara metallurgiya üçün mühüm xammal rolunu oynayır.

Azrəbaycanda digər yataqlar da kəşf edilmiş və sənaye cəhətdən istifadəyə hazırlanmışdır. Dünya təcrübəsində ilk dəfə olaraq Gəncə aliminium zavodunda alunitin kompleks emalı təşkil olunmuş və nəticədə aliminium oksidi, sulfat turşusu, kalium gübrələri və vanadium istehsal edilmişdir. Əfsus ki, zavodun slikatlı tullantılarından bir tikinti materialı kimi hələ istifadə edilmir.

Son 20-25 ildə aparılmış geoloji kəşfiyyat işləri nəticəsində Şəki-Zakatala zonasında zəngin polimetal filizi yatağı kəşf edilmişdir. Ancaq, bu yatağın sənaye cəhətdən istismarı bəzi ciddi məsələləri ortahğa çıxarır. Daha doğrusu, yataqların daha səmərəli şəkildə istismarı növlərinin seçilməsini, polimetal filizlərin emalının tullantısız və susuz emalı texnoloiyalarının işlənməsini, yataqların təsərrüfat cəhətdən istismarının ekoloji nəticələrinin öyrənilməsi vacibdir.

Nəzərə alsaq ki, polimetal filizi yatağı Zakatala qoruğunun yaxınlığında və əsasən aqrar-sənaye xüsusiyyətli rayonda yerləşir, deməli burada filizlərin çıxarılması və emalı üzrə müəssisələrin yerləşdirilməsi ətraf mühitin çirklənməsi üçün ciddi şərait yaradır.

Respublikada sənaye cəhətdən istismara hazırlanmış nadir kimya xammalı, daha doğrusu, yod-brom suları, daşduz, dolomitli əhəndaşı və digər xammal yataqları mövcuddur.

Məlum olduğu kimi, Azərbaycan zəngin daşduz yataqlarına malikdir ki, onların ən böyüyü Naxçıvandadır. Ancaq bu duzun kristal formadan lazımi şəklə salınması texnologiyası hələ də müasir tələblərə cavab vermir.

Naxçıvan duz yatağının yaxınlığında zəngin dolomit yataqlarının olması, onların az vəsait sərf etməklə kompleks halında emal nəticəsində çox lazımi kalsium sodcasının alınmasına imkan verir.

Ərazimiz təsdiq olunmuş ehtiyatı sutkada 18,8 min kub m-lik mineral sularla, kvarslı qum, müxtəlif növlü tikinti materialları (üzlük, daşları, kərpic-kirəmit gili, anhidrit, çınqıl-qum materialı), əhəndaşı, soda xammalı yataqları və s. ilə zəngindir.

Azərbaycan Respublikası zəngin hidroenerji ehtiyatına malikdir. Potensial hidroenerji ehtiyatları 37,1 mlrd. kvt-saat hesablanmışdır ki, onun da 16 mlrd. kvt-saatı texniki cəhətdən istehlaka yararlıdır. 7 mlrd. kvt-saat isə iqtisadi cəhətdən səmərəlidir. Lakin 7 mlrd. kvt.-saatın ancaq 21,4%-indən istifadə edilir. Göstərilən ehtiyat Gürcüstan Respublikadan 4,3 dəfə az, Ermənistan Respublikasından 2 dəfə çoxdur.

Araz çayının potensial hidroenerji ehtiyatı təqribən 7 mlrd. kvt-saata bərabər götürülür ki, onun da 3,5 mlrd kvt-saatı İranın payına düşür.

Yanacaq-energetika balansına günəş və hidrotermal enerji mənbələri də müəyyən təsir göstərə bilərlər. Ancaq həmin mənbələrdən istifadə baha başa gəldiyi və bunun üçün lazımi texniki materialların olmamasından hələlik mümkün deyildir. Lakin, bizə belə gəlir ki, gələcəkdə yanacaq-energetika balansının strukturunda ciddi dəyişikliklər baş verməlidir. Bu cür dəyişikliklərin əsas istiqamətləri hidroenerjinin xüsusi çəkisinin artmasından, bərpa olunan enerji mənbələrinin artırılmasından, təbii qazdan istifadənin genişləndirilməsindən və s. ibarət olmalıdır.

Azərbaycan Respublikası bərpa olunan sərvətlərlə də (torpaq, su, meşə ehtiyatları) zəngindir. Bunlardan biri torpaq ehtiyatlarıdır.

Respublikanın torpaq fondu 8641,5 min ha-a bərabərdir. Adambaşına 0.65 ha kənd təsərrüfatına yararlı torpaq, 0.21 ha şum yeri düşür.

Hal-hazırda kənd təsərrüfatı məhsullarının istehsalında istifadə olunan torpaqlar respublika ərazisinin təqribən 1/3-dən artıq bir hissəsini təşkil edir. Məhz həmin torpaqlara da şəhər, nəqliyyat, tikinti, istirahət zonaları tərəfindən böyük tələbat mövcuddur. 1980-1990-cı illərdə 90 min ha-a qədər torpaq sahəsi sənaye obyektlərinin, avtomobil və dəmir yollarının tikintisi, qoruqların və digər qeyri-kənd təsərrüfatı obyektlərinin yaradılmasına ayrılmışdır.

Kənd təsərrüfatına yararlı sahələr ümumi torpaq fondunun yarısını təşkil etdiyi halda, şum və çoxillik bitgi əkinləri onun 42,9%-ə qədərini əhatə edir. Kənd təsərrüfatına yararlı sahələrin çox hissəsi (54,5%) otlaqlar, biçənəklər və digər təbii yem əkin

sahələridir. Məlum olduğu kimi bitgiçilik məhsullarının 80%-dən çoxu suvarılan torpaqlardan götürülür ki, onların da ümumi sahəsi 1,7 mln. ha-a qədərdir. Bu torpaqların xüsusiyyəti oradakı bütün sahələrin aqromeliorasiya vəziyyətindən, su ilə təminatı cəhətdən və digər səbəblər üzündən suvarılması mümkün olmamasından ibarətdir. Suvarılan torpaqlar aşağıdakı xüsusiyytələri ilə seçilirlər:

-kənd təsərrüfatına yararlı suvarılan torpaqlar suvarılan torpaqların ümumi sahəsinin 30,9%-ni təşkil edir;

-onların da 70,1%-i şumun, 1,4%-i dincə qoyulmuş torpaqların, 18,7%-i çoxillik əkinlərin, otlaq biçənəklərin payına düşür.

Respublikanın torpaq fondu daima keyfiyyət və kəmiyyət dəyişikliklərinə məruz qalır. Hər il kənd təsərrüfatı dövriyyəsinə yeni suvarılma sahələri daxil edilir, bir qism otlaqların mənimsənilməsi, duzlaşmış sahələrin yuyulması, pozulmuş sahələrin rekultivasiyası və s. nəticəsində şumluq və çoxillik əkin sahəsi genişlənir. Eyni vaxtda meliorativ vəziyyətin pisləşməsi, müxtəlif təsərrüfat məqsədləri üçün ayrılması nəticəsində bir qism kənd təsərrüfatına yararlı torpaq sahələri əkin dövriyyəsindən çıxarılır.

Torpaqların və kənd təsərrüfatı bitgilərinin məhsuldarlığını aşağı salan mühüm təbii amillərdən biri də torpaq sahələrinin eroziya, duzlaşma proseslərinə məruz qalmasıdır.

Respublika ərazisinin 44%-i bu və ya digər dərəcədə su, külək, irriqasiya erroziyasına məruz qalır. 900 min ha-a qədər kənd təsərrüfatına yararlı torpaq sahəsi duzlaşmış, 530,5 min ha-ı kolluqlarla örtülmüş, 61,6 min ha-ı bataqlaşmışdır. Duzlaşmış şumluğun əksər hissəsi Muğan-Salyan, Mil-qarabağ və Şirvan düzlərinin payına düşür.

Kənd təsərrüfatına yararlı torpaqların 90,0 min ha-a qədəri dincə qoyulmuş sahələrdir. Belə sahələr ən çox Naxçıvan MR-da, Arazboyu, Qazax, Muğan-Salyan zonalarında yayılmışdır. Son 10-15 ildə dincə qoyulmuş sahələr 120 min ha-dək azalmışdır. Halbuki, onlar gələcəkdə şumlu sahələrin genişlənməsi üçün ehtiyat mənbəyi rolunu oynaya bilərlər.

Azərbaycan Respublikası məhdud su ehtiyatldarına malkidir. Zaqafqaziyanın su ehtiyatlarının təkcə 10%-i respublikanın payına düşür.

Hesablamalara əsasən Azərbaycanda çayların tranzit və öz xüsusi axınları orta sululuq ili üzrə 29,7 mlrd. kub.m. mülayim və güclü quraqlıq illərində isə 22,2 mlrd.kub. m-ə çatır. Özü də çay axınının 30%-i respublika daxilində formalaşır.

Azərbaycanda hər kv.km. əraziyə və adambaşına düşən su ehtiyatları MDB məkanı üzrə olan göstəricidən müvafiq olaraq 1,8 və 9,6 dəfə azdır. Özü də onlar ərazi üzrə və ilboyu qeyri-bərabər paylanmışdır. Ən aşağı səth və yeraltı axın Abşeron, Mil-qarabağ, Muğan-Salyan və Arazboyu zonalarındadır. Çayların əksəriyyətində axının 60%-dən çoxu yaz aylarına düşür. İrriqasiya üçün su tələbatının maksimum çatdığı yay aylarında isə axın illik miqdarın 10-15%-ni belə heç ödəmir.

Təbii, iqlim, relyef və geoloji şərait yeraltı suların formalaşmasına güclü təsir göstərir. Rəsmi məlumatlara əsasən içməli və az dərəcədə minerallaşmış yeraltı suların ehtiyatı 5,1 mlrd. kub. m-ə bərabərdir.

Mütəxəssislərin hesablamalarına görə yeraltı suların 25-30%-i çay və suvarma sistemləri, göl və su anbarlarından olan filtrasiya hesabına yaranır. Özü də müxtəlif təbii-iqtisadi rayonlarda mövcud çay, suvarma şəbəkəsi və digər obyektiv səbəblər üzündən çay və göl suları hesabına formalaşan yeraltı suların xüsusi çəkisi 5-40% miqyasında dəyişilir.

Beləliklə, Azərbaycanın səth və yeraltı axınlarından formalaşan orta illik su ehtiyatları 33,65 mlrd. kub. m. quraq illərdə isə 29,40 və 26.23 mlrd. kub. m.-ə bərabər olur.

Sənaye və kənd təsərrüfatının inkişafı ilə əlaqədar respublikanın su təsərrüfatı balansında gərginlik ilbəil artır. Belə ki, elmi cəhətdən əsaslandırılmış sudan istifadə norması 10.5 min kub.m/ha olduğu halda, bu rəqəm faktiki olaraq 8.7 min kub.m/ha bərabərdir.

Xalq təsərrüfatının su ilə təminatı və su təsərrufatı səmərəliliyinin səviyyəsinin yüksəldilməsi məqsədilə bir sıra kompleks su təsərrüfatı tədbirləri həyata keçirilməlidir. Bu

tədbirlərdən biri su anbarlarının tikintisi hesabına çay axınlarının tənzimlənməsinin həyata keçirilməsi yolu ilə su ehtiyatlarının təkrar istehsalının təmin olunmasıdır. Bundan əlavə kommunal və sənaye sularının emalı yolu ilə yenidən dövriyyəyə qaytarılması da həmin tədbirlərə misal ola bilər.

Məlum olduğu kimi, Azərbaycan az meşəli rayonlara aid edilir. Meşə fondunun torpaq sahəsi respublika ərazisinin 10.5%-ni təşkil edir. Adambaşına 0,14 ha meşə ilə örtülü sahə və 18.4 kub. m oduncaq ehtiyatı düşür.

Meşələr respublika ərazisi üzrə qeyri-bərabər paylanmışdır. Onların 85%-i dağlıq, güclü surətdə kəsilib parçalanmış zonada yerləşmişdir.

Meşələr birinci qrupa aid edilir. Onlar xalq təsərrüfatı əhəmiyyətinə görə əsasən suqoruyucu, sanitar-gigiyena, sağlamlıq funksiyalarım yerinə yetirirlər.

Respublika meşələri ağac növlərinin sayına görə rəngarəngdirlər. Burada əsasən bərkyarpaqlı (fıstıq, palıd, vələs), yumşaqyarpaqlı (ağyarpaqlı, söyüd, qılıağac, qovaq) iynəyarpaqlı ağac növləri yayılmışdır. Yaş həddinə görə üstünlük ortayaşlı ağac növlərinə (62,1%) məxsusdur. Oduncaq ehtiyatı 115,8 mln. kub. m-ə bərabərdir.

Respublikanın oduncaqla tam təmin olunmasası və bununla əlaqədar baş verən intensiv ağac doğranması meşə sahələrinin azalmasına və oduncaq ehtiyatının xeyli aşağı düşməsinə gətirib çıxarmışdır. Ona görə də yeni meşə sahələrinin salınmasına ciddi fikir verilməlidir.

Azərbaycan həmişə özünün rekresiya sərvətləri ilə seçilmişdir. Hal-hazırda respublikanın 25 rayonunda böyük potensial imkanlar malik 124 kurort yerləri ayrılmışdır. Ən çox kurort yerləri Şamaxı (32), Abşeron (21), rayonları və Naxçıvan MR-də (14) mövcuddur. Onlar və digər kurort yerləri nəfəs orqanları, ürək-damar sistemi, əsəb sistemi, qara ciyər və s. xəstəliklərin sağalması üçün unikal mənbə sayılırlar.

Azərbaycanda kurort-turizm təsərrüfatımn inkişafının mühüm ammili kimi mineral sular çıxış edirlər. Onların tərkibi insan orqanizmi üçün mühüm sayılan müxtəlif faydalı

elementlərlə zəngindir. Burada İstisu, Turşsu, Qalaaltı, Şirlan, Vayxur, Badamlı, Sirab, Slavyanka, Qoturlu, Suraxanı və s. kimi məşhur mineral su yataqları mövcuddur. Onlar faydalı xüsusiyyətlərinə görə heç də dünya şöhrətli mineral sulardan seçilmirlər.

Azərbaycanda mövcud olan kurort amillərindən biri də müalicəvi palçıq yataqlarıdır. Onlar əsasən Abşeron yarımadasında yerləşmişlər. Ən böyükləri Böyükşor, Masazır, Binəqədi yataqlarıdır. Azərbaycanda unikal sayılan müalicəvi Naftalan nefti yerləşir. Bu yatağın əsasında ~~kurort~~ fəaliyyət göstərir.

## Əhali və əmək ehtiyatları.

1999-cu il oktyabrın 12-də Azərbaycan Respublikasının əhalisi 8 mln. nəfər təşkil etmişdir.

**Son siyahıya almalar üzrə əhalinin sayı aşağıdakı kimi dəyişmişdir:**

| İllər | Min nəfər |
|---|---|
| 1959 | 3698 |
| 1970 | 5117 |
| 1979 | 6028 |
| 1989 | 7021 |
| 1999 | 7953 |

Azərbaycan Respublikasının əhalisinin ən yüksək artım göstəricisi 1960-cı illərdə, 3,4% olmuşdur. 1989-99-cu illərdə orta artım göstəricisi 1,3% olsa da, illik artım 2000-ci ildə 0,5%-ə düşmüşdür. Bazar iqtisadiyyatına keçid və Qarabağ müharibəsi dövrünün çətinlikləri daha az uşaqlı ailələrə meyli artırıb. Hər qadına düşən uşaqların sayı 1980-ci ildə 3,25 idisə, 1999-cu ildə azalaraq 1,8-ə düşüb. 1980-ci illərin sonunda respublikada bağlanan nigahların sayı hər il 80-90 min idisə, 90-cı illərdə yeni qurulan ailələrin sayı 38-40 minə düşmüşdür.

Əhalinin dinamikası cins və yaş strukturundan da asılıdır. Gənclərin sayı çox olarsa, ailə quranların sayı da çox olar. Son 20 ildə əhalinin yaş tərkibində xeyli dəyişikliklər baş vermişdir. Yaşlılarm (60 yaşdan yuxarı) və iş qabiliyyətli əhalinin (15-60 yaş) xüsusi çəkisi uşaqlara (0-15) nisbətən artır. Əgər yaşlılar 1980-ci ildə ümumi əhalinin 7.2%-ni təşkil edirdisə, 1999-cu ildə onların payı 9.0%-dək artıb. Bu rəqəmlər əhalinin yaşlanması prosesi barədə xəbər verir. Eyni zamanda əhalinin ailəqurma yaşında da dəyişikliklər baş verir. 80-ci illərdə orta ailəqurma yaşı kişilər üçün 29-30, qadınlar üçün 26-27 idisə, indi müvafiq olaraq 24-25 və 21-22 yaş təşkil edir. 1990-cı illə müqayisədə 18 yaşına çatmamış ərə gedən qızların sayı indi 25-30% artıb.

## Şəkil 1.
## Azərbaycan Respublikasında əhalinin cins və yaş tərkibi




Şəkil 1-dən göründüyü kimi son illər doğum səviyyəsi azalır. Bu göstərici 1991-ci ildə əhalinin hər 1000 nəfərinə 27 olduğu halda, 1999-cu ildə 14,8 olmuşdur və bu meyl həm şəhər, həm də kənd əhalisində müşahidə olunur.

**Şəkil 2. Azərbaycan Respublikasında doğum səviyyəsinin azalması, 1990-1999 (1000 nəfər adam başına).**




Mənbə: Dövlət Statistika Komitəsi, 2000.

Son illərdə Azərbaycanda ölüm səviyyəsi də dəyişkən olmuşdur. 1994-cü ildə əhalinin hər 1000 nəfərinə 7.4 ölüm hal düşüb ki, bu, ölüm göstəricisinin son onillikdəki ən yüksək səviyyəsidir. 1997-ci ildə bu rəqəm 6.2 olub. Ölüm səviyyəsi kənd yerlərində şəhərlərə nisbətən daha yüksək olub.

1999-cu il siyahıyaalmanın nəticələrinə görə Azərbaycan Respublikasında qadınların sayı kişilərin sayından 143 min nəfər çoxdur. Ümumiyyətlə, 1959-cu ildən bəri kişilərin və qadınların sayı aşağıdakı kimi dəyişmişdir:

| İllər | Min nəfər | | 1000 kişiyə düşən qadınların sayı | | |
|---|---|---|---|---|---|
| | Kişilər | qadınlar | bütün əhali | şəhərdə | kənddə |
| 1959 | 1757 | 1941 | 1105 | 1114 | 1097 |
| 1970 | 2483 | 2634 | 1061 | 1043 | 1079 |
| 1979 | 2939 | 3089 | 1051 | 1023 | 1084 |
| 1989 | 3424 | 3597 | 1051 | 1037 | 1066 |
| 1999 | 3905 | 4048 | 1037 | 1043 | 1030 |

Mənbə: Dövlət Statistika Komitəsi, 1999

Şəkil 1-dən göründüyü kimi əhalinin yaş strukturunda qadın və kişilər müxtəlif göstəricilərə malikdirlər:






**Azərbaycan Respublikasında əhalinin etnik tərkibi də müxtəlifdir. 1999-cu ilin siyahıyaalınmasına görə əhalinin 17,3%-i etnik azlıqlardan ibarətdir:**

| | Min nəfər | Ümumi saya nisbətən faiz |
|---|---|---|
| Ümumi əhâli | 7953 | 100 |
| Azərbaycanlılar | 7205 | 91.3 |
| Ruslar | 142 | 1.78 |
| Ermənilər | 121 | 1.5 |
| Ləzgilər | 178 | 2.2 |
| Avarlar | 51 | 0.6 |
| Ukraynalılar | 29 | 0.3 |
| Tatarlar | 30 | 0.1 |
| Yəhudilər | 9 | 0.5 |
| Türklər | 43 | 0.1 |
| Gürcülər | 15 | 0.1 |
| Kürdlər | 13 | 0.1 |
| Tatlar | 11 | 0.1 |
| Udinlər | 4,1 | 0.05 |

Mənbə: Azərbaycanın statistik göstəriciləri, 2001

Azərbaycanın, bir çox dövlətlər və qonşu ölkələrin strateci maraqlarının kəsişdiyi yerdə geosiyasi mövqeyi ölkənin etnik problemlərinin həlli üçün əlverişli deyil. Öz məqsədlərinə çatmaq üçün, bu ölkələr müxtəlif etnik azlıqlar arasında separatçı hissləri qızışdırmaqdan ötrü Azərbaycanın etnik tərkibindən istifadə etməyə çalışacaqlar. Qarabağ münaqişəsi də bu zəmində yaradılmışdır.

**Azərbaycan əhalisinin etnik qruplar üzrə strukturu (nəf).**

| Rayonlar | Ümumi | Azərbaycanlılar | Ruslar | Gürcülər | Avarlar | Ləzgilər | Saxurlar | Yəhudilər | Udinlər | Kürdlər |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Zaqatala | 91185 | 53162 | 910 | 2954 | 218363 | 503 | 11411 | 7 | 4 | 12 |
| Qax | 44373 | 34193 | 250 | 6653 | 10 | 1188 | 1699 | - | 1 | 1 |
| İsmayıllı | 61129 | 50476 | 3208 | 5 | 3 | 6691 | 1 | 15 | 1 | 2 |
| Quba | 114928 | 101348 | 836 | 7 | 4 | 7626 | 3 | 53 | - | 1 |
| Qusar | 67049 | 7726 | 401 | 53 | 39 | 58235 | - | 4 | - | - |
| Lənkəran | 118886 | 100596 | 688 | 17 | 4 | 29 | 1 | 5 | 1 | - |
| Masallı | 143300 | 142082 | 544 | 6 | 5 | 9 | - | - | - | - |
| Astara | 69709 | 66002 | 466 | 9 | 2 | 11 | 1 | 2 | - | - |
| Balakən | 68300 | 45347 | 281 | 630 | 20895 | 306 | 39 | 5 | 2 | 5 |
| Oğuz | 31815 | 23914 | 583 | 11 | 10 | 4378 | - | 158 | 393 | 25 |
| Şəki | 60771 | 56675 | 421 | 23 | 23 | 2790 | - | 3 | 28 | 2 |
| Qəbələ | 72862 | 53193 | 1393 | 5 | 9 | 12016 | 1 | 6 | 505 | - |
| Xaçmaz | 115870 | 85433 | 3024 | 47 | 29 | 21452 | 1 | 450 | 67 | 338 |

Mənbə: Azərbaycan İnsan İnkişafı Haqqında Hesabat 1997.

XX əsrin əvvəllərində Azərbaycan əhalisi əsasən dağətəyi ahədə və Abşeron yarımadasında daha çox məskunlaşmışdı. Bu da z növbəsində mərkəz və düzənlik sahələrin zəif ıənimsənilməsinə və az məskunlaşmasına gətirib çıxarmışdı. ,eçən əsrin ortalarında Kür-Araz ovalığında güclü suvarma anallarının çəkilməsi, kənd təsərrüfatı sahələrinin və yeni sənaye aqlarının yaradılması bu ərazidə əhalinin sıxlığının artmasına əbəb olmuşdur.

Bunlara baxmayaraq əhalinin məskunlaşması nöqteyi nəzərin-ən əlverişli imkanları olan bir çox aran rayonlarında əhalinin orta ıxlığı hər kvadrat km-də 35-36 nəfərə çatır. Orta dağlıq rayonlarda a əhalinin sıxlığı respublika göstəricilərindən aşağıdır. mumiyyətlə, respublika üçün hazırda düzənlik və dağətəyi sahədə ıəskunlaşma səciyyəvi haldır.

Əhalinin yüksəklik qurşaqları üzrə məskunlaşması aşağıdakı ədvəldə əks olunmuşdur:

| Yüksəklik urşaqları m-lə | Qurşaqların sahəsi | | Əhalinin payı, (%-lə) | Əhalinin sıxlığı |
|---|---|---|---|---|
| | km$^2$ | % | | |
| 500m | 42200 | 48.7 | 75.7 | 111.5 |
| 00-1000 | 21537 | 24.8 | 16.2 | 51.2 |
| 000-1500 | 10260 | 11.8 | 5.0 | 35.1 |
| 500-2000 | 3990 | 4.6 | 2.8 | 33.4 |
| 000-2500 | 2796 | 3.3 | 0.3 | 5.9 |
| 500-dən uxarı | 5865 | 6.8 | - | - |
| əmi: | 86648 | 100,0 | 100% | 92 |

2000 m-dən yüksəkdə yerləşən sahələrdə cəmi 20 yaşayış ıəntəqəsi vardır. Bu məntəqələrdə cəmi 9 min nəfərə qədər adam aşayır. Respublikamızda ən hündür yaşayış məntəqəsi olan ,əlbəcər rayonundakı Bağırsaq kəndi dəniz səviyyəsindən 2330 m üksəklikdə yerləşir.

1897-ci ildə mövcud sərhədlər daxilində əhalinin orta sıxlığı 1.7 nəfər, 1926-ci ildə 26,7 nəfər, 1939-cu ildə 36,9 nəfər, 1989-cu

ildə 81 nəfər təşkil etmişdir. 1999-cu ilin siyahıya alınmasına görə Azərbaycan Respublikasında əhalinin sıxlığı hər kv. km-ə 92 nəfər olmuşdur.

Respublikamız keçmiş SSRİ-də və dünyada uzunömürlülər ölkəsi kimi tanınır. Ölkəmizdə 100 və daha çox yaşı olan 2900 nəfərdən çox adam vardır. Təkcə Lerik rayonunda 200 nəfərdən çox adamın 100 və daha artıq yaşı var.

İstər təbii artımda, istərsə də əmək ehtiyatlarının artımında əhalinin hərəkətinin böyük əhəmiyyəti vardır. Əmək ehtiyatlarının əsas artım mənbəyi ölkə daxilindəki təbii artımdır. Əhalinin mexaniki artımına gəldikdə bu göstərici illər üzrə dəyişkəndir. 1970-ci ilə qədər Sovet Azərbaycanı müsbət miqrasiya saldosuna malik idisə, sonrakı illərdə mənfi balans mövcud olmuşdur. 1950-60-cı illərdə respublikadan 64.6 min nəfər köçmüş və buraya 124.1 min nəfər gəlmişdir. Beləliklə həmin dövrdə respublika 59.5 min nəfər müsbət miqrasiya saldosuna malik olmuşdur. 1970-80-ci illərdə respublikadan köçənlərin sayı buraya gələnlərin sayından 100 min nəfərdən çox olmuşdur. 1980-90-cı illərdə də respublika mənfi saldoya malik olmuşdur. Həmin dövrdə respublikadan ildə təbii artımın 13%-i qədər adam köçüb getmişdir.

Miqrasiyanı 3 tipə bölürlər: ölkə və ya regiona gələnlər; ölkə və ya regiondan gedənlər; ölkə və ya regiondan keçənlər (tranzitlə).

Miqrasiyanı doğuran amilləri (səbəb, stimul) isə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Əhalinin milli xüsusiyyətlərinə, adət-ənənələrinə görə;
2. Ekoloji amil; təbii fəlakət, (zəlzələ, sel və s.) radiasiya təhlükəsi və s.;
3. İqtisadi səbəblər;
4. Müharibə və siyasi səbəblər.

Azərbaycan Respublikası keçmiş SSRİ ölkələri arasında qaçqın böhranı ilə üzləşən birinci ölkədir. Ermənistandan azərbaycanlı qaçqınların axırıncı axını 1988-ci ildə başladı. 1989-cu ildə 52000 məhsəti türkləri Özbəkistandakı etnik münaqişə nəticəsində Azərbaycana gəldi.



BMT-in İnkişaf Prqramının (UNDP) mə'lumatlarına görə 000-ci ildə qaçqınların sayı 220241 nəfər olmuşdur. Onlardan üçdə kisi Bakı, Gəncə, Sumqayıt və Xanlarda yaşayır. Azərbaycanda əmçinin qaçqınlarla eyni statusda olan immiqrantlar da yaşayır.

Bunlar Qazağıstandan təxminən 1600, Rusiya Federasiya-ından 6000, İrandan 3000, Əfqanistandan, İraq və Afrika lkələrindən 334 immiqrantı əhatə edir.

Azərbaycan öz müstəqilliyini yenidən əldə etdikdən sonrakı lk illərdə siyasi və etnik səbəblərdən mühacirət dalğası başlandı və unun ardınca əsaslı iqtisadi emiqrasiya başladı. BMT-nin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə istinadən yaydığı məlumata görə 1991-97-ci illər arasında Azərbaycandan qanuni yolla 272,1 min insan emiqrasiya etmişdir. Etnik mənsubiyyətlərinə görə bu emiqrantlara 112,7 min rus, 65,5 min azərbaycanlı, 35,6 min erməni, 11,1 min yəhudi və 9,8 min ukraynalı daxildir.

Azərbaycandan olan emiqrantlar əsasən Rusiya Federasiyası, Ukrayna, Türkiyə, Almaniya, Polşa, İsrail və Hollandiyada məskunlaşmışdır.

Qanuni miqrasiyadan başqa son onillik ərzində qeyri-qanuni miqrasiya axını da olmuşdur. Tranzit miqrasiyasının çoxu qeyri-qanuni səciyyə daşıyır. Azərbaycanın mühüm nəqliyyat yollarının üstündə olması (şimal-cənub, şərq-qərb) bu miqrasiya növünün gələcəkdə genişlənməsinə şərait yaradır.

Keçən on il ərzində baş verən miqrasiya prosesləri demoqrafik vəziyyətə də təsir etmişdir. Reproduktiv yaşda kişilərin (20-40) ölkədən getməsi aşağı düşən doğum və nigah səviyyəsinə şərait yaratmış və əhalinin artım templərinin aşağı düşməsinə səbəb olmuşdur. Kənd yaşayış məntəqələrindən şəhərlərə olan daxili miqrasiya axınına baxmayaraq, şəhər əhalisinin payı son illər aşağı düşmüşdür. Bunun səbəblərindən biri də yəqin ki, şəhər əhalisinin daha çox emiqrasiya etməsidir.

Daxili miqrasiyaya gəldikdə isə son 20-25 ildə əhalinin iri şəhərlərə axını hiss olunur. Axın əsasən Abşeron yarımadası (miqrasiya saldosu müsbət 10-12 min nəfər təşkil edir), o cümlədən Bakı (+7-8 min nəfər), Sumqayıt və Gəncə (+2-3 min nəfər),

Mingəçevir (+2-4 min nəfər) istiqamətində olmuşdur. Müqayisə üçün qeyd edək ki, keçən əsrin 20-ci illərində Bakıya ildə 20-25 min nəfər köçüb gəlirdi.

Son onillik ərzində Azərbaycanda həm məcburi, həm də iqtisadi amildən asılı olan miqrasiya geniş vüsət alıb. Silahlı münaqişə və təbii fəlakətlər (dənizin səviyyəsinin qalxması, zəlzələ, sürüşmə və s.) minlərlə insanı öz evlərindən çıxarıb küçələrə atdı.

Dağlıq Qarabağ münaqişəsi nəticəsində yaranmış məcburi köçkünlərin sayı 570 minə yaxındır (BMT İP, 2001). Onların təxminən yarısı (54,0%) şəhərlərdə xüsusilə Bakı və Sumqayıtda yaşayır.

Ekoloji fəlakətlər də son illər çoxlu insaları köçməyə məcbur etmişdir. BMT-nin İnkişaf Proqramının məlumatlarına görə Xəzər dənizinin səviyyəsinin qalxması nəticəsində 3 min adam, torpaq sürüşməsi nəticəsində 1500 adam məcburi köçkünə çevrilmişdir.

Urbanizasiya prosesi miqrasiyanın tərkib hissəsidir. XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda neft sənayesinin inkişaf etməsi nəticəsində şəhər əhalisinin, ilk növbədə isə Bakı əhalisinin artması buranı Rusiyanın ən çox şəhərləşmiş regionlarından birinə çevirdi. 1913-cü ildə Rusiyada şəhər əhalisi 18% təşkil etdiyi halda, Azərbaycanda bu rəqəm 24%-ə çatmışdı.

1920-30-cu illərdə Azərbaycanda urbanizasiya prosesi daha da gücləndi. Şəhər əhalisinin sayı 1,78 dəfə artdı.

Şəhər əhalisinin artımının əsas mənbəyi - kəndlilərin şəhərə köçməsi, şəhər əhalisinin təbii artımı və kəndlərin şəhər tipli qəsəbələrə çevrilməsidir. Urbanizasiya üçün həlledici rolu kənd əhalisinin şəhərlərə axını oynayır. 1950-ci illərin sonuna qədər bu meyllər güclü olmuşdur. Sonralar urbanizasiya prosesi zəifləmişdir.

Son illər şəhər əhalisinin təbii artımı kənddəkindən 1,5 dəfə aşağı olmuşdur. Bu, urbanizasiya prosesinin nəticəsi kimi şəhərlərdə azuşaqlı ailələrə meyllə izah olunur.

Ayrı - ayrı tarixi dövrlərdə bu və ya digər yaşayış məntəqəsinin şəhər adlandırılması müxtəlif göstəricilərlə əlaqədar olmuşdur. 1957-ci ildə qəbul olunmuş qanuna görə Azərbaycanda əhalisi 5 min



əfərdən çox olan və sakinlərinin 85%-ni fəhlə və qulluqçular təşkil dən (qeyri-kənd təsərrüfatında çalışan) yaşayış məntəqələri şəhər dlana bilər. Şəhər tipli qəsəbələr üçün əhalinin sayı 3 mindən çox lmalıdır.

1913-cü ildə Azərbaycanda şəhər əhalisi 566 min nəfər olub, mumi əhalinin 24%-ni təşkil edirdi. 1970-ci ildə şəhər əhalisinin ayı 2,5 mln., 1979-cu ildə 3,2 mln. nəfərə çatmışdır. Hazırda spublika əhalisinin 52%-i şəhərlərdə, 48%-i kəndlərdə yaşayır Şəkil 2)

1913-cü ildə respublika ərazisində 15 şəhər var idi. 1999-cu in əvvəlində 69 şəhər olmuşdur. Şəhər tipli qəsəbələr 20-ci lərdən yaradılmağa başlamış və hazırda onların sayı 120-dir. Şəhər pli qəsəbələrin böyük əhəmiyyəti vardır. Onlar yeni yaradılan əhərlərin əsasını təşkil edir.

*Şəkil 2. Kənd əhalisinin ümumi əhaliyə olan nisbətinin dinamikası*




Mənbə: Azərbaycan DSK, 1999

Respublikada şəhər əhalisinin artımı aşağıdakı rəqəmlərlə xarakterizə olunur:

| İllər | Ümumi əhali min nəfərlə | O cümlədən | | Ümumi əhaliyə görə, %-lə | | Orta |
|---|---|---|---|---|---|---|
| | | şəhər | kənd | şəhər | kənd | sıxlıq |
| 1913 | 2339 | 556 | 1783 | 24 | 76 | 27 |
| 1926 | 2314 | 650 | 1664 | 28 | 72 | 26.7 |
| 1940 | 3274 | 1212 | 2062 | 37 | 63 | 38 |
| 1959 | 3698 | 1767 | 1931 | 48 | 52 | 42 |
| 1979 | 6028 | 3200 | 2828 | 53 | 47 | 70 |
| 1989 | 7021 | 3806 | 3215 | 54 | 46 | 81 |
| 1999 | 7953 | 4119 | 3834 | 52 | 48 | 92 |

Mənbə: Azərbaycan respublikası DSK, 1999

1999-cu ilin siyahıya alınmasının nəticələrinə görə 69 şəhərdən 9-da əhalinin sayı 50 min nəfərdən çox, o cümlədən 3



əhərin əhalisinin sayı 100 min nəfərdən çoxdur.

Sakinlərin sayı 50 min nəfər və artıq olan şəhərlərin əhalisinin ayı belə dəyişmişdir.(min nəfər)

| Şəhərlər | Əhalinin sayı | | 1989-cu ildəkinə nisbətən 1999-cu ildə, %-lə |
|---|---|---|---|
| | 1999-cu il | 1989-cu il | |
| Bakı* | 1789 | 1795 | 99.7 |
| Gəncə | 297 | 280 | 106 |
| Sumqayıt | 255 | 231 | 110 |
| Mingəçevir | 94 | 82 | 115 |
| Naxçıvan | 63 | 59 | 107 |
| Əli-Bayramlı | 70 | 58 | 121 |
| Xankəndi | 55 | 58 | 95 |
| Şəki | 69 | 56 | 123 |
| Lənkəran | 52 | 45 | 114 |

*Müvəqqəti məskunlaşmış məcburi köçkünlər və müvəqqəti yaşayanlarla birlikdə Bakı şəhərinin əhalisi 1976 min nəfərdir.

Ayrı-ayrı iqtisadi rayonlar üzrə şəhərlərin və şəhər əhalisinin yerləşməsi qeyri-bərabərdir. Respublika ərazisinin cəmi 7%-ni təşkil edən Abşeron iqtisadi rayonunda respublikanın ümumi şəhər əhalisinin 54%-dən artığı cəmlənmişdir.

Şəhərləri ərazi əmək bölgüsündə iştirakına, təsərrüfat sahələrinin inkişafına, məşğulluğun strukturuna və s. görə aşağıdakı funksional tiplərə bölürlər: çoxfunksiyalı şəhərlər (Bakı, Naxçıvan, Gəncə, Xankəndi); sənaye şəhərləri (Sumqayıt, Əli-Bayramlı, Mingəçevir və s.); nəqliyyat və nəqliyyat-sənaye şəhərləri (Yevlax, Ağstafa və s.); inzibati rayon və yerli təsərrüfat mərkəzləri (Qusar, Oğuz və s.); kurort şəhərləri (Naftalan, Nabran və s.).

Təsərrüfatın istiqamətindən asılı olaraq kənd yaşayış məntəqələrinin böyüklüyü müxtəlifdir. Ümumiyyətlə, respublikada əhalinin sayı 100 nəfərdən 500 nəfərə qədər olan kənd yaşayış məntəqələri üstünlük təşkil edir. Statistik məlumatlara nəzər salsaq görərik ki, Azərbaycanda şəhər əhalisinə nisbətən kənd əhalisinin

artmaqda davam edir.

Əhalinin ümumi sayı, onun yaş və ixtisas tərkibi əmək ehtiyatlarının həcmini və tərkibini müəyyən edir. Əmək ehtiyatlarına 16 yaşından 63 yaşına kimi kişilər, 16-57 yaşında olan qadınlar, işləyən təqaüdçülər (yaşı 62-dən yuxarı kişilər və 57-dən yuxarı olan qadınlar), 16 yaşına qədər işləyən uşaq və yeniyetmələr daxildir.

Aşağıdakı cədvəl Azərbaycan Respublikasında əhalinin əmək strukturunu (əmək bazarı) nümayiş etdirir (min nəfər):

| İllər | 1993 | 1995 | 1997 | 1999 |
|---|---|---|---|---|
| Əhali | 7550 | 7726 | 7877 | 7953 |
| Əmək qabiliyyətli əhali | 4071 | 4179 | 4260 | 4300 |
| Ümumi məşğulluq | 3715 | 3613 | 3694 | 3702 |
| İşsizlik | 396 | 479 | 538 | 598 |
| İşsizlik əmsalı, %-lə | 10 | 12 | 13 | 13 |
| Qeydiyyatdan keçmiş işsizlər | 19.5 | 28.3 | 38.3 | 42.3 |
| Müavinat alanlar | 5 | 3 | 3 | 3 |
| Məşğulluğun əmək qabiliyyətli əhaliyə nisbəti | 0.91 | 0.86 | 0.87 | 0.86 |
| Təqaüdçülər | 1251 | 1227 | 1206 | 1173 |

Mənbə: BMT-nin İnkişaf Proqramı, 2001.

İqtisadiyyatın sahələri üzrə işçilərin paylanmasına gəldikdə isə mə'lum olur ki, əmək ehtiyatlarının 31% kənd təsərrüfatında çalışırlar. Son iki ildə sənayedə çalışan işçilərin sayı azacıq artsa da,bu insan inkişafının artması üçün tələb olunan səviyyədə deyil. Elmlə məşğul olanların sayı azalmaqda davam edir.

Özəl sektor Azərbaycanda işlə təmin olunmaq sahəsində vacib rol oynayır. 1990-cı ildə işləyən əhalinin 71%-i dövlət sektorunda çalışırdısa, 1999-cu ildə bu rəqəm 36%-ə enmişdir.

İşləyən əhalinin təsərrüfat sahələri üzrə paylanması aşağıdakı cədvəldə verilir (faizlə):



| | 1990 | 1992 | 1994 | 1996 | 1998 |
|---|---|---|---|---|---|
| şçilərin ümumi sayı (%) | 100 | 100 | 100 | 100 | 100 |
| ənaye | 12.7 | 11.5 | 10.3 | 7.7 | 6.8 |
| ənd təsərrüfatı və meşçilik | 30.9 | 34.7 | 31.5 | 31.8 | 30.8 |
| əqliyyat və rabitə | 5.8 | 5.3 | 5.2 | 4.6 | 4.5 |
| icarət, ictimai iaişə və əchizat | 9.9 | 10.4 | 12.8 | 15.8 | 18.9 |
| ələdiyyə iqtisadiyyatı ə istehlak xidmətləri | 3.4 | 2.7 | 3.2 | 3.0 | 4.3 |
| ağlamlıq, bədən tərbiəsi və sosial müdafiə | 4.6 | 4.5 | 4.8 | 4.9 | 4.9 |
| əhsil, mədəniyyət və ıcəsənət | 9.1 | 9.3 | 10.8 | 10.2 | 10.2 |
| lm və elmi xidmət | 1.5 | 1.1 | 1.0 | 0.9 | 0.8 |
| redit və dövlət sığortası | 0.3 | 0.3 | 0.4 | 0.4 | 0.3 |
| övlət və özəl idarə oranları | 1.4 | 1.3 | 1.4 | 1.9 | 1.8 |
| aşqa sektorlar | 13.6 | 12.8 | 13.3 | 14.4 | 12.5 |

Mənbə: BMT-nin İnkişaf Proqramı, 2001

1997-çi ildə BMT-nin İnkişaf Proqramı İnsan İnkişafı aqqında Hesabatda insan yoxsulluğu konsepsiyasını təqdim tmişdir. Yoxsulluq təkcə gəlir azlığını əhatə etmir. İnsanların üəyyən yaş həddinə çatmaması (inkişaf etmiş ölkələr üçün 60, ıkişaf etməkdə olan ölkələr üçün 40), savadsızlıq, keyfiyyətli su ilə əchizat və yaxşı tibbi xidmətlə təminat məhrumiyyətləri də oxsulluq indeksini formalaşdıran amillərdəndir. Bura həm də 5 aşınadək uşaqlarda çəki azlığı göstəricisi də daxildir.

*Azərbaycan Respublikasında İnsan yoxsulluğunun göstəriciləri*

| Parametrlər | |
|---|---|
| 60 yaşına çatmayan əhalinin faizi | 21,7 |
| Savadsız yaşlıların ümumi əhali arasında faizi | 16,8 |
| Gəlirləri yoxsulluq həddindən aşağı olan əhalinin faizi | 68,1 |
| Uzunmüddətli işsizliyin göstəricisi | 4,2 |
| İnsan Yoxsulluğu İndeksi | 43,57 |

Mənbə: İnsan İnkişafı Göstəricisi, Dünya Bankı - 2000, BMTİP-2000

• İnsan yoxsulluğu ölkənin inkişafı üçün ciddi maneədir. Dünya Bankının araşdırmalarına əsasən, 1990-1995-ci illərdə baş vermiş iqtisadi tənəzzül nəticəsində əhalinin təxminən 70%-i yoxsulluq həddinə enmişdir. Tənəzzül o dərəcədə ciddi olmuşdu ki, 1996-cı ildən sonrakı sürətli artım və xarici investisiyaların artan axınına baxmayaraq, Azərbaycan hələ də adambaşına düşən Ümumi Daxili Məhsulun həcminə görə MDB ölkələri içərisində 10-cu yeri tutur.

Yoxsulluğun başqa göstəricisi ailə xərclərinin tərkibində baş vermiş dəyişikliklərdir. BMT-nin İnkişaf Proqramının məlumatlarına görə, 1990-1999-cu illər ərzində ərzağa xərclənən vəsaitin nisbəti artıb. Bu isə həyat standartlarının enməsinə açıq işarədir. Qidalanmaya sərf olunan xərclər 53 faizdən (1990), 72 faizə qədər yüksəlmişdir.

Hazırda Azərbaycan Respublikasının Nazirlər Kabineti Yoxsulluqla mübarizə üçün Proqram hazırlayır. Bu Proqram beynəlxalq təşkilatların köməkliyi ilə həyata keçiriləcəkdir. Məsələn, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Federasiya, dəyəri 10 milyon ABŞ dolları olan "Dağ və dağətəyi ərazilərin inkişafı proqramını həyata keçirir və bu da həmin yerlərdə məşğulluğun artmasına yönəldilmişdir. Eyni zamanda bu yerlərdə infrastrukturun yaxşılaşdırılması nəticəsində həyat keyfiyyətinin yaxşılaşması da gözlənilir.



Azərb. təsərrüfatı E-17 saylı

## AZƏRBAYCANIN SƏNAYE SAHƏLƏRİNİN COĞRAFİYASI

Sənaye Azərbaycan təsərrüfatının əsas sahələrindən biridir. ...nun inkişafını müəyyən edən təbii ehtiyatlar, ixtisaslı kadrlar, ...mək ehtiyatları, onların əmək vərdişləri və istehlakçı potensialı ...lkədə kifayət qədərdir.

Sovet hakimiyyəti illərində respublikamızın xalq təsərrü...atının bütün sahələrinin inkişafında müəyyən uğurlar qazanıl...ışdır. 1989-cu ilədək Respublikanın iqtisadiyyatı hər il sabit ...nkişaf edərək, müxtəlif illərdə 2%-dən 15%-dək artıma malik ...lmuşdur.

SSRİ xalq təsərrüfatı kompleksinin ən qədim və əhəmiyyətli ...əlqələrindən biri kimi tanınan Azərbaycan sənayesinin struk...urunda həmin dövrdə və sonra müəyyən mütərəqqi dəyişikliklər ...aş vermişdir (cədvəl 1).

**Cədvəl 1.**

**Azərbaycanda 1913-2000-ci illərdə sənayenin strukturunun dəyişməsi (müvafiq illərin qiymətləri ilə ümumi məhsulun dəyərinə görə, %-lə)**

| Sahələr | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 1913 | 1940 | 1960 | 1980 | 1990 | 2000 |
| ...ənaye – cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| ...cümlədən: | | | | | | |
| ...lektroenergetika | 0,92 | 4,09 | 3,8 | 3,4 | 4,1 | 17,4 |
| ...acaq sənayesi | 79,6 | 48,1 | 38,1 | 14,6 | 11,7 | 51,8 |
| ...imya və-neft-kimya | 0,15 | 1,04 | 2,9 | 7,5 | 6,0 | 3,5 |
| ...aşınqayırma | 3,0 | 14,94 | 9,0 | 13,5 | 18,0 | 2,4 |
| ...etallurgiya | - | - | 3,6 | 3,6 | 5,6 | 0,4 |
| ...ikinti materialları ...ənayesi | 0,24 | 1,07 | 3,4 | 3,0 | 3,1 | 0,9 |
| ...üngül sənaye | 5,5 | 12,63 | 21,2 | 23,4 | 19,6 | 1,9 |
| ...eyinti sənayesi | 6,79 | 14,24 | 17,4 | 25,6 | 25,6 | 18,0 |
| ...igər sənaye sahələri | 1,07 | 3,53 | 7,6 | 7,4 | 6,3 | 3,7 |

... bir sıra yeni sənaye və istehsal sahələrinin yaradılması, mövcud sənaye sahələrinin yenidən qurulması və inkişafı nəticəsində ciddi surətdə dəyişmişdir.

Sovet hakimiyyəti illərində sənayenin yanacaq-energetika, neft-kimya, kimya, maşınqayırma və metal e'malı, yüngül və yeyinti sənayesi kimi sahələri daha üstün inkişaf etmişdir. Ölkənin iqtisadiyyatı özünün ən yüksək zirvəsinə 1985-1989-cu illərdə çatmışdır.

Birbaşa Azərbaycan hökumətinin tabeçiliyində olan iqtisadiyyatın xüsusi çəkisi cəmi 8% təşkil edirdi, qalan hissə isə ittifaq tabeçiliyində olmaqla, Moskva tərəfindən idarə olunurdu. Sənaye məhsulunun ümumi istehsalının 85%-dən çoxu respublikadan kənara – SSRİ-nin digər regionlarına və xaricə daşınırdı.

XX əsrin əvvəllərində Azərbaycan sənayesinin tərkibində Bakıda və onun ətrafında cəmlənmiş neft hasilatı və e'malı üstün olub ümumi sənaye məhsulunun təqribən 80%-ni verirdi. 1970-ci ildə 1913-cü ilə nisbətən sənayenin strukturunda yanacaq sənayesinin payı 79,6%-dən 20,5%-ə, 1985-ci ildə isə 11,3%-ə enmiş, 2000-ci ildə isə 51,8%-ə qalxmışdır.

SSRİ dövründə respublikada sənayenin yeni sahələrinin yaradılması və inkişaf etdirilməsi üzrə müəyyən irəliləmələrə nail olunmuşdur. Belə ki, respublika üçün tamamilə yeni olan və 1985-ci ildə sənayenin strukturunda payı 4%-ə çatan qara və əlvan metallurgiya sənayesi yaradılmışdır. 1985-ci ildə sənayenin strukturunda (1913-cü ildə hər birinin payı bir faizə çatmayan) elektroenergetika 3,4%, tikinti materialları istehsalı 3,2%, kimya və neft-kimyası isə 7% təşkil etmişdir.

20-ci əsrin 30-cu illərindən başlayaraq yüngül və yeyinti sənayesi nisbətən sürətlə inkişaf etdirilməyə başlamışdır. Kənd təsərrüfatının verdiyi keyfiyyətli xammal istehsalı artmış, iri yüngül sənaye, ət, süd, üzüm, çay e'malı və konserv sənayesi obyektləri yaradılmışdır. Nəticədə ümumi sənaye məhsulunda yüngül və yeyinti sənayesinin payı 1913-cü ildə müvafiq olaraq 5,5 və 6,8% olduğu halda, 1985-ci ildə 20,7 və 28,9%-ə çatmışdır.



XX əsrin 20-90-cı illərində respublikanın sənayesinin ruktūru kimi, yerləşdirilməsində də, müəyyən uyğunsuzluqlara xmayaraq, bir sıra mütərəqqi irəliləmələr baş vermişdir. 1985-ci dən başlayaraq sənayenin Bakı şəhərində və onun ətrafında rtərəfli surətdə cəmləşməsinin qarşısını almaq üçün tədbirlər əyata keçirilməyə başlanılmış və respublikanın mərkəzi və qərb yonlarında sənayenin inkişafına diqqət artırılmışdır. Bunun da yəsində sənayenin yerləşdirilməsində tarixən əmələ gəlmiş ğunsuzluq xeyli zəifləmiş, sənaye istehsalında Bakının xüsusi kisi azalmış və 47,5%-ə enmişdir.

Lakin hazırda ölkə ərazisində məhsuldar qüvvələrin rləşdirilməsi və inkişafı istehsalın səmərəli təşkilinin və yerli bii-iqtisadi imkanların səmərəli istifadəsinin prinsiplərinə cavab rmir.

SSRİ-nin dağılması nəticəsində respublikalararası, sahələrarası istehsallararası və digər ittifaq daxili formalaşmış ən'ənəvi aqələrin pozulması ölkədə sosial-iqtisadi vəziyyətə mənfi tə'sir östərmiş və sənaye istehsalının aşağı düşməsi prosesi başlanmışdır. unun da nəticəsində sənayenin strukturunda ciddi dəyişikliklər baş rmişdir. Belə ki, elektroenergetikanın payı 1990-cı ildə 4,1%-dən, 00-ci ildə 17,4%-dək, yanacaq sənayesininki müvafiq olaraq ,7%-dən 51,8%-dək artmış, kimya və neft-kimya sənayesinin %-dən 3,5%-dək, maşınqayırma və metal emalınınkı 18%-dən 4%-dək, yüngül sənayeninki 19,6%-dən 1,9%-dək, tikinti aterialları sənayesininki 3,1%-dən 0,9%-dək, yeyinti sənayesininki ,6%-dən 18%-dək, digər sənaye sahələrininki isə 6,3%-dən 3,7%-ək azalmışdır (bax cədv. 1-ə).

## Yanacaq-energetika kompleksi

Yanacaq-energetika kompleksi ən'ənəvi olaraq Azərbaycan espublikası iqtisadiyyatının üstün sahəsi olmuş və struktur əyişikliklərinin, bazar iqtisadiyyatına keçidin müasir mərhələsində nun əhəmiyyəti daha da artmışdır. SSRİ-nin mövcudluğu dövründə zərbaycanın yanacaq-energetika kompleksinin inkişaf problemləri

mərkəzləşdirilmiş qaydada və çox vaxt bilavasitə yerli maraqlar nəzərə alınmadan həll edilirdi. Bununla belə neft hasilatı ekstensiv metodlarla həyata keçirilirdi. Bu da yataqların vaxtından qabaq tükənməsinə, məhsuldar qatların dağılmasına və su ilə dolmasına gətirib çıxarırdı.

Hasilat zamanı ekoloji normalara riayət olunmaması isə ətraf mühitin çirklənməsinə şərait yaradırdı. Elektrik enerjisi istehsalı sahəsində isə çoxlu təbii qaz və mazut istehlak edən iri istilik elektrik stansiyalarının tikintisinə üstünlük verilirdi. Ölkənin yaşayış məntəqələrinin mühüm hissəsi mərkəzləşdirilmiş qaydada qazla tə'min olunmadığı halda, təbii qaz qonşu Zaqafqaziya və Şimali Qafqaz respublikalarına ixrac olunurdu. Hasilatın həcminin azalması, habelə yüksək keyfiyyətli neftin ölkə hüdudlarından kənara daşınması şəraitində fəaliyyət göstərən neft e'malı müəssisələrinin istehsal gücünün tə'min edilməsinə Şimali Qafqaz və Qazaxıstandan yüksək kükürdlü neftin idxalı hesabına nail olunurdu. Bu şəraitdə Azərbaycanın neft e'malı, neft-kimya və energetika komplekslərinin ilkin yanacaq-energetika resurslarının SSRİ-nin digər regionlarından (Şimali Qafqaz, Qazaxıstan, Türkmənistan) və İrandan idxalına əsaslanırdı. Müstəqillik əldə edildikdən sonra bu amil istehsala mənfi tə'sir göstərdi və ölkədə yaranmış sosial-iqtisadi böhranın dərinləşməsinə şərait yaratdı.

***Neft-qaz sənayesi.*** Azərbaycan dünyanın neft çıxarılan ən qədim regionlarından biridir. Neft sahəsi nəinki iqtisadiyyatın strukturunu formalaşdırmış, həm də bütövlükdə ölkənin xalq təsərrüfatının inkişafının bütün mərhələlərində həlledici rol oynamışdır və indi də həlledici rol oynamaqda davam edir. Hal-hazırda bu sahə nəhəng sənaye və maliyyə kompleksinə çevrilmişdir. 2000-ci ildə ölkənin ümumi sənaye məhsulunun 51,8%-ni yanacaq (neft-qaz) sənayesi təşkil etmişdir. Onun inkişafı qara metallurgiya, maşınqayırma, neft-kimya, kimya, sement istehsalı və s. sənaye sahələrinin formalaşmasına səbəb olmuşdur. Məhsuldar qüvvələrin, öncə sənayenin enerji mənbələrinə yaxınlaşdırılması prinsipinə müvafiq olaraq ölkəmizdə bilavasitə neft, qaz hasilatı, e'malı və bununla əlaqədar olan neft-qaz-kimya-enerji istehsal tsikli, bir sıra yardımçı və xidmətedici sənaye sahələri



yaradılmışdır. Azərbaycan təkcə keçmiş SSRİ-də deyil, bütün dünyada ən qədim və intensiv neft rayonu kimi tanınmışdır. Uzun müddət Azərbaycan çar Rusiyasının və keçmiş SSRİ-nin əsas neft rayonu olub, çıxarılan neftin çox hissəsini vermişdir. Məsələn, 1900-cü ildə Bakı neft hasilatına görə dünyada birinci yerə çıxaraq dünya neft hasilatının yarıya qədərini, çar Rusiyasında isə 90,7%-ni verirdi. Keçmiş SSRİ üzrə neft hasilatının 1940-cı ildə 71,5%-i, 1945-ci ildə 58,3%-i, 1950-ci ildə 39,1%-i, 1956-cı ildə 21,6%-i Azərbaycanın payına düşürdü.

Azərbaycanın neft hasilatı özünün yığcamlılığı ilə seçilir. Belə ki, bu neft yataqları nisbətən kiçik ərazidə, demək olar ki, bir-birinə bitişik halda yerləşirlər. Neft hasilatının 120 ildən artıq tarixi ərzində 68 neft və qaz yatağı (o cümlədən quruda 42 və Xəzərin Azərbaycan sektorunda 26 yataq) aşkar edilmişdir. 61 yataq, o cümlədən quruda 40 və dənizdə 21 yataq sənaye istismarına verilmişdir. Hazırda quruda 37, dənizdə 16 yataq istismar olunur. Onlar aşağıdakı neft-qaz rayonlarına bölünür: Abşeron, Bakı arxipelaqı, Aşağı Kür, Şimali Qobustan, Xəzər sahili-Quba, Yevlax-Ağcabədi, Kür-Qabırrı. Cənubi Xəzər perspektiv yatağı böyük potensiala malikdir. Orada mühüm axtarış-kəşfiyyat işləri həyata keçirilir. Neft-qaz axtarışı üçün maraq kəsb edən ərazinin ümumi sahəsi 100 min kv.km-dən artıqdır ki, bunun da 35 min kv.km-i Xəzərin Azərbaycan sektorunun payına düşür.

Azərbaycanda neftin sənaye üsulu ilə çıxarılması dövrü XIX əsrin axırlarına təsadüf edir. Həmin dövrdən bəri, yə'ni 120 ildən artıq olan müddətdə Azərbaycanda 1 mlrd. 400 mln.tondan çox neft çıxarılmışdır. Hal-hazırda neft ehtiyatının 2/5-si, qaz ehtiyatının isə 1/5-i (dənizdə 1/10-i) çıxarılıb. Bu ehtiyatlar əsasən Kaynozoy erasının çökmə suxurlarma aiddir. Lakin Muradxanlı, Qazanbulaq, Tərtər, Borsunlu, Tərsdəllər, Ceyrançöl, Acınohur, Ağcabədi və s. yataqlar Mezazoy erasının vulkanik mənşəli suxurlarında yerləşir. Neft ehtiyatının 70%-i, qaz ehtiyatının isə 90%-i 3000 m-dən dərində müəyyən edilmişdir.

Azərbaycanda neft və qaz hasilatı Abşeron (Xəzər dənizi də daxil olmaqla), Kürboyu, Siyəzən-Quba, Gəncə rayonunda aparılır. Əvvəllər, 1870-1910-cu illərdə Balaxanı, Sabunçu, Ramana (1869),

mərkəzləşdirilmiş qaydada və çox vaxt bilavasitə yerli maraqla nəzərə alınmadan həll edilirdi. Bununla belə neft hasilatı ekstensiv metodlarla həyata keçirilirdi. Bu da yataqların vaxtından qabaq tükənməsinə, məhsuldar qatların dağılmasına və su ilə dolmasına gətirib çıxarırdı.

Hasilat zamanı ekoloji normalara riayət olunmaması isə ətraf mühitin çirklənməsinə şərait yaradırdı. Elektrik enerjisi istehsalı sahəsində isə çoxlu təbii qaz və mazut istehlak edən iri istilik elektrik stansiyalarının tikintisinə üstünlük verilirdi. Ölkənin yaşayış məntəqələrinin mühüm hissəsi mərkəzləşdirilmiş qaydada qazla tə'min olunmadığı halda, təbii qaz qonşu Zaqafqaziya və Şimali Qafqaz respublikalarına ixrac olunurdu. Hasilatın həcminin azalması habelə yüksək keyfiyyətli neftin ölkə hüdudlarından kənara daşınması şəraitində fəaliyyət göstərən neft e'malı müəssisələrinin istehsal gücünün tə'min edilməsinə Şimali Qafqaz və Qazaxıstandan yüksək kükürdlü neftin idxalı hesabına nail olunurdu. Bu şəraitdə Azərbaycanın neft e'malı, neft-kimya və energetika kompleksləri ilkin yanacaq-energetika resurslarının SSRİ-nin digər regionlarından (Şimali Qafqaz, Qazaxıstan, Türkmənistan) və İrandan idxalına əsaslanırdı. Müstəqillik əldə edildikdən sonra bu amil istehsala mənfi tə'sir göstərdi və ölkədə yaranmış sosial-iqtisadi böhranın dərinləşməsinə şərait yaratdı.

*Neft-qaz sənayesi.* Azərbaycan dünyanın neft çıxarılan ən qədim regionlarından biridir. Neft sahəsi nəinki iqtisadiyyatın strukturunu formalaşdırmış, həm də bütövlükdə ölkənin xalq təsərrüfatının inkişafının bütün mərhələlərində həlledici rol oynamışdır və indi də həlledici rol oynamaqda davam edir. Hal-hazırda bu sahə nəhəng sənaye və maliyyə kompleksinə çevrilmişdir. 2000-ci ildə ölkənin ümumi sənaye məhsulunun 51,8%-ni yanacaq (neft-qaz) sənayesi təşkil etmişdir. Onun inkişafı qara metallurgiya, maşınqayırma, neft-kimya, kimya, sement istehsalı və s. sənaye sahələrinin formalaşmasına səbəb olmuşdur. Məhsuldar qüvvələrin, öncə sənayenin enerji mənbələrinə yaxınlaşdırılması prinsipinə müvafiq olaraq ölkəmizdə bilavasitə neft, qaz hasilatı, e'malı və bununla əlaqədar olan neft-qaz-kimya-enerji istehsal tsikli, bir sıra yardımçı və xidmətedici sənaye sahələri



yaradılmışdır. Azərbaycan təkcə keçmiş SSRİ-də deyil, bütün dünyada ən qədim və intensiv neft rayonu kimi tanınmışdır. Uzun müddət Azərbaycan çar Rusiyasının və keçmiş SSRİ-nin əsas neft rayonu olub, çıxarılan neftin çox hissəsini vermişdir. Məsələn, 1900-cü ildə Bakı neft hasilatına görə dünyada birinci yerə çıxaraq dünya neft hasilatının yarıya qədərini, çar Rusiyasında isə 90,7%-ni verirdi. Keçmiş SSRİ üzrə neft hasilatının 1940-cı ildə 71,5%-i, 1945-ci ildə 58,3%-i, 1950-ci ildə 39,1%-i, 1956-cı ildə 21,6%-i Azərbaycanın payına düşürdü.

Azərbaycanın neft hasilatı özünün yığcamlılığı ilə seçilir. Belə ki, bu neft yataqları nisbətən kiçik ərazidə, demək olar ki, bir-birinə bitişik halda yerləşirlər. Neft hasilatının 120 ildən artıq tarixi ərzində 68 neft və qaz yatağı (o cümlədən quruda 42 və Xəzərin Azərbaycan sektorunda 26 yataq) aşkar edilmişdir. 61 yataq, o cümlədən quruda 40 və dənizdə 21 yataq sənaye istismarına verilmişdir. Hazırda quruda 37, dənizdə 16 yataq istismar olunur. Onlar aşağıdakı neft-qaz rayonlarına bölünür: Abşeron, Bakı arxipelaqı, Aşağı Kür, Şimali Qobustan, Xəzər sahili-Quba, Yevlax-Ağcabədi, Kür-Qabırrı. Cənubi Xəzər perspektiv yatağı böyük potensiala malikdir. Orada mühüm axtarış-kəşfiyyat işləri həyata keçirilir. Neft-qaz axtarışı üçün maraq kəsb edən ərazinin ümumi sahəsi 100 min kv.km-dən artıqdır ki, bunun da 35 min kv.km-i Xəzərin Azərbaycan sektorunun payına düşür.

Azərbaycanda neftin sənaye üsulu ilə çıxarılması dövrü XIX əsrin axırlarına təsadüf edir. Həmin dövrdən bəri, yə'ni 120 ildən artıq olan müddətdə Azərbaycanda 1 mlrd. 400 mln.tondan çox neft çıxarılmışdır. Hal-hazırda neft ehtiyatının 2/5-si, qaz ehtiyatının isə 1/5-i (dənizdə 1/10-i) çıxarılıb. Bu ehtiyatlar əsasən Kaynozoy erasının çökmə suxurlarına aiddir. Lakin Muradxanlı, Qazanbulaq, Tərtər, Borsunlu, Tərsdəllər, Ceyrançöl, Acınohur, Ağcabədi və s. yataqlar Mezazoy erasının vulkanik mənşəli suxurlarında yerləşir. Neft ehtiyatının 70%-i, qaz ehtiyatının isə 90%-i 3000 m-dən dərində müəyyən edilmişdir.

Azərbaycanda neft və qaz hasilatı Abşeron (Xəzər dənizi də daxil olmaqla), Kürboyu, Siyəzən-Quba, Gəncə rayonunda aparılır. Əvvəllər, 1870-1910-cu illərdə Balaxanı, Sabunçu, Ramana (1869),

Bibiheybət (1871), Binəqədi (1897), Pirallahı (1904), Suraxa (1907), Buzovna (1910), Keçəldağ, Kirməki və Sulutəpə ne yataqlarının istismarına başlanmışdır. XX əsrin 20-40-cı illərind Puta (1926), Qaraçuxur (1927), Lökbatan, Qala, Korgöz (1932), Zı Quşxana, Yasamal (1933), Maştağa (1945), Duvannı yataqlarınd çıxarılır.

1950-60-cı illərdə Gürgan (1957), Zirə (1961), Daşgi Umbakı, Pirsaat və Səngəçal neft yataqları aşkar edilmişdir.

Xəzər dənizində neft yataqlarının istismarı 1922-ci ildə Bib Heybətdəki keçmiş İliç buxtasında başlanmışdır. Lakin 1949-c ildən Neft Daşlarında geniş şəkildə neft hasil edilir. Burada yerləşə yataqlar Xəzərdə əsas neft-qazçıxarma sahəsidir. Əvvəllər b ərazilərdə Pirallahı (1934), Gürgan-dəniz(1947), Darvin-dən (1950), Çilov-dəniz (1951), Qum adası (1953), Palçıq vulka (1955), Səngəçal (1965), Duvannı (1963), Bulla (1966), Bah (1968) neft və qaz yataqlarının hasilatına başlanmışdır. Hazırd Xəzər dənizinin şelf zonasında Bulla-dəniz (1974), Günəşli (1979 H.Aslanov, Makarov (80-ci illər) yataqları da istismar edilir. Burad həmçinin 70-80-ci illərdə Azəri, Lənkəran, Talış, Yalama və yataqları da aşkar edilmişdir.

Dənizin Azərbaycana aid olan bölməsində 6,3-6,4 mlrd.to neft ehtiyatları kəşf edilmişdir. Bu ehtiyatların 10 mlrd.ton olma güman edilir. Ölkənin neft və kondensat ehtiyatlarının 47,7% burada yerləşir. Hasil edilən neftin isə 89% Xəzər dənizinin payın düşür. Qeyd edək ki, indiyədək dənizin dibindən 450-500 mln.to neft çıxarılmışdır.



Cədvəl 2.

**Azərbaycanda neft və qaz hasilatının dinamikası**

| İllər | Neft hasilatı, cəmi mln.t | | o cümlədən | | | | Qaz hasilatı, cəmi mlrd.$m^3$ |
|---|---|---|---|---|---|---|---|
| | | | Quruda | %-lə payı | Dənizdə | %-lə payı | |
| 1913 | 7,7 | | 7,7 | 100 | - | - | - |
| 1920 | 2,9 | | 2,9 | 100 | - | - | 0,1 |
| 1925 | 4,5 | | 4.5 | 100 | - | - | - |
| 1928 | 7,7 | | 7,7 | 100 | - | - | - |
| 1930 | 12.9 | | 12.9 | 100 | - | - | - |
| 1935 | 18,8 | | 18,8 | 100 | - | - | - |
| 1940 | 21,3 | | 21,3 | 100 | - | - | - |
| 1941 | 23,5 | | 23,5 | 100 | - | - | 2,5 |
| 1945 | 11,1 | | 11,1 | 100 | - | - | - |
| 1950 | 14,8 | | 13,6 | 92,2 | 1,2 | 7,8 | 1,2 |
| 1955 | 15,3 | | 11,3 | 74,2 | 4,0 | 25,8 | 1,5 |
| 1960 | 17,8 | | 11,3 | 63,6 | 6,5 | 36,4 | 5,8 |
| 1965 | 21,5 | | 10,6 | 19,4 | 10,9 | 50,6 | 6,2 |
| 1970 | 19,9 | | 7,3 | 36,1 | 12,6 | 63,9 | 5,5 |
| 1975 | 15,7 | | 5,1 | 34,0 | 9,6 | 66,0 | 9,9 |
| 1980 | 14,7 | | 5,1 | 34,5 | 9,6 | 65,5 | 15,0 |
| 1985 | 13,1 | | 3,9 | 29,7 | 9,2 | 70,3 | 14,0 |
| 1990 | 12,5 | | 2,6 | 20,6 | 9,9 | 79,4 | 9,9 |
| 1991 | 11,7 | | 2,2 | 19,2 | 9,5 | 80,8 | 6,6 |
| 1992 | 11,1 | | 1,9 | 17,1 | 9,2 | 82,9 | 7,9 |
| 1993 | 10,3 | | 1,9 | 18,2 | 8,4 | 81,8 | 6,8 |
| 1994 | 9,6 | | 1,7 | 17,6 | 7,9 | 82,4 | 6,4 |
| 1995 | 9,2 | | 1,6 | 16,9 | 7,5 | 83,1 | 6,6 |
| 1996 | 9,1 | | 1,6 | 17,3 | 7,5 | 82,7 | 6,3 |
| 1997 | 9,0 | | 1,5 | 16,7 | 7,5 | 83,3 | 6,0 |
| 1998 | 11,4 | ARDNŞ – 9,0<br>ABƏŞ – 2,4 | 1,7 | 14,9 | 9,7 | 85,1 | 5,6 |
| 1999 | 13,8 | ARDNŞ – 9,0<br>ABƏŞ – 4,8 | 1,5 | 10,8 | 12,3 | 89,2 | 6,0 |
| 2000 | 13.9 | ARDNŞ – 9,0<br>ABƏŞ – 4.9 | 1.5 | 10.8 | 12.4 | 89.2 | 5,6 |

2-ci cədvəldən göründüyü kimi 90-cı illərdən başlayara Azərbaycanın istər quru, istərsə də dəniz yataqlarından neft və qaz hasilatı xeyli azalmışdır.

Azərbaycanda neft-qaz hasilatını artırmaq, bu zaman ye texnologiya tətbiq etmək, neft maşınqayırması sənayesin müəssisələrini yenidən qurmaq, dənizin şelf zonasından dərində ol yataqları istismar etmək və nefti dünya bazarına çıxarmaq məqsədi Azərbaycan dünyanın bir sıra neft şirkəti ilə müqavilə imzalamışdır.

Xarici neft şirkətləri ilə ilk müqavilənin imzalanması dəniz Azərbaycan sektorundakı «Günəşli», «Azəri» və «Çıraq» yataqların birgə işlənilməsi üzrə həyata keçirilmişdir. «Əsrin müqaviləs adlandırılan bu saziş 1994-cü il sentyabr ayının 20-də Bakıda ABŞ- «Amoko», «Ekson», «Penzoyl», «Yunokal», Böyük Britaniyanın «B Pi», «Remko», Norveçin «Statoyl», Yaponiyanın «İtoçu», Rusiyan «Lukoyl», Türkiyənin «TPAO» və Səudiyyə Ərəbistanın «Delta» ne şirkətləri ilə bağlandı. Bu müqaviləyə əsasən 30 il müddətin göstərilən üç yataqdan 511 mln.ton neft və 55 mlrd.m$^3$ qaz çıxarılma nəzərdə tutulub. Bu qədər neftin 253 mln.tonu, qazın isə ham Azərbaycana çatacaqdır ki, bunun da ümumi gəliri 34 mlrd.AB dollarına bərabərdir.

1995-ci ildə «Qarabağ», 1996-cı ildə «Şahdəniz», 1997-ci il «Əşrəfi» və «Dan Ulduzu», «Lənkəran-dəniz», «Talış-dəniz», «Yalam (D-222), «Oğuz», «Abşeron», «Naxçıvan», 1998-ci ildə «Kürdaşı «Cənub-Qərbi Qobustan», «İnam», «Kürsəngi-Qarabağlı», «Atəşga Yanan-Tava-Muğan-dəniz», 1999-cu ildə isə «Savalan-Dalğa-Len dəniz-Cənub», «Zəfər-Mə'şəl» və «Padar-Harami» yataqlarının bir işlənilməsi üzrə müqavilə bağlanmışdır. İndiyədək ölkəmiz 14 dövlə 33 şirkəti ilə 19 müqavilə imzalamışdır. İmzalanmış müqavilələr üz ölkəmizin neft sənayesinin inkişafına 55 mlrd.ABŞ dolları həcmin sərmayə qoyuluşu planlaşdırılır.

Adları çəkilən neft yataqlarının tam gücü ilə istismarından son ölkəmizdə neft hasilatı 2005-ci ildə 27,7 mln.tona, 2010-cu ildə 48 mln.tona, 2020-ci ildə 52,5 mln.tona, 2025-ci ildə isə 55 mln.tona, tə qaz hasilatı isə müvafiq olaraq 13,4 mlrd.m$^3$, 17,5 mlrd.m$^3$, 22,8 mlrd.m və 25,6 mlrd.m$^3$-ə çatacağı proqnozlaşdırılır (cədvəl 3).



Cədvəl 3.

**2025-ci ilədək neft və qaz hasilatının proqnozu**

| Göstəricilər | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2015 | 2020 | 2025 |
| Neft hasilatı (mln.ton), cəmi | 27,72 | 48,70 | 50,50 | 52,50 | 55,00 |
| quruda | 1,60 | 1,60 | 1,65 | 1,70 | 1,70 |
| dənizdə | 26,12 | 47,10 | 48,35 | 50,80 | 53,30 |
| Qaz hasilatı (mlrd.m$^3$), cəmi | 13,40 | 17,50 | 20,60 | 22,80 | 25,60 |
| quruda | 0,20 | 0,20 | 0,3 | 0,30 | 0,40 |
| dənizdə | 13,20 | 17,30 | 20,30 | 22,50 | 25,20 |

Xəzər dənizində xarici ölkələrin neft şirkətləri ilə birlikdə neft-qaz hasilatının genişləndirilməsi ilə yanaşı quruda yerləşən bir çox yataqların da hasilatının artırılması nəzərdə tutulur. Bu məqsədlə həm köhnə neft-qaz yataqlarının, həm də yeni yataqların birgə istismarı haqqında bir neçə müqavilə imzalanmışdır.

Qurudakı yataqların istismarı son mərhələdə olsa da, karbohidrogenlərin xeyli hissəsi hələ çıxarılmamış qalır. Bu hal neft yataqlarının reabilitasiyası üzrə bir sıra birgə layihələrdə iştirak edən xarici sərmayədarlarda da təbii maraq yaradır; bu isə öz növbəsində qurudakı illik neft hasilatının 1,6-1,7 mln.ton səviyyəsində sabitləşəcəyini proqnozlaşdırmağa imkan verir (cədvəl 3).

Ölkəmizdə neftçıxarma sənayesi kimi, neft-qaz e'malı sənayesi də uzun tarixi bir yol keçmişdir. Hələ XVIII əsrin əvvəllərində (1720-1730-cu illərdə) Abşeronda neftin ibtidai üsulla e'malına başlanmış və ondan kerosin alınmışdır. Lakin ilk neftayırma zavodu 1846-cı ildə Balaxanıda tikilmişdir. 1860-cı ildə Suraxanıda 2-ci zavod, Pirallahı adasında 3-cü zavod tikilmişdir. 1872-ci ildə Bakıda artıq 57-yə qədər neft e'malı zavodu fəaliyyət göstərirdi.

1920-ci ildən sonra keçmiş SSRİ dövründə neft e'malı zavodlarının bir çoxu ləğv edildi, bir hissəsi isə birləsdirilərək iri

müəssisəyə çevrildi. Keçən əsrin 70-80-ci illərinədək Azərbayca 5 iri neft e'malı zavodu fəaliyyət göstərirdi. Bunların hər birinin e'mal gücü 4-5 mln.tona bərabər idi. Ölkəmizdə hasil olunan neft tələbatı ödəmədiyinə görə o dövrlərdə SSRİ-nin bir rayonlarından Bakı neftayırma zavodlarına xeyli miqdarda xam gətirilirdi.

Keçən əsrin 90-cı illərindən sonra neftayırma zavo birləşdirilərək iki istehsalat birliyi yaradıldı: «Azərneftyanacaq «Azərneftyağ».

Ölkəmizin neftayırma zavodlarında 30-dan çox adda sü məhsulları və yağlar, avtomobil benzini, təyyarə benzini, ağ soba yanacağı, mazut və s. istehsal olunur (cədvəl 4).

Cədv

Əsas neft məhsulları istehsalının faktiki və proqnoz göstəriciləri, mln.ton

| Göstəricilər | İllər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1990 | 1995 | 1998 | 2000 | 2005 | 2010 | 2015 | 2020 |
| Neft e'malı | 16,33 | 8,92 | 8,25 | 9,00 | 15,00 | 18,00 | 22,00 | 25,00 |
| Benzin | 2,01 | 1.04 | 0,84 | 0,91 | 3,00 | 3,80 | 5,00 | 5,60 |
| Dizel yanacağı | 3,90 | 2,19 | 2,04 | 2.23 | 4,90 | 6,50 | 8,20 | 9,40 |
| Reaktiv yanacaq | 1,29 | 0,51 | 0,52 | 0,57 | 0,70 | 1,10 | 1,30 | 1,50 |
| Kerosin | 0,02 | 0,10 | 0,17 | 0,19 | 0,20 | 0,25 | 0,40 | 0,50 |
| Yağlar | 0,82 | 0,13 | 0,08 | 0,16 | 0,26 | 0,30 | 0,50 | 0,75 |
| Neft-bitum | 0,15 | 0,05 | 0,03 | 0,03 | 0,16 | 1,00 | 1,20 | 1,60 |
| Koks | 0,17 | 0,004 | 0,03 | 0,03 | 0,05 | 0,10 | 0,20 | 0,25 |
| Mazut | 6,9 | 4,22 | 4,20 | 4,55 | 5,25 | 4,50 | 4,70 | 5,00 |
| Cəmi: | 15,20 | 8,23 | 7,91 | 8,66 | 14,52 | 17,55 | 21,60 | 24,60 |

Neft e'malı sahəsinin ölkə iqtisadiyyatındakı mühüm rol nəzərə alaraq, 2010-cu ilədək olan dövr üçün bu sahəl müəssisələrinin inkişaf proqramları işlənib hazırlanmışdır.



Proqramda «Azərneftyanacaq» İB üzrə neft e'malını ildə 7,5 mln.tona çatdırmaqla ELOU AVT-6 qurğusunun yenidən qurulması, katalitik krekinq qurğularının müasirləşdirilməsi, polimer benzin buraxılışına keçilməsi və s.; «Azərneftyağ» İB-də isə istehsalın yenidən qurulması, fiziki cəhətdən köhnəlmiş qurğuların sökülməsi, istehsal gücünü artırmaqla və mühərrik yağlarının keyfiyyət və çeşidinin dünya standartlarına çatdırmaqla müasir hidrogenerator qurğuların tikintisi nəzərdə tutulmuşdur.

Neft e'malı sənayesinin gələcək inkişafı kiçik enercitutumlu və e'malı dərinləşdirən yeni texnoloji qurğuların, habelə öz ehtiyacları üçün elektrik və istilik enerjisi əldə etmək məqsədilə təkrar resursların utilləşdirilməsi üzrə qurğuların tikintisinə əsaslanacaqdır.

Elektroenergetika. Ölkəmizin yanacaq-energetika təsərrüfatında və ağır sənaye kompleksinin inkişafında elektroenergetika sənayesi mühüm rol oynayır. 2000-ci ildə respublikanın ümumi sənaye məhsulunun 17,4 faizi elektroenergetikanın payına düşmüşdür. Keçmiş SSRİ dövründə elektroenergetikanın inkişafına böyük diqqət yetirilmişdir. Belə ki, ölkə ərazisində elektrik enercisi istehsalı 1913-cü ildə 111 mln. kvt-saat təşkil etdiyi halda 1990-cı ildə 23.2 mlrd.kvt-saat olmuşdur (cədvəl 5). İkinci dünya müharibəsindən sonrakı dövrdə iri elektrik stansiyalarının tikilməsi ləngidiyinə görə elektroenergetikanın inkişafı sənayenin ümumi inkişafından geri qalmışdır.

**Cədvəl 5.**

**Azərbaycanda elektrik enercisi istehsalı (mln.kvt-saat)**

| İllər | İstehsal |
|---|---|
| 1913 | 110,8 |
| 1920 | 122,0 |
| 1940 | 1827,0 |
| 1950 | 2924,0 |
| 1960 | 6590,0 |
| 1970 | 12027,0 |
| 1980 | 16000,0 |

| İllər | İstehsal |
|---|---|
| 1990 | 23200,0 |
| 1995 | 17000,0 |
| 1996 | 17000,0 |
| 1997 | 16800,0 |
| 1998 | 18000,0 |
| 1999 | 18200,0 |
| 2000 | 18663,0 |

Elektroenergetikaya istilik və su-elektrik stansiyala elektrik şəbəkələri daxildir. Ölkədə elektrik enerjisi istil elektrik (İEM, DRES) və su-elektrik (SES) stansiyaları tərəfind istehsal olunur. Hal-hazırda ölkənin enerji sisteminin tərkibin ümumi gücü 5000 MVt-a yaxın olan 13 elektrik stansiyası cümlədən 4 SES) fəaliyyət göstərir. Lakin enerji sistemi sutkalıq rejiminin iqtisadi tənzimlənməsini təmin etmək üçün s elektrik stansiyalarının payı ümumi gücün 30%-ni təşkil etməlid Gücü 50 MVt olan Sərsəng su-elektrik stansiyası isə erməni tərəfindən işğal olunmuş Yuxarı Qarabağın ərazisində yerləşir.

Respublikada yüksək texniki-iqtisadi göstəriciləri olan ye yanacaq-energetika ehtiyatları (xüsusən mazut, qaz, hidroener çoxlu miqdarda və ucuz elektrik enerjisi istehsal etməyə imk verir.

Bütün elektrik stansiyalarında əsas yanacaq təbii qaz, ehti yanacaq isə mazutdur. Lakin təbii qaz tədarükündə böhra əlaqədar olaraq elektrik stansiyalarının ümumi gücünün anc 20%-i təbii qazla, 80%-i isə ətraf mühitə mənfi tə'sir göstər mazutla işləyir.

Bu sahənin yaranması XIX əsrin 80-ci illərində n sənayesinin inkişafı ilə əlaqədardır. 1913-cü ildə burada iki o və 5 kiçik elektrik stansiyası var idi ki, onların ümumi gücü 39 min kVt təşkil edirdi. O zaman Bakı elektrik stansiyaları gücü görə Peterburq və Moskvadan sonra Rusiyada üçüncü y tuturdu. Buna baxmayaraq, elektroenergetika sür'ətlə inkişaf ed neft sənayesinin tələbatından xeyli geri qalırdı. Azərbaycan Bakıdan kənarda olan geniş rayonları elektrik enerjisi ilə təch edilmirdi. Bir neçə şəhərdə olan elektrik stansiyaları isə çox kiç idi. Ümumi gücü 7,7 min kVt olan bu stansiyalar ildə 1 mln.k saata qədər enerji istehsal edirdilər ki, bu da heç onla yerləşdiyi şəhərləri işıqla təchiz etməyə imkan vermirdi.

Keçmiş SSRİ-nin bir çox regionları kimi Azərbaycan keçən əsrin 20-ci illərində o zamanın «məşhur» QOELRO planı daxil edildi. Bununla əlaqədar olaraq Nuxada (Şəkidə), Qubad Xanlarda və başqa rayon və şəhərlərdə kiçik SES-lər tikil istifadəyə verildi.



Bu planın həyata keçirilməsi ilə əlaqədar görülən tədbirlər ayəsində 1940-cı ildə respublikada elektrik enerjisinin istehsalı 827 mln.kvt-saata çatdı ki, bu da 1913-cü ildəkindən təqribən 17 əfə çox idi. Buna baxmayaraq, respublikanın xalq təsərrüfatında lektrik enerjisi çatmırdı. Buna görə köhnə stansiyalar yenidən urulub genişləndirildi.

1954-cü ildə Abşeronun Şüvəlan qəsəbəsində Şimal DRES, Kür çayı üzərində Mingəçevir SES, 1957-ci ildə Varvara SES tikilib istifadəyə verildi. Nəticədə 1960-cı ildə elektrik stansiyalarının ümumi gücü 1940-cı ilə nisbətən 5 dəfə artaraq 1415 min kVt-a, elektrik enerjisi istehsalı isə 3,6 dəfə çoxalaraq 6590 mln.kvt-saata çatdı. 1961-1963-cü illərdə keçmiş SSRİ-də və Avropada ilk dəfə olaraq ümumi gücü 1,2 mln.kVt olan açıq tipli Əli-Bayramlı kondensasiya DRES-i, 1966-cı ildə Sumqayıt şəhərində 2-ci İEM (150 min kVt), 1975-ci ildə İranla birgə Naxçıvan ərazisində Araz SES (22 min kVt), 1976-cı ildə isə Tərtər çayı üzərində Sərsəng SES-i (50 min kVt) tikilib istifadəyə verildi.

Azərbaycanda elektrik enerjisi istehsalının artımı 1981-ci ildə Mingəçevir DRES-in (2,1 mln.kVt), 1982-ci ildə isə Kür çayı üzərində Şəmkir SES-in (380 min kVt) işə düşmələri ilə əlaqədar olmuşdur. Bu stansiyalar istehsal gücünə görə ölkədə ən iri SES və DRES-dir. Ölkədə istehsal olunan elektrik enerjisinin 90%-dən artığını verən istilik-elektrik stansiyalarını yanacaqla tə'min etmək üçün onlara ildə təqribən 6 mln.ton şərti yanacaq, o cümlədən 3,8 mln.ton mazut, 1,5 mlrd.$m^3$ təbii qaz tələb olunur.

Onu da qeyd etmək lazımdır ki, ölkədə energetika obyektlərinin yeni texnika ilə təchiz edilməsi, köhnəlmiş avadanlıqların yenidən qurulması dövrün zəruri tələbilir. Bunun üçün yaxın vaxtda «Şimal» DRES-ində, Sumqayıtdakı 1 nömrəli istilik-elektrik mərkəzində, Əli-Bayramlı DRES-də fiziki və mə'nəvi cəhətdən köhnəlmiş qurğular təzələnəcək, ümumi gücü bir milyon kilovatadək olan energetika obyektləri modernləşdiriləcəkdir. Artıq bu işlərin həyata keçirilməsi məqsədilə Almaniya və Yaponiya dövlətləri ilə müqavilə imzalanmışdır.

Kür çayı üzərindəki gücü 150 MVt olan Yenikənd SES-in yarımçıq qalmış tikintisi üçün Avropa Yenidənqurma və İnkişaf

Bankı tərəfindən 53,2 mln.ABŞ dolları həcmində kredit verilmiş v bunun sayəsində 1999-cu ildə tikinti başa çatdırılmış və stansiya iş düşmüşdür.

SSRİ dövründə ölkəmizin elektrik stansiyaları vahid energetik sistemində birləşdirilmişdir ki, bu da onların daha ahəngdar v səmərəli işlədilməsi üçün əlverişli şərait yaratmışdır. Bu səbəbdə də heç bir respublika elektrik enerjisi ilə təchizatı cəhətdən korlu çəkmirdi. Lakin SSRİ dağıldıqdan sonra respublikalar arasında vahi enerji sistemi də dağıldı və respublikalarda, o cümlədə Azərbaycanda enerji qıtlığı yarandı. Hazırda Azərbayca Respublikası, Gürcüstan və Türkiyə arasında elektroenergetik sahəsində əməkdaşlıq haqqında saziş bağlanmışdır. Əsasən də ü ölkənin enerji sisteminin, gələcəkdə isə Qara dəniz hövzə ölkələrinin enerji sistemlərinin paralel işə qoşulması nəzərd tutulmuşdur. Bütün bunlar elektrik enerjisi resursları ilə zəngin ola Azərbaycan Respublikasına elektrik enerjisinin dünya bazarın ixracını təşkil etməyə imkan verəcəkdir.

## Metallurgiya kompleksi

Azərbaycanın metallurgiya kompleksi dağ-mə'dən, metallurgiya v metal e'malı müəssisələrini əhatə edir. Onlar öz texnoloji təchizatına buraxdıqları məhsula və istehsala hazırlıq səviyyəsinə görə bir-birlərində fərqlənirlər.

Respublikanın metallurgiya kompleksi ölkəmizdə metallurgiyanı müxtəlif sahələrinin inkişafı üçün kifayət qədər əlverişli təbii və iqtisad şərtlərə malikdir. Onlardan ən mühümləri aşağıdakılardır:

1) metallurgiyanın müxtəlif mineral-xammal resurslarının – dəmi mis və polimetal filizləri, nadir və nəcib metal filizləri ehtiyatlarını olması;

2) yerli yanacaq-energetika resurslarının – neft və qazı mövcudluğu;

3) metaltutumlu sənaye və tikinti sahələrinin geniş inkişafı;

4) əmək resurslarının və ixtisaslı kadrların mövcudluğu;



5) sonralar metallurgiyanın ayrı-ayrı bölmələrinin artıq formalaşmış metallurgiya sənayesinin maddi-texniki bazası əsasında inkişaf etdirilməsinin mümkünlüyü.

Ölkənin qara metallurgiyası qara metallurgiya üçün filiz xammalının hasilatı və saflaşdırılmasını, boru istehsalını və qara metalların təkrar e'malını əhatə edir.

Əlvan metallurgiyaya alüminium sənayesi (xammalın hasilatı və saflaşdırılması, gil-torpaqdan və ftor duzlarından alüminium istehsalı) daxildir.

Azərbaycanda metallurgiya sənayesi sahəvi kompleks kimi 1950-ci ildən sonra inkişaf etməyə və formalaşmağa başlamışdır.

Respublikanın metallurgiya sənayesi Zaqafqaziya iqtisadi rayonunun metallurgiyası ilə əlaqəli şəkildə inkişaf edirdi. O, Zaqafqaziya regionunun qara metallurgiyasının mühüm həlqələrindən biri idi.

Qara metallurgiya məhsullarına tələbatın çox olması ilə əlaqədar respublikanın qara metallurgiyası yerli qara metal tullantılarından istifadəyə yönəldilmişdir. Dəmir tullantıların çeşidlənməsi, e'malı və saflaşdırılması üçün Bakıda «Qaratəkrarmetal» zavodu yaradılmışdı. Poladın və çuqunun əsas tədarükçüləri isə Donbas və Ural müəssisələri, ...0%-i isə Rustavi kombinatı idi.

1990-cı ilin mə'lumatına görə sənayenin sahəvi strukturunda metallurgiya kompleksinin payı 5,6% olmuş, 2000-ci ildə isə 0,4%-ə düşmüşdür.

**Cədvəl 6.**

**Metallurgiya sənayesi məhsullarının istehsalı**

| Məhsulların adı | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
| ...əmir filizi ...mtəəlik), min ton | 501 | 1,5 | 3,9 | 2,2 | 6,6 | - | 8,1 |
| ...lad borular, min ...n | 493 | 9,9 | 3,1 | 1,3 | 3,1 | 0,1 | 3,7 |
| ...in poqon metr | 22,8 | 0,6 | 0,2 | 0,9 | 0,1 | 0,0 | - |
| ...il-torpaq, min ton | 238,9 | 26,1 | 1,0 | 12,9 | 6,6 | 76,1 | 216,3 |
| ...inalı polad qab-...ıcaq, min ədəd | 1948 | 19 | 4 | 2 | 3 | - | - |

6-cı cədvəldən göründüyü kimi respublikanın qara metallurgiyasının inkişafında son vaxtlaradək keçmiş SSRİ ölkələrində iri boru prokatı zavodlarından biri olan Sumqayıt boru prokatı zavodu (indiki "Azərboru SC) aparıcı yer tuturdu.

Onun məhsulunun əsas növü – boru prokatının, neft və qaz sənayesində istifadə olunan müxtəlif borular, o cümlədən nasos-kompressor, qazma, neftötürücü, ümumi və s. tə'yinatlı boruların istehsalı təşkil edirdi. Qeyd etmək kifayətdir ki, boru istehsalı həcminin 95%-dən çoxu respublika hüdudlarından kənara, əsasən Rusiyaya daşınırdı. Zavod kiçik diametrli tikişsiz boru istehsalı texnologiyası sahəsində yüksək nüfuza malik idi. Əvvəlki illərdə ölkədə bu borulara olan tələbatın 70%-ni "Azərboru tə'min edirdi.

1991-ci ildən başlayaraq, yə'ni SSRİ dağıldıqdan sonra qara metallurgiyada və xüsusilədə boru-prokat sənayesində istehsal əhəmiyyətli dərəcədə aşağı düşməyə başladı. Bunu 6-cı cədvəlin mə'lumatlarından da görmək olar.

Birliyi böhran vəziyyətindən çıxarmaq və eyni zamanda xarici sərmayənin cəlb edilməsi üçün Prezidentin 19 may 1998-ci il tarixli Fərmanı ilə o, Dövlət Əmlak Komitəsinin sərəncamına verilmiş və özəlləşdirilməsi üçün səhmdar cəmiyyətə çevrilmişdir. "Azərboru SC-nin nizamnamə kapitalı 181 mlrd. 45 mln.manatdır. Təqdim olunmuş proqrama əsasən 10 il ərzində sərmayələrin ümumi həcmi 200-500 mln.dollar təşkil edə bilər.

Ölkənin qara metallurgiyasının ən böyük müəssisəsi Daşkəsən rayonundakı Azərbaycan Filiz saflaşdırma kombinatıdır. Kombinat 1954-cü ildə işə salınmışdır. O, iki mə'dəndən, kanat yolundan, filiz saflaşdırma fabrikindən, nəqliyyat sexindən, həmçinin inkişaf etmiş infrastrukturdan ibarətdir.

1991-ci ilin mə'lumatına görə burada 1500 nəfər işləyirdi. Kombinatın əsas məhsulu dəmir filizi konsentratıdır ki, onun da yeganə alıcısı Rustavi metallurgiya zavodu idi. 1989-cu ilə qədər həmin zavoda hər il 700 min ton konsentrat göndərilirdi (cədvəl 1). Oradan isə Sumqayıt boru prokatı zavoduna hazır çuqun və prokat gətirilirdi. 1989-cu ildən sonra isə Dağlıq Qarabağda və Ermənistanla sərhəd rayonlarda qeyri-sabit siyasi vəziyyət nəticəsində yaranan boşdayanmalar kombinatın işinə mənfi tə'sir



göstərdi. Kombinatın məhsulunun yeganə alıcısı olan Rustavi metallurgiya zavodu təkrar qara metal tullantısı bazasında istehsala keçərək, Daşkəsən konsentratını almaqdan imtina etdi.

1994-cü ildən başlayaraq həmin müəssisədə istehsalın kəskin aşağı düşməsi müşahidə edilir.

1993-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən "2000-ci ilədək Azərbaycanın metallurgiya sənayesinin kompleks inkişafı proqramı" haqqında qərar qəbul edilmişdir. Qərarda Daşkəsən filizindən birbaşa dəmir alınması da öz əksini tapmışdır.

Lakin məsələnin məqsədəuyğun və iqtisadi səmərəliliyinə baxmayaraq hələlik öz həllini tapmamışdır.

Daşkəsənin Zəylik alunit xammalının bazasında 1965-ci ildə Gəncə şəhərində Gil-torpaq kombinatı tikilib istifadəyə verildi. Dünya təcrübəsində ilk dəfə olaraq alunitdən alüminium gili (alüminium oksidi) yarımfabrikatı istehsalı yaradıldı. 1990-cı ilə qədər kombinatda ildə 750-800 min ton alunit xammalı istehsal olunurdu. Eyni zamanda əvvəllər də kombinat öz xammal tələbatının bir hissəsini xaricdən gətirilən boksit xammalı hesabına ödəyirdi. Bunun əsas səbəbi alunitin e'mal texnologiyasının tam şəkildə mənimsənilməməsi idi.

Gəncə Gil-torpaq kombinatında istehsal olunan yarımfabrikat məhsul Sumqayıt alüminium zavoduna gətirilərək burada elektroliz üsulu ilə alüminium ərintisi həyata keçirilirdi.

Sumqayıt alüminium zavodu 1955-ci ildən fəaliyyət göstərir. 1965-ci ilədək, yə'ni Gəncə Gil-torpaq kombinatı işə düşənədək Sumqayıt alüminium zavoduna xammal Rusiyanın Volqoqrad şəhərindən gətirilirdi.

1970-ci ildə Gəncə Gil-torpaq Kombinatı ilə Sumqayıt alüminium zavodu arasında əlaqə yaradıldı ki, bunun da nəticəsində alüminium sənayesinin sahə kompleksi əmələ gəldi.

Yarandığı illərdən bəri Sumqayıt alüminium zavodu öz istehsal texnologiyasını xeyli genişləndirmiş və təkmilləşdirmişdir. 1964-cü ildə zavodun elektroliz sexinin alüminium məftil istehsal edən sahəsi, 1968-ci ildə məişət soyuducuları üçün buxarlandırıcı aqreqat sexi, 1977-ci ildə metal tullantılarından bürünc və mis külçələr

istehsal edən sahəsi yaradılmışdır. Zavodda alüminium prokatı yanaşı bürünc və sink prokatları da istehsal olunurdu. Zavo istehsal olunan alüminium məftilləri, prokatları tə respublikamızda işlədilmir, bir hissəsi xarici ölkələrə göndərilirdi

Keçid dövrünün çətinlikləri Sumqayıt alüminium zavodun da yan keçmədi. Zavod iqtisadi tənəzzülə uğradı.

~~Hazırda~~ Sumqayıt alüminium zavodu texniki cəhətdən yeni qurulmalı və modernləşdirilməlidir. Belə ki, hazırda müəssisə 1 alüminium istehsalı üçün 17,5 min kVt-saat enerji sərf edir, y texnologiya isə enerji sərfini 13 min kVt-saatadək aşağı salm imkan verir.

Alümimiuma həm daxili və həm də dünya bazarında böy tələbat olduğunu nəzərə alaraq məsələnin gələcək həlli ba münasibətləri şəraitində əlvan metallurgiyanın inkişaf etdiriln çox vacibdir.

Bunu nəzərə alaraq 2000-ci ildə alüminium istehsalı məşğul olan müəssisələr «Azəralüminium» Səhmdar Cəmiyyət çevrilərək tenderə çıxarıldı. Hollandiyanın «Fondel» şirkəti tende qalib çıxdı və səhmdar cəmiyyəti 25 illik icarəyə götürdü. Tend şərtlərinə görə 2001-2003-cü illərdə bu sahəyə 202 mln. A dolları həcmində investisiya qoyulmalıdır. 25 il müddətində sahənin yenidən qurulması və genişləndirilməsi məqsədilə 1 m ABŞ dolları həcmində vəsait qoyulacaqdır.

## Maşınqayırma kompleksi

Ölkəmizdə maşınqayırma kompleksinin inkişafı ilk növbə neft-qaz hasilatı və e'malının inkişafı ilə, digər tərəfdən isə zən əmək ehtiyatları və əlverişli coğrafi mövqeyi ilə əlaqədardır.

Əgər 1940-cı ildə ölkəmizin ümumi sənaye məhsulu 14,9%-i, 1960-cı ildə 9%-i, 1980-ci ildə 13,5%-i, 1990-cı ildə 18 maşınqayırma sənayesinin payına düşürdüsə, 2000-ci ildə göstərici cəmi 2,4% olmuşdur.



Bu əsasən keçmiş SSRİ iqtisadi məkanının dağılması və Azərbaycan iqtisadiyyatında baş verən böhranın kompleksin istehsal gücünə ciddi tə'sir göstərməsi ilə əlaqədardır.

Respublika xalq təsərrüfatı strukturunun formalaşmasında və elmi-texniki tərəqqisində aparıcı sahə kimi maşınqayırma kompleksi mühüm rol oynamışdır. Onun tərkibinə neft maşınqayırması, elektronika və cihazqayırma, radiotexnika, elektrotexnika, məişət texnikası, avtokəndtəsərrüfat texnikası və s. daxildir. Hazırda o, 600-dən artıq müəssisə və istehsalat sahələrini özündə birləşdirir.

Ölkəmizin maşınqayırma kompleksində neft sənayesi üçün maşın və avadanlıq istehsalı əsas yer tutur. Hələ keçən əsrin əvvəllərində Bakıda cəmlənmiş kiçik mexaniki c'malatxanalar, zavodlar əsasən neft sənayesi üçün ~~sadə~~ maşınlar, dəzgahlar, aparat və qazan qurğuları, polad kanatlar, qazma alətləri istehsal edir, neft avadanlıqlarını tə'mir edir, neft sənayesi üçün çuqun, polad və misdən tökmə mə'mulatlar hazırlayırdı.

XIX əsrin 70-ci illərindən başlayaraq 1950-ci ilədək çar Rusiyası və keçmiş SSRİ-nin əsas neft rayonu olmuş respublikamız həm də əsas neft-mə'dən avadanlığı istehsalı rayonu kimi tanınmışdır. Belə ki, 1950-ci ildə keçmiş SSRİ-də hasil edilən ~~neftin 39,1%-i~~, neft avadanlığı istehsalının ~~isə~~ 57,2%-i respublikamızın payına ~~düşmüşdür~~. Sonrakı illərdə Volqaboyu, Qərbi Sibir, Manqışlaq, Qərbi Türkmənistan və başqa yeni rayonlarda neft hasilatı sür'ətlə artmışdır. Buna görə də həmin dövr ərzində keçmiş SSRİ-nin neft hasilatında respublikamızın xüsusi çəkisi azalıb 2,5%-ə enmişdir. Buna baxmayaraq keçən əsrin 70-80-ci illərində neft və qaz çıxarılması üçün istehsal edilən texnikanın 70%-dən çoxu respublikamızın payına düşürdü.

Respublikada istehsal olunan neft avadanlığının 70%-dən çoxu keçmiş SSRİ-nin Qərbi Sibir, Manqışlaq, Qərbi Türkmənistan, Şimali Qafqaz və başqa rayonlarında istifadə edilirdi. Dünyada ilk dəfə buruq qazma işində yeni mərhələ açmış turbin qazma və elektrik qazma qurğuları Bakıda istehsal edilmişdir. Bakıda neft avadanlığının istehsalı üçün olduqca əlverişli imkanlar vardır. Bir əsrdən uzun dövrdə yaranmış zəngin təcrübə, ixtisaslı kadrlar, əmək ehtiyatları, elmi-tədqiqat neft maşınqayırma institutları, konstruktor-

layihə büroları, Bakının əlverişli iqtisadi-coğrafi mövqeyi neft-mə'dən avadanlığı istehsalının səmərəli inkişafını tə'min etmişdir.

Hazırda respublikada 8 neft maşınqayırma zavodu öz isthsal güclərinin 8-10%-i həcmində fəaliyyət göstərir. Bunlardan Səttərxan adına, «Bakı fəhləsi», Keşlə maşınqayırma, Neft-mə'dən maşınqayırması, B.Sərdarov adına, Qaradağ dəniz özülləri və s. kimi müəssisələri göstərmək olar. Bunların arasında isə Səttarxan adına zavod respublikanın ən qocaman və böyük neft maşınqayırması müəssisəsidir. Burada tökmə polad, dərin kəşfiyyat quyuları qazmaq üçün qovşaqlar, rotor, hidromatlar, kolon başlıqları, qazma nasos ştanqları, fəvvarə armaturları, universal preventer istehsal olunur.

Keşlə maşınqayırma zavodu 2000 m-ə qədər dərinliyi olan quyuları qazmaq və tə'mir etmək üçün qurğular, reduktorlar istehsal edir, tökmə çuqun, boru daşıyan maşınlar, kimya sənayesi üçün avadanlıqlar hazırlayır.

Binəqədi maşınqayırma zavodunda gil məhlulları üçün avadanlıqlar, traktor-kran, hidravlik qaldırıcılar, nasos-kompressor, soyuducu qurğular, suvarma üçün nasoslar istehsal edilir.

Keçmiş İttifaqda yeganə müəssisə olan Qaradağ Dərin Dəniz özülləri zavodunda hazırlanan platformalar dənizin 200-300 m dərinliyindən neft-qaz çıxarmağa imkan verir. Bu platformada 24 quyu qazmaq olur. Zavod 1987-ci ildə istifadəyə verilmişdir. Hazırda zavod ABŞ neft şirkətləri tərəfindən yenidən qurulur. ABŞ neft şirkətləri ilə Azərbaycan mütəxəssislərinin birgə sə'yi ilə dənizdə kəşfiyyat işləri aparmaq və neft-qaz çıxarmaq üçün zavodda «Dədə-Qorqud» üzən platforma qurğusu tikilmiş və istifadəyə verilmişdir.

Neft sənayesi müəssisələrində işlədilən qazma və istismar üçün sistemlər, neft avadanlıqları üçün ehtiyat hissələri «Bakı fəhləsi» maşınqayırma zavodunun əsas məhsullarıdır.



Cədvəl 7.

**Maşınqayırma sənayesi məhsullarının ən mühüm növlərinin istehsalı**

| Məhsul növləri | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
| Mancaq dəzgahları, min ədəd | 5,2 | 0,06 | 0,07 | 0,07 | 0,04 | 0,03 | 0,5 |
| Dərinlik ştanq nasosları, min ədəd | 7,0 | 23,8 | 15,0 | 15,7 | 14,8 | 12,0 | 16,1 |
| Dərinlik nasos ştanqları, min ədəd | 527 | 0,5 | 0 | 17,7 | 4,3 | 3,2 | 4,5 |
| Dəyişən cərəyan elektrik mühərrikləri, min kvt | 4860 | 572 | 339 | 416 | 224 | 17 | 15 |
| Güc transformatorları, min kva | 1996 | 56 | 124,5 | 116,7 | 80 | 23 | - |
| Fəvvarə armaturası, min dəst | 6,6 | 0,7 | 0,5 | 0,6 | 0,2 | 0,07 | 0,2 |
| Qazma boruları üçün elevator, min ədəd | 2,1 | 0,2 | 0,2 | 0,6 | 0,5 | 0,2 | - |
| Tullantılara qarşı avadanlıq, dəst | 365 | 15 | 5 | 7 | 5 | 9 | - |
| Yuyucu aqreqatları, ədəd | 764 | 50 | 36 | 51 | 47 | 16 | - |
| Quyuları tədqiq edən aqreqatlar, ədəd | 885 | 92 | 17 | 27 | 18 | 4 | - |

| Məhsul növləri | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 |
| Quyuların təmiri və mənimsənilməsi üçün aqreqatlar və qaldırıcılar, ədəd | 485 | 37 | 38 | 60 | 43 | 14 |
| Soyuducular və buzlayıcılar, min ədəd | 330 | 25 | 6,8 | 0,1 | 3,4 | 0,6 |
| Məişət soyuducuları üçün kompressorlar, min ədəd | 1000,4 | 57,8 | 10,2 | 5,6 | 4,1 | 0,5 |
| Kondisionerlər, min ədəd | 309 | 64 | 78,8 | 36,5 | 9,6 | 2,3 |
| Qaz plitələri, ədəd | 45000 | 4400 | 1100 | 400 | 662 | 862 |
| Kassa aparatları, ədəd | - | - | 2762 | 3643 | 2248 | 987 |
| Elektrik şirəçəkən maşınları, min ədəd | - | 1,8 | 1,3 | 1,8 | 0,7 | 0,5 |

Hazırda maşınqayırma sənayesində istehsal olunan məhsulla 50%-ə yaxını neft maşınqayırması sahəsinin payına düşür.

Ölkəmizin maşınqayırma kompleksində ikinci əsas sa elektrotexnika maşınqayırması sahəsidir. Bu sahəyə daxil ol müəssisələrdə ümumi maşınqayırma məhsullarının 40%-i isteh edilirdi. Hazırda bu göstərici cəmi 6,7% təşkil edir. Elektrotexni sənayesində təsərrüfat və əhalinin məişət ehtiyaclarının ödənilm üçün müxtəlif məhsullar istehsal edilir. Bunlar arasında məiş soyuducuları və kondisionerlər, mayesiz transformatorlar, lümini sent lampalar, radio-televiziya aparaturları, elektrik kabellə elektrik qaynaq aparatları, kiçik elektrik mühərrikləri və s. istehs əsas yer tutur.



Bunların arasında məişət soyuducuları və kondisionerlər xüsusi qeyd edilməlidir. Məişət soyuducuları Bakı Elektroməişətcihaz Birliyində istehsal olunur. Birliyin tərkibinə Bakı soyuducular və Sumqayıt kompressor zavodları daxildir. 1975-ci ildə istifadəyə verilmiş Bakı məişət kondisionerləri zavodunda məişət kondisionerləri istehsal edilir. Lakin son illər hər iki müəssisədə məhsul istehsalı getdikcə aşağı düşür. Belə ki, əgər 1990-cı ildə 330 min ədəd soyuducu və 309 min ədəd kondisioner istehsal olunmuşdursa, 2000-ci ildə cəmi 100 ədəd soyuducu və 2900 ədəd kondisioner istehsal olunmuşdur.

Elektrotexnika sənayesi sahəsində ölkədə bir neçə digər müəssisə də vardır. «İsti su» tipli su qızdırıcıları istehsalı üzrə Salyanda, kabel mə'mulatları hazırlanması sahəsində Mingəçevirdə, çini-izolyasiya məhsulları istehsalı üzrə Bakıda və Mingəçevirdə zavodlar yerləşir. 1980-ci ildə «Azərelektroterm» müəssisəsi yaradılmışdır. Burada 70 növdən çox məhsul istehsal edilir. Onlardan çuqun istehsalı üçün elektrik peçləri, saf polad külçə almaq üçün vakuum-qövs qurğuları, avtomat qaynaq xətləri, robotların tətbiqi üçün avadanlıqlar əsas yer tuturdu. Bakı elektrik avtomatları zavodunda sənaye müəssisələri və neft mə'dənləri üçün elektrik avadanlığı və maqnitləri istehsal olunurdu.

Qubada yerləşən mikroelektrik mühərrikləri zavodu, Naxçıvanda olan elektrotexnika zavodu, Şuşada olan EHM-lər üçün yaddaş qurğuları zavodu, Əmircanda və Şüvəlanda yerləşən elektrik maşınqayırma zavodu və Tərtərdə olan elektromexanika zavodu da elektrotexnika sənayesi sahəsindəki müəssisələr sırasındadır. Onun həmçinin Ağdamda, Lənkəranda, Xaçmazda, Şərurda, Şəmkirdə, Daşkəsəndə və Tovuzda da müəssisələri fəaliyyət göstərirdi.

Maşınqayırmanın yeni sahələri kimi cihazqayırma, avtomatlaşdırma vasitələri və idarəetmə sistemləri istehsalı Bakıda yerləşən Geofizika cihazqayırma zavodu, «Neftqazavtomat» EİB, Gəncə cihazqayırma və «Billur» zavodları, Əli-Bayramlı məişət cihazları zavodu, Qazanbulaq cihazqayırma zavodu ilə təmsil edilir.

Azərbaycanda nəqliyyat maşınqayırmasını gəmiqayırma, gəmitə'miri zavodları və tikintisi yarımçıq qalmış Gəncə avtomobil zavodu təmsil edir.

Gəmiqayırma zavodlarında kiçik tankerlər, yedək gəmiləri, qazma gəmiləri, sərnişin gəmiləri, bərə gəmiləri istehsal edilir. Bakı gəmitə'miri zavodunda isə müxtəlif çay-dəniz tipli gəmiləri, quru yük daşıyan və doldurulan gəmilər, yedək gəmiləri və s. tə'mir edilir. Bu müəssisələr «Xəzərdənizgəmitə'miri» İB-də birləşir.

Ölkəmizdə kənd təsərrüfatı maşınqayırma sənayesi çox zəif inkişaf etmişdir. Yalnız Mingəçevir şəhərində avtoyükləyicilər və kanal qazan maşınlar, Şəmkir rayonunun Zəyəm qəsəbəsində isə suvarma nasosları, otçalan maşın hissələri və digər kənd təsərrüfatı maşınları üçün ehtiyat hissələri istehsal edən müəssisələr fəaliyyət göstərirdi. Azərbaycanın iri kənd təsərrüfatı sahələrini nəzərə alaraq burada çoxsahəli kənd təsərrüfatı maşınqayırma sənayesinin inkişafı olduqca zəruridir.

Ölkənin yüksək ixtisaslı kadrlarından səmərəli istifadə etmək, sənayenin sahə strukturunu təkmilləşdirmək məqsədilə keçən əsrin 80-ci illərində elektron və radiotexnika sahələrinə aid olan Bakı radio zavodu, Elektron hesablama maşınları zavodu, «Azon» zavodu, «Nord» zavodu yaradılmışdır.

Lakin sənayenin bir çox sahələri üzrə ölkədə maşın və avadanlıq istehsalı ya yoxdur, ya da çox zəif inkişaf etmişdir. Bu sahələrə kimya, yüngül, yeyinti sənayesi üzrə avadanlıqlar və texniki proseslər istehsalı, kənd təsərrüfatı və nəqliyyat maşınqayırması, xüsusilə avtomobilqayırma aiddir. Ona görə də ölkəyə lazım olan maşın və avadanlıqlar kənardan gətirilir.

Keçən əsrin 80-ci illərin sonu, 90-cı illərin əvvəllərindən başlayaraq Azərbaycanın müstəqillik əldə etməsi ilə maşınqayırma müəssisələrinin kooperasiya əlaqələrində olduğu zavodlarla (Rusiya və digər keçmiş respublikalarla) əlaqələr kəsilmişdir. Nəticədə yeni məhsullar istehsal etmək, hazır məhsulları satmaq mümkün deyil. Eyni zamanda istehsal obyektlərinin köhnə üsullarla idarə etmək olmur. Ona görə də hazırda ölkəmizdə olan zavod və fabriklərin çoxu ya tamam işləmir, ya da onların istehsal gücünün cüz'i hissələrindən istifadə edilir.

Maşınqayırma sənayesinə daxil olan müəssisələrin işini bərpa etmək üçün onlar texnoloji cəhətdən yenidən qurulmalı, istehsal

edilən məhsulların keyfiyyəti artırılmalı, özəlləşdirmə aparılmalı, ölkədaxili kooperasiya əlaqələrinə üstünlük verilməlidir. Neft sənayesinə yönəldilən xarici sərmayələrin bir hissəsini neft-mə'dən avadanlıqları istehsal edən zavodların yenidən qurulması üçün ayırmaq zəruridir.

Artıq bu istiqamətdə işlər başlanmışdır. Belə ki, 2000-ci ildə ikinci özəlləşdirmə proqramı ölkə prezidenti tərəfindən təsdiq edilmişdir.

Maşınqayırma sənayesi məhsullarının ən mühüm növlərinin istehsalının 1990-2000-ci illər üzrə iqtisadi göstəriciləri 7-ci cədvəldə verilmişdir.

## Kimya kompleksi

Kimya kompleksi ölkəmizin inkişaf etmiş sənaye sahələrindən biridir. Sahənin bütün istehsal potensialı «Azərkimya» Dövlət Konsernində cəmlənmişdir. Buraya 19 müəssisə, 3 elmi-tədqiqat institutu və bir mühəndis kompaniyası daxil olub, Sumqayıt, Bakı, Mingəçevir, Salyan və Neftçala şəhərlərində yerləşir. Məhsul istehsalının həcminə görə (3,5%) hazırda ağır sənaye sahələri arasında yanacaq-energetika kompleksindən sonra 2-ci yeri tutur. Onun inkişafına müxtəlif xammallar (neft-qaz, dağ-mə'dən kimyası məhsulları), əmək ehtiyatları, istehlakçıların olması və kənardan çoxlu xammallar gətirilməsi şərait yaratmışdır. Bu kompleks müxtəlif növ xammallardan istifadə dərəcəsinə, istehsal etdiyi məhsullara tələbatın artmasına, mürəkkəb istehsal texnologiyalarına və ərazidə yerləşdirilməsi xüsusiyyətlərinə görə digər sənaye sahələrindən kəskin fərqlənir.

Ölkəmizin kimya sənayesinin tərkibində neft-qaz hasilatı və e'malı ilə əlaqədar olaraq daha yüksək inkişaf etmiş neft-kimya, habelə əsas kimya və əczaçılıq kimyası sahələri seçilir. Kimya sənayesi zəngin neft-qaz ehtiyatlarına, buruq sularına, xörək duzu (daş və çöküntü halında), əlvan metal filiz xammalının e'malına və qismən gətirmə xammala əsaslanır.

Kimya sənayesi Azərbaycan Sənaye kompleksinin formalaşdırılmasında və ərazi-istehsal kompleksinin yaradılmasında

mühüm rol oynayan sahələrdən biridir. Onun tərkibində neft-kim sənayesi həlledici rol oynayır. Neft-kimya sənayesinin əsasını n qaz e'malı ilə sıx əlaqədar olan üzvi sintez istehsalı təşkil e Ölkəmizin neftayırma və neft-qaz zavodları bilavasitə Abşeron n qaz mə'dənlərinin qonşuluğunda, bir-birinin yaxınlığında, yığc ərazidə yerləşdirilmişdir. Belə bir yerləşmə həm xammal kompleks istifadə etməyə, həm də elektrik və istilik enercisind anbarlardan, digər yardımçı qurğulardan birgə istifadə etmə nəqliyyat xərclərini xeyli azaltmağa imkan verir. Neft-kimya istehsal etdiyi məhsullar – etil spirti, sintetik kauçuk, texniki rə mə'mulatları, müxtəlif şinlər, plastik kütlələr, aşqarlar, şüşə l polietilen və s.-dən ibarətdir.

Kompleksin tərkibində əsas kimya da əhəmiyyətli yer tu Kimya sənayesinin istehsal etdiyi əsas məhsullar sulfat turşu superfosfat gübrələri, kaustik soda, xlor, alüminium-xlorid, sulfan sintetik yuyucu vasitələr, yod-brom və s.-dir.

Ölkəmizdə kimya və yeyinti sənayesinin tullantıları əsasın işləyən əczaçılıq müəssisələri Bakıda yerləşir.

Azərbaycanda ilk kimya sənayesi müəssisəsi 1879-cu il Bakıda yaradılmışdır. Lakin hazırda ölkədə onun məhsullarının əs istehsal mərkəzi Sumqayıt şəhəridir. Burada kimya sənayesin inkişafı şəhərin iqtisadi-coğrafi mövqeyi, Bakının xamm mənbələrinə yaxınlığı, ixtisaslı kadrlar və s. ilə əlaqədard Sumqayıt şəhərində yerləşən kimya kombinatı (gücü ildə 500 m ton) Bakının neftayırma zavodlarından alınan piroqaz əsasın xammal və yarımfabrikatlar istehsal edir. Sintetik kauçuk zavodun sintetik etil spirti hazırlanır, sonra ondan kauçuk alınır. Üzvi sint birliyində müxtəlif polimer məhsul növləri: propan-propilen, buta butilen, kauçuk, polipropilen lif, nitron lif, polistirol, benzol, fen asetilen, qətran və s. istehsal edilir.

Sumqayıt polimer tikinti materialları kombinatı Sumqay kimya kombinatından alınan polivinilxlor qətranlar əsasın işləyərək istilik izolyasiya materialları və kvadrat döşəmə örtüklər linoleum, müxtəlif tikinti hissələri və s. mə'mulatları buraxır. Salya



lastik kütlə zavodu da kimya kombinatı ilə kooperasiya lunmuşdur.

Sintetik yuyucu vasitələr Məişət kimyası zavodunda, e'mal dilmiş xörək duzu, kənd təsərrüfatı üçün herbisidlər kimya avodunda istehsal olunur. Hazırda son iki müəssisə Üzvi Xlor əhsulları kombinatında birləşir.

Ölkəmizin neft-kimya müəssisələrindən biri Bakı şin avodudur. Yerli xammala (kauçuk və duda) əsaslanan bu zavod eçmiş SSRİ dövründə Zaqafqaziyanın, Şimali Qafqazın və Orta siya Respublikalarının avtomobil şinlərinə olan tələbatını ödəmək əqsədilə tikilmişdir. Şin istehsalı üçün təbii kauçuk xaricdən lınırdı.

Ölkəmizin kimya sənayesinin tərkibində əsas kimya – qeyri-üzvi sintez istehsalı da mühüm yer tuturdu. Demək olar ki, qeyri-üzvi sintez istehsalının əsas müəssisələri məhz üzvi sintez stehsalının tələbatı və tə'siri sayəsində yaradılmışdır. Sumqayıt uperfosfat zavodu, Sumqayıt Kimya zavodu, Yeni Suraxanı yod və eftçala yod-brom zavodları və s. bunlara misaldır.

SSRİ dövründə Sumqayıt Superfosfat zavodu Xibin apatit onsentratı əsasında işləyərək 100% qidalı maddələr hesabı ilə ildə 00 min tondan çox gübrə istehsal edirdi. Zavod eyni zamanda sulfat urşusu da istehsal edir və onu Sumqayıt Sintetik Kauçuk və Kimya avodlarına göndərirdi.

Salyanda yerləşən plastik kütlə zavodu polietilen, xalq stehlakı malları, kauçuk qablar, borular buraxır.

Kimya sənayesi sahəsində Bakı və Mingəçevir şəhərlərində ezin-texniki mə'mulatlar zavodu, Böyük-Şorda və Bakıxanov əsəbəsində əczaçılıq müəssisələri fəaliyyət göstərir.

Gəncə və Sumqayıt şəhərlərində yerləşən alüminium avodlarında alınan xammallardan sulfat turşusu, Gəncə alüminium avodunda isə kükürd qazı və kalium gübrəsi istehsal edilir. Bakı, əncə və Sumqayıtda kimyəvi lak və boyaq buraxılır.

Qeyd etmək lazımdır ki, kimya kompleksinin müəssisələri mə'lum səbəblər, ilk növbədə SSRİ-nin dağılması nəticəsində ttifaqın ayrı-ayrı xammal bazaları ilə inteqrasiya əlaqələrinin

pozulması ilə əlaqədar keçən əsrin 90-cı illərindən bəri öz istehsalın xeyli azaltmış, bə'ziləri isə tamamilə dayandırılmışdır. Kimya kompleksini yenidən qurmaq və inkişaf etdirmək üçün xaric sərmayələrin ölkəmizə cəlb edilməsi lazımdır. Bu məqsədlə 2001-ci ildən Prezidentin sərəncamı ilə müəssisələr özəlləşdirilmək üçün hərraca çıxarılmağa hazırlanır.

Kimya müəssisələrinin Abşeronda, xüsusilə də Sumqayıt şəhərində cəmləşməsi nəticəsində burada gərgin ekoloji vəziyyət yaran mışdır. Bu ekoloji böhranın aradan qaldırılması və ərazinin çirklən məsinin qarşısının alınması üçün müəssisələr texnoloji cəhətdən yenidə qurulmalı, onların təmərküzləşmə səviyyəsi azaldılmalı, zərər müəssisələr ərazidən çıxarılmalıdır.

Ölkəmizdə Sumqayıt – Bakı – Əli-Bayramlı kimya sənaye mərkəzləri formalaşır. Gəncə və onun ətrafında olan ərazilər kimya metallurgiya və dağ-kimya mərkəzi kimi ayrılır.

Kimya sənayesi məhsullarının ən mühüm növlərinin istehsalını 1990-2000-ci illər üzrə iqtisadi göstəriciləri 8-ci cədvəldə verilmişdir.

**Cədvəl 8**

**Kimya sənayesi məhsullarının ən mühüm növlərinin istehsalı**

| Məhsulların adı | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 200 |
| Mineral gübrələr (100% qidalı maddə hesabı ilə), min ton | 212 | 1,9 | 1,9 | 5,4 | 0,6 | 0,04 | - |
| Polietilen, min ton | 49,4 | 18,8 | 27,7 | 15,0 | 18,2 | 23,2 | 32, |
| Bitki qoruyucu kimyəvi vasitələr (100% tə'sirli maddə hesabı ilə), min ton | 2,1 | 0,08 | 0,2 | 0,2 | 0,3 | 0,1 | 0,1 |
| Etilen, min ton | 83,5 | 31,0 | 38,8 | 18,4 | 24,7 | 30,0 | 40, |
| Susuz sulfat turşusu, min ton | 603,1 | 24,0 | 31,0 | 52,5 | 24,0 | 24,0 | 55, |
| Kaustik soda, min ton | 159,7 | 36,4 | 33,2 | 23,4 | 21,0 | 20,8 | [illegible] |
| Sulfanol (100%-li məhsul), min ton | 130,4 | 0,3 | 0,3 | 0,4 | 0,02 | - | - |
| Sintetik yuyucu vasitələr, min ton | 81,5 | 3,2 | 1,9 | 0,2 | 0,6 | 0,3 | - |



## Tikinti materialları sənayesi

Tikinti materialları sənayesi respublika ərazi-istehsal kompleksinin bütün həlqələri ilə sıx surətdə bağlı olmaqla, onun maddi-texniki bazasının möhkəmləndirilməsində müstəsna rol oynayır. Ölkəmizin mülki, sənaye, kənd təsərrüfatı, nəqliyyat və s. təsərrüfat sahələrinin ildən-ilə geniş inkişafı tikinti materialları sənayesinin həcminin artırılmasını və onlardan səmərəli istifadə olunmasını tələb edir. 2000-ci ilin mə'lumatına görə ölkənin ümumi sənaye məhsulunun 0,9%-i onun payına düşür.

Ölkənin tikinti materialları sənayesinin tərkibində 3 yarım sahə ayrılır: 1) mineral-tikinti xammalları hasilatı; 2) sement, əhəng və gips kimi hörgü materiallarının istehsalı; 3) dəmir-beton və beton konstruksiyaları istehsalı.

Sement, iri dəmir-beton konstruksiyaları və panellər, kubik-daş, pəncərə və tikinti şüşəsi, şifer, asbest-sement borular, istilik izolyasiya, polimer tikinti materialları istehsalı ixtisaslaşdırılmış sahələrdir. Keçən əsrin 80-ci illərindən respublikada polivinilxlor, linoleum, aqloporit, perlit, gəncəporit tipli yüngül doldurucu mineral tikinti materialları, mərmər, travertin kimi bəzək tikinti materialları istehsalı genişləndirilməyə başlanılmışdır. Bunlarla yanaşı turşuya, oda davamlı materiallar, çuqundan və dəmirdən bə'zi santexnika mə'mulatları da buraxılır.

Respublikamız özünəməxsus geoloji quruluşu ilə əlaqədar olaraq tikinti materialları sənayesi üçün rəngarəng xammal ehtiyatı ilə çox zəngindir. Ölkədə 1000-ə qədər mineral tikinti xammal yatağı mə'lumdur. 1976-cı ilin əvvəlində tikinti materiallarının uçota alınmış ümumi balans ehtiyatı 1,3 milyard kub metrə yaxın olmuşdur. Bu ehtiyatlar arasında mişarlıq əhəng daşı (432 mln.kub m), tikinti üçün but daşı (156 mln.kub m), üzlük əhəng daşı (38,4 mln.kub m), bişmiş kərpic və kirəmit gili (46 mln.kub m), çınqıl-qum (137,6 mln.kub m), sement xammalı olan gil süxurları (76,6 mln.t), karbonatlı daşlar (178,4 mln.t), anhidrid (18,7 mln.t) əsas yer tutur.

Abşeronda və Kiçik Qafqaz dağlarında olan ehtiyatl təsərrüfat dövriyyəsinə daha çox cəlb edilmişdir. Lakin onları ehtiyatlarının 1/4-dən istifadə edilir.

Mişar daşı istehsalı üzrə Abşeron iqtisadi rayonunda yerləşə Qaradağ, Güzdək, Nardaran, Qobustan, Maştağa, Şüvəlan, Şahinba mexaniki daş karxanaları seçilir. Onun ehtiyatları həmçinin Kü Araz iqtisadi rayonunda olan Qazı-Məmməd və Atbula yataqlarında, Gəncə-Qazax iqtisadi rayonunda tapılmış Zəyəm Ağdağ, Qazax, Tovuz yataqlarında, Yuxarı Qarabağ iqtisad rayonundakı Dövlətyarlı, Cəbrayıl, Zəngilan, Harov, Ağbulaq v Şahbulaq yataqlarında çoxdur. Bu təbii sərvətin ehtiyatları Şama və Udullu yataqlarında, Naxçıvanda, Şəki-Zaqatalada və Quba Xaçmazda da vardır. Abşeronda istehsal edilən «kubik» və digə daşın xeyli hissəsi avtomobil və dəmiryol nəqliyyatı il respublikanın rayonlarına daşınır.

Neft-qaz sənayesinin inkişafı ilə əlaqədar olaraq tikintini tələbatını ödəmək üçün Abşerondakı daş yataqları ilə yanaşı çınqıl qum və bitum yataqları bir əsrdən çoxdur ki, ildən-ilə intensi istismar olunur. Bitumlardan alınan müxtəlif örtük materialla (asfalt, qır, tol və s.) ölkənin rayonlarına da aparılır.

Çay və dəniz terraslarında qum, çınqıl-qum karxanaları işləyi Hasilatın həcminə görə Bəhramtəpə, Gilgilçay, Vəlvələçay Mingəçevir, Naxçıvan, Şəmkir, Ağstafaçay, Bərdə, Lənkəran çınqıl qum karxanaları seçilir.

Kiçik Qafqaz dağlarının ətəklərində çöküntü süxurlarla yüksək silsilələrində və onların əhatə etdiyi yaylalarda isə vulkani mənşəli intruziv və effuziv süxurlarla əlaqədar olan rəngarən mineral-tikinti xammal yataqları vardır. Naxçıvan MR-də, Qaraba vulkanik yaylasında, Kəlbəcər və Daşkəsən rayonlarında habr diorit, diabaz, tuf, porfirit, qranit, perlit, pemza, mərmə mərmərəbənzər əhəng daşı, travertin kimi qiymətli tikin materialları yataqları vardır. Ağdam rayonundakı Çobandağ Boyəhmədli, Şahbulaq yataqları yüksək keyfiyyətli sement xammal və mişar daşı ehtiyatının böyüklüyü ilə seçilirlər. Naxçıvan MR-d Şahtaxtı və Qarabağlarda əhəng daşı, tuf-travertin hasilat metropoliteni, ictimai binaları bəzək və üzlük tikinti materialları il



təchiz edir. Daşkəsən və Ağdam (Gülablı) rayonlarında yüksək keyfiyyətli mərmər çıxarılır. Bakı mərmər zavodu bu yataqlardan gətirilən mərməri e'mal edərək, qiymətli üzlük-bəzək plitələri hazırlayır.

Kiçik Qafqaz, xüsusən onun şimal yamacları suvaq materialları istehsalı üçün lazım olan müxtəlif xammal ilə zəngindir. Tovuz, Qazax, Ağdam və Zəngilan rayonlarında karbonatlı daşlar, Qarayeri, Alabaşlı və Tovuzda gəc, Culfa və Goranboy rayonlarında gips yataqları vardır. Həmin yataqlarda gipsin keyfiyyəti yüksək, ehtiyatı isə kifayət qədərdir.

Tikinti materialları istehsalında bərkidici material kimi sementin çox böyük əhəmiyyəti vardır. Sement istehsalı üçün respublika ərazisində zəngin təbii əhəng, gil, mergel və s. ehtiyatları mövcuddur. Sement xammalı kimi Azərbaycanda 10 yataq məlumdur. Hazırda onlardan 3-ü istismar edilir. 1952-ci ildə yerli xammal bazasında Qaradağda iri sement zavodu tikilib istifadəyə verilmişdir. Zavodun illik istehsal gücü 1,2 mln.t təşkil edir. Buna baxmayaraq 2000-ci ildə zavod yalnız 243 min ton sement istehsal etmişdir. Hazırda respublikada sementə olan tələbat çox yüksəkdir. Ona görə də Rusiyadan, İrandan və Özbəkistandan respublikamıza ildə milyon tonlarla sement gətirilir. Respublikamızda yeganə müəssisə olan Qaradağ sement zavodu tələbatımızın yalnız 20%-ni tə'min edir.

**Cədvəl 9.**

**Tikinti materialları sənayesinin ən mühüm məhsul növlərinin istehsalı**

| Məhsulların adı | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
| Sement, min ton | 990,0 | 195,9 | 223,1 | 314,7 | 201,0 | 171,4 | 242,8 |
| Quraşdırma dəmir-beton konstruksiyalar və məmu-latlar, min kub m | 1295 | 90,5 | 113,4 | 47 | 50,3 | 42,1 | 36,0 |
| Asbest-sement təbəqələr (şifer), min şərti tava | 66 | 8 | 14,4 | 14,4 | 13,7 | 16,6 | 60,0 |

| Məhsulların adı | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 20 |
| Divar materialları, min ədəd şərti kərpic | 1317 | 161 | 117 | 82,8 | 102,7 | 94,7 | |
| Pəncərə şüşəsi, min kv.m | 5,3 | 0,5 | 0,5 | 0,6 | 0,6 | 0,4 | |
| Plastikdən qapı və pəncərə, min kv.m | - | - | - | - | 18,7 | 17,3 | 1 |

Tikintidə kərpic və kirəmit istehsalı da mühüm əhəmiyyə kəsb edir. Yerli xammallardan istifadə etməklə Azərbaycanın bi çox şəhər və rayon mərkəzlərində bu məhsulları istehsal edə zavodlar fəaliyyət göstərir.

Məhsul istehsalında beton və dəmir-beton konstruksiyala istehsalı mühüm yer tutur. Dəmir-beton konstruksiyaların daşınma çətin, qabariti böyük, zavodların istehsal gücü çox olduğuna gö onlar iri şəhərlərdə, yeni salınan məntəqələrdə, iri tikinti aparıla ərazilərdə yerləşir. Onun məhsulları əsasən istehlak rayonlarında v nəqliyyat qovşaqlarında cəmlənir. Bu prinsipə uyğun olara Azərbaycanda dəmir-beton konstruksiyaların əsas istehs mərkəzləri Bakı, Sumqayıt, Gəncə və Mingəçevir şəhərləridi Həmin şəhərlərdə evtikmə və sənaye-tikinti kombinatları vardı Bərdə, Yevlax, Salyan, Əli-Bayramlı, Naxçıvan, Qazax, Kürdəmi Masallı, Tovuz, Ağdam, Lənkəran, Şəmkir, Şərur və Şək şəhərlərində və Qovlar qəsəbəsində dəmir-beton konstruksiyal zavodları tikilmişdir. Bakı, Mingəçevir, Əli-Bayramlı, Bərdədə y tikintisi və suvarma üçün dəmir-beton mə'mulatları hazırlaya müəssisələr yerləşir. 1990-cı ildə 1295 min kub m, 2000-ci ildə is 36 min kub m dəmir-beton konstruksiyalar istehsal edilmişdir.

Keçən əsrin 90-cı illərinin əvvəllərinə kimi dəmir-beto konstruksiyaları istehsalında mənzil tikintisi üçün iri panellər v qovşaqlar istehsalı mühüm yer tuturdu.

Tikinti materialları istehsalı sənayesində asbest-şif mə'mulatları mühüm yer tutur ki, bu da əsasən Bakıd cəmlənmişdir. Bakı asbest-şifer kombinatı şifer, asbest-seme borular, kafel və tikinti üçün digər saxsı-keramika mə'mulatla buraxır.



Respublikamızda şüşə və çini-saxsı sənayesi də inkişaf etmişdir. Məhsulun əsas hissəsini pəncərə şüşəsi, tikinti şüşəsi, yeyinti sənayesi üçün şüşə qablar-tara, sanitariya texnikası üçün çini və saxsı mə'mulatı istehsalı təşkil edir. Respublikada şüşə istehsalına 1935-ci ildə Bakı şüşə zavodu işə düşdükdən sonra başlanmışdır. 1966-cı ildə Sumqayıtda daha böyük şüşə zavodu işə salındı. Bu zavod pəncərə şüşəsi ilə yanaşı müxtəlif tikinti şüşəsi, şüşə butulkalar, konserv bankaları, balonları və texniki şüşə mə'mulatları istehsal edir. Keçən əsrin 80-ci illərində Naxçıvan MR-də mineral su doldurmanın artmaqda olan tələbatını ödəmək məqsədilə Naxçıvan şəhərində iri şüşə butulkalar zavodu tikilmişdir.

Azərbaycanda tikinti materialları istehsal edən sənaye müəssisələri əsasən yerli xammal ehtiyatlarından istifadə edilməsi ilə işləyir.

Azərbaycanda tikinti materialları sənayesinin ixtisaslaşma istiqamətlərinə və inkişaf səviyyəsinə görə fərqlənən Abşeron, Gəncə-Qazax, Mingəçevir, Şəki, Qarabağ, Aşağı Kür, Kəlbəcər-Qubadlı, Dağlıq Şirvan, Quba-Xaçmaz və Lənkəran rayonları ayrılır. Quba-Xaçmazda kirəmit və kərpic, Lənkəranda kərpic, kirəmit, ağacdan tikinti materialları istehsal edilir.

Ölkədə aparılan iqtisadi islahatların ümumi istiqamətlərinə uyğun olaraq tikinti materialları sənayesinin 1993-cü ildən fəaliyyəti dayandırılan müəssisələri özəlləşdirilmiş və səhmdar cəmiyyətlərinə çevrilmişdir.

Azərbaycanda başqa istehsal sahələri kimi tikinti materialları istehsalının və tikintinin tempinin kəskin aşağı düşməsi keçid dövrünün problemləri, əsasən dövlət büdcəsindən bu sahəyə əsaslı vəsait qoyuluşunun azalması ilə əlaqədardır.

Tikinti materialları sənayesinin ən mühüm məhsul növləri istehsalının 1990-2000-ci illər üzrə iqtisadi göstəriciləri 9-cu cədvəldə verilmişdir.

**Xalq istehlakı malları istehsalı kompleksi**

Azərbaycanın istehlak malları istehsalında yüngül sənaye sahələri əsas yer tutur. Yüngül sənayenin inkişafı üçün respublikada

güclü xammal bazası (həm təbii, həm də sün'i), bol işçi qüvvəsi v istehlakçılar vardır.

Yüngül sənaye əhalinin parçaya, tikili mallara, ayaqqabıya qalanteriya məhsullarına və qab-qacağa olan tələbatının ödənilməs kimi çox mühüm vəzifəni yerinə yetirir. Əmək tutumlu bir sahə kim ölkənin sərbəst əmək ehtiyatlarının istehsala cəlb edilməsində onu müstəsna rolu vardır. Ölkənin 8 mln.nəfərdən çox əhalisinin arta tələbatının ödənilməsi üçün yüngül sənaye məhsulları istehsalını durmadan artırılması zəruridir.

2000-ci ilin mə'lumatına görə ölkəmizin sənaye sahələr arasında ümumi məhsul istehsalına görə (1,9%) yüngül sənay yanacaq-energetika, yeyinti sənayesi, kimya və neft-kimya v maşınqayırma sənayesindən sonra 5-ci yeri tutur. Halbuki, 1985-c ilin mə'lumatlarına görə respublikamızın sənaye sahələri arasınd ümumi məhsul istehsalına görə yüngül sənaye (20,7%) yeyint sənayesindən sonra, sənaye-istehsal hey'ətinin miqdarına görə is (24%) maşınqayırma və metal e'malından sonra ikinci yeri tuturdu.

Respublikamızın yüngül sənayesi çoxsahəli tərkibi ilə seçili Sahənin tərkibində toxuculuq mühüm yer tutur. Yüngül sənaye üzr ümumi məhsul istehsalının 75%-dən çoxu toxuculuğun payına düşür Toxuculuq sənayesi pambıq parça, yun parça və ipək parç toxuculuğu üzrə ixtisaslaşdırılmışdır. Toxuculuğun tərkibind ümumi məhsulun beşdə ikisindən artığını verən pambıq təmizləm və beşdə birini verən pambıq parça istehsalı əsas yer tutur. Mahlı istehsalı ilə pambıq parça toxuma, toxuma ilə gül, naxış vurma boyama istehsalatları arasında kəskin fərq vardır. Xammalın ilki e'malı, cod parça toxuma, sap əyirmə kimi alt mərtəbələr üstündür İpək parça toxumada da belə meyl mövcud olmuşdur. Kifayət qədə xammalın olmasına baxmayaraq yun parça istehsalı lazımınca inkişa etməmişdir. Sahənin tərkibində onun xüsusi çəkisi xalça istehsalı il (7,9%) birlikdə cəmi 11,4% təşkil etmişdir. Tikiş və trikota sahələrinin payına yüngül sənaye məhsullarının 7,4%-i düşürdü.

Respublikada 1990-cı ildə 150,9 mln.kv.m, 1995-ci ildə 59, mln.kv.m 1998-ci ildə 7,1 mln.kv.m, 1999-cu ildə 0,8 mln.kv.m 2000-ci ildə isə 0,6 mln.kv.m parça toxunmuşdur ki, bunun da 90% dən çoxunu pambıq parça toxuma təşkil etmişdir.



H.Z.Tağıyev adına Bakı toxuculuq kombinatı ölkəmizi yüngül sənayesinin ən böyük müəssisələrindəndir. Əyirici, toxuc və boyaq-naxış fabrikalarını özündə birləşdirən indiki b kombinatda müxtəlif çeşidli pambıq parçalar istehsal olunur.

Respublikada pambıq parça toxuyan ikinci müəssisə Gənc pambıq parça kombinatıdır. Müəssisənin xammal bazasını yerl pambıqtəmizləmə zavodunun istehsal etdiyi pambıq lifi təşkil edirdi.

Keçən əsrin 50-ci illərində Mingəçevir ölkəmizin üçünc pambıq parça toxuculuğunun mərkəzinə çevrildi. Özünün pamb parça istehsalına görə Mingəçevir pambıq parça kombinatı Ba toxuculuq kombinatından sonra ikinci yeri tuturdu.

Pambıq parça toxuculuğu müəssisələrini yerli xammall müntəzəm olaraq təchiz etmək üçün ölkədə pambıqtəmizləmə zavodları fəaliyyət göstərir. Bərdədə (2 müəssisə), Əli-Bayramlıda, Ucarda, Yevlaxda, Kürdəmirdə, Ləkidə (Ağdaş), Sabirabadda, Sarıcalıda (Saatlı), Tərtərdə, İmişlidə, Ağcabədidə, Dəliməmmədlidə (Goranboy) və digər rayon mərkəzlərində mexanikləşdirilmiş iri pambıqtəmizləmə zavodları vardır. Ölkənin birinci özəlləşdirmə proqramına uyğun olaraq pambıqtəmizləmə zavodları Açıq Tipli Səhmdar Cəmiyyətlərə çevrilərək özəlləşdirilmişdir.

Ölkəmizdə yun parça toxuculuğunun inkişafı 1925-ci ildə Gəncədə tikilmiş mahud fabrikası ilə bağlı olmuşdur. 1964-cü ildən bu fabrika xalça-mahud kombinatına çevrilmiş və müxtəlif çeşidli xalça və xalça mə'mulatları və həm də yun parça istehsal edirdi.

1975-ci ildə Bakıda kamvol-mahud istehsalat birliyi yaradıldı. Buraya kamvol və zərif mahud kombinatları daxil edildi və müxtəlif növ yun parçalar istehsalına başlandı. Müəssisə hazırda 4 ildən yuxarıdır ki işləmir.

Sumqayıt şəhərində 60-cı illərdə respublikada üçüncü yun parça toxuculuğu müəssisəsi yaradılmışdır. Respublikada yun parçaların 70%-i Bakı, 20%-i Gəncə və 10%-i Sumqayıt müəssisələrinin payına düşürdü.

1978-ci ildən istifadəyə verilmiş Yevlax yunun ilkin e'malı müəssisəsi respublikamızın yun parça toxuculuğu müəssisələrini

xammalla təchiz edirdi. Müəssisədə ildə 10-15 min ton yun yuyulur, çeşidlənir və istehlaka göndərilirdi.

Yerli yun xammalı əsasında Bakı, Gəncə, Quba, Qusar, Qazax, Naxçıvan, Lerik, Qazı Məmməd, Dəvəçi, Şəki və s. rayon mərkəzlərində xalçaçılıq müəssisələri mövcuddur. Ölkədə 1990-cı ildə 2243 min kv.m, 2000-ci ildə isə cəmi 17 min kv.m xalça toxunmuşdur.

Azərbaycanın ipək sənayesində olan əsas müəssisələrə Ordubadda yerləşən ipək əyirmə fabriki, Şəkidəki ipək kombinatı aiddir. Şəki ipək kombinatında uzun illər müxtəlif çeşiddə ipək parçalar toxunmuşdur. Burada boyaq-bəzək fabriki, toxuculuq sexi fəaliyyət göstərirdi. 1995-ci ildən kombinat dayanmışdır. Hazırda kombinatı yenidən işə salmaq üçün hökumət tərəfindən müəyyən tədbirlər həyata keçirilməyə başlanmışdır.

Ordubad baramaaçma fabrikası nəzdində keçən əsrin 70-ci illərində toxucu sexi də işə düşmüşdür. Fabrikada baramadan xam ipək sap və cod ipək parça istehsal olunurdu. İstehsal olunan xam ipək sapın xeyli hissəsi Şəki ipək kombinatına, bir hissəsi isə xaricə ixrac edilirdi.

Xankəndi şəhərində də 1955-ci ildən ipək kombinatı işləyirdi. O əsasən xam ipək, eşmə ipək və cod ipək parça istehsalını həyata keçirirdi.

Yüngül sənayenin trikotaj sahəsində Bakı trikotaj fabriki, Trikotaj istehsal birliyi, Sumqayıt üst trikotaj və Naxçıvan alt trikotaj fabriklərini, həmçinin Gəncə, Şəki və Xanlarda olan müəssisələri göstərmək olar. 1990-cı ildə 36,7 mln.ədəd, 2000-ci ildə isə 0,4 mln.ədəd məhsul istehsal olunmuşdur. Müəssisələr üçün iplik hazırlamaq üzrə Sumqayıtda iplik əyirmə fabriki, Tovuzda və Göyçayda sap əyirmə fabrikləri vardır.

Tikiş sənayesi Bakıda olan iki tikiş İstehsalat Birliyi, 2 saylı tikiş fabriki ilə, Bərdədə, Naxçıvanda, Şəkidə, Xanlarda olan müəssisələrlə təmsil olunur.

Yüngül sənayenin mühüm sahələrindən biri olan dəri-ayaqqabı sənayesinin məhsulları Əli-Bayramlı sün'i dəri zavodunda, Bakı sün'i dəri və rezin altlıq fabrikində, 1 və 2 saylı ayaqqabı



fabriklərində hazırlanır. Dəri ayaqqabı sənayesi yüngül sənayenin ümumi məhsullarının 9,2%-ni verirdi.

Xəz-dəri məhsulları Bakıda, çini-saxsı qablar Gəncə çini qablar zavodunda, Bakı saxsı və şüşə qablar zavodunda istehsal edilir. Ölkənin ayrı-ayrı rayonlarında kustar üsullarla dulusçuluq mə'mulatları hazırlanır.

Azərbaycanda zərgərlik mə'mulatlarının istehsalının mühüm mərkəzi Bakı şəhəridir. Ölkədə bu sahə üçün xammal kimi faydalı olan bir neçə bəzək daşları tapılmışdır. Bu qiymətli bəzək daşları (əqiq, opal, xalsedon, ametist, araqonit, yəşəm, nəcib serpantin və s.) zərgərlik mə'mulatları hazırlanması üçün istifadə edilə bilər.

Respublikanın bir çox yaşayış məntəqələrində kustar sənayesi məhsulları hazırlanması tarixən bu sahələrin yüksək inkişaf etdiyini göstərir. Belə məntəqələrə Şamaxı, Şəki, İsmayıllı, Basqal, Lahıc, Ordubad, Quba, Qusar, Lənkəran, Naxçıvan və s. aiddir. Lakin son onilliklərdə kustar sənayesi dövlətin diqqət mərkəzindən kənarda qaldığına görə bu sahə məhəlli xarakter daşıyır və az məhsul istehsal edir.

Azərbaycanda yüngül sənaye məhsullarının əhalinin tələbatının ödənilməsində rolunun artırılması üçün rayon mərkəzləri olan kiçik və orta şəhərlərdə hazır məhsul istehsal edən müəssisələrin şəbəkəsi genişləndirilməlidir. Onların xammallarla təminatı üçün kimya sənayesinin rolunun artırılması, bu sahə üçün avadanlıq istehsal edən sənaye müəssisələri yaradılması zəruridir. Ölkədə xalq sənətkarlığının üstünlüklərindən istifadə etmək, qalantereya (bura dekorativ pərdələr, toxumalar hazırlanması daxildir), suvenir məmulatlarının, mis və gümüş qabların, bədii naxışları olan məhsulların buraxılışını genişləndirmək lazımdır. Çünki yüngül sənaye tarixən digər sənaye sahələrinin və bütövlükdə təsərrüfatın inkişafının ilkin mənbəyi olmuşdur. Azərbaycan da dünyanın əksər inkişaf etmiş ölkələrinin keçdiyi bu inkişaf istiqamətində getməlidir.

Yüngül sənaye sahələrinin inkişafına görə respublikada bir-birindən fərqlənən Bakı, Gəncə-Qazax, Şəki-Zaqatala, Mingəçevir-Yevlax, Naxçıvan, Aşağı Kür, Qarabağ və Quba-Xaçmaz rayonları ayrılır.

Cədvəl 1

**Xalq istehlakı malları istehsalı sənayesinin ən mühüm məhsul növlərinin istehsalı**

| Məhsulların adı | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 20[illegible] |
| Hər cür parçalar, mln.kv.m | 150,9 | 59,5 | 23,4 | 16,9 | 7,1 | 0,8 | 0,[illegible] |
| O cümlədən: pambıq parça | 101,6 | 57,9 | 24,2 | 16,8 | 7,0 | 0,8 | 0,[illegible] |
| Yun parça | 10,7 | 0,6 | 0,2 | 0,04 | 0,1 | 0,06 | 0,[illegible] |
| İpək Parça | 33,5 | 0,8 | 0,2 | 0,05 | 0 | - | - |
| Corab mə'mulatları, mln.cüt | 37,8 | 8,3 | 2,1 | 3,8 | 1,6 | 1,0 | 0,[illegible] |
| Trikotaj mə'mulatı, mln.ədəd | 36,7 | 5,8 | 1,7 | 1,5 | 1,4 | 0,5 | 0,[illegible] |
| Ayaqqabı, mln.cüt | 15,2 | 0,8 | 0,5 | 0,3 | 0,3 | 0,05 | 0,[illegible] |
| Xalça və xalça-çılıq mə'mulatı, min kv.m | 2243 | 77 | 41 | 40 | 35 | 20 | 1[illegible] |
| Kostyumlar, min ədəd | 1301 | 38 | 5 | 2 | 15 | 6,5 | [illegible] |
| Paltarlar, min ədəd | 6363 | 110 | 90 | 50 | 5 | 9,4 | [illegible] |
| Palto, yarımpalto və plaş, min ədəd | 578 | 8 | 4,5 | 7,6 | 3,0 | - | [illegible] |
| Çini-saxsı və kaşı qab-qacaq, min ədəd | 21,1 | 2,8 | 4,6 | 6,5 | 4,0 | 2,4 | [illegible] |



Xalq istehlakı malları sənayesinin ən mühüm məhsul növləri istehsalının 1990-2000-ci illər üzrə iqtisadi göstəriciləri 10-cu cədvəldə verilmişdir.

## Yeyinti sənayesi

Yeyinti sənayesi aqrar-sənaye kompleksinin son məhsul istehsal edən sahəsidir. Yeyinti sənayesi müəssisələrində müxtəlif kənd təsərrüfatı məhsulları e'maldan keçir və ərzaq kimi istehlak olunur. Yeyinti sənayesi müəssisələrinin fərqləndirici əlaməti onların hər yerdə yerləşməsidir. Bu tipli istehsal obyektləri həm şəhərlərdə, həm də kənd məntəqələrində fəaliyyət göstərir.

Kənd təsərrüfatında becərilən məhsulların çeşidi müxtəlif olduğuna görə yeyinti sənayesinin tərkibi də mürəkkəbdir. Unüyütmə-yarma, şəkər, yağ, kraxmal-patka, meyvə-tərəvəz konservi, və çay sənayesi müəssisələri bitkiçilik məhsullarının e'malını həyata keçirir. Ət, süd, yağ-pendir sənayesi heyvandarlıq məhsullarının e'malına əsaslanır. Çörəkbişirmə, makaron, qənnadı, yeyinti-konsentrat sahələri ilkin e'maldan keçmiş yarımfabrikatların son məhsula çevrilməsi ilə məşğul olur. Duzun və balıq məhsullarının e'malı da yeyinti sənayesinin tərkibinə daxildir.

Şəkər, bitki yağları, meyvə-tərəvəz konservləri və yağ-pendir e'malı üçün tələb edilən xammallar daşındıqda çoxlu itkiyə yol verilir, tez xarab olur. Bu məhsulların istehsalı üçün çoxlu xammal tələb edilir. Ona görə də qeyd edilən sahələr materialtutumludur və əsasən xammal rayonlarında inkişaf etdirilir. Çörəkbişirmə, makaron, süd sənayesi müəssisələri iri şəhərlərdə sıx əhali məskünlaşmış istehlak rayonlarında yerləşir. Unüyütmə-yarma, ət sənayesi obyektlərinin isə həm xammal, həm də istehlak rayonlarında yerləşdirilməsi səmərəlidir.

Bir çox yeyinti sənayesi məhsullarının (üzüm, tütün, çay) ilkin e'malı xammal rayonlarında aparılır. Lakin onlar son məhsula istehlak rayonlarında çevrilir. Balıq məhsullarının e'malı müəssisələri sahil rayonlarına meyl edir.

Qeyd etmək lazımdır ki, hər hansı bir rayonda yeyinti sənayesi müəssisələrinin tərkibi daha çox həmin ərazilərdə kənd

təsərrüfatının ixtisaslaşmasından asılıdır. Yə'ni ərazidə təbii şərai[t] hansı kənd təsərrüfatı məhsullarının becərilməsinə imkan verirsə onların da e'malı üçün müəssisələr yaradılır. Bə'zən gətirmə xammallar əsasında da yeyinti sənayesi müəssisələri təşkil olunur.

Azərbaycanın yeyinti sənayesi xeyli istehsal-texniki potensial[ı] və inkişaf etmiş sahə strukturuna malik olmaqla əhalinin mühüm ərzaq məhsullarına tələbatını müəyyən qədər ödəməsinə imkan verir. Keçən əsrin 90-cı illərinə qədər istehsal olunan məhsulların əsas hissəsi (çörək və çörək məhsulları, quş əti, qarışıq yemlər və s. istisna olmaqla) keçmiş SSRİ-nin digər regionlarına və respublikalarına ixrac olunurdu. (Məsələn, konservləşdirilmiş məhsulların 80%-i, şərabçılıq məhsullarının 90%-i (spirt və araqda[n] başqa), fermentləşdirilmiş tütünün 75%-i.)

Lakin SSRİ dağıldıqdan sonra iqtisadiyyatın ümumi böhranı ilə əlaqədar, həmçinin aqrar-sənaye kompleksinin özəlləşdirilməsi və torpağın xüsusi mülkiyyətə verilməsi prosesində yaranan obyektiv və subyektiv amillərin tə'siri, ən'ənəvi satış bazarlarının itirilməsi və s. nəticəsində sahənin müəssisələrində istehsal kəskin surətdə aşağı düşdü, bir çox hallarda isə məhsul istehsalı dayandı. Hazırda müəssisələr öz güclərinin 15-20%-i həcmində işləyirlər. İstehsalın aşağı düşməsi nəticəsində 90-cı illərin birinci yarısında respublika sənayesinin strukturunda sahənin xüsusi çəkisi 1990-cı ildə 25,3%-dən 1995-ci ildə 6,6%-dək kəskin surətdə aşağı düşdü. Lakin hazırda görülən tədbirlər nəticəsində (müəssisələrin özəlləşdirilməsi, xarici sərmayənin və texnologiyanın cəlbi və s.) ayrı-ayrı əmtəə məhsulları istehsalı üzrə (ət-süd, konserv, çörək məhsulları, spirtsiz içkilər) müsbət dəyişikliklər baş verdi və həmin göstərici 2000-ci ildə 19%-ə çatdı.

Hazırda ölkədə yeyinti sənayesinin demək olar ki, bütün sahələri inkişaf etmişdir və özünün çoxsahəliliyi ilə xarakterizə olunur.

Çörəkbişirmə və qənnadı məhsulları istehsalı yeyinti sənayesinin əsasını təşkil edir. Çörəkbişirmə və qənnadı sənayesi üçün əsas xammal bazasını dənli bitkilər və meyvə-tərəvəz məhsulları təşkil edir. Hazırda Bakıda, Gəncədə, Naxçıvanda, Kürdəmirdə, Dəvəçidə, Yevlaxda və s. şəhərlərdə iri elevatorlar,



mexanikləşdirilmiş unüyütmə dəyirmanları, bir çox çörəkbişirmə kombinatları fəaliyyət göstərir. Bununla yanaşı çörəkbişirmə üzrə şəhərlərlə yanaşı kənd və qəsəbələrdə də kiçik müəssisələr, çörəkbişirmə sexləri yaradılır və onların şəbəkəsi getdikcə genişləndirilir.

Qənnadı və müxtəlif şirniyyatlar istehsal edən iri müəssisələr əsasən Bakıda, Gəncədə, Sumqayıtda, Mingəçevirdə, Şəkidə, Naxçıvanda, Qazaxda, Cəlilabadda və s. şəhərlərdə cəmlənmişdir. Hazırda bu sahənin inkişafı sahibkarlığın inkişafı ilə bağlı daha da artmışdır.

**Cədvəl 11.**

**Ən mühüm yeyinti sənayesi məhsulları istehsalı**

| Məhsulların adı | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
| Ət (o cümlədən I kateqoriya köməkçi ət məhsulları), min ton | 61,1 | 5.5 | 15,0 | 12,5 | 13,7 | 13,5 | 13,4 |
| Kolbasa məmulatları, min ton | 17,3 | 1,9 | 1,4 | 0,9 | 0,7 | 0,6 | 0,4 |
| Yeməli balıq məhsulları, balıq konservləri daxil olmaqla, min ton | 26,1 | 4,1 | 3,5 | 4,1 | 3,1 | 5,1 | 2,5 |
| Kərə yağı, min ton | 3,8 | 0,8 | 4,4 | 4,3 | 4,8 | 4,9 | - |
| Üzlü pendir, min ton | 17,0 | 2,3 | 1,7 | 0,7 | 0,7 | 0,8 | - |
| Üzlü süd məhsulları (süd hesabı ilə) min ton | 202,7 | 10,2 | 195,5 | 199,0 | 219,0 | 223,2 | 224,7 |
| Bitki yağı, min ton | 40,7 | 11,7 | 4,6 | 5,0 | 11,6 | 11,4 | 8,8 |
| Meyvə-tərəvəz konservləri, min şərti banka | 653,5 | 82,0 | 76,8 | 34,5 | 39,1 | 49,0 | 38,0 |
| Qənnadı məmulatı, min ton | 105,6 | 1,0 | 0,6 | 0,5 | 0,7 | 0,7 | - |
| Mineral sular, min dal | 808,2 | 52,0 | 55 | 162 | 179 | 163 | |
| Spirtsiz içkilər, min dekalitr | 4,8 | 0,1 | 0,7 | 5,0 | 5,7 | 3,2 | |
| Papiros və siqaretlər, mlrd.ədəd | 6,5 | 2,0 | 0,8 | 0,8 | 0,2 | 0,4 | 0,2 |
| Paltar sabunu, min ton | 27,7 | 6,2 | 3,8 | 1,3 | 0,7 | 0,3 | 0,2 |
| Araq və likör-araq məmulatı, mln.dal | 1,8 | 0,1 | 0,2 | 0,1 | 0,1 | 0,4 | 0,4 |

| Məhsulların adı | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 200 |
| Üzüm şərabı, mln.dal | 9,4 | 0,6 | 0,2 | 0,3 | 0,1 | 0,4 | |
| Şampan şərabı, mln.dal | 1,4 | 0,1 | 0,09 | 0,1 | 0,1 | 0,1 | |
| Konyak, mln.dal | 1,8 | 0,09 | 0,1 | 0,04 | 0,07 | 0,1 | 0,3 |
| Pivə, mln.dal | 5,9 | 0,2 | 0,1 | 0,1 | 0,1 | 0,7 | 0,6 |

Konserv sənayesi müəssisələrində meyvə-tərəvəz, cümlədən meyvə və balıq məhsulları e'mal edilir. 1990-cı ildə 653, min şərti banka, 2000-ci ildə isə 38 min şərti banka konserv istehs edilmişdir. Xammal bazarına yaxın olan meyvə-tərəvəz konser müəssisələri Xaçmazda, Qubada, Qusarda, Xudatda. Ordubadda Şəkidə, Qəbələdə, Oğuzda, Balakəndə, Qaxda, Nicdə, Ucarda Göyçayda, Sabirabadda, Saatlıda, Lənkəranda, Masallıda yerləşir.

Xəzər dənizinin və Kür çayının balıq chtiyatlarından istifad edilməsi əsasında Neftçalada Bankə balıq kombinatı, Mingəçevir Qazıməmməd balıq zavodları işləyir. Bunlardan başqa Lənkəra balıq zavodu, Nərimanabad balıq kombinatı, Xudat balıq kombinat Hövsan balıq kombinatı, H.Z.Tağıyev qəsəbəsindəki zavod əsa balıq e'malı müəssisələridir. Mövcud iqtisadi çətinliklə əlaqəd balıq e'malı zavodlarının iş rejimi pozulmuşdur.

Yeyinti sənayesinin mühüm sahələrinə aid olan ətin e'ma Bakı, Gəncə, Şəki, Mingəçevir, Naxçıvan, İmişli, Lənkəran Xırdalanda yerləşən ət kombinatlarında aparılır. Bakı, Sumqayı Gəncə, Mingəçevir, Lənkəran, Xırdalan, Şamaxı, Bərdə, Zərdab Salyan və Siyəzəndə süd e'malı müəssisələri yerləşir.

Şərabçılıq uzun illər ölkənin ən geniş yayılmış sahələrində biri olmuşdur. Üzümün ilkin e'malı zavodları onun becərildi rayonlarda yerləşirdi. Lakin SSRİ dağıldıqdan sonra şərabçılı məhsullarının ən'ənəvi satış bazarları itirildiyindən hazır məhsulla satılmadığından ilkin üzüm e'malı zavodları maliyyə böhranın düşdülər. Əhalinin bu sahənin inkişafına marağı azalmışdır. Hazırd e'mal zavodları özəlləşdirilərək səhmdar cəmiyyətlərə çevrilmişdi lakin məhsul olmadığından çoxu işləmir. Son məhsul buraxan şəra və konyak zavodları Bakıda (1 və 2 saylı və şampan şərabla zavodu), Gəncədə, Xanlarda, Göyçayda, Şamaxıda, Ağsuda v



Naxçıvanda (cəmi 71 zavod) yerləşir. Üzümçülüyün tənəzzülü bu sahənin xammalla tə'minatında çətinliklər yaratmışdır.

Yeyinti sənayesinin əhəmiyyətli sahələrindən biri yağ-piy sənayesidir ki, bu da respublikada pambıq yağı, paltar sabunu, qarışıq piy, mayonez, qızılgül yağı, efir yağı və s. istehsal edir. Pambıq yağı istehsalının tullantılarından jmıx istehsal olunur. Sahənin ən böyük müəssisələri Gəncə yağ-piy kombinatı, Əli-Bayramlı yağ-ekstrat zavodu və Bakı marqarin zavodudur. Yağ-piy sənayesi müəssisələri yerli xammalın – pambıq çiyidinin e'malına əsaslanaraq işləyirlər. Bakı marqarin zavodu isə 1998-ci ildən «Azərteksun» birgə müəssisəsi şəklində fəaliyyət göstərir. Burada əsasən müxtəlif çeşidli bitki yağları istehsal olunur.

Ölkəmizin ərazisi mineral-müalicə və süfrə suları ilə zəngindir. Belə ki, burada 2 mindən çox müxtəlif mineral bulaq vardır ki, onlar da birlikdə sutkada 200 milyon litr su verirlər. Lakin bu sulardan hələlik az istifadə olunur. SSRİ dövründə mineral su doldurulması ancaq Badamlı, Sirab, İstisu və Vayxır bulaqlarında təşkil edilmişdir. Lakin son beş ildə xırda sahibkarlığın inkişafı ilə bağlı müxtəlif çeşidli sular dolduran birgə kiçik müəssisələr işə düşmüşdür. Bunlardan Aqua-Vita, Şollar, Sarıdağı və s. göstərmək olar.

Bakıda, Gəncədə, Xırdalanda, Salyanda və Xaçmazda pivə zavodları yerləşir. 2000-ci ildə 630 min dal pivə istehsal olunmuşdur.

Respublikamızda ABŞ-ın dünya miqyasında məşhur olan «Koka-Kola» şirkətinin filialı fəaliyyət göstərir. 1999-cu ildən isə «Koka-Kola» zavodu yaxınlığında Sulutəpə qəsəbəsində «Pepsi-Kola» sularının istehsalı üzrə müəssisə açılmışdır. Artıq dünya şöhrətli «Koka-Kola» və «Pepsi-Kola» ölkəmizdə Şollar suyu bazasında istehsal olunur.

Azərbaycanda yeyinti sənayesinin göstərilən istehsal sahələri ilə yanaşı çayın ilkin e'malı üzrə Lənkəran zonasında 11 fabrik, Bakı və Lənkəran şəhərlərində çay çəkib-bükmə fabrikləri yerləşir. 1998-ci ildə Bakının Bakıxanov qəsəbəsində ikinci çay çəkib-bükmə müəssisəsi tikilmişdir.

Ölkəmizdə tütünçülüyün inkişafı ilə əlaqədar olaraq tütü fermentasiyası və siqaret istehsalı sənayesi də yaradılmışdır. Şəkidə Balakəndə, Qəbələdə, Oğuzda, Qaxda, Yevlaxda, Naxçıvanda və şəhərlərdə tütün fermentasiya zavodları mövcuddur.

Bakı tütün kombinatının bazasında isə 1998-ci ildə xari şirkətlə birgə səhmdar cəmiyyət («Avropa tütün» Kompaniyası yaradılmış və müəssisə özəlləşdirilmişdir. Hazırda burada düny standartlarına uyğun onlarla adda siqaretlər istehsal edilir.

Bunlarla yanaşı Zaqatalada fındıq təmizləmə zavodu, xın qablaşdırılması müəssisəsi, Maştağa qəsəbəsində zeytun e'mal zavodu, Bilgəhdə zəfəran e'malı zavodu mövcuddur.

Ölkəmizdə yeyinti sənayesinin ixtisaslaşması istiqamətin görə fərqlənən Bakı-Sumqayıt, Gəncə-Qazax, Quba-Xaçmaz Cənub-Qərb, Orta Kür, Qarabağ, Naxçıvan və Şəki-Zaqatal rayonları ayrılır.

Yeyinti sənayesinin ən mühüm məhsul növləri istehsalını 1990-2000-ci illər üzrə iqtisadi göstəriciləri 11-ci cədvəld verilmişdir.

## Meşə və ağac e'malı sənayesi

Respublikamızın ərazisinin 11%-ə qədərini meşələr tutu Respublikanın meşələrində parket, mebel, bə'zi maşın detalla hazırlamaq üçün qiymətli oduncaq verən ağac növləri – palıd, vələs fıstıq, qoz, şabalıd, göyrüş, dəmirağac, səmşid və başqaları biti Lakin meşələrin torpaq-su qoruyucu əhəmiyyəti daha böyükdü Həm də oduncaq ehtiyatının əksəri əlçatmaz sıldırım yamaclarda v dağ dərələrində yerləşir. Buna görə də respublikada meş tədarükünün həcmi böyük deyildir. Meşə tədarükü əsasən Böyü Qafqazın cənub yamaclarında İsmayıllı-Balakən zonasında v qismən Lənkəran rayonunda Talış dağlarında aparılır.

Ölkənin tikintidə işlədilən şalbana, taxtaya olan tələba əsasən Rusiyadan gətirilən meşə materialı hesabına ödənilir. Meb sənayesində də gətirmə xammal həlledici rol oynayır.

Yerli xammalın azlığı, mövcud meşələrin tədarük üçün lazım olan ağaclarla məhdudluğu, meşələrin əsasən dağlıq rayonlard



rləşməsi ölkədə meşə və ağac e'malı sənayesinin inkişafını ngidir. Mebel sənayesi isə ölkədə əhalinin istehlak tələblərinin dənilməsi zəruriyyəti ilə əlaqədar olaraq gətirmə xammal əsasında n illərdən e'tibarən sür'ətlə inkişaf etdirilir.

1990-cı ildə Respublikamızın sənayesinin ümumi məhsulunun ,9%-i meşə, ağac e'malı və mebel sənayesinin payına düşürdüsə, 995-ci ildə bu göstərici 0,2%-ə, hazırda isə 0,3%-ə bərabər lmuşdur.

Ağac e'malı və mebel sənayesi müəssisələrinin əsas hissəsi bşeron iqtisadi rayonuna daxil olan Bakıda, Sumqayıtda və ırdalanda yerləşir.

Bakıda «Savalan», 1 saylı mətbəx mebelləri fabrikləri, Ağac 'malı kombinatı, Mebel hissələri fabriki, Yonqar-tava zavodu növcuddur. Sumqayıtda olan mebel fabriki, Ağac e'malı kombinatı, ırdalanda yerləşən Mebel kombinatı, Karton və üz örtükləri abriki, həmçinin Ələtdəki Ağac e'malı kombinatı ağac e'malı və ebel sənayesi sahəsində regionun mühüm müəssisələridir.

Kənardan gətirilən, qismən yerli xammallar əsasında əncədə, Naxçıvanda, Zaqatalada və Lənkəranda mebel fabrikləri, smayıllıda, Balakəndə, Qaxda, Şəkidə, Masallıda, Astarada, anlarda və s. ağac e'malı müəssisələri tikilmişdir. Mebel, tara məhsulları qablaşdırmaq üçün yeşik), taxta-şalban, parket, qapı-əncərə çərçivələri bu müəssisələrin əsas məhsullarıdır.

Respublikaya kənardan şalban gətirilməsi azaldıqda burada axta istehsalı da azalır. Məsələn, 1985-ci ildə respublikada 280 min ub.metr taxta istehsal edildiyi halda 1990-cı ildə 126 min kub metr, 995-ci ildə 2 min kub metr, 1996-cı ildə 7 min kub metr taxta stehsal edilmişdir. 1998-ci ildən bu yana ölkədə ağac mə'mulatı stehsal edilməmişdir.

Azərbaycanda meşə və ağac e'malı sənayesinin inkişafı üçün ənardan yarımfabrikatlar və ehtiyat hissələri gətirilməsi, həmçinin imya sənayesinin məhsullarından bu sahədə istifadə edilməsi nühüm əhəmiyyətə malikdir. Əhalinin mebelə olan tələbatını dəmək üçün hazır məhsulların kənardan gətirilməsinə və gətirilən htiyat hissələri əsasında son məhsul istehsalına son illər üstünlük erilməsinə başlanmışdır. Belə ki, sahibkarlığın inkişafı və bu

sənayeyə daxil olan müəssisələrin özəlləşdirilməsi, eyni zamanda bir sıra xarici firmalarla birgə müəssisələrin təşkili sayəsində kənardan gətirilən yarımfabrikat və ehtiyat hissələrindən istifadə olunaraq qapı-pəncərələr və mebel istehsalı getdikcə artmaqdadır.

Bakıda, Gəncədə, Sumqayıtda, Masallıda və digər şəhər və rayon mərkəzlərində artıq belə birgə müəssisələr fəaliyyət göstərir.

Respublikaya kənardan gətirilən hazır məhsullarla müqayisədə yerlərdə fəaliyyət göstərən bu cür müəssisələrdə məhsul həm ucuz başa gəlir və həm də əhali iş yerləri ilə təmin olunur.



## AZƏRBAYCAN RESPUBLİKASININ AQRAR-SƏNAYE KOMPLEKSİ

Məlum olduğu kimi, aqrar-sənaye kompleksi bir-birilə sıx arşılıqlı əlaqədə olan müvafiq sahə və istehsalatlar sistemidir. aha doğrusu, aqrar-sənaye kompleksi kənd təsərrüfatı və ona idmət edən sənaye sahələri, yeyinti və yüngül sənaye, həmçinin ənd təsərrüfatı məhsullarının tədarükü, nəqli, saxlanması və atışı ilə əlaqədar sahələrdən ibarətdir. Aqrar-sənaye kompleks-lərinin ən geniş yayılmış forması regional tipli komplekslərdir ki, nlar da, öz növbəsində, kənd təsərrüfatı məhsullarının istehsalı, ədarükü, emalı və satışı üzrə texnoloji, iqtisadi və təşkilati əhətdən qarşılıqlı əlaqəli müəssisə və təşkilatların, həmçinin nlarla ünsiyyətli istehsal vasitələri istehsal edən sənaye müəssisələrinin, xidmətedici müəssisə və təşkilatların təbii, qtisadi və digər şəraitlərin nəzərə alınması şərtilə bu və ya digər razilərdə topa şəklində yerləşməsini nəzərdə tuturlar. Ümumiy-ətlə, regional tipli aqrar-sənaye komplekslərinə aşağıdakı anunauyğunluqlar aiddir:

- elmi-texniki tərəqqi və istehsalın səmərəliliyinin yüksəldilməsi əsasında aqrar-sənaye kompleksinin planlı surətdə nkişafı və yerləşdirilməsi;
- istehsalın məqsədyönlü ixtisaslaşması, kooperasiya və ərazi əşkilini təmin edən ictimai əmək bölgüsünün dərinləşməsi;
- istehsalın xammal mənbələri və məhsul istehlakçılarına yaxınlaşdırılması;
- əməyin inteqrasiyası və bölgüsünün nəzərə alınması şərtilə stehsalın yerləşdirilməsi;
- rayonların iqtisadi inkişaf səviyyələrinin bir-birinə yaxınlaşdırılması və s.

Regional tipli aqrar-sənaye komplekslərinin formalaşması və sonrakı fəaliyyətinə elmi-texniki tərəqqi, istehsal və təbii-resurs potensialı, sosial və əmək amilləri, həmçinin regionun təbii şəraiti xüsusiyyətlərindən asılı olan investisiya qoyuluşlarının ödənilməsinin qiymətləndirilməsində istifadə edilən vaxt amili də təsir göstərirlər. Mühüm kompleksyaradan ünsür sayılan elm və elmi

xidmət kimi amil də hissedilocək dərəcədə rol oynayır. İstehsalın yerləşməsi ilə əlaqədar yaranan mənfi halların aradan qaldırılmasına iri maddi məsariflərin yönəldilməsini nəzərdə tutan ətraf mühitin mühafizəsi amilinin də təsiri ilbəil güclənir.

Ümumiyyətlə, aqrar-sənaye kompleksi aşağıdakı sahəvi struktura malikdir:

I bölmə - istehsal vasitələri istehsal edən təsərrüfat sahələri:
a) kənd təsərrüfatı maşınqayırması;
b) kimya;
v) tikinti.

II bölmə - kənd təsərrüfatı:
a) bitkiçilik;
b) heyvandarlıq.

III bölmə - bilavasitə kənd təsərrüfatı xammalı emal edən sənaye sahələri;
a) yeyinti;
b) pambıqtəmizləmə;
v) baramaaçma;
q) yunun ilkin emalı.

IV bölmə - nəqliyyat, rabitə və maddi-texniki təchizat.

V bölmə - tədarük, saxlanma, ticarət və s.

Qeyd edilməlidir ki, aqrar-sənaye kompleksinin aparıcı sahəsi kənd təsərrüfatı istehsalıdır ki, burada da 1994-cü ildən bəri köklü struktur dəyişiklikləri baş vermişdir. Hazırda köhnə tipli təsərrüfatların ləğv olunması, onların əsasında isə özəl kənd təsərrüfatı müəssisələrinin yaradılması prosesi sürətlə həyata keçirilir. 2001-ci il yanvarın 01-i üçün respublikada 34129 kəndli (fermer) təsərrüfatı, 2454 kiçik müəssisə, kooperativ, aqrofirma və bu kimi özəl qurumlar fəaliyyət göstərirdi. Artıq ümumi torpaq fondunun 1,2 mln.ha-a qədəri fermerlərə və digər özəl qurumlara paylanmışdır ki, onun da təqribən 90%-i əkin üçün yararlı sahədir. Torpaq islahatı haqqında qanunun qəbul edilməsi, bazar iqtisadiyyatına keçidlə əlaqədər normativ-hüquqi bazanın yaradılması aqrar islahatın sürətləndəirilməsinə təkan vermiş və nəticədə kənd təsərrüfatının ayra-ayrı sahələrində 1994-1999-ci illər ərzində müəyyən irəliləyiş əldə edilmişdir; bax cədvəl 1.



**1994-1999-cu illərdə Azərbaycan Respublikasında əsas bitkiçilik məhsulları istehsalı (bütün təsərrüfat kateqoriyaları üzrə); min tonla**

| | İL L Ə R | | | | | | 1999-cu ildə 1994-cü ilə nisbətən faizlə |
|---|---|---|---|---|---|---|---|
| | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | |
| Taxıl | 1039,2 | 921,4 | 1018,3 | 1127,1 | 950,3 | 1098,3 | 105,7 |
| Pambıq | 284,0 | 274,1 | 274,4 | 124,6 | 112,9 | 96,8 | 34,1 |
| Tütün | 21,0 | 11,7 | 11,2 | 15,1 | 14,6 | 8,6 | 41,0 |
| Kartof | 150,3 | 155,5 | 214,6 | 223,4 | 312,5 | 394,1 | 2,6 dəfə |
| Tərəvəz | 482,9 | 424,1 | 570,0 | 495,4 | 502,3 | 670,8 | 138,9 |
| Bostan məhsullar | 44,9 | 41,9 | 52,1 | 57,1 | 78,8 | 206,3 | 4,6 dəfə |
| Üzüm | 313,8 | 308,7 | 275,0 | 145,3 | 108,4 | 112,5 | 35,9 |
| Meyvə və giləmeyvə | 323,5 | 324,4 | 321,2 | 330,9 | 390,6 | 436,5 | 134,9 |
| Çay | 19,4 | 9,4 | 3,0 | 1,6 | 0,9 | 2,7 | 13,9 |

* Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında tərtib edilmişdir.

... 1994-1999-cu illər ərzində bir neçə mühüm bitkiçilik məhsulları, o cümlədən, taxıl istehsalında 5,7%, kartof istehsalında 1,6 dəfə, tərəvəz istehsalında 38,9%, bostan məhsulları istehsalında 3,6 dəfə, meyvə və giləmeyvə istehsalında 34,9% artım olmuşdur. Daha əlverişli vəziyyət 1996-1997-ci illərdə qeydə alınmışdır. Belə ki, havaların əlverişsiz keçməsinə baxmayaraq, 1997-ci ildə 1127,1 min ton və yaxud 1996-cı ildəkindən 9,7% çox taxıl istehsal edilmişdir. Daxili bazarın tələbatını nəzərə alan məhsul istehsalçıları kartof əkini sahələrini genişləndirərək onun istehsal həcmini 223,4 min tona (1996-cı ildəkindən 4,1% çox) çatdırmışlar. 1997-ci ildə tütün, bostan məhsulları və meyvə istehsalında da artım əldə edilmişdir. 1996-cı illə müqayisədə tütün istehsalı 21%, bostan məhsulları istehsalı 9,7%, meyvə istehsalı 2,8% artaraq onların istehsalı müvafiq olaraq 15,1, 57,1 və 330,9 min ton olmuşdur. Lakin, 1997-1998-ci illərdə mühüm strateji məhsul sayılan taxıl və tütün istehsalında xeyli geriləmələrə yol verilmişdir.

Təbii fəlakət (aramsız yağan leysan yağışları, sel və s.) nəticəsində pambıq əkinlərinə dəyən ciddi ziyanla əlaqədar məhsulun müəyyən hissəsinin itirilməsi pambıq istehsalını artırmağa imkan verməyən amillərdən olmuşdur. 1999-cu ildə cəmi 96,8 min ton pambıq istehsal edilmişdir ki, bu da 1994-cü illə müqayisədə 65,9%, 1996-cı illə müqayisədə isə 64,7% aşağıdır. Pambıq istehsalının azalma sürəti 1996-1999-cu illərdə olduqca daha yüksəkdir, nəinki 1994-1996-cı illərdə (müvafiq olaraq 90,5% və 2,0%).

Üzümlüklərə qulluq edilməsi sahəsində ziyanverici və xəstəliklərə qarşı mübarizə aparılması üçün lazımlı kimyəvi preparatların və mineral gübrələrin alınıb ölkəyə gətirilməsində olan çətinliklər məhsulun kəskin surətdi azalmasına səbəb olmuşdur.

1999-cu ildə 11,2 min ton tütün və 2,7 min ton yaşıl çay yarpağı istehsal edilmişdir ki, bu da 1996-cı ilə nisbətən müvafiq olaraq 23,2 və 10,0% aşağıdır. Tütün və çay yarpağı istehsalının aşağı düşməsi əsasən onların əkin sahələrinin azalması hesabına olmuşdur.



Bitkiçiliklə müqayisədə heyvandarlıq sahəsində vəziyyət daha stabil olmuş və məhsul istehsalında artım əldə edilməsi təmin olunmuşdur. Buna təsir edən əsas amillərdən biri də ictimai təsərrüfatlara məxsus mal-qaranın əksər hissəsinin özəlləşdirilməsi olmuşdur. 2000-ci il yanvarın 1-i vəziyyətinə ölkədə mövcud 1953,3 min baş qaramalın 99,0%-i, 922,7 min baş inək və camışların 99,3%-i, 5735,3 min baş qoyun və keçinin 95,4%-i, 19,7 min baş donuzun 99,2%-i, 14,6 mln. baş quşun 95,9%-i özəl kənd təsərrüfatı müəssisələrinə, əhali və fermer təsərrüfatlarına məxsus olmuşdur. Eyni zamanda məhsuldar mal-qaranın sayının artmasında da xeyli irəliləyiş baş vermişdir. Bax cədvəl 2.

**Cədvəl 2***

**1994-2000-ci illərdə Azərbaycan Respublikasında *məhsuldar mal-qaranın sayı* (bütün təsərrüfat kateqoriyaları üzrə); yanvarın 1-i üçün min başla**

| | İ LLƏR | | | | | | | 2000-ci ildə 1994-cu illə müqayisədə |
|---|---|---|---|---|---|---|---|---|
| | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | |
| Qaramal | 1621,3 | 1632,8 | 1681,7 | 1779,9 | 1843,5 | 1909,8 | 1953,3 | 120,5 |
| O cümlədən: | | | | | | | | |
| İnək və camışlar | 711,7 | 742,5 | 772,6 | 826,7 | 861,5 | 892,3 | 922,7 | 129,6 |
| Donuzlar | 47,9 | 33,4 | 30,4 | 23,4 | 21,0 | 26,1 | 19,7 | 41,1 |
| Qoyun və keçilər | 4539,0 | 4557,6 | 4644,4 | 4922,0 | 5267,0 | 5511,9 | 5735,3 | 126,4 |
| Quş (mln.baş) | 17,0 | 14,4 | 13,3 | 12,0 | 13,2 | 13,9 | 14,6 | 85,9 |

* Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında tərtib edilmişdir

Cədvəldən göründüyü kimi, 1994-2000-ci illər ərzində ölkənin bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 20,5%, o cümlədən inək və camışların sayı 29,6%, qoyun və keçilərin sayı 26,4% artmış, donuzların sayı isə 58,9%, quşların sayı isə 14,1% azalmışdır. Donuzların sayının azalması, ilk növbədə, milli xüsusiyyətlərlə əlaqədardır. Quşçuluq sahəsində isə vəziyyət bir qədər ağırlaşmışdır. Bu hal bilavasitə quşçuluğun yem bazasının zəifliyi və nəticədə rentabelliyin aşağı olması ilə əlaqədardır.

Tədqiqat dövrü ərzində heyvandarlıqda yaranmış pozitiv irəliləyiş mühüm hefvandarlıq məhsulları istehsalına da müsbət təsir göstərmişdir. Belə ki, 1999-cu ildə respublika üzrə kəsilmiş çəkidə 104,5 min ton ət, 991,0 min ton süd, 11,0 min ton yun (fiziki çəkidə), 524,8 mln. ədəd yumurta istehsal edilmişdir ki, bu da 1994-cü ilə nisbətən müvafiq olaraq 23,8, 26,5, 23,6 və 6,2% çoxdur.*

Məlum olduğu kimi, aqrar sahədə yeni yaranmış qurumların səmərəli fəaliyyəti əsasən onlara göstərilən texniki xidmətin səviyyəsindən çox asılıdır. Aparılmış hesablamaların göstərdiyi kimi, əgər 1990-cı ildə respublikada hər ha əkin sahəsinin texnikaya tələbatı 4,6 at gücündə ödənilirdisə, 1999-cu ildə mövcud traktorların texniki vəziyyətini nəzərə aldıqda bu rəqəm 0,8 at gücünə enmişdir. Hal-hazırda kənd təsərrüfatında mexanikləşdirilmiş işi yerinə yetirmək üçün 32,5 min ədəd fiziki traktora ehtiyac vardır ki, onun da 64%-ni təkərli traktorlar və universal becərmə maşınları təşkil edir; bax cədəl 3.

1992-2000-ci illər ərzində respublikanın kənd təsərrüfatına təzə traktorlar, onların ehtiyat hissələri demək olar ki, gətirilməmişdir. Ona görə də maşın-traktor parklarında onların sayı 30-40% azalmış, 40-50%-nin isə istismar müddəti keçmişdir. Eyni zamanda kənd təsərrüfatında istifadə olunan traktorlar çox məsrəfli və iqtisadi nöqteyi-nəzərdən sərfəli deyildir. Onlarla aqreqatlaşan kənd təsərrüfatı maşınlarının yerinə yetirdiyi əməliyyatlar isə tələbatı ödəmir. Yaranmış vəziyyətlə əlaqədir yeni təşkil olunan özəl kənd təsərrüfatı müəssisələrinin texniki təminatında ciddi çətinliklər əmələ gəlmişdir.

---

*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında tərtib edilmişdir

Cədvə

**2001-ci ildə Azərbaycan Respublikasının kənd təsərrüfatı traktorlarına olan tələbatı**

| | Ümumi əkin sahəsi, ha | 1000 ha norma, ədəd | Tələb olunur cəmi, ədəd | 01.01.2000-ci ilə mövcuddu; ədəd | Onlar.50%-i yararlıdr | Yararlı saya görə tələb olunur |
|---|---|---|---|---|---|---|
| Traktorlar – cəmi | 1400000 | 34,91 | 48846 | 32682 | 16341 | 32500 |
| O cümlədən: | | | | | | |
| MTZ - YUMZ | - " - | 22,7 | 32200 | 22580 | 11240 | 20960 |
| 50-82 - a.g. | - " - | 14,5 | 20300 | 9800 | 4900 | 15400 |

* Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında tərtib edilmişdir

Hesablamaların göstərdiyi kimi, respublikada istehsal olunan kənd təsərrüfatı məhsulları baha başa gəldiyindən bazar tapmır və davamlı istehsalı şübhə doğurur. Belə ki, 1999-cu ildə kənd təsərrüfatı məhsullarının satışından istehsalçılar xam pambıqda 37,2%, tütündə 11,6%, tərəvəzdə 25,8%, üzümdə 8,7%, çay yarpağında 62,7%, süd və süd məhsullarında 45%, ətdə 32,1%, yunda 55,1%, yumurtada 53,6% ziyan çəkmişlər.*

Odur ki, kənd təsərrüfatı istehsalçıları vəsait çatışmamazlığı üzündən kompleks aqrotexniki tədbirləri tədbiq etmək imkanlarından məhrum olurlar. Nəticədə hər hektarın məhsuldarlığı kəskin surətdə aşağı düşür, geniş təkrar istehsala şərait yaranmır. Belə ki, 1994-1999-cu illərdə məhsuldarlıq pambıq üzrə 22,0%, tütün üzrə 1,5%, tərəvəz üzrə 10,5%, çay yarpağı üzrə 74,5% aşağı düşmüşdür və s.*

Traktor istehsalının təşkili aqrar sahədə olan problemlərin müəyyən qədər həllinə, kənd təsərrüfatı məhsulları istehsalının artmasına imkan verə bilər. Hesablamaların göstərdiyi kimi, hər il istehsal olunacaq məsələn, 1000 ədəd traktorun alınması üçün özəl təsərrüfatlara 20-35 mln. ABŞ dolları tələb olunur. Bu məbləğdə vəsaiti özəl strukturlar ancaq kredit verilməsi hesabına əldə edə bilərlər. Əgər kredit 10%-lə verilərsə, 30 ha sahəsi olan fermer və ya digər özəl qurum bir traktor üçün bankdan borc aldığı vəsait istehsal etdiyi məhsuldan asılı olaraq ən geci beş il müddətinə qaytarmaq imkanındadır; bax cədvəl 4.

Qeyd edilməlidir ki, 2000-ci il ölkənin kənd təsərrüfatı üçün uğurlu olmuşdur. Torpaq islahatının həyata keçirilməsi, mülkiyyət münsibətlərinin dəyişməsi, müxtəlif təşkilati-hüquqi cəhətdən yeni təsərrüfatçılıq formalarının yaranması, məhsul istehsalçılarına avtomobil və traktor yanacağının güzəştlə satılması, onların vergilərdən azad edilməsi və bir sıra digər tədbirlər sayəsində ötən təsərrüfat ilində kənd təsərrüfatı istehsalında yüksək nəticələr əldə etməyə zəmin yaranmışdır.

2000-ci il taxıl istehsalında rekord ili olmuşdur. Belə ki, ilkin məlumatlara görə dənlik qarğıdalı da daxil olmaqla 649,1

---

* Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında tərtib edilmişdir

min ha sahədən ilkin mədaxil çəkisində 1540,0 min ton taxıl məhsulu tonlanmışdır. Taxıl istehsalının artımı əsasən məhsuldarlığın yüksəldilməsi hesabına olmuşdur. 2000-ci ildə hər hektardan orta hesabla 23,7 sentner və yaxud 1999-cu ilə nisbətən 2,5 sentner çox məhsul götürülmüşdür. Dənli bitkilərin tərkibində buğda, arpa və qarğıdalı aparıcı yer tutur. 2000-ci ilin məhsulu üçün əkilmiş 649,1 min ha taxıl sahəsinin 76,3%-i buğda, 16,7%-i arpa, 5,1%-i qarğıdalı olmuşdur.*

Daxili bazarın tələbatını nəzərə alan istehsalçılar 2000-ci ildə bir sıra əsas kənd təsərrüfatı məhsullarının istehsalını xeyli artırmışlar. Belə ki, kartof istehsalı 468,9 min tona, tərəvəz istehsalı 780,8 min tona, bostan məhsulları istehsalı 260,8 min tona, meyvə istehsalı 474,8 min tona çatmışdır. Bu da 1999-cu illə müqayisədə, muvafiq olaraq, 19,0%, 16,4%, 26,4% və 8,8% çoxdur.**

Xüsusi ilə kartof istehsalçıları əkin sahəsini xeyli genişləndirimişlər. Kartofçuluq əvvəllər əsasən Gədəbəy, Şəmkir, Tovuz, Daşkəsən və s. rayonlarda ixtisaslaşmasına baxmayaraq, hazırda respublikada geniş yayılmışdır. Cəlilabad rayonunda təkrar əkin hesabına 30,4 min ton kartof məhsulu toplanmışdır ki, bu da rayonda istehsal olunan kənd təsərrüfatı məhsullarının 42%-ni təşkil edir.**

Ölkədə tütün emalı müəssisələrinin fəaliyyətinin güclənməsi tütün istehsalına öz müsbət təsirini göstərmişdir. Belə ki, 2000-ci ildə tütün istehsalı 15,1 min tona çapmaqla, onun həcmi 1999-cu ildəki səviyyədən 74,5% çox olmuşdur. **

Respublikasının kənd təsərrüfatında pambıqçılıq aparıcı sahələrdən olmuşdur. Lakin, onun əkin sahəsinin 1999-cu ildəki 94,4 min ha-dan 2000-ci ildə 101,2 min ha-a çatdırılmasına baxmayaraq, məhsul istehsalı 91,5 min ton olmaqla 1999-cu ilə nisbətən 5,3 min ton azalmışdır.**

Üzümçülüyün respublikada sürətlə inkişafı etdiyi dövrdə, xüsusilə, 1984-cü ildə, onun ümumi sahəsi 284 min ha, məhsul

* Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin məlumatları əsasında tərtib edilmişdir

** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları



istehsalı isə 2,1 mln. tona çatmışdırsa, artıq 1999-cu ildə üzümlüklərin sahəsi 20,5 min ha-a və 2000-ci ildə isə 13,9 min ha-a qədər azalmış, üzüm istehsalı 76,8 min ton olmuşdur.*

Buna əsas səbəb, ilk növbədə SSRİ dövründə üzümçülüyə olan münasibətin dəyişməsi nəticəsi ilə yanaşı, hazırda aqrotexniki tədbirlərin vaxtında aparılmasına lazım olan texnikanın, ziyanverici və xəstəliklərə qarşı kimyəvi preparatların əldə olunmasındakı çətinliklər, əksər emal müəssisələrinin işləməməsi, daxili bazarın qorunmaması və s. olmuşdur.

* Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları

Cədvəl 4

**Azərbaycan Respublikasında kənd təsərrüfatı bitkilərinin becərilməsində 2001-ci il üçün çəkilə biləcək xərclər və alınacaq gəlir**
**(təqribi hesablamalar)**

| | Əkin sahəsi | Məhsul-darlıq s/ha | 1 ha sahəyə çəkilən xərc: min man | 1 ha sahədən alınan gəlir; min man | 1 ha sahə, alınan xalis gəlir | | 30 ha sahə alı.gəlir; min man | Fermerin 10% kredit aldığı 1 ədə 55 a.g. traktorun (12000 ABŞ doll.) sahələr üzrə qaytarma müd. il | Fermerin 10% kreditə aldığı 82 a.g. traktorun (27500 ABŞ doll.) sahələr üzrə geri qaytarma müd. İl |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Min man | ABŞ doll. | | | |
| Taxıl | 30 | 30 | 1928,9 | 2345,0 | 416,9 | 105,0 | 3150,0 | 7,2 | 4,9 |
| Pambıq | 30 | 25 | 2292,2 | 3250,0 | 958,0 | 242,0 | 7260,0 | 3,1 | 2,1 |
| Tütün | 30 | 25 | 2210,0 | 8250,0 | 6040,0 | 1529,0 | 45870,0 | 1,0 | 1,0 |
| Qarğıdal | 30 | 40 | 1826,2 | 2800,0 | 973,8 | 246,0 | 7380,0 | 3,1 | 2,1 |
| Çəltik | 30 | 50 | 2698,2 | 6938,6 | 4240,4 | 1074,0 | 32200,0 | 1,0 | 1,0 |
| Şəkər çuğundur | 30 | 200 | 1614,0 | 3522,2 | 1908,8 | 483,0 | 14490,0 | 1,5 | 1,0 |
| Quru ot | 30 | 80 | 2107,7 | 2666,5 | 558,8 | 142,0 | 4260,0 | 5,3 | 3,6 |

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin məlumatları əsasında tərtib edilmişdir

Respublikanın subtropik bölgəsi rayonlarında çayçılıq ...hüm sahələrdən biridir. Lakin, son illər bu sahədə də ...əzzül müşahidə olunmaqdadır. 2000-ci ildə 1082 ton yaşıl ...y yarpağı istehsal edilib ki, bu da 1999-cu ilə nisbətən 60,4% ...dır.* İstehsalın azalmasına mənfi təsir göstərən amillərdən ...i xaricdən gətirilən çayın bazardan yerli məhsulları ...ışdırmasıdır.

1999 və 2000-ci illərdə bitkiçilik məhsullarının yığımı ... məhsuldarlığı barədə daha ətraflı məlumatlar aşağıdakı ...dvəldə verilmişdir.

**Cədvəl 5***

| | Yığılmış məhsul; min ton | | | Məhsuldarlıq, s/ha | | |
|---|---|---|---|---|---|---|
| | 1999 | 2000 | % | 1999 | 2000 | % |
| ...xıl | 1098,3 | 1540,0 | 140,2 | 21,2 | 23,7 | 111,8 |
| ...mbıq | 96,8 | 91,5 | 94,5 | 10,3 | 9,0 | 87,4 |
| ...tütün | 8,6 | 15,1 | 174,5 | 19,4 | 19,3 | 99,5 |
| ...rtof | 394,1 | 468,9 | 119,0 | 95,0 | 84,0 | 88,4 |
| ...rəvəz | 670,8 | 780,8 | 116,4 | 137,0 | 133,0 | 97,1 |
| ...stan ...əhsulları | 206,3 | 260,8 | 126,4 | 92,0 | 97,0 | 105,4 |
| ...eyvə və ...əmeyvə | 436,5 | 474,8 | 108,8 | 58,1 | 62,4 | 107,4 |
| ...züm | 112,5 | 76,8 | 68,3 | 35,6 | 37,7 | 105,9 |
| ...y | 2,7 | 1,1 | 39,6 | 5,1 | 2,0 | 39,2 |

• İlkin məlumatlar.

Ölkədə 2001-ci ilin məhsulu üçün 649,9 min ha sahəyə ...n və yaşıl yem üçün payızlıq dənli bitilər səpilmişdir ki, ...ların da ümumi əkin sahəsi 2000-ci illə müqayisədə 93 min ... və ya 16,7% artmışdır.*

2001-ci ilin əvvəlinə iri buynuzlu malqarının sayı 1999,5 ...in başa, qoyun və keçilərin sayı 5995,7 min başa çatmış,

...zərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları

onların sayı 2000-ci ilin əvvəlinə nisbətən, müvafiq olaraq 2,4 və 4,5% artmışdır. *

2000-ci ildə diri çəkidə 195,8 min ton ət, 1031,1 min ton süd, 542,6 mln. ədəd yumurta və 10,9 min ton yun istehsal edilmişdir. *

Mal-qaranın sayı və heyvandarlıq məhsullarının istehsalına dair məlumatlar aşağıdakı cədvəldə verilmişdir:

**Cədvəl 6 ***

**Mal-qaranın sayı (ilin əvvəlinə) min baş**

| | 2001 | 2000 | 2000-ci ilə faizlə |
|---|---|---|---|
| Qaramal | 1999,5 | 1953,3 | 102,4 |
| O cümlədən: | | | |
| İnək və camışlar | 948,7 | 922,7 | 102,8 |
| Qoyun və keçilər | 5995,7 | 5735,3 | 104,8 |
| Donuzlar | 17,7 | 19,7 | 90,0 |

**Cədvəl 7 ***

**Heyvandarlıq məhsullarının istehsalı: min ton**

| | 2000 | 1999 | 1999-cu ilə faizlə |
|---|---|---|---|
| Ət (diri çəkidə) | 195,8 | 188,5 | 103,9 |
| Süd | 1031,1 | 991,0 | 104,0 |
| Yumurta; min ədəd | 542,6 | 524,8 | 103,4 |
| Yun | 10,9 | 10,5 | 104,0 |

2000-ci ildə əksər kənd təsərrüfatı məhsulları istehsalının 1999-cu ilə nisbətən xeyli artması bütövlükdə ölkə üzrə kənd təsərrüatının ümumi məhsulunun həcminin 12,1%, o cümlədən bitkiçilik məhsulları istehsalının 18,9%, heyvandarlıq məhsulları istehsalının 3,8% artmasını təmin etmişdir. *

Kənd təsərrüfatında aqrar islahatların aparılması prosesi əsasən başa çatsa da, hələlik müxtəlif səbəblərə görə sovxoz və kolxozlara məxsus kənd təsərrüfatı texnikasının və

* Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları

heyvandarlıq binalarının özəlləşdirilməsi tam qurtarmamışdır. Belə ki, 2001-ci il yanvarın 1-i vəziyyətinə ictimai təsərrüfatlara məxsus yük avtomobillərinin 14,0%-i, traktorların 8,8%-i, pambıqyığan kombaynların 6,5%-i, iri buynuzlu malqara tövlələrinin 10,1%-i, qoyun yataqlarının 5,1%-i özəlləşdirilməmiş qalmışdır.*

Ölkə üzrə faktiki olaraq özəlləşdirilmiş əmlakın dəyəri xüsusi mülkiyyətə verilməsi nəzərdə tutulan əmlakın 94,9%-i qədər olmuşdur.

Torpaq islahatının gedişi barədə 2001-ci il yanvarın 1-nə olan məlumata əsasən xüsusi mülkiyyətə veriləcək 1342,9 min ha torpaq sahəsinin 1329,3 min ha-ı artıq paylanmış, torpaq payı alacaq ailələrin 98,5%-i öz torpaq sahələrinə sahib olmuşdur. Orta hesabla bir ailəyə 1,6 ha torpaq sahəsi verilmişdir. *

Qeyd edilməlidir ki, özünün bütün çatışmazlıqları ilə bərabər kənd təsərrüfatı III bölməyə daxil olan sahələr üçün xammal bazası rolunu oynayır. Həmin sahələrə daxil olan müəssisələrin əksəriyyəti özəlləşdirilmiş və bəzilərinin əsasında xarici şirkətlərlə birlikdə müştərək müəssisələr yaradılmışdır. Bu proses son illər, xüsusilə 1999-2000-ci illərdə müvafiq məhsul istehsalında xeyli irəliləyiş əldə etməyə imkan vermişdir. Belə ki, 1999-2000-ci illərdə məhsul istehsalı yeyinti sənayesində 2,2%, unüyütmə-yarma sənayesində 45,1%, yüngül sənayenin aqrar-sənaye kompleksinə aid hissəsində 20,1%-ə qədər artmışdır. * bax diaqram 1 və 2.

I bölmənin sahələrinə gəldikdə, qeyd edilməlidir ki, onlar aqrar-sənaye kompleksi sistemində çox zəif təmsil olunmuşlar (bir neçə kiçik kənd təsərrüfatı maşınqayırma müəssisəsi, bostançılıq alətləri istehsalı, qarışıq yem sənayesi, bəzi kimya müəssisələri, kənd təsərrüfatı tikintisi, həmçinin kiçik təmir müəssisələri və s.) statistik məlumatların tədqiqinin göstərdiyi kimi, 1994-2000-ci illərdə ümumi

---

*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları

onların sayı 2000-ci ilin əvvəlinə nisbətən, müvafiq olaraq 2,4 və 4,5% artmışdır. *

2000-ci ildə diri çəkidə 195,8 min ton ət, 1031,1 min ton süd, 542,6 mln. ədəd yumurta və 10,9 min ton yun istehsal edilmişdir. *

Mal-qaranın sayı və heyvandarlıq məhsullarının istehsalına dair məlumatlar aşağıdakı cədvəldə verilmişdir:

**Cədvəl 6 ***

**Mal-qaranın sayı (ilin əvvəlinə) min baş**

| | 2001 | 2000 | 2000-ci ilə faizlə |
|---|---|---|---|
| Qaramal | 1999,5 | 1953,3 | 102,4 |
| O cümlədən: | | | |
| İnək və camışlar | 948,7 | 922,7 | 102,8 |
| Qoyun və keçilər | 5995,7 | 5735,3 | 104,8 |
| Donuzlar | 17,7 | 19,7 | 90,0 |

**Cədvəl 7 ***

**Heyvandarlıq məhsullarının istehsalı: min ton**

| | 2000 | 1999 | 1999-cu ilə faizlə |
|---|---|---|---|
| Ət (diri çəkidə) | 195,8 | 188,5 | 103,9 |
| Süd | 1031,1 | 991,0 | 104,0 |
| Yumurta; min ədəd | 542,6 | 524,8 | 103,4 |
| Yun | 10,9 | 10,5 | 104,0 |

2000-ci ildə əksər kənd təsərrüfatı məhsulları istehsalının 1999-cu ilə nisbətən xeyli artması bütövlükdə ölkə üzrə kənd təsərrüatının ümumi məhsulunun həcminin 12,1%, o cümlədən bitkiçilik məhsulları istehsalının 18,9%, heyvandarlıq məhsulları istehsalının 3,8% artmasını təmin etmişdir. *

Kənd təsərrüfatında aqrar islahatların aparılması prosesi əsasən başa çatsa da, hələlik müxtəlif səbəblərə görə sovxoz və kolxozlara məxsus kənd təsərrüfatı texnikasının və

* Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları

heyvandarlıq binalarının özəlləşdirilməsi tam qurtarmamışdır. Belə ki, 2001-ci il yanvarın 1-i vəziyyətinə ictimai təsərrüfatlara məxsus yük avtomobillərinin 14,0%-i, traktorların 8,8%-i, pambıqyığan kombaynların 6,5%-i, iri buynuzlu malqara tövlələrinin 10,1%-i, qoyun yataqlarının 5,1%-i özəlləşdirilməmiş qalmışdır.*

Ölkə üzrə faktiki olaraq özəlləşdirilmiş əmlakın dəyəri xüsusi mülkiyyətə verilməsi nəzərdə tutulan əmlakın 94,9%-i qədər olmuşdur.

Torpaq islahatının gedişi barədə 2001-ci il yanvarın 1-nə olan məlumata əsasən xüsusi mülkiyyətə veriləcək 1342,9 min ha torpaq sahəsinin 1329,3 min ha-ı artıq paylanmış, torpaq payı alacaq ailələrin 98,5%-i öz torpaq sahələrinə sahib olmuşdur. Orta hesabla bir ailəyə 1,6 ha torpaq sahəsi verilmişdir. *

Qeyd edilməlidir ki, özünün bütün çatışmazlıqları ilə bərabər kənd təsərrüfatı III bölməyə daxil olan sahələr üçün xammal bazası rolunu oynayır. Həmin sahələrə daxil olan müəssisələrin əksəriyyəti özəlləşdirilmiş və bəzilərinin əsasında xarici şirkətlərlə birlikdə müştərək müəssisələr yaradılmışdır. Bu proses son illər, xüsusilə 1999-2000-ci illərdə müvafiq məhsul istehsalında xeyli irəliləyiş əldə etməyə imkan vermişdir. Belə ki, 1999-2000-ci illərdə məhsul istehsalı yeyinti sənayesində 2,2%, unüyütmə-yarma sənayesində 45,1%, yüngül sənayenin aqrar-sənaye kompleksinə aid hissəsində 20,1%-ə qədər artmışdır. * bax diaqram 1 və 2.

I bölmənin sahələrinə gəldikdə, qeyd edilməlidir ki, onlar aqrar-sənaye kompleksi sistemində çox zəif təmsil olunmuşlar (bir neçə kiçik kənd təsərrüfatı maşınqayırma müəssisəsi, bostançılıq alətləri istehsalı, qarışıq yem sənayesi, bəzi kimya müəssisələri, kənd təsərrüfatı tikintisi, həmçinin kiçik təmir müəssisələri və s.) statistik məlumatların tədqiqinin göstərdiyi kimi, 1994-2000-ci illərdə ümumi

*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları

məhsul istehsalında sənaye sahələrinin xüsusi çəkisi 85,1%-dən 75,4%-dək aşağı düşmüşdür. Kimya sənayesində vəziyyət daha ağırdır. Belə ki, 1995-1997-ci illər ərzində kənd təsərrüfatına göndərilən mineral gübrələrin həcmi 57,0%, o cümlədən azot gübrələri üzrə 49,5%, fosfat gübrələri üzrə 84,2% aşağı düşmüşdür. 1998-1999-cu illərdə kənd təsərrüfatına mineral gübrə göndərilməmişdir.*

I və II bölmələrə daxil olan sahələrin ərazi təşkilinə gəldikdə, qeyd edilməlidir ki, onlar Abşeron, Gəncə, Qazax, Mil-Qarabağ və Şəki iqtisadi rayonlarında daha yüksək səviyyədə təmsil olunmuşlar.

Aqrar-sənaye kompleksinin fəaliyyətində IV və V bölmələrin sahə və müəssisələrinin də rolu az deyildir. Belə ki, onlar kompleks əmələ gətirən sahələrə ticarət və nəqliyyat xidməti göstərirlər, kənd təsərrüfatı məhsullarının tədarükü, nəqli və satışı ilə məşğul olurlar. Hal-hazırda həmin bölmə sahələrinin bazar iqtisadiyyatına uyğun formada yenidən qurulması prosesi həyata keçirilir.

Müasir şəraitdə aqrar-sənaye kompleksinin fəaliyyətində Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı (DB) və digər beynəlxalq maliyyə təşkilatları tərəfindən respublikaya göndərilmiş və yönəldiləcək xarici investisiyaların rolu olduqca böyükdür. Bu cür köməyin Azərbaycanda bir-biri ilə əlaqədər dörd əlahiddə istiqamətləri mövcuddur.

Əvvəla, struktur dəyişiklikləri prosesində bu təşkilatlar qiymət əmələgəlmə və kənd təsərrüfatı məhsullarının satınalma qiymətlərinin müəyyənləşdirilməsində dövlətin islahat siyasətini müdafi edirlər.

İkinci, əsasən BVF və DB fermer təsərrüfatlarının özəlləşdirilməsi və yenidən qurulması mexanizmini işlənib hazırlanmasında dövlətə köməklik məqsədi ilə pilot proqramının hazırlanması işində yardım edirlər. Bu işlər əsasən məsləhət xarakteri daşıyaraq mövcud yerli potensialın inkişafının maliyyələşdirilməsindən ibarətdir. Burada əsas

---

*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları

məqsəd təsərrüfatlarda yenidənqurma işlərinin həyata keçirilməsində, torpaq qeydiyyatı sisteminin işlənməsində, yeni təsərrüfat infrastrukturunun yaradılmasında, həmçinin müasir tipli təsərrüfatların əsaslı vəsaitlə təmin edilməsində yardımçı olmaqdır.

Üçüncüsü, beynəlxalq maliyyə təşkilatları xüsusi mülkiyyətə əsaslanan yeni irriqasiya sisteminin yaradılması və köhnəsinin yenidən qurulması işinin layihəsinin hazırlanması prosesinin maliyyələşdirilməsini, həmçinin onun hüquqi əsaslarının yaradılmasını həyata keçirirlər.

Diaqram 1.

**Yeyinti sənayesində istehsalın fiziki həcm indeksi**
**(keçən ilin müvafiq dövrünə nisbətən; faizlə)**



Diaqram 2




Dördüncüsü, beynəlxalq valyuta təşkilatları respublikan maliyyə bölməsində, o cümlədən Birləşmiş Universal Səhmd Bankının aqrar sistemində həyata keçirilən islahatlara da köməkliy nəzərə alınmasını öz üzərlərinə götürürlər.

Hal-hazırda Bərdə, Salyan, Ucar və Xaçmaz rayonların yerləşmiş təcrübə təsərrüfatlarının özəlləşdirilməsi layihəsi həya keçirilir. Burada torpaqların qeydiyyatı, fermerlər, xüsusi assosia iyalar, su istehlakçıları üçün informasiya və məsləhət, həmçin irriqasiya infrastrukturunun yenidən qurulması və xüsusi ferm təsərrüfatlarının lazımi kreditlərlə təmin olunması üzrə sistemlə inkişafına köməklik göstərilir. Layihənin ümumi dəyəri 28,8 ml ABŞ dollarına bərabərdir ki, bunun da 14,7 mln, dolları Dünya Ban qrupunun üzvü olan Beynəlxalq İnkişaf Assoasiyasının, 9,3 ml



lları isə Kənd Təsərrüfatının İnkişafı Fondunun (İFAD) payına işür. Kredit 35 ilə (10 il imtiyazlı müddətdir) 0,75 faizlə verilmişdir.

Azərbaycanın yerli xüsusiyyətlərini nəzərə alan regional aqrar roqram hazırlanır. Bu işdə Avropa Komissiyası tərəfindən 1996-cı ın əvvəllərində hazırlanmış və müştərək fondun istifadəsinə yönəlilmiş layihənin böyük rolu olmuşdur. Bu fond Azərbaycanda təqriən 16 mln.ABŞ dollarına bəradərdir. Eyni zamanda fondun vəsaitərindən istifadə etmək məqsədi ilə kredit sxemi də hazırlanmışdır. ləmin layihə çərçivəsində əsas kredit alanlar aşağıdakılar olmuşlar:

1. Fermerlər;
2. Xüsusi emaledici strukturlar;
3. Xüsusi ticarət strukturları;
4. Kredit kooperativləri (hər biri 25-30 aztorpaqlı fermerləri özündə birləşdirir).

Məlum olduğu kimi, ölkənin irriqasiya kompleksinin yenidən urulması kənd təsərrüfatının məhsuldarlığının həlli işində mühüm rol ynayağaqdır. Belə ki, respublikanın ümumi əkin sahələrinin 70%-ə ədəri suvarma zonasında yerləşir. Bu problemin həlli üçün də böyük əcmdə kredit lazımdır.

İslam İnkişaf Bankı (İİB) ilə bağlanmış müqaviləyə əsasən yaxın axtlarda Baş Mil-Muğan kollektorunun yenidən qurulması məqsədi ilə 9,8 mln. ABŞ dolları həcmində kredit ayrılmışdır. Ölkənin irriqasiya-drenaj nfrastrukturunun bərpasına yönəldilmiş növbəti layihə Dünya Bankı ərfindən maliyyələşdirilir. Onun dəyəri 75 mln. ABŞ dollarına bərabərdir.

Aqrar bölmənin perspektiv inkişafı sisteminin texniki təminatı əviyyəsindən də asılıdır. Bu məqsədlə TASİS proqramı üzrə respublikaya Yaponiya və Avropa Şurası böyük köməklik göstərirlər. Yaponiya espublikanın bir sıra rayonunda aqroservisin yaradılmasına 3,5 mln. ABŞ dolları ayırmışdır. Eyni vaxtda TASİS proqramı çərçivəsində Füzuli rayonunun bərpasına 1 milyon AVRO həcmində kreditin ayrılması nəzərdə tutulmuşdur.

Qeyd edilməlidir ki, kənd təsərrüfatı istehsalının inkişafına, həmçinin bir sıra mühüm irriqasiya obyektlərinin bərpasına həsr edilmiş layihə və təkliflərlə bərabər, investisiyalar aqrar bölmənin konserv, tiqaret, çay sənayesi və s. kimi mühüm emaledici sahələrinə də yönəldilmişdir.

... ixtisaslaşmış Xaçmaz və Masallı konserv zavodları üçün dəyəri 0,71 mln. ABŞ dolları olan oseptik qablaşdırma xətləri əldə edilmişdir. Digər konsert zavodlarının avadanlıqlarının da təzələnməsinə ehtiyac vardır. Bu zavodların mühüm problemi müasir qablaşdırma tarasının olmamasıdır.

Azərbaycanda artıq ilk müştərək çay emalı müəssisələri yaradılmışdır. Onlar Bakı, Lənkəran və Masallı çayqablaşdırma fabriklərində fəaliyyət göstərirlər. Bu fabriklərdə müvafiq olaraq «İntersun» (Türkiyə), «Beta» (Türkiyə) və «Saro» (Türkiyə) şirkətləri xarici şəriklərdir.

Məlum olduğu kimi, Azərbaycanın kənd təsərrüfatı gübrə, pestisid və kənd təsərrüfatı texnikasının idxalından asılıdır. Belə ki, Azərbaycanın azot gübrələrinə tələbatı 350 min ton, fosfor gübrələrinə 250 min ton, kalium gübrələrinə tələbatı isə 20 min tondur. Bu halda gübrə və pestisid istehsalının artırılması Azərbaycan üçün aktual məsələyə çevrilir. Eyni zamanda məlumdur ki, Azərbaycanın kimya sənayesinin yüksək isthsal potensialı vardır. Sumqayıt şəhərində iri superfosvat zavodu fəaliyyət göstərir. Ancaq Rusiyadan apatit formasında xammalın gətirilməməsi ucbatından müəssisə işləmir. Ona görə də bu zavodun xarici investorlarla müştərək müəssisəyə çevrilməsi həm Azərbaycan, həm də xarici şəriklər üçün mühüm əhəmiyyətə malikdir.

Şəmkir rayonunda mis kuporosu istehsalı üçün əsas olan yataq kəşf edilmişdir. Bu məhsulun üzümlüklərin, meyvə bağlarının və tərəvəz əkinlərinin ziyanvericilərdin qorunmasında mühüm əhmiyyəti vardır.

Əli-Bayramlı şəhərində azot gübrələri istehsalının təşkilinin də mühüm əhəmiyyəti vardır. Belə ki, bu şəhər respublikanın sənaye mərkərzlərindən biri olmaqla bərabər, pambıq istehsalı və emalı zonalarına yaxın yerləşən zəngin elektrik enerjisi və su ehtiyatlarına malikdir.

Xüsusi fermer təsərrüfatlarının lazımi maddi-texniki resurslarla təminatı məqsədi ilə müvafiq aqroservis sistemi yaradılır.

Ölkədə inflyasiya səviyyəsinin aşağı olmasını, eyni zamanda fermer təsərrüfatlarında və kommersiya banklarında lazımi kapitalın



qıtlığı aqroservis sahəsində lizinqin təşkilini optimallaşdırır. Ölkədə 1999-2000-ci illərdə Azərlizinq müştərək müəssisəsi fəaliyyət göstərmişdir. Müəssisə həyata keçirilmək üçün bir neçə layihə hazırlamışdır. Lakin, maliyyə qıtlığı bu işlərin axıra çatdırılmasına mane olmuşdur.

## XİDMƏT SAHƏLƏRİ

Xidmət sahələri Azərbaycan iqtisadiyyatında mühüm yer tutaraq, bazar iqtisadiyyatı şəraitində işçi qüvvəsinin daha çox cəlbi ilə seçilir.

Məlum olduğu kimi, əhalinin fasiləsiz surətdə ərzaq, sənaye məhsulları, habelə ictimai iaşə xidməti ilə təmin edilməsində ticarətin inkişafının, onun maddi-texniki bazasının möhkəmləndirilməsinin mühüm əhəmiyyəti vardır.

Ticarət ictimai iaşə maddi istehsal sahəsidir. Burada istehsal sahələrinə nisbətən əməktutumu aşağıdır. 2000-ci ildə xalq təsərrüfatında işləyənlərin 19,0%-i onun payına düşür. Ölkəmizdə bazar iqtisadiyyatının əsaslarının qurulması ilə əlaqədar ticarət tamamilə özəlləşdirilmişdir.

Respublikamızda əhalinin pul gəlirinin artması və ticarətin maddi texniki bazasının möhkəmləndirilməsi sayəsində pərakəndə əmtəə dövriyyəsinin həcmi ildən-ilə artır. Belə ki, 1999-2000-ci illərdə pərakəndə ticarət dövriyyəsi 9,8% artmışdır.

Ticarətin ərazi təşkilində və strukturunda mühüm irəliləmələr baş vermişdir. İctimai iaşə daha surətdə inkişaf edir. Mağazaların ixtisaslaşdırılması geniş tətbiq edilmişdir. Belə ki, respublikada olan bütün mağazaların yarıdan çoxu ixtisaslaşdırılmışdır. İxtisaslaşdırılmış ərzaq mağazaları arasında çörək-bulka, meyvə-tərəvəz və universal assortimentli ərzaq mağazaları üstündür. Parça, ayaqqabı, paltar, qab-qacaq satışı üzrə ixtisaslaşdırılmış mağazaların sayı daha surətlə artmışdır.

Son illərdə sənaye mərkəzlərində böyük soyuducu kombinatlar, müasir avadanlıq və texnika ilə təchiz edilmiş iri anbarlar, meyvə-tərəvəz anbarları, ticarət evləri, universam,

univermaq və digər ixtisaslaşdırılmış ticarət müəssisələri işə salınmışdır. Nəticədə əhaliyə ticarət xidməti xeyli yaxşılaşmış və əmtəə dövriyyəsi yüksəlmişdir.

Ümumiyyətlə, 2000-ci ildə istehlak bazarında əhaliyə 12985,3 milyard manatlıq istehlak malları satılmış və pullu xidmətlər göstərilmişdir. Əmtəə satışının və pullu xidmətlərin real həcmi 1999-cu illə müqayisədə 9,0 faiz artmış, onun 87,6 faizi əmtəə satışının artımı hesabına təmin edilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin fiziki həcmi 9,8 faiz, pullu xidmətlərin həcmi isə 5,8 faiz artmışdır. Pərakəndə əmtəə dövriyyəsinin fiziki həcminin artması istehlak bazarının əmtəə resursları ilə təminatının yüksək səviyyəsi ilə xarakterizə olunur.

Pərakəndə əmtəə dövriyyəsinin və əhaliyə göstərilən pullu xidmətlərin ümumi həcmi aşağıdakı kimi xarakterizə olunur:

| | 2000-ci il, milyard manatla | O cümlədən dekabr ayı | Fiziki həcm indeksləri, faizlə | |
|---|---|---|---|---|
| | | | 2000-ci ilə 1999-cu ilə nisbətən | 2000-ci ilin dkabr ayı 1999-cu ilin dekabr ayına nisbətən |
| Pərakəndə əmtəə dövriyyəsinin və əhaliyə göstərilən pullu xidmətlərin pullu xidmətlərin ümumi həcmi | 12985,3 | 1179,2 | 109,0 | 109,1 |
| O cümlədən: | | | | |
| Pərakəndə əmtəə dövriyyəsi, iaşə daxil olmaqla | 10599,4 | 977,4 | 109,8 | 109,8 |
| ondan: | | | | |
| pərakəndə ticarətin | 10507,2 | 969,2 | 109,8 | 109,8 |
| dövriyyəsi pullu | 92,2 | 8,2 | 106,7 | 108,6 |
| xidmətlərin həcmi | 2385,9 | 201,8 | 105,8 | 106,4 |

İqtisadiyyatın bazar münasibətlərinə keçidi, ticarətdə qeyri-dövlət mülkiyyət formalarının yüksək surətdə inkişafı, bazarlarda, yarmarkalarda fiziki şəxslər tərəfindən istehsal mallarının satış həcminin artması pərakəndə əmtəə dövriyyəsinin strukturuna xeyli



təsir göstərmişdir. Pərakəndə əmtəə dövriyyəsinin həcmində rəsmi qeydiyyatdan keçmiş ticarət təşkilatlarının xüsusi çəkisi 29,0 faizdən 28,2 faizədək azalmışdır. Əvvəlki ilə nisbətən bu müəssisələr üzrə pərakəndə əmtəə dövriyyəsinin real həcmi 4,0 faiz artmış və artımın 34,5 faizi iri və orta müəssisələrin hesabına təmin edilmişdir. Rəsmi qeydiyyatdan keçmiş ticarət təşkilatlarının pərakəndə əmtəə dövriyyəsinin 69,5 faizi kiçik müəssisələrin payına düşmüşdür. Əvvəlki illə müqayisədə kiçik müəssisələr üzrə pərakəndə əmtəə dövriyyəsinin real həcmi 3,8 faiz, iri və orta müəssisələr üzrə isə 4,6 faiz artmışdır.

İri və orta müəssisələr üzrə pərakəndə əmtəə dövriyyəsinin [illegible]8,7 faizi, kiçik müəssisələr üzrə isə 94,8 faizi fəaliyyət növü ticarət sayılan təşkilatların payına düşmüşdür.

Pullu xidmətlərin ümumi həcminin 10,3 faizi əsas fəaliyyət növü ticarət olan müəssisələrin, 40,2 faizi nəqliyyat, anbar təsərrüfatı və rabitə, 21,3 faizi emal sənayesi, 15,6 faizi, elektrik enerjisi, qaz və su təchizatı, 5,9 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və s. kommersiya fəaliyyəti, 3,7 faizi təhsil, 2,1 faizi səhiyyə və sosial xidmətlər, 0,9 faizi digər müəssisə və təşkilatların payına düşür.

2000-ci ildə əhaliyə pərakəndə ticarət şəbəkəsindən 10507,2 milyard manatlıq, iaşə müəssisələrindən 92,2 milyard manatlıq və ya əvvəlki illə müqayisədə müvafiq olaraq 9,8 faiz və 6,7 faiz çox əmtəə satılmışdır.

Pərakəndə əmtəə dövriyyəsinin həcmi aşağıdakı məlumatlarla xarakterizə olunur:

| | 2000-ci il, milyard manatla | O cümlədən dekabr ayı | Fiziki həcm indeksləri, faizlə | |
|---|---|---|---|---|
| | | | 2000-ci ilə 1999-cu ilə nisbətən | 2000-ci ilin dkabr ayı 1999-cu ilin dekabr ayına nisbətən |
| Pərakəndə şəbəkənin əmtəə dövriyyəsi | 10507,2 | 969,2 | 109,8 | 109,8 |
| O cümlədən: | | | | |
| ticarət təşkilatları | 2920,9 | 254,3 | 104,0 | 100,3 |
| bazarları, yarmarkalar və digər fiziki şəxslər | 7586,3 | 714,9 | 112,2 | 113,6 |

üzrə satışın 27,8 faizi ticarət təşkilatlarının, 13,6 faizi kənd təsərrüfatı məhsulları bazarlarının, 25,4 faizi ərzaq, əşya və qarışıq mallar satışı ilə məşğul olan yarmarkaların 33,2 faizi fiziki şəxslərin payına düşmüşdür.

Hesabat məlumatlarının təhlili göstərir ki, ticarət təşkilatları ilə müqayisədə fiziki şəxslər üzrə ticarət daha yüksək surətdə inkişaf edir. Pərakəndə əmtəə dövriyyəsi üzrə real artımın yalnız 12,0 faizi hüquqi şəxslərin hesabına əldə edilmişdir.

Əvvəlki illə müqayisədə pərakəndə əmtəə dövriyyəsinin real həcmi yarmarlar üzrə 10,5 faiz, fiziki şəxslər üzrə 16,0 faiz, kənd təsərrüfatı məhsullura bazarları üzrə 6,8 faiz artmışdır.

Əmtəə dövriyyəsinin strukturunda ərzaq məhsulların xüsusi çəkisinin azalmasına baxmayaraq onlar hələlik üstünlük təşkil edir. 2000-ci ildə ölkə əhalisinə 7235,5 milyard manatlıq ərzaq, 3363,9 milyard manatlıq qeyri-ərzaq maları satılmış, onların real həcmi müvafiq olaraq 9,0 və 11,6 faiz artmışdır. Ərzaq mallarının 98,7 faizi pərakəndə şəbəkə vasitəsi ilə satılmışdır. Pərakəndə şəbəkənin əmtəə dövriyyəsinin strukturunda ərzaq və qeyri-ərzaq mallarının xüsusi çəkisi müvafiq olaraq 68,0 və 32,0 faizi olmuşdur.

Pərakəndə əmtəə dövriyyəsinin 1,5 faizi dövlət, 98,5 faizi qeyri-dövlət mülkiyyətinin payına düşür və mülkiyyət formaları üzrə aşağıdakı kimi xarakterizə olunur:

| | 2000-ci il, milyard manatla | O cümlədən dekabr ayı | Fiziki həcm indeksləri, faizlə | |
|---|---|---|---|---|
| | | | 2000-ci ilə 1999-cu ilə nisbətən | 2000-ci ilin dkabr ayı 1999-cu ilin dekabr ayına nisbətən |
| Pərakəndə şəbəkənin əmtəə dövriyyəsi | 10507,2 | 969,2 | 109,8 | 109,8 |
| O cümlədən: | | | | |
| Dövlət mülkiyyət üzrə | 157,3 | 13,4 | 91,8 | 92,8 |
| qeyri-dövlət mülkiyyət üzrə | 10349,9 | 955,8 | 110,1 | 110,0 |
| ondan: istehlak kooperasiyası | 18,2 | 1,8 | 96,4 | 106,1 |

Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində iaşə müəssisələrinin payı 0,9 faiz təşkil etmiş və dövriyyənin 27,2 faizi



...dil, 72,8 faizi qeyri-dövlət müəssisələri tərəfindən həyata keçirilmişdir. Əvvəlki illə müqayisədə iaşə müəssisələrinin əmtəə dövriyyəsinin bu sahələr üzrə fiziki həcm indeksləri müvafiq olaraq 0,9 və 114,1 faiz təşkil etmişdir. Qeyri-dövlət mülkiyyət üzrə iaşə əmtəə dövriyyəsinin 34,0 faiz real həcmi əvvəlki ilə nisbətən 8,0 faiz artan fiziki şəxslərin fəaliyyəti sayəsində formalaşmışdır.

2000-ci ildə təbii yanacaq (qaz kondensatı da daxil olmaqla neft, təbii qaz) resurslarının həcmi əvvəlki ilin səviyyəsində qalmış, neft 26,6 milyon ton şərti yanacaq təşkil etmişdir. Həmin dövrdə neft (qaz kondensatı da daxil olmaqla) 14,1 milyon ton və ya 1999-cu illə müqayisədə 2 faiz artmış, təbii qaz isə 5642,7 milyon kub metr olaraq 5,9 faiz azalmışdır. Hesabat ilində yanacaq bazarına 7,4 milyon ton neft emalı məhsulları göndərilmiş, onun 73 faizi ölkə daxilində satılmış və 27 faizi xarici ölkələrə ixrac olunmuşdur.

Yanvar-dekabr aylarında neft emalı müəssisələri tərəfindən daxili istehlakçılara 5,4 milyon ton, yaxud əvvəlki illə müqayisədə 5 faiz çox neft emalı məhsulları, o cümlədən 4,1 milyon ton yanacaq mazutu, 570,0 min ton dizel yanacağı, 320,6 min ton avtomobil benzini, 177,4 min ton ağ neft, 131,9 min ton mühərrik yanacağı, 30,8 min ton məişət-soba yanacağı, 17,3 min ton neftbitum və s. göndərilmişdir. Dizel yanacağının, avtomobil benzinin, ağ neftin, neftbitumun, yanacaq mazutu və məişət-soba yanacağının satışı keçən ilin səviyyəsini üstələmişdir.

Neft emalı məhsullarından – avtomobil benzinin 59 faizi, dizel yanacağının 71 faizi, ağ neftin 73 faizi, dizel yağlarının 78 faizi «Azərnefttəchizat» Birliyinə, dizel yanacağının 19 faizi, avtomobil benzinin 32 faizi «Azpetrol» Holdinq LTD-yə, məişət-soba yanacağının 88 faizi Dövlət Xəzər Dəniz Cəmiyyətinə, mühərrik yanacağının 91 faizi «Azərenerji» Səhmdar Cəmiyyətinə göndərilmişdir. Adları sadalanan məhsullari həmin təşkilatlar üçün nəzərdə tutulduğundan göndərilmişdir.

Kənd təsərrüfatına avtomobil-benzinin, dizel yanacağının və yanacaq mazutunun göndərilməsi aşağıdakı kimi olmuşdur (min tonla):

| | |
|---|---|
| Mingəçevir şəhəri | 185256,7 |
| Naftalan şəhəri | 84222,2 |
| Sumqayıt şəhəri | 174111,5 |
| Abşeron rayonu | 121530,0 |
| Ağcabədi rayonu | 83257,3 |
| Ağdam rayonu | 109452,7 |
| Ağdaş rayonu | 85926,3 |
| Ağstafa rayonu | 103843,9 |
| Ağsu rayonu | 120296,0 |
| Astara rayonu | 107416,0 |
| Bəlakən rayonu | 97922,4 |
| Beyləqan rayonu | 110334,8 |
| Bərdə rayonu | 106903,4 |
| Biləsuvar rayonu | 124101,7 |
| Cəlilabad rayonu | 148102,8 |
| Daşkəsən rayonu | 129678,6 |
| Dəvəçi rayonu | 128380,7 |
| Fizuli rayonu | 103451,0 |
| Gədəbəy rayonu | 137044,8 |
| Goranboy rayonu | 103928,2 |
| Göyçay rayonu | 99917,2 |
| Hacıqabul rayonu | 132100,6 |
| Siyəzən rayonu | 277730,6 |
| Şağaxı rayonu | 114101,7 |
| Şəki rayonu | 108996,0 |
| Şəmkir rayonu | 111813,7 |
| Şuşa rayonu | 120588,1 |
| Tərtər rayonu | 101423,6 |
| Tovuz rayonu | 104934,4 |
| Xaçmaz rayonu | 120951,0 |
| Xızı rayonu | 139134,1 |
| Xocalı rayonu | 117029,5 |
| Xocavənd rayonu | 125573,9 |
| İmişli rayonu | 132158,2 |
| İsmayıllı rayonu | 115513,8 |
| Kəlbəcər rayonu | 136224,5 |
| Kürdəmir rayonu | 115868,9 |
| Qax rayonu | 89536,7 |
| Qazax rayonu | 96616,6 |
| Qəbələ rayonu | 114536,3 |
| Qobustan rayonu | 123427,7 |
| Quba rayonu | 123855,8 |
| Qubadlı rayonu | 114649,4 |
| Qusar rayonu | 112599,6 |
| Laçın rayonu | 151074,2 |
| Lerik rayonu | 117683,6 |
| Lənkəran rayonu | 99841,6 |
| Masallı rayonu | 131678,9 |
| Neftçala rayonu | 196784,0 |
| Oğuz rayonu | 103183,3 |
| Saatlı rayonu | 159863,8 |
| Sabirabad rayonu | 126743,2 |
| Səlyan rayonu | 147019,4 |
| Samux rayonu | 126360,6 |
| Zaqatala rayonu | 90609,0 |
| Zəngilan rayonu | 81773,2 |
| Zərdab rayonu | 104155,0 |

Cari ilin əvvəlindən müəssisə və təşkilatlarda çalışan işçilər 16,1 mlrd. manatlıq sosial xüsusiyyətli ödəmələr verilmişdir.

Səsial ödəmələrin çox hissəsi nəqliyyat və rabitə sahələrində mənədçıxarma və emal sənayesində, icarə, kommersiya, daşınmaz əmlak, maliyyə vasitəçiliyində çalışan işçilərə verilmişdir.

Müəssisə və təşkilatlarda çalışan kənar əvəzçilərin orta aylıq nominal əmək haqqı 139,8 min manat və hüquqi-vətəndaşlıq xarakterli müqavilələr üzrə işləyənlərin orta aylıq nominal əmək haqqı 275,4 min manat təşkil etmişdir.



Mənzil kommünal təsərrüfatının inkişafı əhalinin həyat səviyyəsinin və əmək məhsuldarlığının yüksəldilməsində mühüm rol oynayır. Respublikamızda mənzil kommunal təsərrüfatı sürətlə inkişaf etdirilir. Son 10 il ərzində respublikanın şəhər və kəndlərində mənzil və kommunal şəraitinin yaxşılaşdırılmasında mühüm nailiyyətlər əldə edilmişdir.

Təkcə 2000-ci ildə bütün maliyyə mənbələri hesabına ümumi sahəsi 444,0 min kvadrat metr olan və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,7 faiz çox yaşayış evləri istifadəyə verilmişdir. İstifadəyə verilmiş yaşayış evlərinin 73,4 min kvadrat metri (16,5 faizi) dövlət mülkiyyətində olan sifarişçi təşkilatlar, 370,6 min kvadrat metri (83,5 faizi) qeyri-dövlət mülkiyyətində olan sifarişçi təşkilatlar tərəfindən istifadəyə verilmişdir. İstifadəyə verilmiş yaşayış evlərinin 332,8 min kvadrat metrinin (75,0 faizi) tikintisi əhalinin şəxsi vəsaiti hesabına həyata keçirilmişdir. Hesabat dövründə 40 çarpayılıq xəstəxana, növbədə 70 nəfər qəbul edən ambulatoriya-poliklinika müəssisəsi və 2410 şağrid yerlik 8 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmişdir. İstifadəyə verilmiş məktəblərin tikintisi dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına aparılmışdır.

**Yaşayış uvlərinin istifadəyə dinamikası aşağıdakı kimi olmuşdur:**

| | Ümumi sahə, min kvadrat metr | Əvvəlki ilin müvafiq dövrünə nisbəti, faizlə | Əvvəlki aya nisbəti, faizlə |
|---|---|---|---|
| 1999-cu il | | | |
| yanvar | 21,2 | - | 19 |
| fevral | 11,0 | 4,1 | 52 |
| mart | 26,7 | 37,0 | 2,4d |
| I rüb | 58,9 | 79,0 | - |
| Aprel | 19,0 | 80,0 | 71 |
| May | 19,0 | 69,0 | 100 |

| | | | |
|---|---|---|---|
| İyun | 28,3 | 32,0 | 149 |
| II rüb | 66,3 | 47,0 | - |
| I yarımil | 125,2 | 56,0 | - |
| İyul | 19,6 | 52,0 | 69 |
| Avqust | 20,2 | 47,0 | 103 |
| Sentyabr | 37,6 | 94,0 | 186 |
| III rüb | 77,4 | 64,0 | - |
| Yanvar-sentyabr | 202,6 | 60,0 | - |
| Oktyabr | 25,5 | 71 | 68 |
| Noyabr | 31,9 | 84 | 125 |
| Dekabr | 156,0 | 89 | 3,5d |
| IV rüb | 231,4 | 108 | - |
| Yanvar-dekabr | 416,0 | 78 | - |
| 2000-ci il | | | |
| yanvar | 18,9 | 89;2 | 17,1 |
| vefral | 18,9 | 171,9 | 100 |
| mart | 29,6 | 110,0 | 157 |
| I rüb | 67,4 | 114,0 | - |
| Aprel | 21,0 | 112,0 | 71 |
| May | 40,6 | 2,1d. | 193 |
| İyun | 39,6 | 140,0 | 98 |
| II rüb | 101,2 | 153,0 | - |
| I yarımil | 168,6 | 135,0 | - |
| İyul | 23,0 | 117,0 | 58 |
| Avqust | 27,6 | 137,0 | 120 |
| Sentyabr | 29,5 | 78,4 | 106,9 |
| III rüb | 80,1 | 103,5 | - |
| Yanvar-sentyabr | 248,7 | 122,8 | - |
| Oktyabr | 20,3 | 79,6 | 68,8 |
| Noyabr | 33,5 | 104,9 | 165,5 |
| Dekabr | 141,5 | 90,7 | 4,2d |
| IV rüb | 195,3 | 91,5 | - |
| Yanvar-dekabr | 444,0 | 106,7 | - |

**İstifadəyə verilmiş yaşayış evlərinin dinamikası (ümumi sahə, min kvadrat metr)**




Hesabat ilində tikinti sahəsində fəaliyyət göstərən podratçı təşkilatlar öz gücləri ilə 1584.4 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 20,9 faiz çox tikinti işləri yerinə yetirmişdir. Yerinə yetirilmiş tikinti işlərin 868,0 milyard manatını (54,8 faizini) yeni tikinti, yenidənqurma və genişləndirmə işləri, 411,6 milyard manatını (26,0 faizini) əsasını təmir, 75,7 milyard manatını (4,8 faizini) cari təmir, 229,1 milyard manatını (14,4 faizini) isə sair podrat işləri təşkil etmişdir. Öz gücləri ilə yerinə yetirilmiş podrat işlərinin 827,6 milyard manatı (52,2 faizi) dövlət mülkiyyətində olan təşkilatların, 756,8 milyard manatı (47,8 faizi) isə qeyri-dövlət mülkiyyətində olan tikinti təşkilatlarının payına düşür.

2000-ci il dekabr ayının 1-də tikinti sahəsində çalışan işçilərin orta siyahı sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,9 faiz artmış və 37,0 min nəfər təşkil etmişdir. Hər bir işçinin orta aylıq nominal əmək haqqı 414,3 min manat (əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 7,4 faiz çox) olmuşdur. Tikinti sahəsində fəaliyyət göstərən təşkilatlarda çalışan

işçilərin 82,1 faizi dövlət təşkilatlarında, 17,9 faizi isə qeyri-dövlət təşkilatlarında cəmləşmişdir.

İri, orta, xarici və müştərək müəssisələrdə çalışan işçilərin o[...] siyahı sayı 27,9 min nəfər, hər bir işçinin orta aylıq əmək haqqı 49[...] min manat olmuşdur.

Öz gücləri ilə yerinə yetirilmiş podrat işlərin strukturu aşağıd[...] kimi olmuşdur.

**Tikinti podrat müqavilələri üzrə yerinə yetirilmiş işləri[n] həcminin dinamikası**

| | Öz gücləri ilə yerinə yetirilmiş podrat işlərinin həcmi, milyard manat | Əvvəlki ilin müvafiq dövrünə nisbəti, faizlə | Əvvəlki ay[a] nisbətən, faizlə |
|---|---|---|---|
| Noyabr | 98.6 | 86 | 103 |
| Dekabr | 133.6 | 98 | 135 |
| IV rüb | 327.9 | 84 | - |
| Yanvar-dekabr | 1378.7 | 86 | - |
| 2000-ci il | | | |
| yanvar | 116.9 | 132 | - |
| fevral | 115.1 | 117 | 99 |
| mart | 117.0 | 121 | 102 |
| I rüb | 349.0 | 123 | - |
| Aprel | 127.1 | 129 | 109 |
| May | 100.4 | 70 | 79 |
| İyun | 115.1 | 64 | 115 |
| II rüb | 342.6 | 81 | - |
| I yarımil | 691.6 | 98 | - |
| İyul | 167.3 | 118 | 145 |
| Avqust | 141.0 | 105 | 84 |
| Sentyabr | 110.5 | 75.9 | 78 |
| III rüb | 418.8 | 96.0 | - |
| Yanvar-sentyabr | 1110.4 | 114.7 | - |
| Oktyabr | 118.3 | 102.4 | 107.1 |
| Noyabr | 172.8 | 174.9 | 146.1 |



| | | | |
|---|---|---|---|
| [De]kabr | 182.9 | 151.9 | 105.8 |
| [IV] rüb | 474.0 | 138.3 | - |
| [Ya]nvar-dekabr | 1584.4 | 120.9 | - |

Bir sıra təbii, iqtisadi və sosial amillərlə əlaqədar olaraq [re]spublikamızda ərazisinin ayrı-ayrı hissələrində, xüsusən [şə]hərlərdə və kəndlərdə əhalinin həyat səviyyəsində və xidmət [sa]hələrinin coğrafiyasında mühüm regional fərqlər nəzərə çarpır.

Respublika məişət müəssisələrinin ancaq üçdə birə qədəri [kə]nd yerlərində yerləşir. Həm də bu müəssisələr əksəri kiçikdir və [on]ların texniki bazası, iş yerləri məhduddur. Buna görə də kənd [ye]rlərindəki məişət xidməti müəssisələri əhalinin tələbatını tam [ödə]yə bilmir. Respublika məişət xidməti işçilərinin ancaq altında [bi]ri kənd yerlərində yaşayır.

Respublikanın kənd yaşayış məntəqələrinin dörddə üçü məişət [xi]dməti evlərindən azı 10 km uzaqda yerləşir. Nəticədə kənd əhalisi [mə]işət xidmətindən lazımınca istifadə edə bilmir.

Bu uyğunsuzluqları aradan qaldırmaq üçün respublikamızda, [xü]susən kənd yerlərində xidmət sahəsinin üstün sürətlə inkişaf [etdi]rilməsi vəzifəsi qarşıya qoyulmuşdur.

Əhalinin güzaranı yaxşılaşdıqca və həyat səviyyəsi [yü]ksəldikcə istirahət etmək, fəal dincəlmək məqsədi ilə ekskursiya [və] turist səfərlərinə çıxmaq imkanları artır. Respublikada istirahətin, [tu]rizmin və kurort təsərrüfatının inkişafı üçün əlverişli təbii, sosial-[iq]tisadi imkanlar vardır.

Mövcud təbii ehtiyatlardan istifadə edilərək respublikada [ku]rort-turist müəssisələri sistemi yaradılmışdır.

Respublikamızın cənub mövqeyi və dağlıq relyefi, 800 km-dən [uz]un məsafədə mavi Xəzərin onu əhatə etməsi təbii şərait və təbii [eh]tiyatların olduqca rəngarəngliyinə səbəb olmuşdur. Yer kürəsində [m]üşahidə edilən 11 iqlim tipinin 9-u respublika ərazisində [m]övcuddur ki, bunun da istirahət və turizm sisteminin təşkili üçün [xü]susi əhəmiyyəti vardır. Sutkada 200 mln. litrdən çox su verən [1]000-dən artıq müxtəf mineral bulaq, Naftalan nadir müalicə nefti, [pa]lçıq vulkanlarının və şor göllərinin müalicə palçıqları, Xəzər

dənizinin Nabran-Yalama, Giləzi-Zaraf, Abşeron, Lənkəran-Astara sahillərindəki gözəl çimərlikləri, Böyük və Kiçik Qafqazın Laçıvənd dağ landşaftları və abı-havası burada dünya əhəmiyyətli, çox profilli balneoloji, istirahət və turizm müəssisələrinin sıx şəbəkəsinin yaradılmasına imkan verir.

Təbii ehtiyatlar istirahət və turizm ərazi komplekslərinin formalaşmasına təsir göstərir. Təbii şərait və təbii ehtiyatların xüsusiyyətlərindən asılı olaraq istirahət-turizm ərazi kompleksinə (İTƏK) aid olan bu və ya digər müəssisə meydana gəlir. Məsələn, iqlimi, nəqliyyat şəraiti olan yerlərdəki mineral bulaqlarının, müalicə palçıqlarının və neftin əsasında İstisu, suraxanı, Şıx, Naftalan, Qalaatlı sanatoriyaları, gözəl dağ havasına və mənzərəli landşafta malik Şuşada balneoloji dağ-iqlim kurortu, Xəzər dənizinin Nabran, Abşeron sahillərində isə müxtəlif profilli sanatoriyalar, turist bazaları, pansionatlar təşkil edilmişdir.

İTƏK formalaşmasında sosial-iqtisadi şərait, məhsuldar qüvvələrin inkişaf səviyyəsi həlledici rol oynayır. Belə ki, yuxarıda qeyd edilən istirahət və turizm obyektləri əvvəllərdə də müvafiq təbii şərait və ehtiyatların olmasına baxmayaraq əsasən son 25-30 il ərzində yaradılmışdır. Respublikada məhsuldar qüvvələrin inkişafının sürətlənməsi və milli gəlirin artması istirahət və turizm obyektlərinə kapital qoyuluşunu xeyli artırmağa imkan verir.

İTƏK formalaşmasında əmək ehtiyatlarının xüsusi əhəmiyyəti vardır. Belə ki, kompleksin inkişafı və fəaliyyəti prosesində həm maddi (tikinti, təchizat, ticarət və s.) həm də xidmətedici sahələrdə xeyli fəhlə və qulluqçu işə cəlb edilir. İTƏK inkişafı əhalinin işlə təmin edilməsində sanballı rol oynayır. Məsələn, Naftalan kurortunda 1500 nəfərlik yer olduğu halda buradakı müalicə və istirahət obyektlərində 1200 nəfər həkim, tibb bacası və ümumi xidmət işçisi bilavasitə, 1500 nəfər isə dolayı surətdə (tikintidə, nəqliyyatda, təchizatda və s.) çalışır. İTƏK qadın əməyinin geniş tətbiq edilməsi imkanlarına malikdir. Hesablanmış normalar üzrə sanatoriyalarda və yüksək dağlıq sahələrdəki turist mehmanxanalarında 1 yerə 0.5 ştat xidmət işçisi tələb olunur.



Respublikamızda hazırda birdəfəlik 30 min nəfər adam qəbul edə bilən istirahət, kurort, turizm müəssisələri sistemi fəaliyyətdədir. Respublikanın Böyük və Kiçik Qafqaz, Kür-Araz ovalığı, Lənkəran və Naxçıvan təbii sahələrinin hər birində bu və ya digər istirahət, kurort və turizm müəssisəsi mövcuddur. Bu cəhətdən Abşeron yarımadası müxtəlif profilli və çoxsaylı müəssisələrin cəmləşməsi ilə fərqlənir. Əlverişli təbii şərait və balneoloji ehtiyatların (açıq səma, bol günəş, ılıq və şəffaf dəniz suyu, gözəl, ların qumlu çimərliklər, müalicə palçığı, mineral su) iqtisadi-coğrafi elementlərin (inkişaf etmiş infrastruktur, nəqliyyat sistemi, bol əmək ehtiyatları, tələbat və s.) kompleksi ilə vəhdəti burada İTƏK əmələ gəlməsinə səbəb olmuşdur. Respublikamızın Xəzər dənizi sahillərindəki əsas kurortlarının və sağlamlıq ocaqlarının əksəri burada yerləşir: bunlardan, əsasən ürək-damar, əsəb sistemi, mədə-bağırsaq müalicəsi üzrə ixtisaslaşdırılmış «Abşeron», «Günəşli», «Bilgəh», «Xəzər», «Qaranquş», «Araz», «Qızıl Qum» və s. sanatoriyalarını qeyd etmək olar. Eyni zamanda Abşeron yarımadası respublikada ən böyük uşaq və gənclik sağlamlıq bazasıdır. Burada bir neçə uşaq və gənclik sağlamlıq bazasıdır. Burada bir neçə uşaq sanatoriyası, beynəlxalq gənclik düşərgələri, idman və turizm bazaları fəaliyyət göstərir.

Son illərdə Abşeron yarımadasında mövcud sanatoriyaların sağlamlıq ocaqlarının yenidən qurulması və yenidən genişləndirilməsi ilə yanaşı yenilərinin tikilməsinə başlanılmışdır. Ayrı-ayrı nazirlik və idarələr tərəfindən Abşeronda istirahət obyektlərinin tikintisi ildən-ilə genişləndirir.

Mərdəkan-Pirşağı zonasında yüksək debitli hidrogen sulfidli mənbələrinin tapılması, onlardan bilavaistə burada yerləşən sanatoriyalarda geniş miqyasda istifadə edilməsi baxımından çox əlverişlidir. Həmin sulardan istifadə edilərək Pirşağıda oynaq-hərəkət üzvləri, Bilgəhdə və Buzovnada ürək-damar sistemi, Mərdəkanda və Zaqulbada əsəb sistemi xəstəlikləri müalicə olunur.

Respublikasızın şərqində fəaliyyət göstərən və böyük inkişaf perspektivləri olan istirahət-turizm rayonlarından biri Quba-Xaçmaz rayonudur. Rayonun əlverişli nəqliyyat coğrafi övqeyi, mənzərəli

Yalama-Nabran, Giləzi-Zarat sahələrində mövcud olan zəngi balneoloji ehtiyatlar (əlverişli müalicə iqlimi, açıq dəniz, bol şirin su, yodlu, bromlu mineral sular, 25 dərəcəyədək istiliyi olan terma sular, bəzi yerlərdə dənizədək uzanan enliyarpaqlı ağaclardan ibarə ilanlı meşələr), Qalaaltı, Xaltan və s. mineral bulaqlar, bol əmə ehtiyatları, inkişaf etmiş aqrar-sənaye kompleksi burada əhəmiyyətl istirahət-turizm zonasının yaradılması üçün geniş imkanlar açı Dəvəçi rayonun balneoloji ehtiyatlarından hazırda 350 nəfərlik yer olan Qalaaltı uroloji kurortu 70-ci illərdə yaradılan vaxtdan istifad edilməyə başlanılmışdır. Hazırda kurort genişləndirilir, burada yen binalar tikilir. Kurortda məşhur naftusiya suyunun analoqu və bəz xüsusiyyətlərinə görə ondan üstün Qalaaltı mineral suyu ilə müxtəli uroloji xəstəliklər müalicə olunur. Xəzər dənizdə, dəmiryo stansiyasına yaxınlığı, dəniz səviyyəsindən 500 metr hündürlükdə meşə və bağların arasında, dilbər guşədə yerləşməsi, inkişaf etmi üzümçülük, tərəvəzçilik, heyvandarlıq təsərrüfatlarına qonşuluğu qeyri-adi təmiz və sağlam kurortun müalicə təsirini daha da artırı onun maddi təchizatını asanlaşdırır. Buna görə də Qalaaltı kurortu qısa müddət ərzində çox məşhurlaşmışdır.

Yalama-Nabran ərazisindən sırf iqlim kurort zonas yaradılması üçün istifadə etmək daha məqsədəuyğundur. hAzırda Nabranda 500 çarpayılıq «Dostluq», 700 çarpayılıq «Xəzər» turis bazaları fəaliyyət göstərir. Burada yeni turist kompleksləri tikili Samir çayının sağ sahilindən cənuba doğru 25 km məsafədə uzana Yalama-Xudat istirahət zonasında qeyd edilən turist bazalarında əlavə yay mövsümündə çadır tipli turist bazaları yaratmaq imkanla vardır.

Xəzər dənizi sahillərində yaradılan kurort zonasının tərkibind Lənkəran ovalığı perspektivli rayon kimi mühüm yer tutur. Ərazini cənub mövqeyi, subtropik iqlimi, əlverişli çimərlikləri və gözə mənzərələri, yaxşı mənimsənilməsi, bütün il boyu təzə meyvə tərəvəz, göyərti yetişdirən yüksək inkişaf etmiş aqrar-sənay kompleksi və zəngin əmək ehtiyatları burada özünəməxsus İTƏK yaradılmasına yaxşı təminat verir. Lənkəran rayonundakı Meşəd



nbəyinin sutkalıq su ehtiyatı 550, İbadısu mənbəyinin təsdiq ilmiş sutkalıq su ehtiyatı isə 1000 kub metrdir. Tərkibində azot və ətan olan bu mineral sulardan vanna qəbul etmək yolu ilə onyaq – rəkət üzvləri, ginekoloji, dəri və ürək-damar xəstəlikləri müalicə ilir.

Respublikamızın Şərqinə nisbətən, Mərkəzi və Qərb nalarında kurort-turizm təsərrüfatı əlverişli imkanlara baxmayaraq if inkişaf etmişdir. Bu geniş ərazidə hələlik mövsümi fəaliyyət stərən müalicə, istirahət və turizm müəssisələri üstündür. Kiçik fqaz dağlarının ətəklərində, dünyada yeganə olan müalicə neft nbəyi əsasında Naftalan şəhərində birdəfəlik yerlərinin miqdarı min çarpayı olan və bütün il boyu işləyən, çoxprofilli natoriyalar kompleksi yaradılmışdır.

Şuşa şəhərinin balneoloji iqlim kurortu kimi şöhrəti böyükdür. hərin havası quru və təmizliyinə, ultrabənövşəyi şüaların müalicə sirinə görə İsveçrənin məşhur Davos kurortundan belə üstündür. şa kurortunun formalaşmasında özünəməxsus dağ iqlimi ilə yanaşı lq arasında turşusu kimi şöhrət qazanmış karbohidrogenli Şırlan neral su mənbəyinin təsdiq edilmiş sutkalıq ehtiyatı 326 kub trdir. Gələcəkdə Laçın rayonunda yerləşən, təsdiq edilmiş kalıq ehtiyatı 4300 kub metr olan karbohidrogenli Minkənd neral su mənbəyindən Şuşaya xüsusi su kəməri çəkilməsi, onda rada müalicə və sudoldurma məqsədilə geniş miqyasda istifadə ilməsi nəzərdə tutulur.

Tərtər çayının vadisində 2100-2200 metr hündürlükdə rləşən, tərkibinə və müalicə əhəmiyyətinə görə Çexuyanın rlovi-Varı mineral bulaqlarına yaxın, bəzi xüsusiyyətlərinə görə ha təsirli və çox böyük ehtiyatlı olan İstisu mineral suyu əsasında mi adlı kurort fəaliyyət göstərir. 180 çarpayılıq İstisu kurortunda ədə-bağırsaq, maddələr mübadiləsi, hərəkət orqanları, sinir stemi, ginekoloji və bəzi uroloji xəstəliklərə tutulanlar müalicə unur. Kurort iqlim və nəqliyyat şəraiti ilə əlaqədar olaraq hələlik övsümü fəaliyyət göstərir.

Kəlbəcər rayonu, xüsusən Tutqunçayın vadisi olduqca ngarəng, yüksək keyfiyyətli və böyük ehtiyatlı, nadir mineral su

mənbələri ilə diqqəti cəlb edir. Bu mənbələrdən Bağırsaq (1100 kub metr sutka), Kəlbəcər (600 kub metr sutka), Qarasu (700 kub metr sutka), Mozçay (150 kub metr sutka) və b. Qeyd etmək olar. Yüksək dağlıq relyef göstərilən və digər mineral su mənbələrinin mənimsənilməsinə ciddi maneçilik törədir.

Respublikanın Mərkəz və Qərb zonalarının Çuxuryurd, Çağan, Zərgəran, İlisu, Minkənd, Slavyanka və başqa mineral bulaqlarından hələlik ancaq xalq müalicə üsulu ilə yay mövsümündə istifadə edilir.

Məlum olduğu kimi, elm insanın əməli və nəzəri fəaliyyətinin özünəməxsus sahəsidir. Məhsuldar qüvvələrin inkişaf etdirilməsində və ictimai münasibətlərin təkmilləşdirilməsində, texnikanın və texnologiyanın prinsipcə yeni növlərinin yaradılmasında, əməyin məhsuldarlığının yüksəldilməsində, yerin təkindən, okeandan, kosmosdan istifadə olunmasında, ətraf mühitin qorunmasında və sağlamlaşdırılmasına elm getdikcə daha böyük rol oynayır.

Son 50-60 ildə bütün dünyada elm böyük sürətlə inkişaf etmişdir. YUNESKO-nun məlumatına görə son 50 ildə dünyada əhalinin orta illik artımı 1.75% olduğu halda, elmi işçilərin illik artımı 7% təşkil etmişdir.

Elmlərin inkişafı differensasiya və inteqrasiya proseslərinin dialektik vəhdəti şəraitində baş verir. Elmi biliklərin dərinləşməsi elmin differensasiyasına, onun daha çox ixtisaslaşdırılmış bilik sahələrinə bölünməsinə səbəb olur. Bununla yanaşı biliklərin sintezinə, ümumiləşdirilməsinə olan daimi tələbat elmin inteqrasiyasına təkan verir. Məhz elmin inteqrasiyası sahəsində müxtəlif elm sahələrinin sərhədində, qovşağında yeni, məsələn, biofizika, bionika, biokimya, geokimya və s. tipli elmlər yaranmışdır. Yeni elm sahələrinin yaranması elmin differensasiyasını yeni formada davam etdirir, həm də əvvəllər bir-biri ilə əlaqədar olmayan elm sahələrinin inteqrasiyası üçün yeni bünövrə yaradır. Elmlərdə baş verən differensasiya və inteqrasiya prosesləri fənnində və metodlarına görə bir-birindən fərqlənən elmlər arasında kəskin sədd qoymağa imkan vermir. Belə ki, bir sıra elmlər mövqe tuturlar. Məsələn, texniki estetika ictimai və texniki



elmləri, bionika təbiyyət və texnika, iqtisadi coğrafiya isə təbiyyət və ictimai elmlər arasında orta mövqe tuturlar. Müasir dövrdə elm ictimai, təbiyyət və texnika elmlərinə təsnif edilir.

Elmin inkişafının başlıca amili maddi istehsalın, ictimai praktikanın tələbatıdır. Müasir elmin inkişafı elmi problemlərin xarakterindən asılı olaraq bir neçə elmin köməyi ilə aparılan kompleks tədqiqatları zəruri etmişdir. Təbiyəti mühafizə problemini, yer haqqında elmlərinin birgə tədqiqi buna misaldır.

Praktikaya bilavasitə münasibəti baxımından ayrı-ayrı elmlər fundamental və tətbiqi elmlərə bölünür. Fundamental elmlərin vəzifəsi təbiət, cəmiyyət və təfəkkürün fəaliyyətini və qarşılıqlı təsirini idarə edən qanunları dərk etməkdir. Həmin qanunlar «xalis» şəkildə, yəni istifadə edilməsindən asılı olmayaraq öyrənilir. Tətbiqi elmlərin bilavasitə vəzifəsi fundamental elmlərin nəticələrini yalnız idrak məsələlərinə deyil, həmçinin, sosial-praktik problemlərə tətbiq etməkdir. Burada müvəffəqiyyətin meyarı təkcə həqiqətə nail olmaq deyil, həm də sosial sifarişi təmin etmək ölçüsüdür. Tətbiqi elmlərlə praktikanın qovuşduğu yerdə tətbiqi elmlərin nəticələrindən texnoloji proseslərdə, konstruksiyalar və sənaye materialları istehsalında və s. istifadə etməyə imkan verən xüsusi tədqiqat sahələri inkişaf edir.

Azərbaycanda elmin qədim tarixi var. Hələ XII-XIII əsrlərdə Fazil Fəridəddin Şirvani, Fələki Şirvani, Xaqani riyaziyyatla məşğul olmuşlar. Xaqani, Nizami, Füzuli, Nəsimi təbiəthünaslığın bir çox məsələlərini düzgün şərh etmişlər. XIII əsrdə Nəsrəddin Tusi Marağada rəsədxana tiktirmir və ona rəhbərlik etmişdir. Burada ulduzların dəqiq qlobusu tətbiq edilmişdir. Həmin qlobus hazırda Drezden muzeyində saxlanılır. Azərbaycanda ali məktəblərin, elmlər akademiyasının və sahə elmi-tədqiqat institutlarının təşkil sayəsində elm daha da inkişaf etmişdir. Respublika amillərinin nəzəri və eksperimental tədqiqatları dünya şöhrəti qazanmışdır. Astronomiya (günəş fizikası, qalaktika, qaz dumanlıqları və s.), fizika (elektrofizika, metalların fizikası), riyaziyyat (funksiyalar nəzəriyyəsi, funksional analiz), mexanika, kibernetika, kimya (neft-kimya), geologiya (xüsusən geomorfologiya), iqlimhünaslıq,

kartoqrafiya, landşaftşünaslıq, torpaqşünaslıq, əhali, sənay aqrosənaye xidmət sahələri coğrafiyası, biologiya və s. sahəsin əhəmiyyətli işlər görülür. Respublikada oktan ədədi yüksək ol benzinin alınması, etilen, propilen kimi kiçik molelullu olefinlər istehsalı texnologiyası və polietilenin yeni sintez üsulu yaradılmı akrilnitril, metaakrilnitril kimi qiymətli monomerlər və etil propilen kauçuku alınmışdır. İctimai elmlər də müvəffəqiyyət inkişaf edir.

Respublikanın bir çox alimləri dünyada tanınmışdır. Elml Akademiyası, ali məktəblər, sahə institutları iqtisadiyyatın inkişa təbii ehtiyatlardan, torpaq və bitki ehtiyatlarından istifadə edilmə ilə əlaqədar bir sıra mühüm tədqiqatlar aparır. Yızlərlə elmi-tədqiq və araşdırmanın nəticələri istehsalatda tətbiq olunmuşdur.

İntensivləşdirmə xətti elmin rolunu daha da yüksəldir və onu daha sürətlə inkişaf etdirilməsi vəzifəsini qoyur.

Elmin inkişafı ilk növbədə təhsilin səviyyəsi ilə sıx əlaqəlidi

2000-ci ildə Azərbaycanda 1800 məktəbəqədər müəssi fəaliyyət göstərmiş və onlarda 108 min uşaq və ya müvafiq yaş olan uşaqların 10 faizi tərbiyə almışdır.

2000-ci ildə məktəbəqədər müəssisələrin sayı 1999-cu i nisbətən bir faiz, bu müəssisələrə gələn uşaqların sayı 3 fa azalmışdır. 1-6 yaşlı uşaqların məktəbəqədər tərbiyə ilə əha olunması səviyyəsi 1999-cu illə müqayisədə 2 faiz azalmışdır.

Cari dərs ilində fəaliyət göstərən 4548 dövlət gündü ümumtəhsil məktəblərində 1654 min şagird, o cümlədən gimnaziya və 33 litseydə 17 min şagird təhsil alır.

Məktəblərin ümumi sayından qaçqın uşaqlar üçün 702 gündü ümumtəhsil məktəbi fəaliyyət göstərir və burada 88 min şagi təhsil alır.

Məktəblərin 558 mini və ya ümumi sayının 34 faizi ikin növbədə təhsil alır.

2000/2001-ci dərs ilinin əvvəlinə xüsusi məktəblərdə siniflərdə fiziki və ya əqli çatışmazlıqları olan 5,2 min uş oxumuşdur.



Keçən il ölkədə 102 min oğlan və qız və ya 1990-cu ildəkindən 12 faiz çox orta (tam) ümumi təhsil almışdır.

Hazırda məktəb binalarının yarısının əsaslı təmirə ehtiyacı var.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi keçən ilin noyabr ayında «2000-ci ildə orta gündüz ümumtəhsil məktəblərini bitirmiş gənclərin sonrakı fəaliyyəti və buraxılış sinifləri şagirdlərinin gələcək təhsilinin perspektivləri haqqında» müayinə keçirmişdir.

Müayinənin yekunları göstərir ki, məzunların 55 faizi heç yerdə işləmir, 33 faizi gündüz şöbələrində təhsilini davam etdirir, 6 faizi işə düzəlmişdir, 4 faizi Milli Orduya çağırılmışdır.

Sorğu nəticəsində müəyyən olunmuşdur ki, yuxarı sinif şagirdlərinin təxminən 80 faizi məktəbi bitirdikdən sonra oxumaq, 10 faizi işləyib oxumaq, 4 faizi yalnız işləmək haqqında fikirlər, digərləri isə hələ bir qərarı gəlməmişdir. Şəhər məktəblərinin şagirdləri arasında belə fikir müvafiq olaraq – 82,9 və 3 faiz, kənd məktəblərində isə müvafiq olaraq – 3,9 və 6 faizdir.

2000/2001-ci dərs ilinin əvvəlinə ölkədə 43 min şagirdın orta peşə təhsili aldığı 68 dövlət və 3 qeyri-dövlət orta ixtisas məktəb və tələbələrinin sayı 120 min nəfər olan 25 dövlət və 18 qeyri-dövlət ali məktəb fəaliyyət göstərmişdir. Bundan başqa, Ali Hərbi Ümumqoşun Komandirləri məktəbi, Bakı Ali Hərbi Dənizçilik məktəbi, Bakı Ali Polis Akademiyası, Milli Təhlükəsizlik Akademiyası ali təhsilli mütəxəssislər hazırlayır.

Son illər dövlət tədris müəssisələrində pullu təhsillə əhatə olunanların sayının artması müşahidə olunur. Cari dərs ilinin əvvəlinə dövlət orta ixtisas məktəblərində 11 min ödənişlə təhsil almışdır.

Ötən il Azərbaycanda kitabxanalar, klublar, kinoqurğuları kimi kütləvi mədəniyyət müəssisələri şəbəkəsinin və bura gələnlərin sayının azalması prosesi davam etmişdir. 2000-ci ilin axırına ölkədə 4,3 min kütləvi kitabxana, 3,3 min klub müəssisəsi, 0,6 min kinoqurğu, 26 peşəkar teatr və 153 muzey fəaliyyət göstərmişdir. Ölkənin muzey fondunda bir milyondan çox eksponat mövcuddur.

Kitabların nəşri 2000-ci ildə ilkin məlumatlara görə 1,5 milyon nüsxə olmuşdur.

2001-ci ilin əvvəlinə ölkədə 739 xəstəxana, 1611 həkim ambulatoriya-poliklinika müəssisəsi, 880 qadın məsləhətxanası, uşaq poliklinika və ambullatoriyası fəaliyyət göstərmişdir. Bu müəssisələrdə 29 min nəfərə yaxın həkim və 61 min nəfər orta tibb işçisi xidmət göstərmişdir, əhalinin hər 10 min nəfərinə onların sayı müvafiq olaraq 36 və 77 təşkil edir.

2000-ci ilin yanvar-noyabr ayları 1999-cu ilin müvafiq dövrü ilə müqayisədə əksər yoluxucu xəstəliklərə tutulma hallarının azalması ilə xarakterizə olunur.

Vaksina-provilaktika vasitələri ilə idarə olunan yoxulmaların xüsusilə qızılçanın – 80 faiz, göyöskürəyin – 75 faiz azalması müşahidə olunmuşdur.

Xəbərdaredici tədbirlər görülməsi, malyariya ilə xəstələnmiş şəxslərin vaxtında aşkar edilməsi və müalicə edilməsi nəticəsində malyariyaya tutulma halları 34 faiz azalmışdır.

Yuxarı tənəffüz yollarının kəskin infeksiyası ilə 293 min və qruplə xəstələnmə ilə 4,5 min hadisə qeydə alınmışdır.

2000-ci ilin 11 ayı ərzində Azərbaycanda 53 HİV və AİDS infeksiyalı xəstə aşkar olunmuşdur.

«Dövlət statistika sistemində islahatların aparılması haqqında» Dövlət Proqramına uyğun olaraq Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi 2000-ci ilin oktyabr ayında ölkənin 2100 ev təsərrüfatında əhaliyə göstərilən tibbi xidmətlərin səviyyəsi haqqında seçmə sorğu keçirmişdir. Sorğuda 18 yaşından yuxarı olan 4663 şəhər və kənd sakini (müvafiq olaraq 56 və 44 faiz) iştirak etmişdir.

Sorğu olunanların ümumi sayının 35 faizi son iki ildə heç olmasa bir dəfə xəstələnmiş və onların 80 faizi tibb müəssisələrinə müraciət etmişdir.

Stasionlarda müalicə olunmuş respondentlərin 71 faizi müalicəyə qənaətbəxş və tam qənaətbəxş qiymət vermişlər, 11 faizi cavab verməyə çətinlik çəkmişlər, 18 faizi isə onu qeyri-qənaətbəxş kimi qiymətləndirmişlər. Onlar əsas nöqsanlar kimi sanitariya-



igiyena şəraitin pis olmasını, tibb işçilərinin laqeyd və qərəzli ünasibət bəsləmələrini göstərmişlər.

Ambulatoriya – poliklinika müəssisələrinə yardım üçün üraciət etmiş respodentlərin 12 faizi və xəstəxanalarda müalicə lunmuş xəstələrin 8 faizi müalicə olunmaq üçün müəyyən edilmiş rifdən artıq haqq ödədiklərini bildirmişlər.

Sorğuda iştirak etmiş bütün respodentdər tibbi xidmətin eyfiyyətinin yaxşılaşdırılması üzrə əsas tədbirlər kimi əstəxanalarda palataların avadanlıqla yenidən təchiz edilməsini, üasir ixtisaslaşdırılmış kabinetlərin yaradılmasını, tibb üəssisələrinin müasir diaqnostika texnologiyası ilə təchiz dilməsini, ailə həkimlərinin praktikasının inkişaf etdirilməsini östərmişlər.

Nəqliyyat – ümumi mənada insanların və yüklərin daşınması, ictimai maddi istehsalın ən mühüm sahələrindən biridir. Nəqliyyat olmadan müasir iqtisadiyyatın heç bir sahəsinin inkişafı mümkün deyildir. Müasir nəqliyyat sisteminə dəmiryol nəqliyyatı, avtomobil nəqliyyatı, dəniz nəqliyyatı, çay nəqliyyatı, hava nəqliyyatı və boru kəməri nəqliyyatı daxildir.

XX əsrin son onilliyində ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafında müşahidə olunan ciddi dəyişikliklər nəqliyyat sahəsindən də yan keçməyib. Bu cür vəziyyətin yaranmasına həm keçmiş Sovet İttifaqının nəqliyyat sisteminin subyektiv amillər əsasında formalaşdırılması xüsusiyyətləri, iqtisadi əlaqələrin kəsilməsi və iqtisadiyyatın digər sahələrinin inkişafında baş verən gerilik, habelə Qafqaz regionunda məlum siyasi hadisələr daha çox təsir etmişdir. Ölkənin nəqliyyat sektorunda yük daşınması 1995-ci ildə 1990-cı illə müqayisədə 6,6 dəfə azalmışdır. Bu gerilik ölkənin dəmir yolu və avtomobil nəqliyyatının işində özünü daha çox biruzə vermişdir. Dəmir yolu nəqliyyatı ilə 1990-cı ildə daşınmış 80,3 milyon ton yük 1995-ci ildə 8,9 dəfə az və ya 9,0 milyon ton, avtomobil nəqliyyatı ilə 1990-cı daşınmış 153,1 milyon ton yük isə 1995-ci ildə 10,9 dəfə az və ya 14,0 milyon ton yüklə əvəz olunmuşdur. Bu sahədə görülmüş tədbirlər nəqliyyatın ayrı-ayrı növlərinin inkişafında müsbət nisbi artımın yaranmasına ciddi təsir etmiş və 1997-ci ildən başlayaraq nəqliyyat sektorunun fəaliyyətində ilbəil stabil artım müşahidə olunmuşdur. Əldə edilmiş artım ölkənin Avrasiya məkanında son illər həyata keçirilən bütün iri iqtisadi layihələrdə (məsələn, TRASEKA proqramı) iştirak etməsi və onların bir qisminin tədricən reallaşdırılması nəticəsində həm tranzit yük axınının, həm də yerli yüklərin daşınmasının intensivləşdirilməsi və ölkə iqtisadiyyatının digər sahələrində inkişafa nail olunması ilə bağlı olmuşdur. Avtomobil nəqliyyatı sahəsində qeyri-dövlət sektorunun inkişafı, ölkə gəmiləri tərəfindən həm xarici, həm də yerli limanlarda yük daşınmalarının daha səmərəli şəkildə həyata keçirilməsi, ölkə ərazisindən neft və neft məhsullarının boru kəmərləri vasitəsilə ötürülməsi və dəmir yol əlaqələrində manelərin aradan qaldırılması bu sahədə həyata keçirilən daşımaların həcminin artmasına ciddi təsir göstərmişdir. 2000-ci ilin yekunlarına görə, ölkədə nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən yük və sərnişin daşınması 1996-cı ildə olduğundan 90,9 və 20,8 faiz artaraq 80,2 milyon ton yük və 871,5 milyon sərnişin təşkil etmişdir. Yük daşınmasında qeyri-dövlət sektorunun payı XX əsrin sonunda 54,0 faiz, sərnişin daşınmasında isə 83,3 faiz təşkil etmişdir.



Respublika ərazisində müasir nəqliyyatın bütün növləri fəaliyyət göstərir. Yük dövriyyəsində dəmiryol, dəniz, avtomobil və boru-kəmər nəqliyyatı əsas rol oynayır. Hava nəqliyyatı əsasən sərnişin daşınmasına xidmət edir.

## Dəmiryol nəqliyyatı

XIX əsrdə Abşeronda neft sənayesinin artan tələbatı ilə əlaqədar olaraq, burada dəmiryol nəqliyyatının yaradılması sürətlənmişdir. Azərbaycanda ilk dəmiryol xətti Çar Rusiyası dövründə, 1880-cı ildə çəkilmiş 20 km uzunluğu olan, Bakı-Sabunçu-Suraxanı arasındakı xəttidir. Neft mədənlərini Bakı dəniz limanı ilə birləşdirən bu dəmiryolu əvvəllər ancaq neft daşınmasına xidmət edirdi. Sonralar bu xətlə sərnişin qatarları da işləməyə başladı. 1883-cü ildə Azərbaycan neftinin Qara Dəniz limanlarına və oradan dünya bazarına çıxmasına imkan verən Bakı-Tiflis dəmiryol xətti işə düşdü.

1901-ci ildə Bakı-Dərbənd xətti işə salındı. Bunun sayəsində Azərbaycan Rusiyanın dəmiryol şəbəkəsi ilə birləşdirildi.

Çar Rusiyası dövründə Azərbaycanda dəmiryollarının ümumi uzunluğu 837 km-ə çatmışdır.

Azərbaycanda Sovet hakimiyyəti bərqərar olduqdan sonra, yeni dəmiryol xəttlərinin çəkilişinə başlandı. Keçmiş SSRİ-də ilk dəfə 1926-cı ildə Bakı-Sabunçu arasındakı dəmiryolu elektrikləşdirildi. 1941-ci ildə Bakı-Tiflis xəttinin Ələt stansiyasından 445

km uzunluqda olan Ələt-Culfa xətti çəkildi. Bu yoldan ayrı Qazıməmməd-Əli Bayramlı (9 km), Mincivan-Qafan (39 km) Sarıcalar-Sabirabad (7 km) qolları çəkildi. Ələt-Culfa xətti Bakı Naxçıvan arasında dəmiryol əlaqəsi yaratdı. Eyni zamanda bu x keçmiş SSRİ ilə İran arasında olan əlaqələri də xeyli sürətləndir 1941-ci ildə işə düşmüş Osmanlı-Astara dəmiryolu Salyan-Neftç (35 km) qolu ilə birlikdə Muğanın pambıqçılıq, Lənkəran subtropik əkinçilik rayonlarını, Kürün mənsəbində yerləş balıqçılıq və Neftçaların neft hasilatı sənayesini Bakı şəhəri əlaqələndirdi.

II Dünya müharibəsindən sonra Daşkəsən dəmir fil yataqlarının mənimsənilməsi ilə əlaqədar olaraq Bakı-Tbil xəttinin Alabaşlı stansiyasından Quşçuya (35 km) elektrikləşdiriln dəmiryol xətti çəkildi. Bundan başqa, Abşeronda Suraxanı-Q (1949), Qala-Pirallahı (1959), Buzovna-Bilgəh, Yeni Suraxa Hövsan (1968), Bilgəh-Pirşağı, Bilgəh-Sumqayıt elektrikləşdiriln dəmiryol xəttləri çəkilib işə salındı. 1965-ci ildə Yevlax-Bərd Ağdam xətti işə düşdü, 1977-ci ildə həmin xətt Xankəndi şəhəri çatdırıldı. 1982-ci ildə Bakı-Tbilisi xəttinin Padar stansiyasınd Şamaxı rayonunun Göylər Çöl kəndinə üzümçülüyün, tikintin heyvandarlığın nəqliyyata olan ehtiyaclarını ödəmək məqsədi ilə km uzunluğunda dəmiryol xətti çəkildi.

1985-ci ildə Yevlax-Balakən dəmiryol xətti işə salındı. Fil çayın nadir polimetal filiz ehtiyatlarının və digər sərvətlərin məni sənilməsi, Şəki iqtisadi rayonunun sosial-iqtisadi və mədəni həya nın daha da yüksəldilməsi işində bu yolun mühüm əhəmiyyəti vardır.

Hazırda Azərbaycan Respublikasının magistral dəmiryolların uzunluğu 2067 km-dir ki, bunun da 1141 km elektrikləşdirilmişd Azərbaycan dəmiryollarının Bakı-Dərbənd və Bakı-Ağsta xəttlərində daha çox yük daşınır.

### Dəniz nəqliyyatı

Xəzər dənizi qədim dövrlərdən başlayaraq Azərbaycan Volqa çayı hövzəsi, İran, Orta Asiya ilə nəqliyyat əlaqələrində ə



...z su yolu kimi mühüm rol oynamışdır. XIX əsrin 70-ci illərindən ...ra Abşeronda neft sənayesinin sürətli inkişafı dənizlə yük ...şınmalarını xeyli artırmışdır. Hazırda donanmamız müasir ...loxod və dizelelektroxodlarla, bərə gəmilərlə, böyük tankerlərlə, ...zma gəmiləri ilə təchiz edilmişdir. Bundan başqa Xəzər gəmiçiliyi ...hamilə mexanikləşdirilmiş limanlara, güclü gəmi təmiri ...əssisələrinə və yüksək ixtisaslı kadrlara malikdir. Hazırda Bakı-...rkmənbaşı (keçmiş Krasnovodsk), Bakı-Bekdaş, Bakı-Şevçenko ...tlərində nəhəng gəmi-bərələr işləyir ki, bunlar da Böyük İpək ...lunun bərpasında ən mühüm rol oynayan xətlərdir. 1953-cü ildə ...lqa-Don kanalının açılması sayəsində Azərbaycan gəmiləri ...nya okeanına çıxmaq imkanı əldə etmişlər.

Hazırda Xəzərin şelf zonasında «Əsrin müqaviləsi» ilə ...qədar neft çıxarılması sayəsində dəniz nəqliyyatının əhəmiyyəti ...ha da artmışdır.

### Çay nəqliyyatı

Respublikada çay nəqliyyatı zəif inkişaf etmişdir. Buna səbəb ...sər çaylarımızın az sulu olması, bir neçəsinin isə hətta yayda ...ruyan olmasıdır. Çay nəqliyyatı yalnız Kür çayında, onun ...ənsəbindən Yevlax şəhərinədək inkişaf etmişdir. Çay nəqliyyatı ...əsən yerli əhəmiyyətli kiçik həcmli yüklərin daşınmasına xidmət ...ir.

### Avtomobil nəqliyyatı

Bu nəqliyyat respublikamızda Sovet hakimiyyəti illərində ...kişaf etməyə başlamışdır. 1940-cı ilədək Bakı-Şamaxı, Bakı-...usar, Lənkəran-Lerik, Yevlax-Gəncə, Masallı-Lənkəran, Bakı-...lyan-Cəlilabad, Salyan-Qazıməmməd, Lənkəran-Astara şosse ...lları çəkilmişdir. Hazırda respublikada 25 min km avtomobil yolu ...rdır ki, bunun da 22,4 min km-i bərk örtüklü yollardır.

Avtomobil nəqliyyatı yaxın məsafələrə yük daşınmasında böyük rol oynayır. Xüsusilə, mürəkkəb relyefə malik dağ yerlərində avtomobil nəqliyyatı ən əvəzedilməz vasitədir.

Avtomobil nəqliyyatında avtobuslarla sərnişin daşınması mühüm rol oynayır. Şəhərdaxili nəqliyyat kimi avtobus parkının xüsusi əhəmiyyəti vardır.

Hazırda respublika əhəmiyyətli magistral şosse yollarımız bunlardır: Bakı-Rostov, Bakı-Astara, Bakı-Tbilisi, Yevlax-Balakən.

Çoxtonnaclı avtomobillərin, rahat və sürətli avtobusların tətbiqi, yeni şosse yollarının çəkilməsi nəticəsində (Böyük İpək yolunun bərpası) gələcəkdə avtomobil nəqliyyatının yük və sərnişin daşınmasında rolu daha da artacaqdır.

### Boru-kəmər nəqliyyatı

Azərbaycanda boru-kəmər nəqliyyatının inkişafı neft və qaz hasilatı ilə əlaqədar olmuşdur. İlk boru kəməri 1888-ci ildə Balaxanıdan Bakının neftayırma zavodları və gəmilərə neftvurma körpüləri yerləşən «Qara şəhər» rayonuna çəkilmişdir. Bundan sonra Bakı-Batumi xətti çəkildi. Kür-Araz ovalığında neft hasilatının artması ilə əlaqədar 1963-cü ildə Əli-Bayramlıdan Bakıya neft kəməri çəkildi.

Son illərdə dəniz neft-qaz mədənlərindən Bakıya çox mühüm neft və qaz kəmərləri çəkilmişdir.

Qaz yataqlarının istismarının güclənməsi respublikada qaz kəmərlərinin çəkilişini sürətləndirdi. 1960-cı ildə Qaradağ-Ağstafa kəməri çəkildi. Sonrakı illərdə bu kəmərdən respublikanın bir sıra rayonlarına qaz kəmərləri ayrıldı. Eyni zamanda təbii qaz mədənlərindən bir sıra kəmərlər, o cümlədən Qarabağlı-Salyan, Kalmas-Əli-Bayramlı, Siyəzən-Güzdək, Zirə-Bakı kimi qaz kəmərləri çəkilmişdir. Bundan başqa, Bakı-Sumqayıt, Bakı-«Şimal» DRES-i arasında da qaz kəmərləri çəkilmişdir. Magistral qaz kəmərləri ilə yanaşı respublikanın şəhərlərində ümumi uzunluğu 2000 km-dən artıq qaz bölüşdürən kəmərlər çəkilmişdir ki, bunun da 85%-i Bakı və Sumqayıt şəhərlərinin payına düşür.



Yaxın illərdə «Əsrin müqaviləsi» ilə əlaqədar Bakı-Novorossiysk (Rusiya Federasiyası), həmçinin Gürcüstandan keçməklə Bakı-Supsa və Bakı-Ceyhan (Türkiyə Respublikası) neft kəmərləri, Bakı-Ərzrum qaz kəməri işə düşücəkdir. Bundan başqa, Türkmənistandan Xəzər dənizinin dibi ilə keçməklə Azərbaycana, oradan Gürcüstana, sonra isə Türkiyəyə çox mühüm qaz kəməri çəkiləcəkdir.

Boru kəmər nəqliyyatından həmçinin iri şəhərləri içməli şirin su ilə təchiz etmək üçün istifadə edilir. Respublikada çəkilmiş mühüm su kəmərlərindən 1911-ci ildə böyük mesenat Hacı Zeynalabdın Tağıyevin öz vəsaiti hesabına çəkdirdiyi Şollar-Bakı, 1970-ci ildə çəkilmiş Kür-Bakı, həmçinin Göygöl-Gəncə kəmərlərini göstərmək olar.

### Hava nəqliyyatı

Bu nəqliyyat respublikada 1924-cü ildə yaradılmışdır. Həmin il Bakı-Tbilisi hava xətti işə düşmüşdür. 1926-cı ildə Bakı-Moskva xətti fəaliyyətə başlayandan sonra respublikada mülki aviasiyanın inkişafı sürətlənmişdir. Hazırda Bakının Binə hava limanı beynəlxalq aeroport statusuna malikdir. Buradan dünyanın bir sıra ölkələrinə (Rusiya, Böyük Britaniya, Ukrayna, Fransa, Almaniya, Çin, İran, Türkiyə, Belorus, Birləşmiş Ərəb Əmirlikləri və s.) təyyarələr uçur. Bundan başqa Gəncə və Naxçıvan aeroportlarından da xarici ölkələrə aviaxətlər işləyir. Həmçinin yerli yava xətlərində uçan təyyarələrimiz Şəki, Yevlax, Lənkəran, Qazax, Naftalan kimi şəhərlərlə əlaqə yaradır.

Təyyarələrdən kənd təsərrüfatında və meşəçilikdə getdikcə daha çox istifadə olunur.

Cədvəl 1.

**Ümumi istifadədə olan nəqliyyat növləri üzrə yüklərin daşınması (min ton)**
**(Azərbaycan Respublikasının statistik göstəriciləri - 2001)**

| Nəqliyyat növləri: | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| Bütün nəqliyyat: O cümlədən | 40643 | 39747 | 41161 | 44591 | 43524 | 48680 |
| Dəmiryol nəqliyyatı | 9038 | 9573 | 11271 | 13531 | 14163 | 15876 |
| Boru-kəmər nəqliyyatı | 13238 | 12347 | 12550 | 14466 | 13979 | 15054 |
| Dəniz nəqliyyatı | 5713 | 5747 | 7504 | 8178 | 7382 | 8779 |
| Avtomobil nəqliyyatı | 12625 | 12050 | 9814 | 8352 | 7955 | 8934 |
| Aviasiya nəqliyyatı | 29 | 29 | 22 | 64 | 48 | 34 |

**Ümumi istifadədə olan nəqliyyat növləri üzrə yük dövriyyəsi (milyon ton-km)**

| Nəqliyyat növləri: | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| Bütün nəqliyyat: O cümlədən | 12810 | 11915 | 13943 | 14484 | 19565 | 16925 |
| Dəmiryol nəqliyyatı | 2409 | 2778 | 3515 | 4702 | 5052 | 5770 |
| Dəniz nəqliyyatı | 4325 | 3911 | 5008 | 4447 | 4744 | 5192 |
| Avtomobil nəqliyyatı | 389 | 306 | 331 | 192 | 185 | 206 |
| Aviasiya nəqliyyatı | 57 | 56 | 39 | 153 | 112 | 102 |

*Cədvəl*

**Ümumi istifadədə olan nəqliyyat növləri ilə sərnişin daşmması (milyon nəfər)**

| **Nəqliyyat növləri:** | **1995** | **1996** | **1997** | **1998** | **1999** | **2000** |
|---|---|---|---|---|---|---|
| Bütün nəqliyyat:<br>O cümlədən | 653,7 | 610,9 | 551,8 | 376,5 | 352,8 | 358,6 |
| Avtobuslar | 442,7 | 407,9 | 368,4 | 211,9 | 217,6 | 226,5 |
| Minik taksiləri | 7,4 | 4,6 | 3,0 | 3,3 | 3,6 | 3,9 |
| Trolleybuslar | 21,4 | 16,9 | 11,5 | 7,4 | 4,1 | 3,4 |
| Dəmiryol nəqliyyatı | 9,0 | 4,6 | 3,8 | 4,2 | 4,0 | 4,2 |
| Tramvaylar | 4,4 | 4,1 | 4,4 | 4,8 | 3,4 | 2,4 |
| Metropoliten | 178,0 | 171,6 | 159,5 | 143,8 | 119,2 | |
| Aviasiya nəqliyyatı | 1,1 | 1,3 | 1,1 | 0,8 | 0,7 | 0,7 |
| Dəniz nəqliyyatı | 0,06 | 0,04 | 0,04 | 0,02 | 0,01 | 0,01 |

## Azərbaycan Respublikasının iqtisadi əlaqələri

Azərbaycan keçmiş SSRİ-nin tərkibində olarkən dünyanın 80 lkəsinə 350 adda müxtəlif məhsul növü ixrac edirdi. Bu məhsullar asında əsas yeri neft məhsulları, neft-mədən avadanlığı və onlar ün ehtiyat hissələri, elektrotexnika, radiotexnika, neft-kimya, qara ə əlvan metallurgiya məhsulları, pambıq mahlıcı, əl ilə toxunmuş alçalar, şərab-konyak məmulatları və s. tutmuşdur.

SSRİ dağıldıqdan sonra, köhnə iqtisadi əlaqələrin pozulması lə əlaqədar bir müddət respublikanın xarici iqtisadi əlaqələrində urğunluq yaransa da, son illər bu əlaqələrin yenidən dirçəlməsi hiss lunur.

Müstəqillik əldə etdikdən sonra ölkə iqtisadiyyatının başqa ahələrində olduğu kimi, Azərbaycanın xarici ölkələrlə ticarət laqələrində də əhəmiyyətli dərəcədə müsbət nəticələr əldə lunmuşdur. Ölkəmizdə fəaliyyət göstərən hüquqi və fiziki xslərin fəaliyyətlərinin iqtisadiyyatın müasir tələblərinə uyğun urulması və idxal-ixrac əməliyyatlarının dövlət tərəfindən müsbət nzimlənməsi nəticəsində ilbəil Azərbaycanla ticarət əməliyyatları paran ölkələrin sayı və onlarla mal dövriyyəsinin həcmi artmağa aşlamışdır. 1992-ci illə müqayisədə 2000-ci ildə respublikamıza dxal-ixrac əməliyyatları həyata keçirən ölkələrin sayı iki dəfədən ox, onlarla ticarət dövriyyəsinin həcmi 20,7 faiz, o cümlədən, idxal 4,7, ixrac 17,6 faiz artmışdır.

Ölkə həyatında ictimai-siyasi sabitliyin yaranması, həmçinin 1994-cü ildə «Əsrin kontraktı»nın bağlanması ilə başlanan və onradan uğurla davam etdirilən düzgün iqtisadi siyasətin həyata keçirilməsi nəticəsində 1993-cü illə müqayisədə xarici ticarət dövriyyəsinin həcmi 1997-ci ildə 16,4 faiz, 1998-ci ildə 24,3 faiz, 1999-cu ildə 45,2 faiz, 2000-ci ildə 2,2 dəfə artmışdır.

XX əsrin sonuncu ili –2000-ci ildə Azərbaycan xarici ticarət sahəsində daha yüksək nəticələrə nail olmuşdur. Bu dövr ərzində ölkəmiz 122 xarici dövlətlə ticarət əməliyyatları aparmış, xarici ticarət dövriyyəsinin ümumi həcmi 2917,3 milyon ABŞ dolları, o cümlədən, idxal 1172,1 milyon, ixrac 1745,2 milyon dollar olmuşdur. Neft və neft məhsulları istehsalının və ixracının artması

nəticəsində 1994-cü ildən bəri ilk dəfə olaraq 2000-ci ildə 573,1 milyon dollar həcmində müsbət xarici ticarət saldosu yaranmışdır. Ticarət dövriyyəsinin 59,8 faizi ixrac, 40,2 faizini idxal təşkil etmiş, ixracın idxalı örtmə əmsalı 148,9 faiz olmuşdur. Xarici ticarət əlaqələrinin 79,1 faizi, o cümlədən idxalın 68,0 faizi, ixracın 86,5 faizi uzaq xarici dövlətləri, 20,9 faizi, o cümlədən idxalın 32,0, ixracın 13,5 faizi MDB üzvü ölkələri ilə aparımışdır.

1999-cu illə müqayisədə xarici ticarət dövriyyəsinin ümumi həcmi 48,5 faiz, o cümlədən ixrac 1,9 dəfə, idxal 13,1 faiz artmış, ticarət əlaqələri uzaq xarici dövlətlərlə 1,6 dəfə, MDB ölkələri ilə 13,9 faiz çox olmuşdur.

2000-ci il ərzində Azərbaycandan 1464,9 milyon dollar dəyərində 7616,1 milyon və ya əvvəlki ilə nisbətən 12,9 faiz çox neft və neft məhsulları ixrac olunmuşdur. Neft və neft məhsullarının 6,1 faizi MDB ölkələrinə, 93,9 faizi isə uzaq xarici dövlətlərə göndərilmişdir.

2000-ci ildə Azərbaycanın İtaliya, Rusiya, Türkiyə, Fransa, ABŞ, İsveçrə, Gürcüstan, Böyük Britaniya, Almaniya, İran, Qazaxstan, Ukrayna dövlətləri ilə ticarət əlaqələri digər ölkələrlə müqayisədə daha geniş olmuşdur. Xarici ticarət dövriyyəsinin 27,1 faizi İtaliyanın, 11,9 faizi Rusiyanın, 8,0 faizi Türkiyənin, 7,7 faizi Fransanın, 4,8 faizi İsrailin, 3,8 faizi ABŞ-ın, 3,5 faizi İsveçrənin payına düşür. İdxal əməliyyatlarının 21,3 faizi Rusiya, 11,0 faizi Türkiyə, 8,9 faizi ABŞ-ın, 5,8 faizi Almaniya, 5,0 faizi Böyük Britaniya, 4,9 faizi Qazaxstan, 4,8 faizi İranla, İxracın 43,7 faizi İtaliya, 11,8 faizi Fransa, 7,7 faizi İsrail, 6,0 faizi Türkiyə, 5,6 faizi Rusiya, 4,3 faizi Gürcüstanla aparılmışdır.

Hazırda Azərbaycanın ixracının strukturunda istehsal-texniki təyinatlı məhsullar, xüsusilə yanacaq-xammal ehtiyatları mühüm yer tutaraq ümumi ixracın 80%-dən çoxunu təşkil edir.

İdxalın strukturu ixracın strukturundan köklü sürətdə fərqlənir. Belə ki, neft müqavilələri ilə bağlı idxal malları istisna olmaqla ümumi idxal malları içərisində ərzaq və qeyri-ərzaq istehlak mallarının xüsusi çəkisi 45% təşkil etmişdir.

Xarici ticarət dövriyyəsinin 72,7%-i uzaq xaric, 27,3%-i isə MDB ölkələrinin payına düşür.



Həmçinin ixracın 77,3%-i uzaq xaricin, 22,7%-i isə MDB ölkələrinin payına düşmüşdür.

*Cədvəl 1.*

**Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin yekun göstəriciləri**

**(min ABŞ dolları ilə)**

| İllər | XTD | İxrac | İdxal | Saldo |
|---|---|---|---|---|
| 1995 | 1597775 | 612343 | 985432 | -373089 |
| 1996 | 1981252 | 643669 | 1337583 | -693914 |
| 1997 | 2183421 | 808287 | 1375164 | -566907 |
| 1998 | 2401654 | 677751 | 1723903 | -1046152 |
| 1999 | 2458623 | 1025231 | 1433392 | -408161 |

Cədvəl «Audit» curnalının 2000-ci il 3-cü nömrəsindən götürülmüşdür).

Azərbaycan Respublikasının tədiyyə balansında xidmətlərin rolu ...tdikcə artmaqdadır. Bu, özünü qarşılıqlı xidmətlərin ümumi həcminin ...tmasında göstərir. Belə ki, 1995-ci ildə xidmətlər blansı dövriyyəsi ...9,1 mln. ABŞ dolları səviyyəsindən 1999-cu ildə 741,9 mln. ABŞ ...lları səviyyəsinə çatmışdır, başqa sözlə, 1,5 dəfə artmışdır. Həmin ildə ...dmətlər balansının mənfi saldosu da artmışdır. Belə ki, 1995-ci ildəki ...2,3 mln. ABŞ dolları səviyyəsindən 1999-cu ildə-228 mln. ABŞ ...lları səviyyəsinə çatmışdır, yəni 1,7 dəfədən çox artmışdır.

Xidmətlər balansının belə yüksək passivliyinin əsas səbəblərindən ...ri beynəlxalq neft müqavilələri ilə bağlı xidmətlərin (qazma işləri, ...ruda şimal istiqamətində terminal, «Çıraq-1» üzrə ilkin neft hasilatı ...ləri, qərb marşrutu üzrə işlər və s.) xarici dövlətlərin rezidentləri ...rəfindən həyata keçirilməsi ilə bağlıdır.

Xarici ölkələrlə qarşılıqlı xidmətlər sahəsində nəqliyyat ...dmətləri, turizm xidmətləri və digər xidmətləri də qeyd etmək olar. ...axılan dövrdə rabitə xidmətləri üzrə yalnız 1999-cu ilin göstəricilərində ...üsbət saldo olmuşdur. Qalan başqa xidmətlər bütün illərdə mənfi ...ldoya malik olmuşdur.

Tədiyyə balansının kapital və maliyyənin hərəkəti hesabı bir ...rəfdən investisiya qoyuluşları və digər formalarda Azərbaycana ...apital axını ilə, digər tərəfdən isə xaricə kapital axını ilə xarakterizə ...olunur. Tədiyyə balansının bu bölməsi daima müsbət saldo ilə ...müşahidə olunur (cədvəl 2). Bunun əsas səbəbi kimi 1994-cü ilin

sentyabrın 20-də Azərbaycan Respublikasının xarici neft şirkətləri ilə «Əsrin neft müqaviləsinin» imzalanmasını, respublikamızda investisiya mühitinin yaradılmasını və 1995-ci ildən sonra ölkədə siyasi və makroiqtisadi stabilliyin təmin olunmasını göstərmək olar.

*Cədvəl 2.*

**Azərbaycan Respublikasında xalis xarici kapitalın həcmi və strukturu**

**(mln.ABŞ dolları ilə)**

| Növü | 1995 | 1996 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|
| Neft bonusu | 175 | 37 | 74 | 75 | 155 |
| Birbaşa investisiyalar | 155 | 591 | 1068 | 1085 | 691 |
| Neft sektoru | 140 | 416 | 780 | 889 | 527 |
| Digər sektorlar | 15 | 175 | 288 | 196 | 164 |
| Digər investisiyalar | 220 | 657 | 422 | 499 | 543 |
| Beynəlxalq maliyyə-kredit təşkilatlarının kreditləri | 132 | 113 | 204 | 297 | 379 |
| Digərləri | 88 | 544 | 218 | 202 | 164 |
| CƏMİ | 550 | 1285 | 1564 | 1679 | 1389 |

1999-cu ildə Azərbaycan iqtisadiyyatına xaricdən 691 mln. ABŞ dolları səviyyəsində birbaşa investisiya qoyulmuşdur ki, bunun da əsas hissəsi (76.3%) beynəlxalq neft müqavilələri ilə bağlı səhmdar kapital şəklində neft sektoruna yönəlmişdir. Müqayisə üçün qeyd edək ki, 1995-ci ildə Azərbaycan iqtisadiyyatına xaricdən 155 mln. ABŞ dolları səviyyəsində investisiya qoyulmuşdur ki, bunun da 90,3%-i neft sektoruna yönəldilmişdir.

Bütün bunları ümumiləşdirərək Azərbaycanın tədiyyə balansını yığcam şəkildə aşağıdakı kimi təsvir etmək olar: (cədvəl 3.)

*Cədvəl 3*

**Tədiyyə balansının əsas makroiqtisadi göstəriciləri (mln. ABŞ dolları ilə)**

| Göstəricilər | 1995 | 1996 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|
| Cari əməliyyatlar üzrə kəsir | -401 | -931 | -916 | -1365 | -599 |
| Ticarət balansının saldosu | -373 | -694 | -567 | -1046 | -408 |
| Xidmətlər balansının saldosu | -132 | -292 | -384 | -369 | -228 |
| Humanitar və texniki yardım | 87 | 86 | 58 | 45 | 37 |
| Neft bonusu | 175 | 37 | 74 | 75 | 155 |
| Azərbaycana cəlb edilmiş birbaşa investisiyalar | 155 | 591 | 1068 | 1085 | 691 |
| Cəlb edilmiş kreditlər | 132 | 113 | 204 | 297 | 379 |
| Xarici valyuta ehtiyatları ("- artma, "+ azalma) | -166 | -71 | -244 | -18 | -288 |

*Cədvəl 4.*

**Xarici ticarət dövriyyəsində ümumi həcmdə mal qruplarının xüsusi çəkisi**

| Malların qrupları | İdxal | İxrac | MDB dövlətləri | | Digər xarici dövlətlər | |
|---|---|---|---|---|---|---|
| | | | İdxal | İxrac | İdxal | İxrac |
| **Cəmi** | **100.0** | **100.0** | **100.0** | **100.0** | **100.0** | **100.0** |
| Canlı heyvanlar və heyvandarlıq məhsulları | 4.2 | 0.1 | 1.0 | 0.17 | 6.73 | 0.03 |
| Bitki mənşəli məhsullar | 10.86 | 2.01 | 10.30 | 1.89 | 11.30 | 2.11 |
| Bitki və heyvan mənşəli piylər və yağlar | 0.8 | 0.68 | 0.05 | 1.41 | 1.39 | 0.00 |
| Yeyinti sənayesi məhsulu, alkoqollu və alkoqolsuz içkilər, tütün | 6.9 | 4.29 | 6.22 | 8.13 | 7.43 | 0.70 |
| Mineral məhsullar | 12.26 | 61.71 | 20.84 | 61.19 | 5.47 | 62.20 |
| Kimya sənayesi məhsulu | 7.02 | 2.35 | 7.27 | 3.87 | 6.82 | 0.92 |
| Plastmas və plastmas məmulatlar | 2.88 | 2.88 | 2.74 | 2.50 | 2.99 | 3.23 |
| Xam dəri, dəri, xəz dəri və onlardan məmulat. | 0.37 | 1.05 | 0.08 | 0.06 | 0.60 | 1.99 |
| Ağac və ağac məmulatı, ağac kömür | 2.98 | 0.03 | 5.89 | 0.02 | 0.68 | 0.05 |
| Kağız kütləsi, kağız və karton və onlardan məmulatlar | 3.45 | 0.14 | 1.38 | 0.11 | 5.09 | 0.16 |
| Toxuculuq və tikiş məmulatı | 1.55 | 16.96 | 0.83 | 9.55 | 2.13 | 23.91 |
| Ayaqqabı, baş geyimi, çətir, əsa və süni gül. | 0.30 | 0.05 | 0.05 | 0.07 | 0.49 | 0.04 |
| Daşdan, gipsdən, sementdən məmulatlar | 2.71 | 0.18 | 2.93 | 0.36 | 2.54 | 0.01 |
| Mirvari, qiymətli daş və metal məmulatları | 0.02 | 0.00 | 0.01 | 0.00 | 0.02 | - |
| Az qiymətli metallar və onlardan məmulatlar | 13.77 | 1.96 | 21.68 | 0.70 | 7.51 | 3.14 |
| Maşınlar, avadanlıqlar və mexanizmlər | 21.32 | 4.79 | 12.69 | 8.49 | 28.14 | 1.31 |
| Yerüstü, hava və su nəqliyyatı üçün vasitələr | 6.28 | 0.51 | 5.45 | 0.86 | 6.93 | 0.18 |
| Cihazlar, optik aparatlar, səhiyyə və musiqi alətləri | 0.65 | 0.26 | 0.36 | 0.52 | 0.88 | 0.01 |
| Digər mallar | 1.68 | 0.05 | 0.23 | 0.10 | 2.83 | - |
| İncəsənət əsərləri və antikvarlar | 0.01 | 0.00 | - | - | 0.02 | 0.0 |

**Cədvəl 4 -ün ardı**

## AZƏRBAYCAN RESPUBLİKASINDA ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ EKOLOJİ PROBLEMLƏR

Müasir elmi-texniki inqilab insan cəmiyyətinin təbiətə, cümlədən təbii sərvətlərə təsirini gücləndirmişdir. İstehsal və qeyri istehsal sahələrinin ətraf mühitin ümumi vəziyyətinə neqativ təsiri artmış və gərgin ekoloji problemlər yaranmışdır. Təbiətdən asılılığı getdikcə azalmasına baxmayaraq təbii resurslardan istifadə yüksək olaraq qalmaqdadır. Bütün bunların nəticəsində yaşadığımız mühi getdikcə pisləşir, hava, torpaq və su hövzələri çirklənir, canlı ale üçün təhlükə yaranır. Ətraf mühitin mühafizəsi, təbii resurslard səmərəli istifadə edilməsi, canlı sərvətin qorunması hazır beynəlxalq əhəmiyyət kəsb etmişdir.

Dünya birliyinin bir hissəsi kimi Azərbaycan Respublikasın da ətraf mühitin mühafizəsi məsələləri və bəzi ekoloji probleml son 40 il ərzində daha da kəskinləşmişdir. Keçmiş SSRİ tərkibind respublikamızın təbii sərvətlərindən kortəbii istifadə, ekoloji tutu nəzərə alınmayaraq çirkli sənaye sahələrinin yerləşdirilməsi v onların təmizləyici qurğularla təchiz edilməməsi nəticəsində ətr mühitə antropogen təsir güclənmiş, bəzi ərazilərdə texnoge landşaftlar yaranmışdır. Kənd təsərrüfatı sahələrində istifadə edilə zəhərli kimyəvi maddələrin normadan artıq tətbiq edilmə sayəsində də torpaqlar çirklənməyə məruz qalmışdır. Bütün b təsirlər nəticəsində torpaqların, su hövzələrinin, atmosferin, bitki v heyvanat aləminin və ümumiyyətlə landşaft komplekslərini mühafizəsi respublikamızın əsas ekoloji problemlərinə çevrilmişdir.

Respublikamızda ekoloji problemlər daha çox sənaye və kən təsərrüfatının inkişaf etdiyi rayonlar üçün xarakterikdir. B baxımdan ekoloji problemlərin kəskinləşdiyi ərazilərə, neftçıxarm sənayesinin inkişaf etdiyi Xəzər dənizi, Abşeron yarımadası, Cənub Şərqi Şirvan və Muğan düzlərini; dağ-mədən sənayesinin inkiş etdiyi Daşkəsən, Balakən və Naxçıvan MR ərazilərini; iri sənay şəhərləri olan Bakı, Sumqayıt, Gəncə, Əli-Bayramlı v Mingəçevirin texnogen pozulmuş torpaq sahələrini; Respublikan



tmosfer və su hövzələrini; Kür-Araz ovalığının şorlaşmış və dağlarımızın eroziyaya uğramış torpaqlarını; ilbəil qırılaraq seyrəldilən və məhv olma təhlükəsi altında olan düzən və dağ meşələrini və s. aid edə bilərik. Bütün bu problemlər hazırda öz həllini gözləyir. Lakin iqtisadi və sosial-iqtisadi problemlərin oxluğu ekoloji məsələlərin həllini çətinləşdirir, dövlətin ekoloji problemlərin həllinə yönəltdiyi vəsaitlər kifayət etmir. Bunu nəzərə alaraq ictimai ekoloji təşkilatlar mövcud ekoloji problemləri həll etmək, nəticədə ətraf mühitin sağlamlığına nail olmaq üçün BMT İnkişaf Proqramı çərçivəsində ayrılan məqsədli maliyyələşdirmədən də istifadə etməlidirlər. Ekoloji maarifləndirmə və ekoloji tərbiyəyə də xüsusi fikir verilməlidir.

Hazırda dövlətimizdə gedən uğurlu dəyişikliklər, yeni ideoloji sistemin yaranması ictimai fikrə də müsbət təsir göstərir və cəmiyyətdə sağlam ekoloji fikrin formalaşması və inkişafına təkan verir.

Ətraf mühitin mühafizəsi sahəsində Dövlət siyasətinin əsas prinsipləri 1990-cı ildən sonra qəbul olunmuş «Azərbaycan Respublikasının ekoloji konsepsiyası»nda və Milli Məclisin «Ətraf mühitin mühafizəsi» sahəsində qəbul etdiyi Qanun və qərarlarında öz əksini tapmışdır. 1992-ci ildə qəbul edilmiş «Təbiəti mühafizə və təbiətdən istifadə haqqında» Azərbaycan Respublikası Qanununa əsasən ətraf mühitin qorunmasına aid normativ sənəd və tələblərə həyat edilməsinə, icrasına, ətraf mühitin vəziyyətinə və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti Dövlət Ekologiya və Təbii Sərvətlər Nazirliyinə həvalə edilmişdir.

Azərbaycan Respublikasında ekoloji vəziyyətin sağlamlaşdırılması, ekoloji təhlükəsizliyin təmin edilməsi üçün ilk növbədə aşağıdakı istiqamətlərə fikir verilməlidir:

Yüksək ixtisaslı iqtisadçı-ekoloq kadrların hazırlanması.

Ətraf mühitin mühafizəsi və ekoloji problemlərin həlli məsələsində beynəlxalq təcrübənin öyrənilməsi və ondan istifadə.

Biosferin mühafizəsi;

Təbii sərvətlərdən düşünülmüş şəkildə səmərəli istifadə;

İstehsal prosesində yaranan tullantıların azaldılması və onlardan təkrar istifadə;

Enerji ehtiyatlarından səmərəli istifadə;
Az tullantılı və tullantısız texnologiyanın tətbiqi və s.

Təbiətin mühafizəsi problemi iqtisadi, sosial, siyasi və texniki problem olduğundan respublikamızın əsas ekoloji problemlərinin kompleks şərhinin verilməsi məqsədəuyğun hesab edilir.



## ATMOSFERİN MÜHAFİZƏSİ

Respublikanın atmosfer havasının vəziyyəti gərgin olaraq qalmaqdadır. Sənaye müəssisələrinin gücünün istifadə olunma miqyasından asılı olaraq hava hövzəsinə atılan zərərli tullantıların illik miqdarı 665 min tondan 2,6 mln. ton arasında dəyişir.

Respublika Dövlət Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə sənaye müəssisələrinin tam gücü ilə işlədiyi dövrlərdə ölkənin hava hövzəsinə 112 min ton toz hissəcikləri, 93 min ton kükürd 2-oksid, 638 min ton karbon oksidi, 82 min ton azot oksidi, 1 mln. 665 min ton karbon qazı, 37 min ton müxtəlif tərkibli kimyəvi maddələr atılır. 1993-1998-ci illərdə respublikanın hava hövzəsinə atılan zərərli maddələrin miqdarı dioqramda verilir.

Atmosfer havasına atılan tullantıların həcminə və xüsusi çəkisinə görə Bakı, Sumqayıt, Əli-Bayramlı, Gəncə və Mingəçevir şəhərləri öndə gedirlər. Həmin şəhərlərin hava hövzəsini çirkləndirən əsas sənaye müəssisələri neftayırma, neft-kimya, kimya, energetika, metallürgiya, tikinti materialları sənayesi sahələri və avtomobil nəqliyyatı hesab olunurlar. Bu sənaye müəssisələri yalnız atmosfer havasını, eyni zamanda, bütövlükdə şəhərlərin ətraf mühitinin çirkləndirilməsinin başlıja mənbəyi hesab olunurlar. Respublikanın atmosfer havasına atılan tullantıların 66,1%-i Bakı şəhərinin, 4,5%-i Sumqayıtın, 3%-i Gəncənin, 2,5%-i Mingəçevirin, %-i Əli-Bayramlı şəhərinin payına düşür.

Respublikanın iri sənaye şəhərlərinin hava hövzəsinin çirkləndirilməsinin əsas səbəbi son 40-50 il ərzində avadanlıq və mövcud texnologiyaların dəyişdirilməməsi, təmizləyici qurğularla tam təmin olunması, nəticədə avadanlıqların köhnələrək yararsız vəziyyətə düşməsi olmuşdur.

... atılan zərərli maddələr (min ton).




İstilik elektrik stansiyalarında və istilik qızdırıcı mərkəzlərdə yanacaq kimi təbii qazdan az istifadə olunması, əvəzində tərkibində yüksək faiz kükürd olan mazutdan istifadə olunması, atmosfer havasının mühafizəsi tədbirlərinin həyata keçirilməsi və təbiəti mühafizəyə lazım olan maliyyə vəsaitinin ilbəil azaldılması da atmosferin çirklənməsinə öz mənfi təsirini göstərmişdir.

Ekoloji vəziyyətlərin göstəricilərinə əsasən Abşeron yarımadası kəskin ekoloji problemlər kompleksi olan zonaya aid edilir. Respublika sənaye potensialının 70%-i bu zonada yerləşən Bakı və Sumqayıt şəhərlərində cəmləşmişdir. Abşeron ekoloji zonasında 80-dən artıq böyük, 270 orta və 2000-dən artıq kiçik müəssisə yerləşdirilmişdir. Bütün Respublika üzrə atmosfer hövzəsinə atılan tullantıların 70,6%-i də Abşeron zonasının payına düşür ki, bu da regionda ekoloji vəziyyətin nə qədər gərgin olduğunu göstərir. Bu cəhətdən Bakı şəhərində atmosfer havasının vəziyyəti daha ağırdır. Belə ki, 1998-ci ilin göstəricilərinə əsasən Bakı şəhəri üzrə atmosferə atılan zərərli maddələrin miqdarı 451 min ton olmuşdur. Həmin miqdarın 268,1 min tonu stasionar



mənbələrin və 182,9 min tonu avtomobil nəqliyyatının payına düşür. Əsas çirkləndirici maddələrin 13,1 min tonunu bərk formalı tullantılar, 255,0 min tonunu qaza oxşar və maye maddələr, o cümlədən onun 10,1 min tonunu kükürd anhidridi, 11,0 min tonunu karbon 2-oksid, 8,3 min tonunu azot 4-oksid, 216,5 min tonunu isə karbohidrogenlər təşkil etmişdir. Qeyd etmək lazımdır ki, qazvari və maye formalı tullantıların təmizləyici qurğularla tutulma faizləri 30%-ə yaxındır. Zərərli tullantıların qalan hissəsi isə birbaşa şəhərin hava hövzəsinə atılır.

Abşeron zonasında tullantıların ən yüksək miqdarı sənaye müəssisələrinin tam gücü ilə işlədiyi 1990-cü ildə 1,5 mln. tona yaxın qeydə alınmışdır. 1998-ci ildə isə həmin göstərici sənaye müəssisələrinin çoxunun işləməməsi ilə əlaqədar olaraq 5,0 dəfə azalmışdır.

Abşeron zonasının ikinci iri sənaye şəhəri olan Sumqayıtda da ekoloji vəziyyət gərgin olaraq qalmaqdadır. 1998-ci ildə Sumqayıt şəhəri üzrə atmosfer havasına buraxılan zərərli maddələrin miqdarı 18,4 min ton olmuşdur. Onun 15,8 min tonu stasionar mənbələrin və 2,6 min tonu avtomobil nəqliyyatının payına düşür. Zərərli tullantıların 3,9 min tonu bərk formalı, 11,9 min tonu isə qazvari və maye formalı tullantıların, o cümlədən, 2,3 min tonu kükürd anhidridinin, 3,7 min tonu karbon 2-oksidinin, 2,7 min tonu azot 4-oksidinin, 0,2 min tonu isə karbohidrogenlərin hesabına düşür. Bundan əlavə amonyak – 24,91 t/il, ftor – 1782,88 t/il, xlor – 35,88 t/il; xlor hidrat – 7,78 t/il və s. şəhərlərin əsas çirkləndiriciləri siyahısına daxildirlər. Buna baxmayaraq 1990-cı illə müqayisədə Sumqayıt şəhəri üzrə tullantıların miqdarı 6 dəfə azalmışdır.

Abşeron zonası sənaye müəssisələrində ildə 97 min ton tərkibində zəhərli maddələr olan bərk formalı tullantılar yaranır. Ən mürəkkəb vəziyyət Sumqayıt şəhərində yaranmışdır. Burada ildə 52 adda 47 min tondan artıq yaranan zəhərli sənaye tullantısının yalnız 39,5 min tonu təkrar istehsalatda istifadə olunur. Ən gərgin vəziyyət tərkibində zəhərli maddələr olan tullantıların istifadə olunma sahələrində yaranmışdır. Sənaye tullantılarının basdırılması üçün poliqonun olmaması səbəbindən şəhərin sənaye müəssisələri yaranmış tullantıları öz ərazilərində saxlayır və ya təsadüfi

zibilxanalara atırlar. Məsələn, «Kimya sənaye» İstehsalat Birliyinin ərazisində tərkibində civə olan 100 min tonlarla tullantı yığılıb qalmışdır ki, bu da ekoloji mühit və əhalinin sağlamlığı üçün olduqca təhlükəlidir.

Respublikanın qərb zonasında yerləşən Gəncə və Mingəçevir şəhərlərinin birlikdə atmosfer havasını çirkləndirməkdə payları 5,5% təşkil etməsinə baxmayaraq, ildə bu zonaya əlavə olaraq Gürcüstan və Ermənistan respublikalarının ərazisindən hava axınları vasitəsi ilə 20-30 min ton tullantı daxil olur. Bununla yanaşı Gəncə və Mingəçevir şəhərlərinin sənaye müəssisələri də 1998-ci ildə regionun hava hövzəsinə 27,3 min ton tullantı atmışdır. Son illərdə «Qədim İpək Yolu»nun bərpası üzrə aparılan işlər nəticəsində Bakı-Qazax yolunda yük avtomobillərinin miqdarının və hərəkət intensivliyinin artması nəticəsində havanın çirklənməsinin 15-20% artması müşahidə edilir. Qeyd etmək lazımdır ki, regionda atmosfer havasının əsas çirklənmə mənbələri Gəncə Alüminium oksidi zavodu, Mingəçevir Dövlət Rayon Elektrik Stansiyası hesab olunur. Lakin son illərdə Gəncə Alüminium oksidi zavodunun işləməməsi nəticəsində bu regionun əsas çirklənmə mənbəyi Mingəçevir DRES-dir. İldə atmosfer hövzəsinə atılan tullantıların 20 min tondan çoxu DRES-tullantılarının payına düşür.

Respublikanın Mərkəzi Aran bölgəsində yerləşən ən iri sənaye şəhəri Əli-Bayramlıdır. Şəhərin sənaye müəssisələri 1998-ci ildə atmosfer hövzəsinə 22,7 min ton tərkibində zərərli maddələr olan tullantılar atmışlar. Qeyd etmək lazımdır ki, şəhərin əsas çirklənmə mənbəyi Əli-Bayramlı DRES-dir. Sənaye müəssisələri vasitəsilə atmosferə atılan tullantıların 0,3 min tonunu bərk formalı tullantılar, 22,4 min tonunu isə, tərkibində kükürd anhidridi, karbon – 2 oksid, azot - 4 oksid, karbohidrogenlər və digər maddələr olan qaz və maye formalı tullantılar təşkil etmişdir. Əli-Bayramlı şəhəri həm də respublikanın əsas nəqliyyat qovşaqlarından biridir. Son illərdə bu regionda da avtomobillərin hərəkət intensivliyi artmış və nəticədə avtomobil nəqliyyatı vasitəsilə atmosferə ildə 25 min tondan artıq tullantı atılmışdır. Qeyd etmək lazımdır ki, intensiv hərəkət olan avtomobil yolları kənarlarında tullantıların təsiri



nəticəsində torpaqlarda qurğuşunun və digər ağır metalların miqdarı yol verilən norma həddindən 10 dəfələrlə yüksək olur.

Son illərdə blokada vəziyyətində olan Naxçıvan MR enerji və enerji daşıyıcılarına böyük ehtiyac hiss edir. Naxçıvanda sənaye müəssisələrinin öz gücünün 20-25% məhsuldarlığı ilə işləməsi nəticəsində 1995-ci illə müqayisədə (0,7 min ton) atmosferə atılan tullantıların həcmi 1998-ci ildə 8 dəfəyə qədər azalmışdır.

Respublikanın sənaye müəssisələri tərəfindən 1990-1991-ci illər ərzində atmosfer hövzəsinə atdıqları zərərli tullantıların orta hesabla xüsusi təzyiqi Bakıda 400, Sumqayıtda 1200, Əli-Bayramlıda 1000, Gəncədə 550, Mingəçevirdə 480 ton $km^2$ olmuşdur. Azərbaycan üzrə bu göstərici orta hesabla 24 ton $km^2$ təşkil etmişdir ki, bu da keçmiş ittifaq üzrə olan səviyyədən 10 dəfə artıqdır.

Məlumdur ki, iri sənaye müəssisələri tikilən zaman ekoloji normativlərə əməl edilməlidir. İlk növbədə çirkli sənaye sahələri yaradılarkən hakim küləklərin istiqamətləri nəzərə alınmalı, müəssisələr yaşayış massivlərindən aralı tikilməli, sənaye müəssisələri ilə yaşayış sahələri arasında sanitar qoruyucu meşə zolaqları salınmalıdır. Lakin təəssüflə qeyd etməliyik ki, Azərbaycanda sənaye müəssisələri tikilərkən yuxarıda qeyd edilən normaların heç biri nəzərə alınmamışdır. Nəticədə ətraf mühitə atılan bütün zərərli tullantılar birbaşa yaşayış sahələrinə təsir etmiş və orada yaşayan insanların sağlamlığı təhlükə altında olmuşdur.

Yuxarıda qeyd edilənlərdən göründüyü kimi sənaye müəssisələrinin ətraf mühitə atdığı tullantılar içərisində karbon, kükürd və azot oksidləri üstünlük təşkil edir. Atmosfer hövzəsinə atılan bu qazlar bir neçə saatdan sonra daha kəskin mənfi nəticələr verən formalara keçirlər. Məsələn, kükürd oksidləri havada olan su və su buxarı ilə reaksiyaya girərək sulfid və sulfat turşularına çevrilirlər ki, bu da turş yağışların düşməsinə səbəb olur. Bununda nəticəsində torpağın məhsuldarlığı azalır, metal tərkibli qurğular, maşın və başqa avadanlıqlar korroziyaya uğrayır, binalar, tarixi abidələr zədələnir, əhalinin şəxsi təsərrüfatlarına böyük maddi zərər vurulur. Karbon qazının atmosferdə çoxalması isə «İstixana effekti» yaradır və yerdə havanın orta temperaturunun artmasına gətirib

reaksiyaya girərək, ozon təbəqəsini parçalayır. Havada olan toz, his, qurum, aerozollar, havanın şəffaflığını azaldır və şəhərlərdə duman və tutqun havaların baş verməsinin sayını çoxaldırlar. Havada b hissəciklərin çoxluğu yerin albedosunu artırır.

Respublikanın hava hövzəsini mühafizə etmək üçün ilk növbədə mövcud çirkləndirici sənaye sahələrini yenidən qurmaq, müasir texnoloji qurğular, təmizləyicilər tətbiq etməklə, atmosferə atılan çirkləndirici maddələrin ümumi miqdarının azaldılmasına və zərərsizləşdirilməsinə nail olmaq, az tullantılı və tullantısız istehsalat sahələri yaratmaq lazımdır. Çirkləndirici müəssisələrdə daha hündür borular tikmək, müəssisələrin ətrafında qaz və tozların təsirinə davam gətirən, havadakı toz, his və müxtəlif qazları tutub saxlaya bilən ağac və kol bitkilərindən ibarət yaşıllıq-mühafizə zolaqları yaratmaq da atmosferi mühafizə tədbirləri siyahısına daxildir.

## SU EHTİYATLARI VƏ ONLARIN MÜHAFİZƏSİ

Azərbaycan Respublikası məhdud su ehtiyatlarına malikdir. Keçmiş SSRİ məkanında olan səth sularının cəmi 0,2%-i respublikamızın payına düşür. Respublikamızın su təminatının belə zəif olmasına səbəb ilk növbədə əlverişsiz təbii şəraitdir. Ümumi ərazinin yarıya qədərinin düzənlik və yaylalardan ibarət olması, iqlim şəraiti, burada buxarlanmanın düşən yağıntıdan çox olmasına səbəb olmuşdur. Nəzərə almaq lazımdır ki, bərpa olunan su ehtiyatının yalnız 30%-i respublikanın daxili su axarlarının hesabına formalaşır və ilin sululuğundan asılı olaraq 9,2; 7,3; 5,4 milyard $m^3$ arasında dəyişir. Respublika ərazisindən buxarlanan suyun həcmi isə 26,66 $km^3$ təşkil edir ki, bu da yerli su axınından 3-5 dəfəyə qədər yüksəkdir. Su balansının 70%-dən çoxu qonşu dövlətlərin ərazisində formalaşan çay axınları ilə əlaqədardır. Həmin axınlar 29,7 $km^3$, mülayim və quraqlıq illərdə isə 25,5-20,7 $km^3$ təşkil edir. Su ehtiyatlarının müəyyən hissəsi də təbii göllərdə cəmlənmişdir.

Adam başına düşən su ehtiyatlarına görə Azərbaycan qonşu dövlətlər içərisində axırıncı yeri tutur. Hər $km^2$ ərazidə 1 nəfərə düşən su ehtiyatlarının həcminə görə Azərbaycan MDB ölkələrindən 1,8-2,0 dəfə, Gürcüstandan 7,0-8,0 dəfə, Ermənistandan isə 1,5-2,2 dəfə geri qalır.

Respublikamızda adambaşına düşən suyun həcmi 1913-cü ildə 13,5 $m^3$ təşkil edirdisə, əhalinin artması ilə əlaqədar bu göstərici 1999-cu ildə 3,4 dəfə azalaraq 4,0 $m^3$-ə enmişdir. Su ehtiyatları respublikamızın fiziki-coğrafi əraziləri üzrə də qeyri-bərabər paylanmışdır. Su ehtiyatları ilə yaxşı təmin olunmuş ərazilərə Böyük Qafqazın şimal-şərq və Cənub hissələri, Lənkəran zonası, zəif təmin olunmuş ərazilərə isə Kür-Araz ovalığı, Ceyrançöl, Abşeron-Qobustan və Naxçıvan MR ərazisi aid edilir. Respublikamızın su ehtiyatının 5,1 $km^3$-i yeraltı suların payına düşür. Yeraltı suların 31%-i Qusar maili düzənliyi, 18,5-i Mil-Qarabağ zonası, 13,3%-i isə ...-Əyriçay vadisində toplanmışdır. Naxçıvan MR, Şirvan, ...lyan, Arazboyu ərazilərində isə yeraltı suların 22%-i

Səth və yeraltı suların Respublika ərazisi üzrə qeyri-bərabər paylanması nəticəsində onlardan suvarma, sənaye və məişət məqsədləri üçün istifadədə problemlər yaranır. Bunu nəzərə alaraq su ehtiyatları ilə zəif təmin olunmuş ərazilərin su təchizatını təmin etmək üçün Respublikamızın ərazisində 40-a qədər su anbarı və kiçik sututarlar yaradılmışdır. Həmin su anbarları respublika ərazisinin 1,16%-ni tuturlar. Mingəçevir, Şəmkir, Yenikənd, Varvara, Tərtər su anbarlarının və Naxçıvan MR ərazisindəki Araz su qovşağının təsərrüfat, hidroenerji və s. əhəmiyyətləri böyükdür. Bütün su anbarlarında toplanan 20,0 km$^3$ su ilə respublikamızın 1400 min ha artıq kənd təsərrüfatı sahələri suvarılır.

Respublika üzrə kənd təsərrüfatı sahələrində il ərzində orta hesabla su çatışmazlığı 3,7 km$^3$, su qıtlığı olan illərdə isə 4,75 km$^3$ təşkil edir.

Respublikamızda fəaliyyət göstərən bütün suvarma kanallarının ümumi uzunluğu 38,9 min km-dir. Suvarma sistemi 10 magistral kanal və 2 suvarma kollektoru ilə təmsil olunur. Kanalların yalnız 4,1-i süni örtüklə təchiz olunub. Suvarmada istifadə olunan suyun 95,9%-i torpaq kanalla aparıldığı üçün 2,5-3,0 milyard m$^3$ su itir. Nəticədə yeraltı suların səviyyəsi qalxır, təkrar şorlaşma və bataqlıqlaşma yaranır. Kənd təsərrüfatı sahələrində çəmən-bataqlıq əraziləri 279,6 min ha, şorlaşmış ərazilər isə 741,6 min ha təşkil edir. Əgər respublikanın suvarma kanallarının faydalılıq əmsalı 0,75-0,8-ə çatdırılsa, onda əlavə 250-260 min ha əkin sahələrini suvarmaq olar.

Hər il respublikamızın su hövzələrindən 16 km$^3$, yeraltı laylardan 1,1-1,2 km$^3$ şirin su götürülür. Respublikanın suya olan tələbatı isə 11,0-13,0 km$^3$-dir. Götürülən suyun 20-25%-i sənaye və məişət məqsədləri üçün istifadə olunur. Su obyektlərinə atılan tullantı sularının həcmi 4,5-5,0 km$^3$ təşkil edir. Həmin suların 0,25-0,32 milyard m$^3$-i normativ təmizlənmiş, 3,5-4,5 milyard m$^3$-i şərti təmiz və 0,25-0,30 milyard m$^3$-i isə tam çirkli sulardır. Respublikada su ehtiyatlarının mühafizəsi və onlardan səmərəli istifadə göstəriciləri cədvəl 1-də verilmişdir.

**Cədvəl 1**

**Azərbaycan Respublikasında su ehtiyatlarının mühafizəsi və onların səmərəli istifadə edilməsini səciyyələndirən əsas göstəricilər (milyon kubmetr)**

| SUDAN İSTİFADƏ | İLLƏR | | | | |
|---|---|---|---|---|---|
| | 1990 | 1993 | 1995 | 1997 | 1998 |
| Təbii mənbələrdən götürülən su-cəmi | 16176 | 16344 | 13971 | 12514 | 10235 |
| Adambaşına, $m^3$ | 2241 | 2165 | 1808 | 1589 | 1288 |
| Su istehlakı (təzə sulardan istifadə) – cəmi | 12477 | 12149 | 10223 | 9037 | 7294 |
| O cümlədən: | | | | | |
| Təsərrüfat-içməli su ehtiyacları üçün | 402 | 390 | 327 | 222 | 264 |
| İstehsal ehtiyacları üçün | 3418 | 3239 | 2173 | 2132 | 2293 |
| Onlardan içməli su | 317 | 246 | 111 | 35 | 27 |
| Kənd təsərrüfatının su ilə təchizatı | 8627 | 8512 | 7720 | 6534 | 4552 |
| Dövri və ardıcıl istifadə olunan suyun həcmi | 1628 | 1477 | 1696 | 1539 | 1698 |
| İstehsal ehtiyacları üçün ümumi su istehlakına nisbətən faizlə | 32 | 30 | 44 | 42 | 43 |
| Nəql edilərkən itən su | 4206 | 4195 | 3747 | 3477 | 2941 |
| Onlardan çirkləndirilmiş | 303 | 255 | 134 | 179 | 157 |
| Çirkab suların səthi sututarlara atılması | 5026 | 4266 | 4247 | 4477 | 4377 |

Hesablamalar göstərir ki, 1 $km^2$ ərazidə hər 1 nəfərə düşən su ehtiyatlarının həcminə görə ən aşağı göstərici Muğan-Salyan zonasındadır (3 və 7). Bu ehtiyatlar Abşeron yarımadasında 15-0,04,

... 19 0,04, Mil-Qarabağda 59-0,5, Qaz

rayonunda 74-1,3 və Naxçıvanda 17-1,6 təşkil edir.

Məlumdur ki, respublikamızın su ehtiyatının 70%-ə qəd tranzit çayların payına düşür. Kür, Araz, Samur, Qanıx, Qabır Oxçu, Arpaçay və s. kimi çaylar Gürcüstan, Ermənistan, Dağıst ərazilərində ciddi çirklənməyə məruz qalırlar. Onların üzərində anbarları, təsərrüfat obyektləri yaradılır ki, bu da həmin çay vasitəsi ilə respublika ərazisinə gətirilən suyun miqranı gələcək ilbəil azaldacaqdır. Həmin çayların keyfiyyət və kəmiyyətini norm saxlamaq üçün Gürcüstan, Ermənistan və Dağıstanla dövlətlərar müqavilələr bağlanmalıdır.

Respublikamızın suya olan tələbatının ödənilməsində Kü Araz və d. çayların mühüm əhəmiyyəti vardır. Kür çayının balansının 74%-dən çoxu respublikadan kənarda formalaşır və on ekoloji vəziyyəti də qonşu dövlətlərdən asılıdır. Kür çayı hövzəsi Gürcüstan ərazisində orta hesabla 3,0 milyard $m^3$ kommunal-məi və Tbilisi, Rustavi, Qardabani və s. şəhərlərin sənaye çirkab sul axıdılır. Kür çayının çirklənməsi respublikamızın ərazisində davam edir. Hər gün Kürə respublika ərazisindən 200 min $m^3$ çirk suları axıdılır. Nəticədə Kür suyunda misin orta miqdarı yol veril qatılıq həddindən 4,5-10,0 dəfə, neft məhsullarının miqdarı 1,5-2 dəfə, fenolun orta qatılığı 4,0-4,5 dəfə yüksəkdir.

Respublikamızın ərazisində Kür çayının çirklənməsin Gəncə və Mingəçevir şəhərinin sənaye və kommunal-məişət çirk sularının rolu daha böyükdür. Belə ki, Gəncə şəhərində gün ərzin yaranan 60-65 min $m^3$ çirkab sularının yalnız 30 min $m^3$-ə qəd mexaniki yolla təmizlənir. Mingəçevir şəhərində isə 50 min $m^3$/gü yaranan çirkab sularının yalnız 18 min $m^3$-i təmizlənir. Qalan çirk sularının hamısı təmizlənməmiş halda Kür çayına axıdılır.

Ermənistan ərazisindən Ağstafaçay vasitəsi ilə tərkibində ne məhsulları, kimyəvi boyaq maddələri, fenol, amonium duzları və kimi zərərli kimyəvi maddələr olan ildə 1 milyon $m^3$ çirkab suları d Kür çayına axıdılır.

Ən güclü çirklənməyə məruz qalan çaylardan biri də Arazdı Araz çayı dünyanın ən lilli çaylarından biridir. Bir il ərzində Kü çayına 18 mln. t asılı hissəciklər gətirir. Araz çayı əsas



Ermənistan ərazisindən özünün sol qolları olan Arpaçay, Razdan, Oxçuçay vasitəsi ilə çirklənir. Həmin çaylar vasitəsi ilə Araza sanitar normalardan 10 dəfələrlə yüksək olan neft məhsulları, fenol, amoniy və nitrit duzları, ağır metallar və s. kimi çirkləndiricilər axıdılır. Təkcə Oxçuçay vasitəsi ilə Araza ildə 150 mln.$m^3$ Qafan-Qacaran mis-molibden kombinatının çirkab tullantı suları axıdılır. Nəticədə mis və molibden metalları ilə çirklənmiş sulardan suvarmada istifadə etdikdə torpaqların həmin metallarla çirklənməsinə, kənd təsərrüfatı bitkilərinin və heyvanların məhsuldarlığının aşağı düşməsinə, müxtəlif xəstəliklərin artmasına səbəb olur. Hazırda düzənlik ərazilərdə yüksək dərəcədə çirklənmiş və minerallaşmış Araz çayının suyundan suvarmada istifadə nəticəsində 40 min ha artıq ərazi şorlaşmışdır.

Su ehtiyatları məhdud olan ərazilərimizdən biri də Naxçıvan MR-dır. Uzun illər ərzində Naxçıvan MR blokadası orada istehsal sahələrinin 2/3 hissəsinin dayanmasına səbəb olmuş və nəticədə sənayedə sudan istifadə azalmışdır. 1995-ci ildə su obyektlərindən 294,0 mln. $m^3$ içməli su, o cümlədən 268,9 mln.$m^3$ suvarma sisteminə, 8,0 mln.$m^3$ sənaye təchizatına və 17,1 mln.$m^3$ məişət-təsərrüfat tələbatları üçün götürülmüşdür. Sənayedə sudan istifadə hazırda əsasən Naxçıvan şəhərinin payına düşür. Bu məqsədlə 4,5 mln.$m^3$ sudan istifadə olunur. Naxçıvan ərazisində çirklənmiş 4,5 mln.$m^3$ suyun cəmi 2,5 mln.$m^3$-ə qədəri mexaniki yolla təmizlənir. Qalan çirkab sular isə müxtəlif yollarla Araz çayına axıdılır.

Böyük Qafqaz fiziki-coğrafi vilayətinin su ehtiyatları 2 milyard $m^3$/il təşkil edir və bu sulardan içməli su mənbələri kimi geniş istifadə edilir. Şəki-Zaqatala, Quba-Xaçmax, Qəbələ-İsmayıllı ərazilərindəki çaylar isə yerli sənaye, kənd təsərrüfatı və məişət tullantıları ilə çirklənməyə məruz qalırlar.

Respublikamızın dağ-mədən sənayesinin inkişaf etdiyi ərazilərdən axan Qoşqarçay, Filizçay və s. çaylar ağır metal qarışıqları ilə kəskin çirklənirlər. Məsələn, Qoşqarçayın suyunda mis, dəmir birləşmələri yol verilən qatılıq həddindən 20-22 dəfə, Filizçayın suyunda civə, mis, kükürd, molibden, qurğuşun və s. kimi birləşmələrin miqdarı isə sanitar normalardan bir neçə dəfə artıqdır.

Abşeron ərazisi Respublikamızda ən kəskin ekoloji vəziyyət malik olan bir zonadır. Bu zonanın su ehtiyatları 10,5 mln.$m^3$/i həcmindədir. Abşeronda Bakı və Sumqayıt kimi iri sənaye şəhərlə yerləşir. Bakı şəhərində sənaye, məişət və kənd təsərrüfa müəssisələri tərəfindən istifadə olunan suyun miqdarı ildə 90 mln.$m^3$ təşkil edir. Bakı şəhərinə su 11,92 $m^3$/san. məhsuldarlı olan Kürdən, gündə 340 min $m^3$ isə Quba-Xaçmaz bölgəsində Şollar su kəməri vasitəsi ilə daxil olur. Bundan əlavə texnik məqsədlər üçün ildə 1106,9 $m^3$ Ceyranbatan su anbarından, 16 mln.$m^3$-ə yaxın yeraltı mənbələrdən və 150 mln.$m^3$ dəniz suy götürülərək işlədilir. Həmin suların 218 mln.$m^3$-i içmək və məişə tələbatı üçün, 211 mln.$m^3$-i sənaye məqsədi üçün və 8 mln.$m^3$ suvarmada istifadə edilir. Qeyd etmək vacibdir ki, ildə 67 mln.m suyun itkisinə yol verilir.

Şəhərin sənaye müəssisələri 512 mln.$m^3$ sudan istifadə edə qapalı su təchizatı sisteminə malikdir. Həmin suyun 153 mln.$m^3$-də təkrar istifadə edilir.

Abşeron ekoloji zonasında yerləşən Sumqayıt şəhəri 1950-c illərin sonunda kimya və neft kimyası sənaye mərkəzi kim formalaşmış və hazırda respublikanın ekoloji cəhətdən ən gərgi bölgəsi hesab olunur. Şəhərdə sənaye və məişət ehtiyacları üçü 152,6 mln.$m^3$ sudan istifadə edilir. Həmin suyun 74,9 mln.$m^3$ texniki məqsədlərlə istifadə üçün Ceyranbatan su anbarından, 11, mln.$m^3$-i içmək üçün Şollar kəmərindən, 69,8 mln.$m^3$ duzlu su is Xəzər gölündən götürülmüşdür. Sumqayıtın sənaye müəssisələ texniki məqsədlər üçün 96,6 mln.$m^3$ sudan istifadə edir. İstifadəd sonra yaranan tullantı sularının miqdarı 107,8 mln.$m^3$ təşkil edir k bunun da 95,8 mln.$m^3$-i sənaye, 12,0 mln.$m^3$-i isə məişət çirka sularıdır. Sənaye çirkab sularının 32,8 mln.$m^3$-i və bütün məişə suları təmizlənməmiş halda Xəzər dənizinə axıdılır. Qeyd etmə lazımdır ki, hazırda Sumqayıt sənaye müəssisələri yaranmış iqtisa böhran üzündən öz məhsuldarlığının 15-20%-i həcmində işləyir k bu da 1990-cı illə müqayisədə tullantıların 5 dəfə azalma deməkdir.

Abşeron yarımadasında 20-dən yuxarı daxili su hövzəsi – təb və süni göllər vardır. Neft-qaz yataqlarının istismarı ilə əlaqəd

olaraq yaranan lay sularının ətraf mühitə atılması nəticəsində çirkli göllər əmələ gəlmişdir. Neft çirkab suları ilə yanaşı Abşeronun bir sıra yaşayış məntəqələrinin də məişət çirkab suları həmin göllərə axıdılır. Nəticədə həmin göllər zəhərli kimyəvi maddələr və bioloji elementlərlə çirklənmişdir. Belə göllərə Böyük-Şor, Bülbülə, Qırmızı, Qızıl-Nohur, Çuxur-Dərə, Qanlıgöl, Hacı Həsən və Masazır göllərini misal göstərmək olar.

Abşeron yarımadasının ən böyük içməli su hövzəsi Ceyranbatan su anbarıdır. Su anbarı Samur-Abşeron kanalının 26 $m^3$/san. məhsuldarlığı olan su ilə qidalanır. Su anbarı Bakı və Sumqayıt şəhərlərinin, Ceyranbatan, Güzdək və d. qəsəbələrin texniki su mənbəyi kimi yaradılmışdır. Lakin son illərdə Samur-Abşeron kanalında su səviyyəsinin aşağı düşməsi, su anbarına müxtəlif yollarla çirklənmiş suların axıdılması su hövzəsində ekoloji vəziyyətin pisləşməsinə səbəb olur.

Ümumiyyətlə, Bakı sənaye rayonunda məişət-təsərrüfat sularını təmizləmək üçün layihə gücü 940 min $m^3$/gün, məhsuldarlığı 317 mln.$m^3$ olan və yalnız 600 min $m^3$/gün gücündə istifadə edilən Hövsan bioloji təmizləmə qurğusu yaradılmışdır. Hazırda bu qurğu öz gücünün 60%-i həcmində fəaliyyət göstərir. Bundan əlavə hər birinin gücü 18,6 min $m^3$/gün olan Hacı Həsən və Mərdəkan-Şüvəlan, gücü 126,0 min $m^3$/gün olan Zığ, gücləri müvafiq olaraq 86,4; 152; 20,0 min $m^3$/gün olan üç «Azerneftyağ» mexaniki təmizləmə və gücü 17,6 min $m^3$/gün olan «Şelflayihətikinti» bioloji təmizləmə qurğusundan istifadə edilir. Buna baxmayaraq qurğuların çoxunun köhnəlməsi, onlara öz gücündən artıq daxil olan çirkab sularını tam təmizləyə bilməmələri nəticəsində su hövzələrinə xeyli miqdarda çirkab suları axmaqda davam edir.

Respublikamızın su ehtiyatları içərisində təbii göllərin də mühüm rolu vardır. Göllərimiz dağ, dağətəyi və düzən gölləri qrupuna bölünürlər. Respublika ərazisinin cəmi 0,5%-ni tutan bu göllərdə toplanan suların ümumi həcmi 40 $km^3$-ə bərabərdir. Həmin suyun yalnız 16-17 $km^3$-i şirin, qalanları isə şor sulardır.

Şirin sulu göllər daha çox Böyük və Kiçik Qafqaz dağlarında cəmlənmişlər. Belə göllərdən Tufan, Ağ göllər, Böyük və Kiçik

Alagöllər, Qaragöl, Göy-Göl, Maralgöl və s. kimi göllərin biolo məhsuldarlığı, maddələr dövranı hövzələrin avtoxton (özün yaranan) mənşəli üzvü maddələrin öz-özünü təmizlənmə sayəsində sabit qalmışlar. Lakin son 15-20 ildə dağ göllərində suy şəffaflığının azalması və antropogen mənşəli üzvü maddələrlə za çirklənməsi qeyd edilir.

Respublikamızın ərazisində rast gəlinən 3500-ə qədər bul və çeşmələr geotermal, mineral və içməli şirin su qruplar bölünürlər. Onların ümumi su ehtiyatı 2,25 $km^3$-ə bərabərdir. Lak hələlik bu sulardan kifayət qədər səmərəli istifadə olunmur və za mühafizə olunduqlarından biogen mənşəli maddələrlə çirkləndiril Belə çirklənməyə respublikamızın əsas istirahət zonaları ol Hacıkənd, Kəlbəcər, Gədəbəy, Xızı, Şamaxı, Qəbələ, Şəki, Lerik Yardımlı rayonlarında daha çox rast gəlinir.

Azərbaycan Respublikası ərazisindəki 1000-dən çox bulağının 300-ü karbon qazlı, 220-si kükürdlü, 370-i metan qarışıq 100-ü azotlu və 30-u radonludur. Səmərəsiz istifadə olunan ehtiyatlarının müəyyən hissəsi də məhz bu suların payına düşü Qeyd etmək lazımdır ki, keçmiş SSRİ üzrə istifadə və təb əmsalına görə 1-ci sayılan Narzan tipli karbon qazlı suların miqd və debitinə görə Azərbaycan birinci yerdə olmuşdur. Lakin bu ti suyun yalnız 0,5-0,6%-dən səmərəli istifadə olunur.

Azərbaycanda qeydə alınan yeraltı su mənbələrinin yarı qədəri termal (isti) sulardır. Termal sulardan müalicə, məişət kommunal təsərrüfatı, kənd təsərrüfatı, sənaye, enerji alınması və məqsədlərlə bütün dünyada geniş istifadə olunmasına baxmayar Azərbaycanda hələlik bu sulardan çox zəif istifadə olunur. Term sular Kür-Araz ovalığı, Abşeron yarımadası, Quba-Xaçma Lənkəran-Astara və d. bölgələrdə 50-90$^0$ temperaturda rast gəlin Gələcəkdə termal sulardan sənayedə, binaların qızdırılmasınd istixanaların yaradılmasında, elek- trik enerjisinin alınmasında s. istifadə etməklə milyon tonlarla yanacağa qənaət etmək ol Nəticədə yanacağın yandırılması nəticəsində atmosferə atıl kükürd, karbon, azot oksidlərinin miqdarı azalar, torpaq və su hö zələri karbohidrogenlərlə, fenollarla çirklənməz, gözəl d meşələrimiz qırılmaz.



Respublikamızın su hövzələri içərisində Xəzər dənizinin özünəməxsus yeri vardır. Xəzər 5 dövlətin dənizi olmasına baxmayaraq Azərbaycan üçün həm təbii sərvətlər (mineral, bioloji) və həm də su mənbəyi hesab olunur. Lakin vahid ekoloji sistem kimi Xəzərin hər hansı bir dövlətə mənsub hissəsində baş verən mənfi ekoloji nəticələr bütün hövzəni əhatə edir.

Son illərdə Xəzərin səviyyəsinin qalxması ilə əlaqədar sahəsi 400 min $km^2$-ə qədər artmışdır. Xəzər Yer kürəsinin ən böyük axarsız gölüdür. Göl hazırda beynəlxalq əhəmiyyət kəsb etmişdir. Gölün həcmi 80 min $km^3$ olub, Yer kürəsi göl-su ehtiyatının 44%-ni təşkil edir. Xəzərdə qədim fauna və flora növləri bu günə qədər saxlanmışdır. Dünya nərə balığı ehtiyatının 90%-i Xəzərdə cəmlənmişdir. Dünya nərə balıq ovunun 85%-i və qara kürü istehsalının 90%-i Xəzərin payına düşür. Lakin son illərdə Xəzərin kəskin çirklənməsi onun bioloji sərvətlərinə də təsir etmiş və qiymətli balıq növlərinin ovlanması 9-10 dəfə azalmışdır.

Bütün Xəzər regionunun sosial-iqtisadi inkişafı, bütövlükdə Xəzər ekosisteminin vəziyyətindən və onun təbii ehtiyatlarından çox asılıdır. Bunu nəzərə alaraq ilk növbədə Xəzərin ekoloji təmizliyinə nail olmaq lazımdır. Çünki Xəzər hövzəsi ekosisteminin axarının olmaması nəticəsində Xəzərə axıdılan çirkləndirici maddələr gölün dibinə toplanır. Xəzərin ekoloji cəhətdən öz-özünə təmizlənməsi imkanı isə sıfra bərabərdir. Belə bir vəziyyətdə Xəzər ekoloji zonası bütün regionun iqliminin tənzimlənməsinə öz təsirini göstərir, Xəzərin bioloji sərvətlərinin ilbəil azalmasına və bütövlükdə ətraf mühitinə ciddi zərər vurur.

Xəzər gölü akvatoriyasının müxtəlif hissələrindən götürülən su nümunələri analizinin nəticələrinin təhlili göstərir ki, Xəzər gölü əsasən neft məhsulları, fenollar, səthi aktiv maddələr və s. ciddi şəkildə çirklənmişdir. Xəzər gölünə ildə 12,0 milyard $m^3$ çirkab suları axıdılır ki, onun da 95%-i Volqa çayının payına düşür.

Son 10-15 ildə Azərbaycan dövləti Xəzərə öz ərazisindən axıdılan çirkli tullantı sularını təmizləmək üçün layihə gücü 1,28 mln.$m^3$/gün olan təmizləyici qurğular, 4,46 mln.$m^3$ gücü olan təkrar və fasiləsiz-təkrar su təchizatı sistemi istifadəyə vermişdir. Nəticədə Xəzərin ekoloji vəziyyətinə mənfi təsir göstərən 0,5 mln.$m^3$/gün

çirkab sularının axıdılması azaldılmışdır. Lakin görülən tədbirlərə baxmayaraq Azərbaycan ərazisindən Xəzərə 0,3 milyard $m^3$ hədsiz dərəcədə çirkləndirilmiş su tullantısı, 300 mln $m^3$ təmizlənmiş su, 4 min ton neft məhsulları, 28 min ton asılı hissəciklər, 500-550 min ton quru qalıq, 74 min ton sulfatlar, 155 min ton xloridlər, 300 ton səthi aktiv maddələr, 5 ton fenol və digər ekoloji cəhətdən zərərli birləşmələr atılmaqda davam edir. İstifadədən çıxarılmış mədənlər və tankerlər, 300-dən artıq hidrotexniki qurğu Xəzərin ikinci çirklənmə mənbəyi hesab olunur.

1977-ci ildən başlayaraq Xəzərin səviyyəsinin 2,3 m qalxması sahilyanı ərazilərin hədsiz yuyulmasına, tikinti və mühəndis qurğularının dağıdılmasına, ərazilərin su altında qalmasına, çimərlik zonalarının öz əhəmiyyətini itirməsinə səbəb olmuşdur. Texnogen ərazilərin su altında qalması isə Xəzərin təkrar çirklənməsinə gətirib çıxarmışdır. Xəzərin səviyyəsinin qalxması ilə əlaqədar bu günə qədər Respublikaya dəyən zərər 3-4 milyard ABŞ dolları məbləğində hesablanır.

Xəzər gölünün ekoloji təmizliyinə nail olmaq üçün bütün Xəzəryanı dövlətlərin birgə əməkdaşlığı tələb olunur. Beynəlxalq müqaviləyə əsasən birgə nəzarət aparmaq, Xəzərə axıdılan bütün suların yalnız təmizləndikdən sonra atılmasına nail olmaq, Xəzərin təbii ehtiyatlarının mənimsənilməsi zamanı ekoloji qaydalara tam rəayət olunmasına çalışmaq, birgə kompleks elmi-tədqiqatlar aparmaq, Beynəlxalq Maliyyə Qurumlarını və Beynəlxalq təşkilatları Xəzərin ekoloji təmizliyinə cəlb etmək və s. bu kimi tədbirləri ardıcıl həyata keçirməklə gələcəkdə Xəzərin əvvəlki şöhrətini özünə qaytarmaq olar. Bu vacib problemin həlli üçün 1991-ci ildə Bakıda Xəzərin ekoloji problemlərinə həsr edilmiş Birinci Beynəlxalq Konfrans çağrılmış və onun yekun qətnaməsində Xəzərin gələcəyi ilə bağlı bütün tədbirlər sistemi müəyyənləşdirilmişdir. Müəyyən xərc və vəsaitlə yerinə yetirilməsi mümkün olan bəzi tədbirlər ekoloji, iqtisadi, istirahət baxımından çox faydalıdır.

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il fərmanı ilə Bakı buxtası sahillərindəki Dənizkənarı park «Milli park» elan olunmuşdur. Bakı şəhəri əhalisinin əsas istirahət yeri olan bu



ərazinin ekoloji təmizliyinə nail olmaq üçün ilk növbədə Bakı buxtasının müasir vəziyyətinə nəzər yetirilməlidir.

Bakı buxtasının əsas çirklənmə mənbələri neftayırma zavodları, Bibiheybət neftçıxarma mədənləri, şəhər kanalizasiyasının sənaye və məişət çirkab suları, həmçinin neft daşıyan gəmilərin yuyulmasından yaranan çirkab sularıdır. Buxtanın dib çöküntülərində toplanmış neft qalıqlarından ayrılan karbohidrogenlər də sahil sularının əsas çirklənmə mənbələrindən biri hesab olunur. Hövsan su təmizləyici qurğusundan və Hövsan kanalından axıdılan çirkab suları da dəniz cərəyanları, küləklər və s. vasitələrlə Bakı buxtasının çirklənməsində iştirak edir.

Bakı buxtasının yerləşdiyi Abşeron yarımadası yayı isti və quru, qışı mülayim və rütubətli iqlimdə yerləşdiyindən il ərzində günəşli günlərin miqdarı çox olur ki, bu da bioloji aktivliyi, üzvi birləşmələrin və neft çirklənməsinin bioloji tənəzzül prosesini gücləndirir.

Bakı buxtasında çirkabların toplanmasında cənub-qərb və cənub-şərq küləklərinin, onların açıq dənizə aparılmasında isə şimal-şərq və şimal-qərb küləklərinin xüsusi rolu vardır. Xəzər gölünün səviyyə tərəddüdü də buxtanın çirklənməsinə təsir göstərir. Bakı buxtası yarımdairəvi formada olduğundan və qarşısını Böyük Zirə adası kəsdiyindən cərəyanlar buxtaya təsir edə bilmir və bu da çirkabların yığılıb qalmasına səbəb olur.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Bakı buxtası fiziki, kimyəvi və bioloji yollarla çirklənir. Ümumiyyətlə, fiziki çirklənməyə əsasən su hövzələrinə İEM və bəzi sənaye müəssisələrindən işlənib çıxmış isti sularla çirklənmə aid edilir. Belə çirklənmə suların təbii reciminin dəyişməsinə, onların tərkibində oksigenin miqdarının azalmasına səbəb olur. Nəticədə suların «çiçəklənməsi» prosesi baş verir. Radiaktiv tullantılar da fiziki çirklənməyə səbəb olur.

Kimyəvi çirklənmə su hövzələrinə müxtəlif kimyəvi maddələrin və onların birləşmələrinin çirkab suların tərkibində axıdılması nəticəsində baş verir. Bu suların tərkibində olan metallardan qurğuşun və civə daha təhlükəli hesab olunur. Digər

xarakterik kütləvi çirklənmə sulara nitratların, fosfatların, səthi fə
maddələrin, karbohidrogenlərin axıdılmasından baş verir.

Bioloji çirklənmə isə sulara müxtəlif çirklənmə mənbə-lərindən axıdılan xəstəliktörədici mikroorqanizmlər vasitəsilə baş verir.

Bakı buxtasının əsas çirklənmə mənbələrindən biri olan və onun yaxınlığında yerləşən Azərneftyağ zavodu öz çirkab suların birbaşa Bakı buxtasına axıdır. Zavodun çirkab sularını təmizləmək üçün mexaniki təmizləmə qurğusu olmasına baxmayaraq qurğu şlamlarla dolduğu üçün çirkabları təmizləyə bilmir və nəticədə ildə buxtaya Azərneftyağ zavodundan 200-500 ton karbohidrogenlər və 500 kq fenol axıdılır. Buxtaya axıdılan çirkab sularının tərkibində neft karbohidrogenlərinin miqdarı hər litrdə 35-85 mq arasında dəyişir.

Bakı buxtasının ikinci çirklənmə mənbəyi Bibiheybət neftçıxarma buruqlarından suya axıdılan çirkablardır. Bibiheybət neft mədənləri Azərbaycanın ən qədim neft çıxarma mədənlərindən biridir. Hazırda bu mədəndəki yataqlar tükənmək üzrədir. İldə bu yataqdan 130 min ton neft çıxarılır. Neftin köhnəlmiş qurğular çıxarılması nəticəsində daim dənizə neft axıdılır. Neft çıxarma zamanı yer səthinə çıxan lay suları Bakı buxtasına axıdılır ki, bu da suyun ildə 1200-6000 ton karbohidrogenlə çirklənməsi deməkdir. Bibiheybət neft mədənləri yaxınlığında yaşayan əhali də ekoloji cəhətdən yararsız, yanğın təhlükəsi olan sahədə məskunlaşmışdır. Bu da onların həyat şəraiti, sağlamlıqları üçün olduqca təhlükəlidir.

Bakı şəhər kanalizasiyası vasitəsilə gündə 400 min m təmizlənməmiş sənaye və məişət çirkab suları Bakı buxtasına axıdılır. Həmin sular vasitəsilə buxtaya ildə 500-1000 tona yaxın karbohidrogenlər, oksigenlə təmin olunmamış 15 min ton çirkab suları daxil olur.

Bakı buxtasına neft daşıyan tankerlərin tullantıları və onları yuyub təmizləyən zaman yaranan çirkab suları da axıdılır. Qapalı hövzələrində neft tankerlərinin yuyulması beynəlxalq konvensiya əsasən qadağan olunsa da bu iş indi də davam etdirilir.

Son tədqiqatların nəticəsinə əsasən məlum olmuşdur ki, hazırda Bakı buxtasına 5 yerdən çirkab suları axıdılır. Buxtaya



axıdılan həmin çirkablar cənub küləkləri dövründə sahil zonasına yığılaraq ekoloji dözülməz mənzərə yaradır. Bununla yanaşı xarab olmuş, batmış gəmilərin, tullanmış neft borularının sahil sularında yığılıb qalması da ətraf ərazilər üçün mənfi ekoloji nəticələr yaradır. Hazırda buxtada 1990-cı ildən etibarən dəniz suları altına atılmış 200 neft buruğu qalmışdır ki, bu da ciddi ekoloji nəticələrə səbəb ola bilər.

Bakı buxtası sularının tərkibində karbohidrogenlərin və fenolun miqdarı suların keyfiyyət standartları üzrə olan miqdarını 3-6 dəfə ötüb keçir. Keyfiyyət göstəricilərinə görə belə sular «təhlükəli» sular hesab olunur.

Bakı buxtasının dib çöküntülərində neft karbohidrogenlərinin miqdarı 1 kq quru qalıqda 110 qr. təşkil etmişdir. Bu kəmiyyət buxta ərazisinin 40%-ni əhatə edir. Dib çöküntülərinin çirklənmə sahələrinin qalınlığı 2 m-ə yaxın təşkil edir. Neft karbohidrogenləri ilə çirklənmiş dib çöküntülərinin ümumi həcmi 100-150 mln.$m^3$ təşkil edir ki, onun da tərkibində 4-5 mln.t neft karbohidrogenləri vardır. Həmin göstəricilər əsasında belə bir ümumi nəticəyə gəlmək olar ki, Bakı buxtası sularındakı neft karbohidrogenlərinin 25-75%-i dib çöküntülərindən ayrılan karbohidrogenlərdir. Dənizin içərilərinə doğru çirklənmənin tədricən azalması müşahidə edilir.

Bakı buxtası sularında aparılan analizlərin nəticələrinə əsasən sularda neft məhsullarının miqdarının ayrı-ayrı məntəqələr üzrə 0,12-0,32 mq/l, fenolların miqdarının 0,003-0,006 mq/l arasında dəyişilməsi müşahidə edilmişdir. Bu göstəricilərə əsasən neft məhsullarının və fenolların miqdarı mümkün norma həddini 3-6 dəfə ötüb keçir. Buxta sularının tərkibində mis elementinin miqdarının da mümkün norma həddindən 5-10 dəfə yüksək olduğu müəyyən edilmişdir.

Yuxarıda qeyd etdiklərimizdən belə bir nəticəyə gəlmək olar ki, Bakı buxtası daha çox neft karbohidrogenləri vasitəsi ilə çirklənir. Həmin neft karbohidrogenlərinin 10-40%-i Bibiheybət neft mədənlərinin, 5-10%-i neftayırma zavodlarının və şəhər kanalizasiyasının, 10%-i yaxına atılmış neft qazma quyularının və gəmilərin yuyulmasının, 25-75%-i isə dib çöküntülərinin payına düşür.

Ümumiyyətlə, dəniz buxtasına daxil olan üzvi çirkləndiricilər sonradan tərkib hissələrinə ayrılır və həmin biokimyəvi proseslərdə suda həll olunan oksigen istifadə olunur. Çox çirklənmiş sularda oksigenin bərpa olunması zəif getdiyindən, su hövzəsi özünütəmizləmə funksiyasını itirir. Nəticədə su hövzəsinin canlılar aləmi məhv olur ki, bu da həmin sahənin açıq çirkab mənbəyi olduğunu göstərir. Belə su sahələrində özünütəmizləmə üçün vacib olan mikroorqanizmlər məhv olur və nəticədə tədricən balıqların da azalmasına və məhvinə gətirib çıxarır.

Qeyd etdiklərimizdən göründüyü kimi, sənaye müəssisələrindəki istehsalat prosesləri zamanı yaranan və məişət çirkab suları ətraf mühit üçün zərərli sayılan müxtəlif növ zəhərli və həyat üçün təhlükəli kimyəvi maddələr və birləşmələrlə zəngindir. Ona görə də, Bakı buxtasının təmizliyinə nail olmaq məqsədilə ilk növbədə ciddi mühafizə işlərini həyata keçirmək lazımdır.

Bakı şəhər əhalisinin 35%-nin məişət çirkab suları və bəzi müəssisələrin sənaye çirkab suları təmizlənməmiş şəkildə birbaşa Bakı buxtasına axıdılır. Həmin çirkab sularının tərkibində yüksək konsentrasiyası ilə nəzərə çarpan sink, civə, qurğuşun kimi ağır metallara, fenollara, neft karbohidrogenlərinə və digər zərərli birləşmələrə rast gəlinir. Bütün bu çirkablar Bakı buxtasının əsas çirklənmə mənbələri olmaqla sahil sularının öz təbii sabitliyinin itirilməsinə səbəb olmuşdur. Nəticədə suların tərikibində ibtidai canlıların azalması və oksigen çatışmamazlığı problemləri yaranmışdır.

Ümumiyyətlə, respublikamızın su ehtiyatlarından səmərəli istifadə etmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

a) su ehtiyatlarından səmərəli istifadə etmək, suların təmizliyinə nail olmaq, su itkilərini azaltmaq üçün sudan istifadə haqqı müəyyənləşməlidir;

b) sulardan təkrar istifadəyə keçmək və bunun üçün müasir texnoloji qurğular yaratmaqla işlənmiş və minerallaşmış suların təmizlənməsinə nail olmaq;



v) ətraf su hövzələrinə təmizlənməmiş və ya az təmizlənmiş çirkab suları axıdan müəssisələrə cərimə tətbiq etmək və əldə olunan gəlirlər hesabına su təmizləyici qurğular yaratmaq;

q) su ehtiyatlarından istifadəni yaxşılaşdırmaq üçün sənayedə su ilə soyutmanı hava ilə əvəz etmək və s. bu yolla sənayedə istifadə edilən içməli suya 200 mln.m$^3$ qənaət etmək olar.

d) Bakı buxtasının ekoloji təmizliyinə nail olmaq üçün ilk növbədə buxtaya axıdılan bütün çirkab sularını yalnız təmizlədikdən sonra axıtmalı, sənayedə dövriyyə su sistemi tətbiq etməklə sulardan təkrar istifadə etmək, gələcəkdə xarici investisiya cəlb etməklə buxtanın sularını və dib çöküntülərini neft karbohidrogenlərindən təmizləmək lazımdır. Bunun üçün buxta ətrafındakı köhnəlmiş qurğuları sökmək, Bibiheybət neft mədənlərini modernləşdirmək və ya bağlamaq, neftayırma zavodlarının tullantılarını emal edən qurğular yaratmaq, neftayırma zavodlarını yenidən qurmaq və digər tədbirləri həyata keçirməklə Bakı buxtasının təmizliyinə nail olmaq mümkündür.

## MÜHAFİZƏSİ

Azərbaycan Respublikası torpaq ehtiyatları ilə zəif təm olunmuş ölkələr siyahısına daxildir. Azərbaycanda torpaqlard səmərəli istifadə, onların mühafizəsi, münbitliyinin bərpası nəticədə torpaqların təkrar istehsal dövriyyəsinə qaytarılma qarşıda duran əsas vəzifələrdəndir.

Azərbaycan Respublikasının torpaq fondu 8,6 mln. ha-d Torpaq ehtiyatlarının 4,2 mln. ha-rı və ya 49%-i kənd təsərrüf üçün yararlı torpaqlardır. Yararlı torpaqların 1,5 mln. ha-ya yaxını ya 33%-i əkin, 0,3 mln. ha, yaxud 9,2%-i çoxillik bitkilər, 2,2 ml ha və ya 53,2%-i otlaqlardan ibarətdir.

Respublikamızda hər adam başına 1,14 ha ümumi, 0,60 kənd təsərrüfatı üçün yararlı sahə, 0,20 ha isə əkin sahəsi düşü Torpaqlarımızın 1350 min ha-ı, o cümlədən 950 min ha əkin y suvarılır. Respublika torpaq fondunun 1/3 hissəsi kənd təsərrüf işləri üçün yararsız hesab edilir.

Son 40 il ərzində torpaq örtüyünə vurulan antropogen təsir gərgin geoloji proses və hadisələrin geniş yayılmasına, ərazilər müxtəlif dərəcədə zədələnməsi və çirklənməsinə səbəb olmuşdu Hazırda torpaq fondunun 0,86 mln. ha-ı texnogen pozulm torpaqlara aid edilir.

1991-ci ildə Azərbaycan Respublikası yenidən müstəqill əldə etdikdən sonra torpaqlara münasibət də dəyişilmiş, müxtə mülkiyyət formaları yaranmışdır. Respublikanın Milli Məcl tərəfindən qəbul olunmuş Torpaq Qanununa görə ümumi torp fondunun 3,8 mln. ha-ı və ya 44,2%-i dövlət mülkiyyətinə, 2,7 ml ha-ı və ya 31,4%-i bələdiyyə mülkiyyətinə, 2,1 mln. ha-ı və 24,4%-i isə özəlləşdirmə yolu ilə əhalinin şəxsi mülkiyyəti ayrılmışdır.

Respublikamızın torpaq fondunun sıradan çıxmasının başlı səbəbləri eroziya, şorlaşma, texnogen dəyişikliklər və pozuntul çirklənmə, torpaq qatının kimyəvi tərkibinin dəyişməsi və proseslərdir.



Respublikamızın ərazisində külək və su mənşəli eroziyalar, torpaq sürüşmələri geniş şəkildə yayılmışdır. Son illərin göstəricilərinə görə respublikada eroziyaya uğramış torpaq sahəsi 3685 min ha və ya ərazimizin 42,5%-ni təşkil edir. Respublika əkin sahələrinin 33,7%-i, yay otlaqlarının 68%-i, biçənəklərin 15%-i, bağların 16%-i, üzümlüklərin 24%-i, meşələrimizin isə 26%-i müxtəlif dərəcəli eroziyaya uğramışdır. Ən geniş yayılmış eroziya növləri səthi, yarğan və süni suvarma sistemi formalarıdır. Ərazimizin 16%-i güclü, 14,8%-i orta və 31,2%-i zəif dərəcəli eroziya proseslərinə məruz qalmışdır.

Respublikamızın dağ yamacları və yüksəkliklərində yerləşən torpaq sahələrindən səthi eroziya nəticəsində ildə 105-516 $m^3$/ha torpaq yuyulur. Sel və torpaq sürüşməsi nəticəsində isə müvafiq olaraq 310 $km^2$ və 420 $km^2$ torpaq sahələri korlanmışdır. Hər il 1,5 mln. ha artıq münbit torpaq qatı sel suları vasitəsi ilə yuyulub aparılır. Torpaq sürüşməsi nəticəsində isə nəinki torpaq qatı korlanır, hətta kənd təsərrüfatı, sənaye və mülki obyektlərə də böyük zərər vurulur. Dağlıq ərazilərdə eroziya proseslərinin artmasının başlıca səbəbi heyvandarlığın inkişafı, meşələrin sistemsiz şəkildə kütləvi qırılması və sıldırım yamaclarla onların daşınmasıdır. Bunun nəticəsində dağ yamacları çılpaqlaşır və yerüstü axar suların miqdarı artır. Belə sahələrdə torpağın yuyulmasının həcmi 246 $m^3$/ha müəyyənləşmişdir.

Lənkəran-Astara zonasının dağətəyi yamaclarında bitki örtüyünün məhv edilməsi eroziya proseslərini kəskin surətdə artırmışdır. Zonanın 63,5 min ha ərazisindən 22%-i orta və zəif, 10%-dən çoxu güclü eroziyaya məruz qalmış, 30%-dən çox münbit torpaq örtüyü tamamilə yuyulmuşdur.

Ümumiyyətlə, eroziya proseslərinin ilbəil artması torpaqdan istifadənin aşağı səviyyədə olması, bütün dağlıq və dağətəyi təsərrüfatlarda torpaqlardan istifadə də eroziya proseslərinin təhlükəsi və hər bir sahənin relyef şəraitinin nəzərə alınması ilə bilavasitə bağlıdır.

Eroziya prosesləri demək olar ki, meşəsiz olan Naxçıvan MR üçün daha xarakterikdir. Naxçıvan MR torpağının 19,9%-i zəif, 24%-i orta, 32%-i isə güclü (şiddətli) eroziyaya uğramış və nəticədə

... ha artıq ərazi tutur. Belə torpaqlar Naxçıvan MR, Yuxarı Qarabağ, Daşkəsən-Qazax, Abşeron regionlarında daha çoxdur. Təkcə neft və qazçıxarma mədənlərinin tullantıları nəticəsində 50 min ha çox ərazi yararsız hala düşmüşdür. Abşeron yarımadasında neft emalı, neft-qaz istehsalı sahələrində yaranan tullantı suları ilə 7-8 min ha torpaq sahəsi gölməçələrə çevrilmişdir.

Respublikamızın iri sənaye şəhərləri olan Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Əli-Bayramlı şəhərlərinin ətraf torpaq sahələrinin ağır və əlvan metal qalıqları ilə çirklənməsi nəticəsində həmin torpaqlarda qurğuşunun, misin, sinkin, flor, xlor, alüminium benzopirenlər və kükürd birləşmələrinin miqdarı yol verilən norma həddindən ayrı-ayrı ərazilərdə 10-20 dəfəyə qədər yüksəkdir.

Respublikamızın iri yaşayış məntəqələri ətrafında hər il mln.ton bərk məişət tullantısı toplanır ki, bunun da 50%-i Abşeron sənaye rayonunun payına düşür. Bakı şəhəri ətrafında 400 ha, Sumqayıt ətrafında 120 ha ərazi tutan tullantıların yalnız 10-12%-i emal edilir, qalan hissəsi isə ətraf mühitin çirklənmə mənbələrindən biri olaraq qalırlar.

Şəhərlərdə fəaliyyət göstərən yüzlərlə zavod və fabriklərin ətraf mühitə atdıqları sənaye tullantıları da müxtəlif yollarla torpaqlara qayıdır və əsas çirklənmə mənbələrindən birinə çevrilirlər. Bütün bu tullantıların zərərli təsirlərini aradan qaldırmaq üçün həmin tullantıların emalı, utilizasiyası və zərərsizləşdirilməsini həyat keçirmək lazımdır.

Abşeron sənaye zonasının müəssisələrində hər il tərkibində zəhərli maddələr olan 97 min ton bərk formalı tullantı yaranır ki, bunun da 47 min tondan çoxu Sumqayıt şəhərinin payına düşür.

Respublikanın sənaye tullantıları ilə örtülmüş yararlı torpaqlarını zibilliklərdən, sənaye və məişət tullantılarından, neft tullantılarından təmizləmək yolu ilə əlavə olaraq 100 min ha, o cümlədən Abşeron yarımadasında 40 min ha yaxın torpaq sahələrini kənd təsərrüfatı dövriyyəsinə qaytarmaq olar.

Abşeron yarımadasının torpaqları neft mədənlərinin lay sularının tərkibində olan radioaktiv elementlərlə də çirklənirlər. Abşeron yarımadasının normal radioaktiv fonu Xəzəryanı ərazilərdə



3 mkr/saat, tektonik pozuntu sahələrində isə 9 mkr/saat təşkil edir. Lakin yarımadanın bəzi neft istehsalı mədənlərinin yaxınlıqlarında 500-600 mkr/saat olan çirkləndirilmiş zonalara da rast gəlinir. Belə sahələrin mövcudluğu ərazidə yaşayan insanların həyatı üçün olduqca təhlükəlidir. Qeyd etmək lazımdır ki, radioaktiv elementlərlə çirklənmiş torpaqların dezaktivizasiyası respublikada müvafiq avadanlıq və texnologiyanın olmaması səbəbindən aparılmır.

Respublikanın torpaq fondundan səmərəli istifadə etmək və onun təbii məhsuldarlığını qoruyub saxlamaq üçün müxtəlif səbəblərdən çirklənmiş, dağılmış, korlanmış, zibillənmiş, eroziyaya uğramış və şorlaşmış torpaqların məhsuldarlığını təbii və süni yollarla bərpa etmək, onları rekultivasiya etmək, torpaq-iqlim şəraitinə uyğun növbəli əkin sistemini tətbiq etmək, eyni zamanda təsərrüfat-təşkilati, aqrotexniki, hidrotexniki, aqromeliorasiya, fitomeliorasiya və digər tədbirləri həyata keçirməklə torpaq mühafizə işlərini həyata keçirmək ən vacib problem kimi qarşıda durur.

Nəzərə almaq lazımdır ki, eyni ərazilərə uzun illər boyu zəhərli kimyəvi maddələrin normadan artıq səpilməsi, aqrotexniki qaydalara riayət olunmaması, dövriyyəli əkin sisteminin aparılmaması, suvarma reciminin pozulması torpaq fonduna ağır ekoloji ziyan vurmuşdur.

Cədvəl

**Azərbaycan Respublikası ərazisində qoruqlar**

| Qoruğun adı | Təşkil olunduğun il | Ümumi sahəsi min ha | Qorunan növlərin sayı | | | |
|---|---|---|---|---|---|---|
| | | | Heyvanlar | quşlar | Bitkilər | balıqla |
| Ağgöl | 1978 | 5,2 | 15 | 140 | 40 | 12 |
| Altıağac | 1990 | 4,4 | 9 | - | 35 | - |
| Bəsitçay | 1974 | 0,1 | - | - | - | - |
| Qarayazı | 1978 | 4,9 | 10 | 40 | 77 | 8 |
| Qaragöl | 1987 | 0,3 | - | - | - | - |
| Qızılağac | 1929 | 88,4 | 23 | 270 | 310 | 47 |
| Zaqatala | 1929 | 23,8 | 38 | 103 | 866 | 1 |
| İlisu | 1987 | 9,3 | 35 | 90 | 500 | 1 |
| İsmayıllı | 1981 | 5,8 | 40 | 104 | 38 | 4 |
| Göygöl | 1965 | 7,1 | 9 | 4 | 416 | 1 |
| Pirqulu | 1968 | 1,5 | 26 | 150 | 520 | - |
| Türyançay | 1958 | 12,6 | 11 | 95 | 865 | 3 |
| Hirkan | 1969 | 2,9 | 10 | 25 | 400 | - |
| Şirvan | 1969 | 25,8 | 12 | 57 | 80 | 4 |

Qoruq ərazilərində bütün təbii landşaftlar mühafizə olunur v orada insanların hər hansı bir təsərrüfat fəaliyyətinə icazə verilmi Qoruqlarda yalnız orada mühafizə olunan növlərin artırılması v çoxaldılmasına yönəldilən elmi-tədqiqat işlərinin, müşahidələri aparılmasına icazə verilir. Qoruqlar haqqında qısa məlumat veril (cədvəl 2).

***Ağgöl dövlət qoruğu***. 1978-ci ildə köçəri, bataqlıq və su üzən quşların qışlaması və ovluq balıq növlərinin yetişdirilməsi üçü Kür-Araz ovalığının Mil düzənliyində yerləşən Ağgöl yaradılmışdır. Qoruğu «ornitoloji sahə»də adlandırırlar. Qoruqda 1 növə yaxın balıq var. Onlardan yastı qarın, xəşəm, çəki, ting qırmızı pullu, durna balığı və b. göstərmək olar. Suda-quru yaşayanlardan yaşıl qurbağa, göl qurbağası, ağac qurbağası, siri sarımsaq qurbağası kimi növlər qoruqda vardır. Həmçinin qoruğu ərazisində adları Qırmızı kitaba düşən və düşməyən 140-a qədər qu



növü qorunur. Bunlardan turac, sultan toyuğu, qızıl qaz, çay qaranquşu, dəniz qartalı, Mərmər cürə, vəhşi qaz, çəhrayı və qıvrım qutan və s. daha xarakterikdir. Məməlilərdən qaban, su qunduzu və qamışlıq pişiyinə daha çox rast gəlinir.

Qoruqda xarakterik su bitkilərindən sünbül şəkilli uruti, daraq şəkilli su sünbülü, ipək tükyarpaq, parıldayan qıvrımsaç, adi qovuqca, dəniz malyuskası və s. rast gəlinir.

Ağgölün əsas qorunma obyekti köçəri, su ətrafı və su quşlarının yuva salma və qışlama yerləri olan gölün su və bataqlıq ekoloji sistemləridir.

***Altıağac dövlət qoruğu***. Bu qoruq 1990-cı ildə Böyük Qafqaz sıra dağlarının cənub-şərq hissəsində eroziyanın qarşısının alınması, Altıağac, Xızı çölündə nadir və qiymətli bitki və heyvan növlərinin artırılması və təbiət abidələrinin qorunması və bərpası məqsədilə yaradılmışdır.

Qoruq ərazisinin 90,5%-ni iri yarpaq palıd, çinar və vələs ağacları təşkil edir. Qoruğun ərazisində cüyür, ayı, qaban, vaşaq, yenot, tülkü, dovşan, dələ, canavar və s. heyvanlar yaşayırlar.

***Bəsitçay dövlət qoruğu***. Qoruq 1974-cü ildə kiçik Qafqazın cənub-şərq hissəsində Bəsitçay ətrafı boyunca Zəngilən rayonu ərazisində yaradılmışdır. Əsas qorunan təbiət kompleksi çinarlıqdır ki, bu da qoruq ərazisinin 93,5%-ni təşkil edir. Çinar ağaclarının orta yaşı 170 ildən artıqdır. Lakin qoruqda 1200-1500 il yaşı olan çinarlar da vardır. Çinardan əlavə qoruq ərazisində gürcüstan palıdı, qafqaz vələsi, çox meyvəli ardıc kolları, küt yarpaqlı iydə və s. kimi flora nümunələri də vardır.

Qoruq ərazisinin sahəcə çox kiçik olması və ətrafında yaşayış məskənlərinin olması burada iri heyvanların yaşaması üçün şərait yaratmır.

***Qarayazı dövlət qoruğu*** 1978-ci ildə Azərbaycanın qərb hissəsində yerləşən Qarayazı ovalığında tuqay meşələrini mühafizə etmək məqsədi ilə yaradılmışdır. Qoruqda mühafizə edilən əsas ağac növləri palıd, ağyarpaq qovaq, qızılağac, ağ akasiya, qarağac, söyüd ağaclarıdır. Vaxtilə Kürün orta və aşağı axını boyu 600 km məsafədə uzanan tuqay meşələri insanların təsərrüfat fəaliyyəti nəticəsində hazırda məhv olmaq təhlükəsi qarşısındadır.

Qoruğun heyvanlar aləmi özünəməxsusluğu ilə fərqlənir. Kü çayında xram, karp, çəki, çapaq, suf, naqqa, durna, forel və s. kim balıq növlərinə rast gəlinir. Digər heyvan növlərindən qaban, nəcil maral, canavar, çaqqal, qamışlıq və meşə pişiyi, tülkü, dələ, porsuq quşlardan ağ quyruq dəniz qartalı, məzarlıq qartalı, qara hacıleylək qırqovul, kəklik, dovdaq və s. rast gəlinir.

***Qaragöl dövlət qoruğu*** 1987-ci ildə qədim (relikt) dağ gölünü nadir ekoloji sisteminin və su hövzəsi ətrafı təbiət kompleksini qorunub saxlanılması məqsədi ilə yaradılmışdır. Qaragöl göl Qarabağ vulkanik yaylasında dəniz səviyyəsindən 2658 m yüksəklikdə yerləşir. Əsas qoruma obyekti yüksək dağ gölü ola Qaragöl ekoloji sistemindən ibarətdir.

***Qızılağac dövlət qoruğu*** 1929-cu ildə köçəri, su, bataqlıq v çöl quşlarının qışlaması, artırılması və qorunması məqsədi il yaradılmışdır. 1975-ci ildə qoruq, su ətrafı və suda üzən quşların məskunlaşması üçün beynəlxalq əhəmiyyətli qoruqlar sırasına daxi edilmişdir.

Qoruqda 270 növ quşa, o cümlədən sultan toyuğuna, turaca bəzgəyə, qaranaza. qızıldağa, dovdağa, qızıl quşa, sarı vağa, qulara qızıl qazlara, qırmızıdöş qaza, qızıl boğaz vəhşi qazlara, qafqa şahininə, çöl qartallarına, qaşqaldağa və s. rast gəlmək olar. Ayrı ayrı illərdə qoruğun ərazisində 5-7 milyon köçəri quşlar qışlayırlar.

Qoruqda qaban, canavar, çaqqal, qamışlıq pişiyi, porsuq, s samuru, tülkü və s. məməlilər məskunlaşmışlar. Qoruğun s hövzəsində isə 47 növ balıq, o cümlədən siyənək, çəki, suf, kütüm nərə, kefal və s. kimi qiymətli balıqlar vardır.

***Zaqatala dövlət qoruğu*** Baş Qafqaz sıra dağlarının cənubund dəniz səviyyəsindən 650-3646 m yüksəklikdə Zaqatala və Balakə rayonları ərazisində 1929-cu ildə yaradılmışdır. Zaqatala qoru bitki və heyvanat aləminin öyrənilməsi və qorunması məqsədi il təşkil edilmişdir.

Qoruğun müasir florasında qədim bitkilərdən rododendro fısdıq, dəfnəgilas, Qafqaz qaragiləsi, məxməri ağcaqayın, a döşəyi, şərq çinarı, vələs, Gürcüstan palıdı, ağcaqayın, ayı fındığ qızıl ağac, toz ağacı, ağcaqovaq, quş armudu və s. kimi növlə yayılmışdır.



Qoruğun faunasında Dağıstan dağ kəli, qarapaça, maral, cüyür, aban, boz ayı, porsuq, tülkü, meşə pişiyi, vaşaq, sincab, gəlincik, ələ və s. kimi növlərə rast gəlinir. Quşlardan qulaqlı bayquş, uymul quş, quzğun, ağbaş asiya kərkəsi, toğlu götürən, qara ərkəs, berqut, Qafqaz şahini, Avropa tuviyi, Qafqaz tetrası, ular və igər növlər yayılmışdır. Qoruğun ərazisində sürünənlər və suda-uruda yaşayanlar da mühafizə olunur. Sürünənlərdən Qafqaz açlıçası və bağ ilanları «Qırmızı kitab»a salınmışdır.

***İlisu dövlət qoruğu*** 1987-ci ildə Böyük Qafqazın cənub amaclarında yox olmaq təhlükəsi qarşısında qalan təbiət ompleksləri, fauna və floranı qorumaq, bərpa etmək, həmçinin roziya və sel axınları mənbələrini məhdudlaşdırmaq məqsədi ilə aradılmışdır. Qoruq ərazisinin 93%-i enliyarpaq meşələrlə rtülmüşdür. Qoruğun ərazisində 500 bitki, 90 quş, 35 heyvan övünə rast gəlinir. Qoruqdakı meyvəli fısdıq, Raddə tozağacı, itkiləri və 6 adda onurğalı – Qafqaz və eskulap bağailanı, berqut, oğlugötürən, şahin və Qafqaz tetra quşu «Qırmızı kitab»a üşmüşdür.

***İsmayıllı dövlət qoruğu*** 1981-ci ildə Baş Qafqazın cənub issəsində təbiət abidələrinin qorunması üçün yaradılmışdır. Qoruq razisində rast gələnən meyvəli fısdıq və şabalıdyarpaq palıd Qırmızı kitab»a düşmüşdür. Qoruğun meşə örtüyünün üstünlük əşkil edən ağac növləri çinar, vələs və palıddır. Qoruq ərazisində 0 heyvan, 104 quş, 38 bitki və 4 balıq növü yaşayır. Qoruğun aradılması meşələrin məhv edilməsinin qarşısım almış, antropogen ərginliyi azaltmış və ekoloji sistemin tənəzzülünün ayandırılmasına kömək etmişdir.

***Göygöl dövlət qoruğu*** Kiçik Qafqazın şimal-şərq hissəsində əniz səviyyəsindən 1100-3060 m yüksəkliklərdə 1965-ci ildə aradılmışdır. Dövlət qoruğu əsasən Göygöl qoruğundan və Qabırrı ayının sağ sahilində yerləşən Eldar şamı filialından ibarətdir. Qoruq ənzərəli əraziləri, dağ meşələrini, Göygölü, içməli su mənbəyi ki-i onun təmizliyini, təbii və nadir Eldar şamı meşələrini öyrənmək ə qoruyub saxlamaq məqsədi ilə təşkil edilmişdir.

Qoruğun heyvanlar aləmi içərisində nəcib qafqaz maralı, [illegible] ayı, cüyür, porsuq, şərqi Qafqaz ceyranı, dələ, kəklik, toğlugötür[illegible] qara quzğun, Xəzər uları və s. daha xarakterikdir.

Qoruqda 416 bitki növü vardır. Onlardan 76 növü ağac və [illegible] növləridir. Qoruqdakı flora növlərinin 20-si endemik bitkilərdir.

***Pirqulu dövlət qoruğu*** 1968-ci ildə Şamaxı rayonu ərazisin[illegible] dağ ətəyi təbiət komplekslərini qorumaq məqsədi ilə yaradılmış[illegible] Qoruq yerləşən ərazi bir sıra antropogen təsirlərə məruz qalı[illegible] meşələr qırılmış, eroziya prosesləri güclənmiş, çay və bulaqlarda[illegible] ehtiyatı azalmışdır.

Hazırda Pirqulu qoruğunda 26 heyvan, 150 quş, 520 bitki n[illegible] qeydə alınmış və mühafizə olunur.

***Türyançay dövlət qoruğu*** 1958-ci ildə Ağdaş ray[illegible] ərazisində Türyançayın sağ sahilində arid seyrək meşəliklərin[illegible] digər təbii ehtiyatların qorunması, bərpası, həmçinin dağ ətək[illegible] eroziya mənbələrini məhdudlaşdırmaq məqsədi ilə yaradılmışdır.

Qoruğun ərazisində kütyarpaqlı püstə, 3 növ ardıc ([illegible] qırmızı, çoxmeyvəli), Gürcüstan palıdı, adi göyrüş, Qaf[illegible] dağdağanı, nar, İberiya palıdı, qarağac, qovaq, cənub söyüdü, zi[illegible] qızılağac, iydə və s. bitki növləri qorunur. Qoruqdakı iyli ardıc[illegible] adi nar «Qırmızı kitab»a salınmışdır.

Qoruğun ərazisində eyni zamanda 95 quş, 11 heyvan növ[illegible] də mühafizə olunur. Ümumiyyətlə qoruqda əsas etalon tə[illegible] kompleksi kimi qorunan arça-püstə seyrək meşəliyi, quru çöl[illegible] tuqay bitkiləridir.

***Hirkan dövlət qoruğu*** 1969-cu ildə Lənkəran ray[illegible] ərazisində yaradılmışdır. Hirkan qoruğunun əsas vəzifəsi Hi[illegible] növlü qədim və endemik bitkilərin qorunmasıdır. Qoru[illegible] florasında 162 endemik, 95 nadir və 38 tükənməkdə olan nö[illegible] vardır. Burada dəmirağacı, ipək akasiya, şabalıdyarpaq palıd, hi[illegible] ənciri, azat, hirkan şümşadı və s. bu kimi ağac və kollar b[illegible] Qoruğun ərazisində 10 heyvan və 25 quş növlərinə də rast gəlinir.

***Şirvan dövlət qoruğu*** 1969-cu ildə Cənub-Şərqi Şi[illegible] düzündə ceyranların, su quşlarının qorunması, artırılması və [illegible] yerlər üçün səciyyəvi olan bitki növlərinin saxlanılması məqsədi[illegible] təşkil edilmişdir.



Qoruq sahəsinin ən zəngin olan və ərazisinin 40%-nə qədərini təşkil edən efemer-yovşan formasiyasıdır. Efemerlər 20-25 növdən artıqdır və onların içərisində ətirli yovşan üstünlük təşkil edir. Dənli bitkilər də çoxluq təşkil edirlər. Hazırda qoruğun ərazisində 12 heyvan, 57 quş, 80 bitki və 4 balıq növü yaşayır. Ceyran, turac, dovdağ, bəzgək, Ağquyruq qartal, çöl qartalı, şahin, baloban, aralıq dənizi tısbağası və sarımsaq qoxulu siriya qurbağası «Qırmızı kitab»a düşmüşdür.

Respublikanın ərazisində yaradılan 20 yasaqlıq da flora və fauna ehtiyatlarının qorunması və təbiət sisteminin mühafizə olunması məqsədini daşıyır. Yasaqlıq müvəqqəti qorunan ərazi olub, orada müəyyən bitki və heyvan növləri, geoloji obyekt, təbiət mənzərəsi və s. mühafizə olunur. Qoruqlardan fərqli olaraq yasaqlıqlarda qorunan növlərə və ya obyektlərə zərər vurmadan təsərrüfat fəaliyyətinə icazə verilir.

***Ağstafa-Qarayazı yasaqlığı*** 1923-cü ildə 17,9 min ha ərazidə qafqaz nəcib maralı, turac, qırqovul və s. nadir heyvan növlərinin qorunması və sayının bərpası məqsədi ilə yaradılmışdır.

***Bərdə*** yasaqlığı 1966-cı ildə 7,6 min ha sahədə Bərdə və Ağdaş rayonları ərazisində təşkil edilmiş və ərazidə olan turac, qırqovul və dovşanların qorunub saxlanması, həm də artırılması üçün yaradılmışdır.

***Şəki*** yasaqlığı 1954-cü ildə 9,1 min ha sahədə turac və s. növ quşların qorunması və saylarının artırılması məqsədi ilə təşkil edilmişdir.

***Giladası*** yasaqlığı 1961-ci ildə Xəzər gölü adasında 2,0 min ha ərazidə yaradılmışdır. Yasaqlıq su köçəri quşların qorunması, qışlaması və həm də qağayı quş koloniyaları və Xəzər su iti heyvanları üçün düşərgə yeri kimi qorunur.

***Bəndovan*** yasaqlığı Salyan-Qaradağ rayonları ərazisində 30 min ha sahədə 1961-ci ildə təşkil edilmişdir. Ceyranların, su quşları və bəzgəklərin qorunması və saylarının artırılması məqsədi ilə yaradılmışdır.

***Korçay*** yasaqlığı 1961-ci ildə Xanlar və Goranboy rayonları ərazisində 15 min ha sahədə ceyranların artırılması məqsədi ilə təşkil edilmişdir.

***Laçın*** yasaqlığı 1961-ci ildə 20 min ha sahədə Laçın rayonu ərazisində yaradılmışdır. Burada Qafqaz qonur ayıları, qabanlar, bezuar keçiləri, dovşanlar qorunurdu.

***Qusar*** yasaqlığı 1964-cü ildə 10 min ha sahədə qırqovul, boz kəklik, cüyür, qaban, dovşan və s. qorunması və bərpası məqsədi ilə Qusar rayonu ərazisində yaradılmışdır.

***Şəmkir*** yasaqlığı 1964-cü ildə 10 min ha sahədə qırqovul, turac, kəklik, su quşları və s. qorunması və artırılması məqsədilə Şəmkir rayonu ərazisində yaradılmışdır.

***Ağgöl*** yasaqlığı 1964-cü ildə 7,5 min ha sahədə Ağcabədi və Beyləqan rayonları ərazisində yerləşən Ağgöl gölü yaxınlığında köçəri və qışlayan bataqlıq-su quşlarının yuva salması, həmçinin bəzgək və qabanların mühafizəsi məqsədi ilə yaradılmışdır.

***Abşeron*** yasaqlığı 0,8 min ha sahədə köçəri, su-bataqlıq quşlarının saylarının artırılması və qışlaması üçün, həmçinin su itlərinin yaşama şəraitini təmin etmək üçün təşkil edilmişdir.

***Züvənd*** yasaqlığı Lerik və Yardımlı rayonları ərazisində 15 min ha sahədə qırqovul, kəklik, cüyür, qaban, Zaqafqaziya qonur ayısı, bəbir və nadir sürünən heyvan növlərini qoruyub, saylarını artırmaq məqsədi ilə yaradılmışdır.

***İsmayıllı*** yasaqlığı 1969-cu ildə İsmayıllı və Qəbələ rayonları ərazisində 40 min ha sahədə qafqaz nəcib maralı, qarapaça, ceyran, cüyür, qaban, qonur ayı, dələ, qafqaz tetra quşu, ular və s. heyvan və quş növlərini qorumaq və artırmaq məqsədi ilə təşkil edilmişdir.

***Qubadlı*** yasaqlığı 1969-cı ildə Qubadlı və Laçın rayonları ərazisində qafqaz qonur ayısı, qaban, bezoar keçisi, cüyür və s. heyvan növlərinin mühafizəsi və artırılması üçün yaradılmışdır.

***Ordubad*** yasaqlığı Naxçıvan MR 40 min ha sahədə Zaqafqaziya vəhşi qoyunu, beoar keçisi, göreşən, qonur ayı, Xəzər uları, Qafqaz tetra quşu və s. bu kimi «Qırmızı kitab»a düşən növlərin qorunub artırılması üçün yaradılmışdır.

***Kiçik Qızılağac*** yasaqlığı 1978-ci ildə Lənkəran-Astara zonasında Kiçik Qızılağac körfəzində 10,7 min ha sahədə köçəri, qışlayaq su-bataqlıq, nadir quşların qorunması və artırılması məqsədi ilə yaradılmışdır.

***Qızılca*** yasaqlığı 1984-cü ildə Gədəbəy rayonu ərazisində 5,1 min ha sahədə təbiət abidələri komplekslərinin qorunması, bərpası, həm də nadir, endemik bitki və heyvan növlərinin artırılması məqsədi ilə təşkil edilmişdir.



***Daşaltı*** yasaqlığı 1988-ci ildə Şuşa və Əsgəran rayonları ərazisində 0,45 min ha sahədə Kiçik Qafqazın nadir təbiət komplekslərinin mənzərələrini qorumaq üçün yaradılmışdır.

***Arazboyu*** yasaqlıq 1993-cü ildə 2,2 min ha sahədə Araz çayı boyu tuqay meşələri təbiət komplekslərinin qorunması məqsədi ilə təşkil edilmişdir.

***Qəbələ*** yasaqlığı 1993-cü ildə Baş Qafqaz sıra dağlarının cənub yamaclarının meşə mənzərələrinin, nadir və yox olmaqda olan bitki və heyvan növlərinin qorunması və artırılması üçün 39,7 min ha sahədə yaradılmışdır.

Azərbaycan Respublikasının ərazisi təbiət abidələri ilə də zəngindir. Təbiət abidələrinə tarixi əhəmiyyət daşıyan mənzərələr, estetik qiyməti olan təbiət guşələri, qədim mənzərələr, estetik qiyməti olan təbiət guşələri, qədim və tükənməkdə olan endemik bitki növləri olan ərazilər, bağ-park, incəsənət nümunələri, şəlalər, mağaralar, nadir mənşəyi və morfologiyası olan göllər, qeyri-adi dağ süxurları, paleontoloji qalıq və komplekslərin olduğu yerlər, böyük tarixi, elmi-təcrübi, mədəni-maarif əhəmiyyət kəsb edən obyektlər, qiymətli ağac və kol cinsləri bitən təbii meşə sahələri, təbiəti mühafizə, elmi-estetik əhəmiyyəti olan süni ağac, əkilən sahələr, yeraltı suların çıxışları və digər təbiət mənbələri aid edilir.

## RAYONLAŞDIRILMASI

Bazar iqtisadiyyatı şəraitində ictimai istehsalın intensivləşdirilməsi, onun səmərəliliyinin artırılması və bunun əsasında xalqın maddi və mədəni həyat səviyyəsinin yüksəldirilməsi Azərbaycan Respublikasının iqtisadi strategiyasının əsasını təşkil edir. Bu problemlərin müvəffəqiyyətlə həlli müəyyən mənada məhsuldar qüvvələrin yerləşdirilməsinin yaxşılaşdırılmasından, respublikanın iqtisadi rayonlarının təsərrüffatlarınm daha da ixtisaslaşdırılmasından və proporsional inkişafından, regionların malik olduğu yerli ehtiyatlardan daha səmərəli istifadə etmək məqsədilə müxtəlif səviyyəli lqtisadi rayonların formalaşması və inkişafından asılıdır.

Qeyd etmək lazımdır ki, məhsuldar qüvvələrin yerləşdirilməsinin müasir formaları təsərrüffatın ərazi təşkilinin təkmilləşdirilməsinə və regionların iqtisadiyyatının formalaşmasına dərin təsir göstərir. Təsərrüffatın regional strukturu bunun əsasında daim dəyişir, istehsal və sosial infrastruktur yenidən qurulur və genişlənir. İstehsalın müasir sahələrinin tərkibinin genişləndirilməsi əsasında ixtisaslaşdırıhnasının daha da inkişaf etdirilməsi regionların iqtisadiyyatının strukturunun keyfiyyətcə dəyişməsinə gətirib çıxarır. Eyni zamanda rayonlararası və rayondaxili istehsal əlaqələri genişlənir. Müxtəlif səviyyəli ərazi-istehsal komplekslərinin miqdarı artır.

İqtisadi rayonların formalaşması, təsərrüffatın ərazi təşkilinin daha səmərəli amili kimi, ictimai istehsalın inkişafının və ərazi əmək bölgüsünün yüksək səviyyəsinə uyğun gələn qanunauyğun prossesdir. Bu, respublikanın və onun regionlarının təbii, əmək və iqtisadi ehtiyatlarından kompleks istifadə edilməsinin daha səmərəli yoludur.

İqtisadi inkişafın müasir mərhələsində iqtisadi rayonların formalaşması və inkişafı, demək olar ki, respublikada məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi probleminin bütün məsələlərini özündə əks etdirir..



Lakin qeyd etmək lazımdır ki, müasir şəraitdə respublikanın vahid, optimal iqtisadi rayonlaşdırma şəbəkəsinin olmaması nəticəsində son illərdə Azərbaycan Respublikasında bir sıra müəlliflər tərəfindən müxtəlif rayonlar şəbəkəsi təklif olunmuş iqtisadi rayonların sərhədlərində və adlarında dəyişikliklər aparılmışdır. Həm də iqtisadi rayonlaşmaya aid elmi əsaslar üzrə ətraflı tətqiqat işləri aparılmadan ayrı-ayrı elm, təsərrüffat və təhsil ocaqları özlərinin tələbatına cavab verə biləcək iqtisadi rayonlar şəbəkəsi yaratmışlar. Təbiidir ki, respublika ərazisi üçün eyni vaxtda mövcud olan bir neçə rayonlar şəbəkəsi ayrılıbsa, deməli, həmən rayonlaşma qeyri-obyektiv surətdə aparılmışdır. Belə vəziyyət məhsuldar qəvvələrin inkişafına mane olur. Azərbaycan Coğrafiyası fənninin tədrisində, tələbələrə xalq təsərrüffatının ərazi quruluşu və ixtisaslaşdırılması haqqında müəyyən bilik verilməsini çətinləşdirir.

Respublikanın müstəqillik əldə etdiyi və Bazar İqtisadiyyatı yolu ilə getdiyi şəraitdə respublikada optimal, dövlət tərəfindən rəsmiləşdirilmiş iqtisadi rayonlaşdırma şəbəkəsinə böyük ehtiyac duyulur. İqtisadi rayonlaşmanın elmi əsaslar üzrə aparılması üçün bu işə geniş elmi qüvvələr cəlb edilməsi və respublikanın müvafiq orqanlarının köməyi tələb olunur. Özü də belə tətqiqatlar, hazırda olduğu kimi təkcə ixtisaslaşmasına görə sadəcə rayonlar şəbəkəsi ayırmaqdan ibarət olmamalı, sahə və ərazi strukturu geniş təhlil edilməlidir. Eyni zamanda, Azərbaycanın mürəkkəb relyefi, iqlimi və hidroloji şəraiti, torpaq örtüyünün müxtəlifliyi, mineral xammal ehtiyatları və yaranmış ekoloji şərait nəzərə alınmalıdır. Göstərilən prinsiplər üzrə ayrılan iqtisadi rayonlardan respublika Xalq təsərrüfatının səmərəli ərazi təşkilində, perspektiv inkişafda mühüm bir vasito kimi istifadə olunar. Onlar həmçinin böyük tədris-tə'lim əhəmiyyətinə malikdirlər. Belə ki, Azərbaycan Respublikası rayonlar üzrə öyrənilərkən təsərrüfatın ayrı-ayrı sahələri yox, təbiətlə təsərrüfatın müxtəlif elementləri arasında yaranmış mürəkkəb və çoxsahəli əlaqələr dərindən öyrənilir, beləliklə daha müfəssəl coğrafi biliklər əldə edilir.

Məhsuldar qüvvələrin inkişafı və respublikadaxili ərazi əmək bölgüsünün dərinləşməsi nəticəsində Azərbaycan Respublikası daxilində təsərrüfat ixtisaslaşmasının rayon fərqləri daha çox nəzərə

çarpır, tədricən tam və ya qismən formalaşmış ərazi-istehsal kompleksləri yaranır. Xalq təsərrüfatının aparıcı sahələrinin əsasında iqtisadi rayonlar yaranır ki, bunlar da yerli xüsusiyyətləri: əhalinin sıxlığını və tərkibini, tarixi inkişaf xüsusiyyətlərini, təbii ehtiyatların ərazi üzrə yerləşməsini və s. özündə əks etdirir.

Məhsuldar qüvvələrin yerləşdirilməsinin daha da səmərələşdirilməsi və istehsalın ərazi üzrə düzgün təşkilinin zəruriliyi respublikanın elmi cəhətdən əsaslandırılmış iqtisadi rayonlaşdırılma məsələsini irəli sürür. Yeni şəraitdə iqtisadi rayonlaşmaya bu və ya digər ərazidə xalq təsərrüfatı sahələrinin inkişaf planlarının müvəffəqiyyətlə əlaqələndirilməsinin zəruri şərti kimi baxmaq lazımdır. Azərbaycan Respublikasının iqtisadi rayonlaşdırılması özlüyündə mürəkkəb bir problemdir. Rayonlaşdırmada aşağıdakı məsələlərə diqqət yetirilməlidir:

- rayonların özlərinin müəyyən edilməsi və əsaslandırılması;
- rayonların sərhədlərinin dəqiqləşdirilməsi;
- təbii şərait, təbii resurslar və yaranmış ekoloji vəziyyətin təhlili;
- təsərrüfatın tarixən formalaşması və inkişaf xüsusiyyətlərindəki ümumi oxşarlıq;
- əhalinin məskunlaşma xüsusiyyətləri;
- ərazinin təsərrüfat özəyi rolunu yerinə yetirən kifayət qədər güclü iqtisadi mərkəzin olması;
- respublika miqyasında nisbətən vahid istehsal ixtisaslaşmasının olması;
- daxili iqtisadi-istehsal əlaqələrinin kifayət qədər yüksək səviyyədə inkişaf etməsi;
- aqrar-sənaye kompleksinin ixtisaslaşması;
- ümumi nəqliyyat probleminin və tam nəqliyyat qovşağının olması;
- hazırkı şəraitdə rayonun bütün ərazisinin və ya onun böyük hissəsinin məhsuldar qüvvələrinin inkişafını əhatə edən respublika əhəmiyyətli konkret xalq təsərrüfatı probleminin olması.



Aydındır ki, bu əlamətlərin hər biri ayrılıqda müxtəlif əhəmiyyət kəsb edə bilər və rayonun yaranma prosesinə öz təsirini göstərər.

Hazırda və gələcəkdə gözlənilən iqtisadi inkişaf səviyyəsini nəzərə almaqla Azərbaycan Respublikası ərazisində iqtisadi rayonlaşma apararkən bir sıra məsələlər də əsas götürülməlidir.

Məlumdur ki, məhsuldar qüvvələrin ərazi üzrə təşkili iqtisadi rayonlaşmanın əsasında durur. Belə ki, rayonu məhz maddi nemətlər istehsalı yaradır. Qeyri istehsal sahələri, təbii ehtiyatlar, məskunlaşmanın ərazi sistemləri təklikdə iqtisadi rayonu yarada bilməz. Beləliklə, iqtisadi rayon ərazi əmək bölgüsünün məhsulu kimi formalaşır və inkişaf edir.

İqtisadi rayonların əsasını enerji-istehsal dövriyyələri, onların ayrı-ayrı mərhələləri və aralarındakı əlaqələrin sıxlığı təşkil edir. Başqa sözlə desək, iqtisadi rayon xammalın hasilatından başlamış müxtəlif hazır məhsulların alınmasınadək olan texnoloji əlaqələri əhatə edən enerji-istehsal dövriyyələri əsasında formalaşır. İqtisadi rayonlar obyektiv olaraq yaranır. O, ərazi və təsərrüfat cəhətdən bir dolğunluq təşkil edir. Həmin rayonlar tətqiqatçının uydurması olmayıb real varlığın məhsuludur.

İstehsalın ixtisaslaşması iqtisadi rayonlaşma üçün əsas şərtlərdən biridir. İxtisaslaşma ərazi əmək bölgüsü və kooperasiyanın formasıdır. Respublikanın hər bir iqtisadi rayonu öz təsərrüfatını respublika təsərrüfatı ilə bağlı şəkildə inkişaf etdirir. Adətən, iqtisadi rayona respublika xalq təsərrüfatının ixtisaslaşmış hissəsi kimi baxılır. Hər bir iqtisadi rayonda istehsal sahələri əlaqələndirilməli, həmin rayon daxili əlaqələrə malik olmalı, təsərrüfat sahələrinin səmərəli inkişafı ilə fərqlənməli, yerli ehtiyyat və şəraitdən səmərəli istifadə etməlidir. Bütün bunların əsasında təsərrüfatın kompleks inkişafı təmin olunmalıdır. İqtisadi rayonlaşma iqtisadi coğrafi proqnozlar əsasında, həmin rayonların gələcəkdə inkişafını nəzərə almaqla aparılmalıdır. Rayonlaşma aparılarkən elmi-texniki tərəqqi, təbii kompleksin xarakteri və imkanları, mövcud inkişaf səviyyəsi və ölkənin xalq təsərrüfatının inkişaf istiqamətləri həmişə nəzərdə tutulmalıdır.

sənaye qovşağına meyl etməlidir. Belə mərkəzlər istehsal və xidmət sahələrinin ərazi üzrə təşkili nəticəsində yaranır və güclü kompleks əmələ gətirmə qüvvəsinə malikdir. İri sənaye, aqrar-sənaye kombinatları, müəssisələri belə mərkəzlərin özəyini təşkil edir. Həmin mərkəz rolunu Respublikamızın iri və orta böyüklükdə olan şəhərləri oynayırlar. Yeni müəssisə və filiallar, həmçinin respublikanın kiçik şəhərləri iqtisadi rayon yaratmada yardımçı rolunu oynaya bilər.

Qeyd etmək lazımdır ki, Azərbaycanın ayrı-ayrı rayonlarında sənaye mərkəzləri eyni mahiyyətə malik deyildir. Bəzi rayonlarda onlar iqtisadiyyatın əsasını və əsas sahəni təmsil edir (məsələn Bakı, Gəncə, Sumqayıt, Naxçıvan və s.), digərlərində ümumi rayon təsərrüfatlarının yaranmasına zəif təsir göstərir və yalnız inzibati funksiyanı yerinə yetirir. İqtisadi rayonlaşma inzibati- ərazi bölgüsünün əsasını təşkil etməlidir. İqtisadi rayonların idarəetmə orqanı yoxdur və dövlət orqanları tərəfindən ona birinci növbədə xalq təsərrüfatının planlaşdırılması obyekti kimi baxılır. Daxili inzibati bölgü ilə iqtisadi rayonlaşma arasındakı əlaqə xüsusi əhəmiyyət kəsb edir. İnzibati rayonların sərhədlərini mühüm amil hesab etmək lazımdır. Çünki iqtisadi rayonlar müəyyənləşdirilərkən sərhəd məsələsi mühüm rol oynayır.

Respublikanın iqtisadi rayonlarınm sərhədləri bəzən onun fiziki-coğrafi rayonlarının sərhədlərinə uyğun gəlmir, lakin onların (fiziki-coğrafi rayonların) təbii ehtiyatları və torpaq-iqlim şəraitinin müəyyən tərkibdə olması, yanacaq-enerji və mineral xammal ehtiyatları iqtisadi rayonların təsərrüfat komplekslərinin yaranmasına güclü təsir göstərir. Ayrılmış hər bir iqtisadi rayon respublika daxili ərazi əmək bölgüsünü özündə əks etdirən və təbii-iqtisadi amillər əsasında inkişaf edən müəyyən təsərrüfat vəhdətindən ibarətdir. Ölkənin iqtisadi və sosial inkişafında iştirak edən iqtisadi rayonlar özlərinə məxsus formalaşmış istehsal komplekslərinə və ixtisaslaşmış sahələrə malikdir. Bunların səmərəli inkişafı ərazi daxilində təsərrüfatın inkişafından, sahələrarası və rayonlararası uzlaşmadan asılıdır. Bu cəhətdən iqtisadi rayonlaşmada elə bir optimal vəziyyət seçilməlidir ki, iqtisadi rayonların tərkibinə daxil



edilən inzibati rayonlar birlikdə bütöv təbii-iqtisadi region, kompleks-ekoloji sistem, vahid çay şəbəkəsi, suvarma sistemi, qarşılıqlı surətdə bağlı iqtisadiyyat və inzibati rayonların qarşılıqlı əlaqələrinin həyati əhəmiyyəti olan kommunikasiyalar - dəmir yol xətti, elektrik təchizatı xətləri ilə bağlı olmalıdır ki, bu da həmin iqtisadi rayonların xalq təsərrüfatının səmərəli fəaliyyəti üçün son dərəcə zəruridir.

# ABŞERON İQTİSADİ RAYONU

***Bakı, Sumqayıt şəhərləri, Abşeron, Xızı inzibati rayonları. Ərazisi 5920 kv.km., əhalisi 2.238,0 min nəfər.***

Abşeron iqtisadi rayonu Respublikanın ən mühüm sənaye, nəqliyyat, ticarət, elm, maarif və mədəniyyət mərkəzidir. Əhalinin intensiv məskunlaşmasına və şəhər əhalisnin urbanizasiya səviyyəsinə görə rayon respublikada birinci yeri tutur. İqtisadi rayon şəhər əhalisinin 56,2%-nə, ictimai istehsalda işləyənlərin 44%-nə malik olmaqla, əsaslı sənaye istehsal fondlarının 68%-ni verir. Azərbaycan Respublikası üzrə ümumi yük dövriyyəsinin 78%-ni əhatə edir. Sənaye məhsullarının əsas hissəsi neft və qazçıxarma, bununla əlaqədar inkişaf edən neft emalı, neft kimyası, neft maşınqayırması sənayesinin payına düşür Yerli yanacaq xammalı əsasında rayonda yaradılan yanacaq-energetika kompleksi respublikada elektrik enerjisi istehsalının yarısına qədərini, yanacaq sənayesi məhsulunun 95%-ni verir. Neft və qaz hasilatının demək olar ki, hamısı, qara və əlvan metalların müvafiq olaraq 88-69%-i, maşınqayırma və metal emalı məhsulunun 92%-i, meşə-ağac emalı və sellüloz-kağız sənaye məhsulunun 72-%-i, yüngül və yeyinti sənaye məhsullarının müvafiq olaraq 43-21%-i burada istehsal olunur.

Respublikada olan müxtəlif və çoxsahəli iri sənaye müəssisələrinin demək olar ki, 40%-i, onlarda işləyən fəhlə və qulluqçuların isə 61%-i buradadır.

## Təbii şəraiti və təbii ehtiyatları

Abşeron iqtisadi rayonunun ərazisi, əsasən üçüncü və dördüncü dövr çöküntülərindən təşkil olunmuşdur. Burada gilli süxurlar üstün yer tutur. İqtisadi rayonunun ərazisi üçün azacıq şaquli parçalanma səciyyəlidir; çoxlu miqdarda yastı, axarsız çökəklikləri şoranlıqlar və duzlu göllər tutmuşdur. Abşeron yarımadasında və Qobustanın ona qovuşan hissəsində, yüksəklik



adətən 350-400 metrdən yuxarı deyil. Palçıq vulkanlar geniş yayılmışdır (Bozdağ, Lökbatan, Vulkandağ, Toraqay və s.). İqtisadi rayon ərazisinin səthi, əsasən düzənlik və dağlıqdır. Dənizsahili hissə okean səviyyəsindən 28 metrə qədər aşağıdır. Ərazinin ən yüksək nöqtəsi Dübrar (Kolanı) dağıdır (2205m).

İqlimin quraqlığı və sutkalıq temperaturunun kəskin dəyişməsi, süxurların surətlə parçalanması, həmçinin güclü küləklər və palçıq vulkanları relyefin formalaşmasında mühüm rol oynamışdır.

Abşeronda müxtəlif faydalı qazıntılar var. Hələ qədim zamanlardan istismar olunan neft və qaz yataqları (Balaxanı-Sabunçu-Ramanı, Suraxanı, Bibiheybət, Pirallahı, Binəqədi) ilə yanaşı XX əsrin 30-40-cı illərində Abşeronun ərazisində aparılan kəşviyyat işləri nəticəsində yeni neft yataqları aşkar edildi. Bunlara Qaraçuxur, Zıx, Qala, Puta, Lökbatan, Buzovna, Maştağa neft yataqlarını misal göstərmək olar.

Nəticədə Bakının ətrafında neft yataqlarının yeni şəbəkəsi yarandı. Son vaxtlar Bakı neft rayonu Abşeron yarımadasının sərhədlərindən şimala, Siyəzən-Dəvəçi rayonuna, qərbə (Bakı-Tbilisi dəmir yol xətti boyunca) və şərqə, dənizə tərəf genişlənmişdir. Ümumiyyətlə Azərbaycanın neft-qaz sənayesinin gələcək inkişafı Abşeron ətrafı, Xəzər dənizi ilə bağlıdır. Hazırda burada xarici Şirkətlərlə birlikdə Günəşli, Azəri, Çıraq neft-qaz yataqları istismar olunur.

Abşeron yarımadası xüsusi mikroiqlim şəraitinə malikdir. Burada Aralıq dənizi tipli quru subtropik iqlim üstünlük təşkil edir. Yarımadada tez-tez güclü küləklər əsir. Şimal küləklərinin gücü saniyədə 20-30 metrə, arabir baş verən tufanlar vaxtı isə 35-40 metrə çatır. Abşeron üçün ən xarakterik külək böyük sürəti ilə fərqlənən və xəzri adlanan şimal küləyidir. O, havanın hərarətini xeyli aşağı salır. Payız-qış aylarında xəzri azalır və cənub küləkləri artır. Güclü şimal küləkləri havaya çoxlu qum sovurur və bütün Abşerona yayır. Küləklər və qum kənd-təsərrüfatı bitkilərinə, ilk növbədə, yarımadada geniş sahələr tutan üzümlüklərə mənfi təsir göstərir. Xəzər dənizi yarımadanın iqliminə mülayimləşdirici təsir göstərir.

İyun-sentyabr aylarında orta aylıq temperatur 20 dərəcədən yuxarıdır. Abşeron yarımadasında müşahidə olunan maksimal yay temperaturu 38-40 dərəcədir. Yayda sutka ərzində temperatur az

... götürülür. Bu cəhətdən yarımadanın şimal hissəsi daha əlverişlidir. Orada gündüz və gecə temperaturların fərqi 5-6 dərəcə təşkil edir.

Şaxtalı günlər müxtəlif illərdə (yanvar və fevralda) müşahidə edilir, bəzən isə heç olmur.

Abşeron yarımadasında yağıntının illik miqdarı şimal-qərbdə 140 mm-dən şimal hissədə 240-250 mm-dək dəyişir. Ərazinin şimal hissəsində yağıntı bir qədər çox duşür. Maksimum yağıntı düşən qış dövründə bu fərq xüsusilə kəskin nəzərə çarpır. Belə fərq bitkilərin yayılmasına və əkinçiliyin ümumi şəraitinə olduqca güclü təsir göstərir. Buxarlanmanın surətlə getməsi nəticəsində (illik buxarlanma 800-1000 mm-dir) çox böyük rütubət çatışmazlığı yaranır. Rayonun yayı quraq keçir. May ayından sentyabradək 40 mm-dək yağıntı düşür. Ona görə də, kənd təsərrüfatı bitkilərinin əksəriyyəti suni suvarma tələb edir. Qar təsadüfi hallarda yağır və tez də əriyir.

Abşeronda daimi axar sular yoxdur. Yalnız şimal-qərb hissədə kiçik məsafədə Sumqayıt çayı axır. Onun suyu ancaq yazda və payızda Xəzər dənizinə çatır. Xızı inzibati rayon ərazisində bir neçə xırda çaylar su təchizatında müəyyən rol oynayırlar.

Abşeron yarımadasının şimal hissəsində məhsuldar torpaqlar yayılmışdır. Onlar üzümlüklər üçün istifadə edilən əsas torpaq fondudur. Yarımadanın mərkəzi hissəsini boz torpaqlar tutur. Qərb tərəfdən Abşerona (boz-qəhvəyi) şabalıdı torpaqların geniş massivi, o cümlədən qərb hissədə, dağətəyi zonada kənd təsərrüfatı üçün nisbətən yararlı torpaqlar üstünlük təşkil edir

Abşeron yarımadasında (Xızı rayonu istisna olmaqla) efemerli yarımsəhra bitkiləri yayılmışdır. Xızı rayonu ərazisində meşəlik və kol bitkiləri əsas yer tutur. Həmin bitkilərlə örtülmüş ərazilərin bir hissəsində kənd təsərrüfatı bitkiləri (taxıl, üzüm, tərəvəz və s.) əkilir. Abşeronda mal-qaranın əsas otlaq yerləri yarımadadan kənarda yerləşir. Rayonda təbii yem ehtiyatı məhduddur. Abşerondan cənub-qərbə tərəf şoranlıq bitkilərə çox təsadüf olunur ki, bu da həmin yerlərdə kənd təsərrüfatı üçün şəraitin pisləşdiyini göstərir.



***Əhalisi.*** Abşeron iqtisadi rayonu əhalinin sıxlığına və intensiv urbanizasiya prosesinə görə respublikada kəskin surətdə fərqlənir. Çox da böyük olmayan bu ərazidə 2 mlyondan çox adam yaşayır. Əhalinin 1 kv. km-də orta sıxlığı 360 nəfər və ya respublika üzrə orta göstəricidən (92 nəfər) 5 dəfəyə qədər çoxdur. Respublika şəhər əhalisinin və ictimai istehsalda çalışanların əksər hissəsi burada cəmlənmişdir. İqtisadi rayonun əhalisi respublikanın şəhər əhalisinin 56,9 %-i, kənd əhalisinin 0,5%-ni təşkil etmişdir. Şəhər və kənd əhalisinin nisbəti rayon üzrə 99,2% və 0,8% olmuşdur. Bütövlükdə respublika üzrə təbii artım yüksək olduğuna baxmayaraq, iqtisadi rayonda əhalinin mexaniki hərəkətinin rolu çox böyükdür. Əhalinin ərazicə yerləşməsində kəskin fərqlər var. Belə ki, əhalinin 80%-i Bakı şəhərində, 14,3%-i Sumqayıtda yaşayır. Əhalinin 4,2%-i isə Abşeron inzibati rayonunun ərazisindədir. Abşeron iqtisadi rayonu təbii artıma görə respublikanın əksər iqtisadi rayonlarından geri qalır.

Xüsusilə əmək qabiliyyətli əhali kateqoriyasının sayının dəyişilməsinə əhalinin mexaniki hərəkəti müəyyən təsir göstərir. Bu iqtisadi rayona kənd əhalisinin axını ilə əlaqədardır və demək olar ki, bütün rayonlardan miqrasiya axınının intensivliyi şəhər əhalisinin surətlə artmasına səbəb olur.

Təkcə 1988-1994-cü illərdə azərbaycanlıların Ermənistandan zorla köçürülməsi və erməni işğalçıları tərəfindən Yuxarı Qarabağın müvəqqəti zəbt olunmuş rayonlarından Abşeron iqtisadi rayonuna xeyli miqdarda adam köçmüşdür ki, bu da Abşeron əhalisinin mexaniki artımına səbəb olmuşdur.

Respublikanın əmək ehtiyatlarının 36 %-i Abşeron iqtisadi rayonundadır. Rayonun ərazisində yerləşən maddi istehsal sahələri müəssisələrində çalışan sənaye-istehsal işçilərinin sayı respublika üzrə ümumi göstəricinin 67 %-indən çoxdur. Kənd təsərrüfatında 1,5 % adam işləyir.

Abşeron iqtisadi rayonunun ərazisində 78 yaşayış məntəqəsi olmuşdur. Bunların 2-si şəhər (Bakı və Sumqayıt), 55-i şəhər tipli qəsəbə, 21-i kənddir.

Respublikanın sosial həyatında Abşeron iqtisadi rayonunun əhəmiyyəti çox böyükdür.

### İxtisaslaşmış sənaye sahələrinin inkişafı və yerləşməsi

Abşeron iqtisadi rayonu respublikanın sənaye məhsulunun 60%-ə qədərini (1990-cı il) verir, tikinti, nəqliyyat, rabitə və xidmət sahələrinin 50%-ə qədərini özündə cəmləşdirir. Bu rayon, rayonlararası əmək bölgüsündə fəal iştirak edir və ölkənin bütün iqtisadi rayonları ilə iqtisadi əlaqələr saxlayır.

Respublikanın bütün sənaye müəsssələrinin 40%-ə qədəri Abşeron iqtisadi rayonunun ərazisindədir. Bu müəssisələrin əksəriyyəti istehsal vasitələri istehsal edən sahələrdən ibarətdir. İqtisadi rayon respublikanın elektroenergetika məhsulunun 42%-ni, neft hasilatının 90%-ni, qara metallurgiyanın 88%-ni, kimya sənayesinin 88,3%-ni, maşınqayırma və metal emalının 90,6%-ni, meşə və ağac emalı sənayesinin 70,5%-ni, yüngül sənayenin 45,9%-ni, yeyinti sənaysinin 23,8%-ni, tikinti materialları sənayesinin 70,6%-ni vermişdir.

Abşeron iqtisadi rayonu üçün sənaye istehsalının yüksək səviyyədə təmərküzləşməsi xarakterikdir. Rayonun sənayesi yerli neft, qaz, yodlu-bromlu su ehtiyatlarından intensiv istifadə edilməsi, qeyri-filiz yataqlarının (tikinti daşı, əhəng, kvars qumları, beton gilləri və s.) istismarı, həmçinin çoxsahəli kənd təsərrüfatı xammalı əsasında inkişaf etmişdir. Nəticədə, güclü maşınqayırma (neyt maşınqayırması), kimya və neft kimyası, yüngül və yeyinti sənaye sahələri yaranmışdır.

Abşeron iqtisadi rayonu sənaye istehsalının sahələrarası kooperasiyası və ixtisaslaşmasının yüksək səviyyəsi, getdikcə daha çox artmağa meyl edən ixtisaslı əmək ehtiyatlarının xeyli hissəsinin cəmləşməsi ilə fərqlənir.

Respublikanın xalq təsərrüfatı kompleksinin əsas hissəsi olan Abşeron iqtisadi rayonu mürəkkəb inkişaf yolu keçmişdir. Hələ XX əsrin əvvəllərində mərkəzi Bakı sənaye qovşağı olan bu rayon Moskva, Peterburq, Donbas və Ural ilə birlikdə Rusiyanın mühüm sənaye rayonu idi.



Bakı nefti uzun müddət xarici kapitalın gəlir mənbəyi olmuşdur. Lakin XIX əsrin 70-ci illərinə qədər neft mədənlərinin istismarında təhkimçilik hüququnun mövcudluğu neft istehsalını məhdudlaşdırırdı. 1847-ci ildə Abşeronda sənaye üsulu ilə ilk dəfə neft buruğunun qazılmasına baxmayaraq, təhkimçilik hüququnun ləğv edilməsinə qədər burada neft sənayesinin inkişafında mühüm irəliləmə olmamışdır. Lakin, XIX əsrin 80-ci illərindən başlayaraq, Abşeronun neft sənayesində xarici kapitalın güclənməsi ilə əlaqədar olaraq neft hasilatı sürətlə artmış və Bakı şəhəri böyümüşdür. 1898-ci ildə neft istehsalının həcminə görə Bakı ABŞ-nı ötüb keçmiş və 1901-ci ildə Abşeronda 10,6 mln.ton neft çıxarılmışdır ki, bu da dünya neft hasilatının yarısını təşkil edirdi.

Neft hasilatının artması ilə yanaşı, neft maşınqayırması, metaləritmə, istilik-elektrik stansiyaları, gəmi təmiri zavodları, yüngül və yeyinti sənayesi, tikinti materialları istehsalı da yaradıldı. Bunların sayəsində əsrin başlancığında Bakı hətta dünyanın iri sənaye şəhərlərindən birinə çevrildi.

Abşeron rayonunda neft sənayesinin, bununla yanaşı, təsərrüfatın başqa sahələrinin inkişafı, onların istehsal etdikləri məhsulların başqa rayonlara daşınması dövrün tələbatına uyğun, bir sıra nəqliyyat yollarının inkişafını qarşıya qoydu. 1880-ci ilin əvvəllərində Bakı şəhərini Balaxanı, Sabunçu və Suraxanı neft mədənləri rayonları ilə birləşdirən ensiz dəmir yolu xətti istifadəyə verildi. Bundan üç il sonra, 1883-cü ildə Bakı-Tiflis, az sonra isə Petrovsk (Mahaçqala)-Dərbənd-Biləcəri dəmir yolları istifadəyə verildi. Keçmiş SSRİ-də ilk elektrik dəmir yolu 1926-cı ildə Bakı ilə Sabunçu arasında çəkilib. Sonralar, nəqliyyatın inkişafı ilə əlaqədar Abşeronun başqa rayonlarla nəqliyyat-iqtisadi əlaqələri genişlənir və təkmilləşir. Bu dövrdə Xəzər dənizində neftçıxarma kompleksi yaranır, bununla bərabər neft kimyası, neft maşınqayırması ilə yanaşı, cihazqayırma, elektrotexnika, radiotexnika, qara və əlvan metallurgiya, metal emalı, yanacaq-energetika kompleksi, yüngül və yeyinti sənaye sahələri inkişaf edir. Bununla əlaqədar, əhalinin də sayı sürətlə artır və Abşeronda məskunlaşma prosesi sürətlənir, yeni şəhərlər yaranır.

yaxşılaşdırmağa və istehsalın səmərəliyini yüksəltməyə imkan verəcəkdir.

Abşeron iqtisadi rayonunun əsas sənaye sahələrindən biri də qara metallurgiyadır. Rayonun qara metallurgiyası Sumqayıt boru-prokat kombinatı və bir sıra xırda təkrar metal emalı müəssisələri ilə təmsil olunmuşdur. Qara metallurgiya müəssisələri Abşeron iqtisadi rayonun sənaye məhsulunun 2,7%-ni istehsal edir. O, ölkənin neft və qaz sənayesini müxtəlif diametrli borularla təmin edir.

Sumqayıt boru-prokat zavodu respublika daxilində tədarük edilən metal qırıntıları, müxtəlif qara metal tullantıları və qismən kənardan gətirilən xammal ilə işləyir. Zavodun genişləndirilməsinə və bir sıra yeni məhsullar, o cümlədən, iri diametrli polad boruları, polad təbəqələr, sinkləşmiş muftalar istehsalı üçün xarici şirkətlər tərəfindən investisiya qoyuluşunun həcmi artmaqdadır. İstehsalın həcminin artırılması eyni zamanda respublikada qara metal tullantıları tədarükünün və emalının təkmilləşdirilməsini tələb edir.

İqtisadi rayonda qara metallurgiya ilə yanaşı əlvan metallurgiya müəssisələri də fəaliyyət göstərir. Bu sahə iqtisadi rayonun sənaye məhsulunun 2,3%-ni verir. Əlvan metallurgiya müəssisələrində yüngül metallar, həmçinin qab-qacağ və melxior məmulatları, təkrar alüminium, alüminium məftilləri və s. istehsal olunur. Sumqayıt aluminium zavodu ölkədə məişət soyuducuları üçün buxarlandırıcılar buraxan əsas müəssisədir. Rayonun əlvan metallurgiya sənayesi keçən əsrin 70-ci illərində və 80-ci illərinin birinci yarısında sürətlə inkişaf etmişdir. Belə ki, aluminium zavodu genişləndirilmiş, bir sıra əsas və yardımçı sexlər tikilib istifadəyə verilmişdir. Nəticədə əsas məhsulla yanaşı, bir sıra əlavə məhsullar istehsalı xeyli artmışdı. Bu dövrdə Sumqayıt və Gəncə aluminium zavodları arasında sıx istehsal əlaqələri yaranmışdır.

İqtisadi rayonun sənayesinin strukturunda kimya sənayesi mühüm yer tutur. Neft kimyası sahəsi iqtisadi rayonun ümumi sənaye məhsulunun 15%-ə (1990-cı il) qədərini verir.

Sahənin müəssisələrində sintetik spirt və kauçuk, plastik kütlələr, sintetik qatranlar, fosfor gübrəsi, kimyavi yuyucu maddələr, avtomobil şinləri və s. istehsal olunurdu. Lakin bu məhsulların bir çoxu yarımfabrikat halında buraxılır və sonrakı emal prosesi üçün

kənara göndərilirdi. Sahənin müəssisələri bir sıra məhsullar istehsalında ictimai əmək bölgüsündə iştirak edir.

Sumqayıt sintetik kauçuk və üzvi sintez zavodunun məhsulları başqa iqtisadi rayonlara və bir çox xarici ölkələrə göndərilirdi. Sahənin məhsul istehsalı, əsasən "Üzvi sintez", "Sintez kauçuk" və "Polimer" İstehsal Birliklərində cəmləşmişdir.

Abşeron iqtisadi rayonunda iri maşınqayırma kompleksi yaradılmışdır ki, bunun da əsasını neftçıxarma, qazçıxarma, neft-qaz emalı üçün maşın və avadanlıqlar istehsal edən muəssisələr təşkil edir.

Sahənin müəssisələrində geniş çeşiddə məhsullar istehsal olunur. Bunlara misal olaraq, mancanaq dəzgahlarını, dərinlik nasoslarını, quyuların yeraltı və əsaslı təmiri üçün aqreqatları, məişət kondisionerlərini, elektrotermik avadanlığı, müxtəlif cihazları elektrik mühərriklərini, soyuducular üçün kompres-sorları və s. göstərmək olar.

Maşınqayırma iqtisadi rayonun sənaye məhsulu istehsalı həcminin 29,6%-ni verir ki, bu da respublikada maşınqayırma və metal emalı sənayesi məhsulunun 90%-nə bərabərdir. Sahə təkcə iqtisadi rayonun deyil, eyni zamanda respublikanın sənaye inkişafına müsbət təsir göstərir. Respublikada və keçmiş SSRİ-də məhşur olan Səttərxan adına, Montin adına və Keşlə neft-maşınqayırma zavodları məhz Abşeron iqtisadi rayonunun ərazisində yerləşir. Yetmişinci illərdə iqtisadi rayonda bir sıra maşınqayırma müəssisələri tikilib istifadəyə verilmiş və iri istehsalat birlikləri yaradılmışdır. Bunlardan Bakı elektrik maşınqayırma zavodunu, "Azərelektromaş" İstehsalat Birliyini,Yüksək cərəyanlı elektrik avadanlığı zavodunu, "Elektrosentrolit", Bakı "Elektroavtomat" zavodlarını, "Azərelektroterm" İstehsalat Birliyini, mexanizm zavodunu, Bakı məişət elektrik cihazları İstehsalat Birliyini, Bakı məişət kondisionerlər zavodunu, Bakı dərinlik özülləri zavodunu, Ağır elektrik qaynağı avadanlığı zavodunu, Bakı dəzgahqayırma zavodunu və s. göstərmək olar. Son ildə Caponiya Şirkətləri ilə birlikdə müasir texnologiyaya əsaslanan yeni müəssisələr tikilib istifadəyə verilmişdir.

... yerləşən gəmiqayırma və gəmi təmiri zavodlarının və Bakı vaqon təmiri zavodunun istehsal gücü son illər xeyli azalmışdır.

Respublikanın meşə və ağac emalı sənayesinin əsas müəssisələri Abşeron iqtisadi rayonunun ərazisində yerləşir. Həmin müəssisələrdə ağac materialları, mebel, karton-kağız malları, tara, dülgərlik məmulatı və s. buraxılır. Sahənin başlıca xüsusiyyəti gətirilmə xammalla işləməsindədir; taxta-şalbanın 80%-dən çoxu respublikadan kənardan, o cümlədən Rusiya Federasiyasının şimal və şərq rayonlarından gətirilir.

1990-cı ilə qədər Abşeron iqtisadi rayonunda tikinti materialları istehsalı ilə 50-dən çox müəssisə və təşkilat məşğul olurdu. Həmin müəssisələr zəngin mineral xammal ehtiyatlarından istifadə edərək divar materialları, dəmir-beton məmulatı, sement, asbest-sement borular, tikinti gipsi, linoleum, pəncərə şüşəsi, gipsdən arakəsmələr, şifer və s. istehsal edirdilər. Ən iri müəssisə olan Qaradağ sement zavodu xarici şirkət tərəfindən yenidən qurulur.

Abşeron iqtisadi rayonunun sənaye strukturunda yüngül sənaye əsas yer tutur. Lakin məlum səbəblərə görə bir çox iri müəssisələr, o cümlədən, Z.Tağıyev adına toxuculuq kombinatı, N.Nərimanov adına trikotac kombinatı, 1 və 2 saylı ayaqqabı fabrikləri, Volodarski adına tikiş fabriki, Bakı kamvol kombinatı, Bakı uşaq paltarları tikiş birliyi, Mebel kombinatı, Bakı çini qablar zavodu və s. müəssisələrin əksəriyyəti fəaliyyətini dayandırmışlar və yaxud da bəziləri öz istehsal gücünün yarıya qədərini işləyirlər.

Özəlləşdirmənin aparılması və xarici investorların cəlb olunması sahənin gələcək inkişafını təmin edəcəkdir.

Abşeron iqtisadi rayonunun yeyinti sənayesi Respublikada sahə məhsulunun 25%-ə qədərini verir.

Xırdalan ət emalı və süd zavodları, Xırdalan piyvə zavodu, Bakı un kombinatı, Şampan şərabları zavodu, Sumqayıt pendir və qənnadı müəssisələri və s. sahənin iri müəssisələrindəndir. Respublikada ət-süd, qənnadı, makaron, tütün məmulatı, marqarin, qablaşdırılmış çay, alkoqolsuz içkilər və s. istehsalının əsas hissəsi Abşeron iqtisadi rayonu ərazisində cəmləşmişdir.



Özəlləşdirmənin başa çatdırılması, yerli və xarici işadamlarının cəlb olunması nəticəsindəsahənin yeni sahələri yaradılacaqdır.

Abşeron iqtisadi rayonunun kənd-təsərrüfatı əsasən maldarlıq, ətlik- südlük istiqamətində, həmçinin tərəvəzçilik və üzümçülük sahəsi üzrə ixtisaslaşmışdır. Abşeron zeytun təsərrüfatları ilə Bakı konserv zavodu əsasında rayonun kənd-təsərrüfatında aqrarsənaye kompleksi yaranmışdır.

Kənd-təsərrüfatı sahələrində ən çox ətlik və südlük istiqamətli heyvandarlıq inkişaf etmişdir. O, rayonun kənd-təsərrüfatı məhsullarının 4/5-nü verir. Bitgiçiliyin başlıca sahələri tərəvəzçilik, üzümçülük, quru subtropik meyvəçilik və qismən taxılçılıqdır.

Abşeron iqtisadi rayonunun torpaq fondu 358 min hektardır. Bunun 20,7 min hektarı suvarılan torpaqlar olub, onlardan, əsasən, üzümlüklər, tərəvəz və subtropik çoxillik bitkiləri üçün istifadə olunur. Abşeron iqtisadi rayonunda efir yağlı bitkilərin becərilməsi və gülçülüyün inkişafı üçün əlverişli şərait vardır. İxtisaslaşdırılmış təsərrüfatlar da faraş tərəvəz, zeytun, zəfəran və badam yetişdirilir. Abşeronda quş əti, tərəvəz, süd, üzüm istehsal edən aqrar-sənaye kompleksləri yaratmaq, yumurta və ət istiqamətli quşçuluq fabriklərinin inkişafı üçün yaxşı şərait vardır. Hazırda rayonda quş əti və yumurta istehsalı təşkil edilmişdir. Bütünlükdə rayonun kənd-təsərrüfatının inkişafında su amili böyük rol oynayır. Elmi cəhətdən əsaslandırılmış istehlak normaları tətbiq etməklə su ehtiyatlarından səmərəli istifadə olunması, işlənmiş suların təmizlənməsi və dəniz suyunun şirinləşdirilməsi üçün tədbirlərin həyata keçirilməsi çox mühüm problem kimi qarşıda durur.

İqtisadi rayonun kənd-təsərrüfatı gələcəkdə də respublika əhalisinin xeyli hissəsinin təmərküzləşdiyi nəhəng sənayeaqlomerasiyanın tələbatının ödənilməsi istiqamətində inkişaf etdiriləcəkdir.

Abşeron iqtisadi rayonunda ölkənin ən iri nəqliyyat qovşağı olan Bakı nəqliyyat qovşağı formalaşmışdır. Burada nəqliyyatın bütün növləri inkişaf etmişdir.

İqtisadi rayonun inkişafının xüsusiyyəti onun beynəlxalq və respublikadaxili nəqliyyat əlaqələrinin təhlilində daha aydın nəzərə

çarpır. Hər il rayonda istehsal olunan məhsulun xeyli hissəsi respublikanın iqtisadi rayonlarına, MDB və uzaq xarici ölkələrə göndərilir.

Abşeron iqtisadi rayonundan başqa ölkələrə göndərilər məhsullar arasında qaz, neft məhsulları, polad borular, ilkin aluminium, gübrə, neft-kimya məhsulları, elektrotexnika avadanlıqları, sement, tütün məmulatı və s. mühüm yer tutur.

Abşeron rayonu inkişaf etmiş dəmir yol şəbəkəsinə malikdir. (Bakı-Tbilisi-Batumi, Bakı-Dərbənd-Rostov, Bakı-Astara və s.) Bakı nəqliyyat qovşağı yük dövriyyəsinə görə Zaqafqaziyada birinci yeri tutur. 1967-ci ildən Bakıda metro fəaliyyət göstərir.

Mühüm əhəmiyyət kəsb edən avtomobil nəqliyyatı ilə Abşeron iqtisadi rayonu Gürcüstan və Rusiya Federasiyasının Şimali Qafqaz və başqa rayonları ilə əlaqə saxlayır. Avtomobil nəqliyyatı, əsasən, rayondaxilindəki daşıma ehtiyyaclarını ödəyir. Dəniz nəqliyyatı vasitəsi ilə Orta Asiya dövlətlərinə və Rusiya Federasiyasının Avropa hissəsinin rayonlarına Volqa çayı vasitəsi ilə yük daşınır. Xəzər dənizinin ən böyük limanı olan Bakı-Volqa-Don və Ağ dəniz-Baltik gəmiçilik kanalları vasitəsilə Dünya Okeanına çıxış əldə edə bilir.

Son ildə Bakı şəhərində dünya standartlarına cavab verən müasir iri hava limanı istifadəyə verilmişdir. Abşeron hava nəqliyyatı vasitəsi ilə dünyanın mühüm iri şəhərləri ilə əlaqə saxlayır.

Bakı nəqliyyat qovşağının əhəmiyyəti Xəzərin neft və qaz ehtiyyatlarının mənimsənilməsi və Qədim İpək Yolunun bərpası ilə əlaqədar olaraq daha da artacaq. Bakı, Avropa ilə Asiya arasında ən mühüm körpü rolunu oynayacaq. Bakı-Tbilisi-Ceyhan əsas neft kəmərinin çəkilişi və Qədim İpək Yolunun bərpası ilə Bakı dünyanın ən böyük Beynəlxalq nəqliyyat qovşağına çeviriləcəkdir.

Bakı limanının işini yüngülləşdirmək məqsədilə Sumqayıt limanının yenidən qurulmasının böyük əhəmiyyəti olacaq.

## QUBA-XAÇMAZ İQTİSADİ RAYONU.
**Xaçmaz, Quba, Qusar, Dəvəçi, Siyəzən inzibati rayonları.**
**Ərazisi 7,0 min kv. km.**
**Əhalisi 450 min nəfər (2000-ci il)**

Quba-Xaçmaz iqtisadi rayonu Azərbaycan Respublikasının iqtisadiyyatında mühüm rol oynayır. Meyvəçilik, tərəvəzçilik və kurort zonası kimi tanınan bu iqtisadi rayon inkişaf etmiş kənd-təsərrüfatı sahələrinə, başlıca olaraq onun xammalını emal edən sənaye müəssisələrinə, zəngin balneoloci kurort sərvətlərinə malikdir. Respublika ərazisinin 8%-i, əhalisinin 5,6%-i bu iqtisadi rayonun payına düşür. Respublikada istehsal olunan ümumi sənaye məhsulunun 1,2%-ni, kənd-təsərrüfatı məhsulunun 8,5%-ni verən bu rayonun iqisadiyyatının əsasını meyvəçilik, tərəvəzçilik, heyvandarlıq və yeyinti sənayesi təşkil edir.

Quba-Xaçmaz iqtisadi rayonu Baş Qafqaz dağlarının cənub-şərqində mürəkkəb səth quruluşuna malik ərazidə yerləşir. Şərqdən qərbə doğru onun relyefi dəyişir. Dənizkənarı ovalıq, dağətəyi sahə ilə, bu sahə isə yüksək dağ zonası ilə birləşir.

Rayonun dağ sərhəddi bütünlüklə dağlardan ibarətdir. Azərbaycan ərazisində daimi qar və buzlaqlarla örtülü olan yeganə zirvələr (Bazardüzü – 4466 m; Şahdağ – 4243 m; Tufandağ – 4191 m) buradadır. Çox da yüksək olmayan təpəlik silsilələrin ən hündür nöqtəsi (1200 m) Quba şəhərindən cənubqərbdədir. Bu ərazidə geniş meyvə bağları salınmışdır. Xəzər dənizinə tərəf getdikcə hündürlük tədricən azalır və Quba və ya Qusar maili düzənliyinə keçərək Samur-Dəvəçi ovalığında qurtarır. Cənubşərqə doğru ensizləşən ovalıq sahənin eni Xaçmaz inzibati rayonu ərazisində- Yalama-Xudat zonasında 20-25 km-ə çatır.

Bu ovalıq Baş Qafqaz silsiləsindən axan çayların (Qusar, Qudyal, Vəlvələ, Gilgil) gətirmə konuslarından ibarətdir. Ovalığın dənizkənarı boyunca gətirilmə çay və qismən müasir Xəzər çöküntülərindən təşkil olunmuş sahil xətti uzanır. Bunlar çay sularının dənizə axmasına mane olaraq, ərazidə bataqlıqlar əmələ gətirmişdir. Bəzi yerlərdə, çökəkliklər boyunca, dənizdən limanlar ayrılmış və sonralar şirin sulu göllərə çevrilmişdir. Onlardan ən

... Ağzıbirçala gölüdür. Respublikanın başqa ərazilərindən fərqli olaraq, Quba-Xaçmaz iqtisadi rayonunun şimal-şərq hissəsi xeyli dərəcədə soyuq şimal küləklərinə məruz qalır. Ona görə də bürada iqlim başqa rayonlara nisbətən daha soyuqdur. Ön dağlıq hissədə dəniz səviyyəsindən 600 m hündürlükdə (Quba, Qusar) havanın orta illik temperaturu +10 dərəcəyə qədərdir. Yay aylarında (iyun-avqust) temperatur +20 dərəcədir. Mütləq maksimum temperatur +37-+39, mütləq minimum temperatur –20 dərəcəyə çatır. Lakin belə sərt qış beş-on ildən bir müşahidə edilir. Yayda sahil zonasında dənizin mülayimləşdirici təsiri hiss olunur.

Sahil boyunca yağıntının miqdarı cənub-şərqdən, şimal-qərbə tərəf artır (250-400 mm). Şərqdən qərbə doğru hündürlük yüksəldikcə (təqribən 900 m-dək) yağıntı da çoxalır.

Quba-Xaçmaz iqtisadi rayonunda çay şəbəkəsi sıxdır. Burada 60-dək dağ çayı var. Rayonun ən böyük çaylarından Samuru, Qusar çayı, Gilgil çayı qeyd etmək olar. Samur çayının illik su axımı 1375 min kub metrdir.

Çaylar Xəzərə tərəf xeyli meyilli axdığına görə böyük enerji ehtiyatına malikdir. Bəzi çaylarda su elektrik stansiyaları (Quba, Qusarçay, Nügədi, həmçinin kiçik elektrik stansiyaları) tikilmişdir. İyundan sentyabra qədər, suvarma üçün daha çox su tələb olunan vaxtda çaylarda su axımı minimuma enir.

Quba-Xaçmaz iqtisadi rayonu bol su ehtiyatına malikdir. Orta illik təminatın tənzimi üzrə 3100 milyon kub metr su ehtiyatının 1600 mln. kub metrini səthin axar suları, 550 mln. kub metrini yeraltı sular, 950 mln. kub metrini tranzit suları təşkil edir. Səthi axarın 714 mln. kub metri rayonun öz daxilindəki çayların suyundan ibarətdir.

Rayonda orta illik su sərfi onun ümumi su ehtiyatının 60-65%-ni təşkil edir. Ümumi su sərfinin 41%-i kənd-təsərrüfatının, başlıca olaraq suvarma əkinçiliyinin, 31%-i tranzit axarın, 27,6%-i Bakı su kəmərinin,0,24%-i sənayenin, 0,18%-i isə əhali və mənzil-məişət təsərrüfatının payına düşür.

Quba-Xaçmaz iqtisadi rayonu təmiz və sərin yeraltı su ilə Bakı və Sumqayıt şəhərlərini nisbətən təmin edən yeganə rayondur. Bu



rayonda yeraltı su «anbarının» formalaşdığı ərazidən gərgin suvarma əkinçiliyi, başlıca olaraq tərəvəz bitkiləri üçün istifadə edilir.

Təbii şəraitlə əlaqədar rayonun torpaq örtüyü də müxtəlif tiplidir. Xəzər sahili boyu ensiz sahələrdə qumlu və qumsal torpaqlar yayılmışdır. Atmosfer yağıntılarının azlığı, rütubət çatışmazlığı şəraitində bu torpaqlardan başlıca olaraq bostan və tərəvəz bitkiləri əkini üçün istifadə edilir. Xəzər dənizi sahil zolağının şimal-şərq hissəsində, Dağıstan sərhəddi boyu kiçik sahə tutan meşə-çəmən, çəmən və boz-çəmən torpaqları bağçılığın və üzümçülüyün inkişaf etdirilməsi üçün çox əlverişlidir. Buradan şimala və şimal-qərbə doğru boz dağ-meşə torpaqlarına qarışan qəhvəyi dağ torpaqları inkişaf etmişdir. Bu torpaqlardan bağçılıq və əkinçilikdə istifadə edilir. Buradan cənuba və cənub-şərqə doğru yayılmış boz-çəmən, boz-səhra, düzən tipli şorakət torpaqlarda suvarma əkinçiliyi şəraitində bağçılıq, tərəvəzçilik, taxılçılıq və rayonda heyvandarlığın yemə olan ehtiyacının təmin edilməsi üçün yemçilik inkişaf etdirilir. Dəvəçi rayonundan qərbə – dağlıq sahəyə doğru məhsuldar şabalıdı, dağ-çəmən torpaqlarından və qəhvəyi torpaqlardan üzümlüklər, bağlar və tərəvəz bitkiləri əkini üçün istifadə edilir.

İqtisadi rayonda müxtəlif yeraltı sərvətlər vardır. Respublikanın quru sahəsində olan neft ehtiyatının cüzi hissəsi, gil ehtiyatının 6,4%-i, çınqıl, qum, qırmadaş ehtiyatının xeyli hissəsi onun payına düşür. Qubadan cənub-qərbə tərəfdə yanar şist aşkar edilmişdir.

İqtisadi rayonda müxtəlif tipli çoxlu mineral bulaqlar vardır. Bunlardan ən məhşuru Xaltan və Qalaaltı bulaqlarıdır. Bu sulardan müxtəlif xəstəliklərin (xüsusilə dəri, yel, qadın xəstə-likləri, böyrək) müalicəsində geniş istifadə olunur. Dəvəçi şəhərindən 18-20 km. Qərb tərəfdə yerləşən Qalaaltı müalicə suyu əsasında sanatoriya tikilib.

Azərbaycan Respublikasında ən perspektivli və səfalı kurort rayonlarından biri də Xudat-Yalama dənizsahili zonasıdır. Dəniz boyu 40-45 km, məsafədə uzanan 5-10 km, enində meşələri, saf dəniz havası, narın qumlu çimərlikləri, zəngin meyvə bağları olan bu

ərazi misilsiz kurort rayonudur. Hər il bu kurort zonasında on minlərlə əhali dincələrək, öz sağlamlıqlarını bərpa edirlər.

Quba-Xaçmaz iqtisadi rayonu Respublikanın sıx əhali məskunlaşmasına malik olan rayonlarındandır. Onun tutduğu 7 min kv. Km. sahədə 2000-ci il məlumatına görə 450 min əhali yaşayır. Əhalinin 35%-i şəhərlərdə, 65%-i kəndlərdə yaşayır. Rayonun əmək ehtiyatlarının sayı 222,3 min nəfərdir. Əmək ehtiyatlarının 130,1 min nəfəri maddi istehsal sahəsində, 25,4 min nəfəri qeyri-maddi istehsal sahəsində çalışır. Əhalinin sıxlığına görə inzibati rayonlar üzrə fərqlər nəzərə çarpır. Belə ki, Quba və Xaçmaz inzibati rayonlarında əhali daha sıx yerləşib. Əmək qabiliyyətli əhalinin xeyli hissəsi, xüsusilə qadınlar ictimai istehsala cəlb olunmayıb. Əmək ehtiyatlarından səmərəli istifadə edilməsi rayonda xidmət sahələrinin, o cümlədən kurort-turizm təsərrüfatının inkişaf etdirilməsi ilə bağlıdır.

İqtisadi rayonun təbii sərvətləri, təsərrüfatının ixtisaslaşması sənayenin strukturunu və özünəməxsus inkişaf təmayülünü müəyyən etmişdir. Burada sənaye əsasən kənd-təsərrüfatı məhsullarının emalı ilə məşğuldur. Başlıca olaraq meyvə-tərəvəz konserv zavodları və kombinatlarını, süd emalı, ilkin şərab müəssisələrini birləşdirən yeyinti sənayesi iqtisadi rayonda istehsal olunan ümumi sənaye məhsulunun 78%-ni verir. Yeyinti sənayesinin ən iri müəssisələri – konserv, meyvə-şirə istehsal edən müəssisələr - Xaçmaz, Quba və Qusar şəhərlərində yerləşir.

Yüngül sənayenin əsasını Dəvəçi, Quba, Qonaqkənd, Xaçmaz və Qusarda yerləşən xalça fabriki və emalatxanalar, bütün rayonlarda olan məişət xidmətləri kombinatları nəzdindəki tikiş istehsalı müəssisələri təşkil edir. Əl ilə toxunan xalça və xalça məmulatlarının istehsalının əhəmiyyəti böyükdür.

Ağır sənaye sahəsini rayonda çıxarılan neftin 2,0%-ni, təbii qazın təxminən 10 faizini verən «Siyəzənneft» neft-qazçıxarma idarəsi, Quba şəhərindəki elektrotexnika və bir sıra metal emalı müəssisələri təmsil edir.

Nisbətən zəif tikinti materialları bazasına malik olan bu rayonda tikinti-quraşdırma işləri müasir tələbatdan xeyli geri qalır.



Quba-Xaçmaz iqtisadi rayonu Respublikanın suvarma əkinçiliyinin inkişaf etdirildiyi mühüm zonalardan biridir. Burada olan kənd-təsərrüfatına yararlı torpaqların 135 min hektarı suvarılır ki, bu da respublikanın müvafiq torpaqlarının 10,5%-ni təşkil edir. Suvarılan torpaqlardan 7,1%-i tərəvəz, bostan, 31%-i çoxillik bitkilər (o cümlədən 3,8%-i üzüm bağları), 6,7%-i yem bitkiləri, 5%-i həyətyanı sahələrdir.

Əsas suvarma mənbəyi Samur-Abşeron kanalı və çaylardır. Keçən əsrin 70-ci illərin əvvəllərində istifadəyə verilmiş Cağır-Sibir kanalı 6 min ha əlavə torpaqların suvarılmasını təmin etmişdir. İqtisadi rayonda 1200 hektar yeni torpaqlar suvarma əkinçiliyi dövriyyəsinə daxil edilmişdir. Suvarılan torpaqların genişləndirilməsi və Xəzərsahili ovalıqda əlavə suvarılan torpaqların mənimsənilməsi gələcəkdə tərəvəz, meyvə, üzüm, taxıl istehsalının artırılmasına, heyvandarlığın yem bazasının möhkəmləndirilməsinə səbəb olacaqdır.

Rayon iqtisadiyyatının əsasını kənd-təsərrüfatı təşkil edir. Bu sahə respublikada istehsal olunan kənd-təsərrüfatının ümumi məhsulunun 8,2 %-ni, o cümlədən əkinçilik məhsulunun 8,1%-ni, heyvandarlıq məhsulunun isə 7,3%-ni verir.

Kənd-təsərrüfatının quruluşunda başlıca olaraq meyvəçilik və tərəvəzçilik üzrə ixtisaslaşmış tarlaçılıq ümumi gəlirin 75%-ni verir. Quba-Xaçmaz iqtisadi rayonu Respublikada istehsal olunan bostan və tərəvəz bitkilərinin 25%-ni, meyvə məhsulunun isə 60%-ni verir. Burada üzüm, taxıl, kartof istehsalı da inkişaf etmişdir. Mühüm heyvandarlıq rayonu olmaqla o, Azərbaycan Respublikasında istehsal olunan südün 8,1, ətin 8, yunun 3,4, yumurtanın 4,2%-ni verir. Quba-Xaçmaz iqtisadi rayonunun potensial inkişafının bir üstün cəhəti də ondan ibarətdir ki, yüksək inkişaf etmiş Abşeron sənaye rayonu yaxınlığında olan bu rayonun kənd-təsərrüfatı onun təsiri və tələbatı şəraitində inkişaf edir. Bu üstün cəhət rayonun iqtisadiyyatının gələcək inkişafında, hələlik ictimai istehsaldan kənarda qalan əmək ehtiyatlarından dolğun istifadə edilməsində mühüm amil olacaqdır.

Quba-Xaçmaz iqtisadi rayonu nəqliyyat baxımından böyük imkanlara malikdir. Nəqliyyatın əsas növlərinin, o cümlədən

dənizə bir-başa çıxış əldə etməsi rayonun ərazisində ictimai istehsalı intensivləşdirmək və rayondaxili, rayonlararası iqtisadi əlaqələri inkişaf etdirmək üçün çox əlverişli imkanlar yaradır.



## LƏNKƏRAN- ASTARA İQTİSADİ RAYONU.

**Lənkəran, Cəlilabad, Masallı, Astara, Lerik, Yardımlı inzibati rayonları və respublika tabeliyində olan Lənkəran şəhəri.**

**Sahəsi – 5253 kv. km.**

**Əhalisi – 760 min nəfər**

Lənkəran-Astara iqtisadi rayonu Azərbaycan Respublikası-nın cənub-şərqində rütubətli subtropik zonada yerləşir. Şərqdən Xəzər dənizi, qərbdən və cənubdan Talış dağları vasitəsilə İranla həmsərhəddir.

Bu rayon Azərbaycanın iqtisadiyyatında mühüm yer tutur. Lənkəran- Astara iqtisadi rayonu təbii şəraitinə görə Respublikanın başqa iqtisadi rayonlarından fərqlənir. Rayon daxilində müxtəlif relyef formaları vardır. Relyef və landşaft xüsusiyyətlərinə görə ərazi Lənkəran ovalığından və Talış dağlarından ibarət iki hissəyə ayrılır.

Lənkəran ovalığı Talış dağlarının ətəyi və Xəzər dənizi sahili boyu uzanır. Bu ovalıq cənubdan Astara çayı, şimaldan isə Viləşçay ilə sərhədlənir. Ovalığın şimaldan cənuba uzunluğu 70 km., eni isə 10 km.-dir. Ovalıqda mülayim isti-subtropik iqlim hakimdir. Yayı quraq keçir. Havanın orta illik temperaturu 14 dərəcədir, yağıntının orta illik miqdarı isə 1200-1600 mm-ə bərabərdir.Talış dağları Lənkəran ovalığından başlamış Kömürgöy (2477 m) zirvəsinə qədər uzanır. Talış dağlarının iqlimi mülayim istidir. İqtisadi rayon sıx çay şəbəkəsinə malikdir. Rayonun çayları Xəzər dənizi hövzəsinə aiddir. İri çaylardan Göytəpə, Viləş, Lənkəran, Təngərud, Astaraçay və s. göstərmək olar. Rayonun çayları əsasən yağış sularından qidalandığından ilin yaz və payız aylarında daşır. Çayların su recimi fəsillər üzrə qeyri-bərabər paylanmışdır. Belə ki, illik su axımının cəmi 10-15%-i suya daha çox tələbat olan yay aylarının payına düşür. Rayonun su təchizatını və suvarma əkinçiliyini daha da inkişaf etdirmək məqsədilə çayların üzərində bir neçə suni su anbarı tikilmişdir. İqtisadi rayonun ən böyük su anbarlarından 1977-ci ildə tikilmiş Xanbulançay su anbarını qeyd etmək olar.

Rayonun torpaq örtüyü müxtəlifdir. Lənkəran ovalığında qleyli-küli, düzənlik-dağətəyi zonada meşə-bozqır, Talış dağlarında küli-sarı, sarı-qəhvəyi, dağ-meşə və çimli dağ-çəmən torpaqları yayılmışdır. Respublika ərazisində ancaq Lənkəran ovalığında qleyli-küli-sarı torpaqlar vardır. İqtisadi rayonun torpaqları subtropik meyvəçiliyin, çayın, tərəvəzin, üzümün və s. inkişaf etdirilməsi üçün çox əlverişlidir.

Lənkəran - Astara iqtisadi rayonunda faydalı qazıntılar azdır. Qeyri-filiz yataqlarından tikinti qumu, gil, tuf, çaydaşı, gips inert materiallar və müalicə əhəmiyyətli mineral sular rayonun iqtisadi inkişafında mühüm rol oynayır. Rayonun Xəzər sahilində zəngin neft ehtiyatı müəyyən edilmişdir.

Lənkəran - Astara rayonu Respublikada sıx meşə örtüyünə malik rayonlardan biridir. Ərazinin 25-26%-ni örtən meşələr başlıca olaraq onun qərb və cənub tərəfindən yüksələn Talış dağlarını əhatə edir. Ən çox meşələr Astara inzibati rayonunda (60%), ən az meşə sahəsi isə Cəlilabad inzibati rayonunun (12%) ərazisindədir. Rayonun meşələrində hirkan relikt bitki növlərindən dəmirağac, şabalıdyarpaqlı palıd, ipək akasiya, vələs, cökə, şərq fısdığı, məxməri ağcaqayın üstünlük təşkil edir.

Talış meşələrinin böyük torpaqqoruyucu, susaxlayıcı, iqlimsaflaşdırıcı əhəmiyyəti vardır.

Lənkəran- Astara iqtisadi rayonu zəngin kurort sərvətlərinə malikdir ki, bunların da əsasını çoxlu soyuq və isti mineral bulaqlar təşkil edir. İqtisadi rayonun mineral bulaqlarının çox yaxşı müalicə xüsusiyyəti vardır. Təkcə Astara inzibati rayonu ərazisində 20-yə qədər mineral bulaqlar vardır. Bunlardan Ərgivan və Taxtakəran bulaqlarını xüsusilə qeyd etmək lazımdır. Bu bulaqların suyunun temperaturu 35-50 dərəcədir. Mineral bulaqlardan biri də Acı-Şor bulağıdır. Bu bulaq yüksək minerallaşma xüsusiyyətinə malik olub, sutkada 220 min litr su verir. Lənkəran inzibati rayonundakı Yuxarı Lənkəran, Aşağı Lənkəran, Hövzava, Meşəsu, İbadısu və s. bulaqların tərkibi kükürdlə və müalicə əhəmiyyətli mineral maddələrlə zəngindir. Bu bulaqlar ildə yüz minlərlə kubometr su verir.



Qeyd etmək lazımdır ki, Aşağı Lənkəran bulaqlarında hələ 1828 və 1834-cü illərdə müalicə üçün bəsit vannalar yaradılmış, XIX əsrin 60-cı illərində isə bulaqların yaxınlığında xəstələr üçün yaşayış binaları tikilmişdir. İndi yerli əhali mineral bulaqlardan müalicə üçün geniş istifadə edir.

Müxtəlif quşların qışladığı məhşur Qızılağac qoruğu Lənkəran rayonunun ərazisindədir. Rayonun təbii şəraiti və təbii ehtiyatları onun özünəməxsus təsərrüfat sahələrinin formalaşmasında, ixtisaslaşmasında, əhalinin yerləşməsi və məskunlaşmasında böyük rol oynayır.

***Əhalisi***. Lənkəran- Astara iqtisadi rayonu Respublikanın çıx əhalisi olan rayonlarındandır. Əhalinin təbii artımına və məskunlaşmasına görə bu rayon Respublikada ən qabağcıl yerlərdən birini tutur. Əhalinin hər kvadrat kilometr üzrə sıxlığı (144 nəfər) respublika səviyyəsindən xeyli yüksəkdir. Masallı, Lənkəran, Cəlilabad rayonlarında əhali daha sıx yerləşmişdir. İqtisadi rayonun bütün əhalisinin 65%-i bu rayonların payına düşür. Əhalinin 34%-i dağ rayonlarında yaşayır.

İqtisadi rayonda ictimai istehsalda çalışanların 79%-i maddi istehsal, 21%-i qeyri-maddi istehsal sahələrində cəmləşmişdir. Həmin işçilərin 12%-i sənaye və tikintidə, 57%-i kənd və meşə təsərrüfatında, qalan 30,6%-i isə nəqliyyat, rabitə,ticarət, maarif, təhsil, səhiyyə və s. sahələrdə çalışır. Lənkəran-Astara iqtisadi rayonunda sənaye və tikintidə işləyənlər orta respublika səviyyəsindən üç dəfə az, kənd təsərrüfatında işləyənlər isə həmin səviyyədən üç dəfə çoxdur.

Rayonda mövcud olan 362 min nəfər əmək ehtiyatlarının 70%-dən çoxu Lənkəran, Masallı və Cəlilabad inzibati rayonlarının payına düşür. İctimai istehsala cəlb olunmamış xeyli əmək ehtiyatları vardır. Bunun əsas səbəblərindən biri iqtisadi rayonun bir çox sənaye müəssəsilərinin tam gücü ilə işləməməsi və bəzilərinin fəaliyyətinin dayanmasıdır. Digər tərəfdən qış aylarında kənd-təsərrüfatında işçi qüvvəsindən tam istifadə edilməməsi əmək ehtiyatlarının çoxalmasına səbəb olur. İqtisadi rayon asudə əmək

ehtiyatlarını ictimai istehsala cəlb etmək üçün geniş iqtisadı imkanlara malikdir.

İstehsal sahələrinin ixtisaslaşmasına görə Lənkəran- Astara iqtisadi rayonunda qadın əməyindən nisbətən çox istifadə edilir. Rayonda kişi əməyindən daha səmərəli istifadə etmək məqsədilə müvafiq sənaye müəssisələrinin istifadəyə verilməsi məqsədəuyğundur.

***Sənaye.*** Lənkəran- Astara iqtisadi rayonun sənayesi yerli kənd-təsərrüfatı xam-malı əsasında inkişaf etmişdir. Rayonun sənayesi elektroenergetika, maşınqayırma, meşə və ağac emalı, yüngül, yeyinti, tikinti materialları və s. sahələrlə təmsil olunmuşdur.

Yeyinti sənayesi iqtisadi rayonun ən başlıca ixtisaslaşmış sənaye sahəsidir. Respublikada istehsal olunan yeyinti sənaye məhsulunun 9%-ni, rayon üzrə əsas istehsal fondlarının 82%-ni özündə birləşdirən bu sahə rayon üzrə istehsal olunan ümumi sənaye məhsulunun 90%-ni verir. Yeyinti sənayesinin əsasını konserv, ilkin şərab emalı, yaşıl çay yarpağı emalı təşkil edir ki, bunlar da yeyinti sənayesinin ümumi məhsulunun 79%-ni verir. Bundan əlavə rayonda ət, süd, pendir, çörək bişirmə müəssisələri və s. fəaliyyət göstərir. Keçən əsrin yetmişinci illərində hər biri mövsüm ərzində 40 min ton üzüm emal edən iki ilkin şərab zavodunun, 50 min şərti banka meyvə-tərəvəz konservləri istehsalına malik konserv kombinatının, iki çay fabrikinin və başqa obyektlərin tikilib istifadəyə verilməsi nəticəsində rayonun yeyinti sənayesinin ümumi məhsulu xeyli artmışdır. Lakin bununla yanaşı, qeyd etmək lazımdır ki, iqtisadi rayon Respublikanın yaşıl çay yarpağının 98%-ni verməsinə baxmayaraq, onu emal edən fabriklərin istehsal gücü mövcud tələbatdan geri qalır. Bu hal eyni zamanda meyvə-konserv istehsalına da aiddir.

Yeyinti sənayesi ilə yanaşı, rayonun sənaye müəssisələri müxtəlif tikinti materialları, dəmir-beton məmulatı, mebel, tikiş məmulatları və s. məhsullar istehsal edir. İqtisadi rayonun sənayesi ərazi üzrə qeyri-bərabər yerləşmişdir. Rayon sənayesinin ümumi məhsulunun 60%-ni Cəlilabad inzibati rayonu verir. Cəlilabad



inzibati rayonunda bir sıra sənaye müəssisələri mövcuddur. Bunlardan iri şərab zavodunu, çörək-bulka zavodunu, çay fabrikini, avtomobil təmiri müəssisələrini (Prışib), rayon aqrar-sənaye birliyinin təmir müəssisələrini, meşə təsərrüfatı və tara müəssisələrini göstərmək olar.

Lənkəran inzibati rayonu sənayesinin çoxsahəli olmasına baxmayaraq, bu rayon sənaye məhsulu istehsalının həcminə görə iqtisadi rayonda ikinci yeri tutur. Qeyd etmək lazımdır ki, Lənkəranda yerləşən sənaye müəssisələrinin çoxu respublika əhəmiyyətinə malikdir. Belə müəssisələrdən yaşıl çay yarpağı emal edən və çayqablaşdırma fabrikini, konserv zavodunu, balıq kombinatını, balıq konserv zavodunu qeyd etmək olar. Başqa sənaye müəssisələri, o cümlədən çörək zavodu, kərpic, dəmir-beton məmulatı zavodları, sənaye kombinatı və s. yerli əhəmiyyətə malikdir. Sənaye əhəmiyyətinə görə Masallı inzibati rayonu iqtisadi rayonda üçüncü yeri tutur. Rayonun sənaye müəssisələri əsasən yerli xammal əsasında işləyir. Çay fabriki, tikinti-sənaye müəssisələri, konserv zavodu, çörək, süd zavodları rayonun mühüm sənaye obyektləridir.

Astara rayonunda yerləşən yeyinti sənayesi müəssisələri (çay fabrikləri, çörək, süd, pendir və s. zavodları) yerli kənd-təsərrüfatı məhsullarını emal edir.

İqtisadi rayonun dağ inzibati rayonlarında (Lerik, Yardımlı) sənaye zəif inkişaf etmişdir. Rayonda sənayenin inkişafına özəlləşdirmənin başa çatması, orta və xırda sahibkarlığın inkişaf etdirilməsi böyük təsir edəcəkdir. Rayonun iqtisadi inkişafına Xəzər dənizinin böyük təsiri vardır.

***Kənd təsərrüfatı.*** Kənd təsərrüfatının inkişaf etdirilməsi üçün Lənkəran-Astara iqtisadi rayonu çox əlverişli təbii-iqtisadi şəraitə malikdir. Mülayim isti iqlim, məhsuldar torpaqlar, su və əmək ehtiyatlarının kifayət qədər olması ərazinin kənd təsərrüfatı məqsədləri üçün mənimsənilməsinə geniş imkan yaratmışdır. Hazırda kənd təsərrüfatının inkişaf səviyyəsinə görə Lənkəran iqtisadi rayonu Respublikanın bir sıra iqtisadi rayonlarından irəlidədir. Belə ki, Azərbaycan Respublikasında istehsal olunan

tərəvəzin 56%-i, sitrus bitkilərinin hamısı onun payına düşürdü.

Başqa iqtisadi rayonlarda olduğu kimi, burada da kənd-təsərrüfatı məhsulları istehsalının əsasını torpaq fondu və onlardan istifadə edilməsi təşkil edir. Rayonun fiziki-coğrafi şəraiti, başlıca olaraq relyefi torpaq fondunun quruluşuna və ondan istifadə edilməsinə böyük təsir edir.

Məhz buna görə respublikanın bir çox rayonlarından fərqli olaraq bu iqtisadi rayonun torpaqlarının az hissəsindən kənd təsərrüfatı istehsalında istifadə edilir. Belə ki, rayonun ümumi torpaqlarının 32%-i kənd təsərrüfatına yararlıdır ki, bunların da çox hissəsini otlaqlar, örüşlər və biçənəklər təşkil edir. Ayrı-ayrı inzibati rayonlar üzrə bunların ümumi torpaqlarda xüsusi çəkisi 19-24 %-dən (müvafiq olaraq Lənkəran, Astara rayonları) 48-67%-ə qədər (Masallı, Cəlilabad rayonları) dəyişir. Rütubətli subtropik zonada yerləşən iqtisadi rayonun ərazisinə (Cəlilabad inzibati rayonu müstəsna olmaqla) bol yağıntı düşür ki, bu da əkinçiliyin dəmyə şəraitində inkişaf etdirilməsinə əlverişli imkanlar yaradır. Belə ki, kənd təsərrüfatına yararlı torpaqların 86,8%-i dəmyə zonada, 13,4%-i suvarma zonasında yerləşir. Lakin suvarma əkinçiliyi əldə edilən kənd təsərrüfatı məhsullarının mühüm hissəsini verir. Yardımlı və Lerik inzibati rayonlarında orta hesabla bütün əkin sahəsinin 1%-i (tütün əkini), Lənkəran və Astara inzibati rayonlarında isə müvafiq olaraq 15%-18%-i suvarılır. İqtisadi rayonda olan üzüm bağlarının 17%-i (o cümlədən Lənkəran inzibati rayonunda 24%-i, Cəlilabad inzibati rayonunda 21%-i), çay plantasiyalarının 39%-i suvarılır. Torpaq fondunun azlığı burada kənd təsərrüfatı bitkilərinin əkin sahəsini genişləndirmək imkanlarını məhdudlaşdırır. Belə ki, 9,4 min hektar dincə qoyulmuş torpaqların (bu, kənd-təsərrüfatına yararlı torpaqların 9,6%-ni təşkil edir) 71%-i quraqlıq zonada yerləşən Cəlilabad, 22%-i dağlıq zonada yerləşən Yardımlı inzibati rayonunun payına düşür.

Cəlilabad inzibati rayonunda yeni torpaq sahələrinin mənimsənilməsi əkin və otlaq sahələrindən səmərəli istifadə edilməsi, su təsərrüfatının inkişafı və suvarmanın genişləndirilməsi ilə əlaqədardır.

İqtisadi rayonun kənd təsərrüfatında əsas yeri əkinçilik tutur. Ümumi məhsul istehsalının 84%-i əkinçiliyin payına düşür. 1990-cı ilə qədər iqtisadi rayonun əkinçiliyinin əsas sahəsi olan tərəvəzçilikdən əldə edilən gəlir bütün kənd təsərrüfatı bitkilərindən alınan gəlirin yarısını verirdi. Lənkəran-Astara iqtisadi rayonu vaxtilə SSRİ-nin faraş tərəvəz yetişdirilməsinin əsas rayonlarından biri idi. Bu rayon il boyu tərəvəz istehsal edirdi. Qeyd etmək lazımdır ki, rayonda yetişdirilən tərəvəz yüksək keyfiyyətli olmaqla yanaşı, başqa rayonlarda istehsal olunan tərəvəzdən çox ucuz başa gəlirdi.

Kənd təsərrüfatının əsas sahələrindən biri də üzümçülükdür. Respublika üzrə kənd-təsərrüfatından alınan gəlirin (1990-cı ilə qədər) 15%-dən çoxu onun payına düşürdü. İqtisadi rayonda üzümçülük-şərabçılıq üzrə iri aqrar-sənaye kompleksləri fəaliyyət göstərirdi. Respublikada vaxtilə ən iri üzümçülük rayonu olan Cəlilabad rayonu Lənkəran-Astara iqtisadi rayonundadır.

Lənkəran və Lerik inzibati rayonlarında da üzümçülüyün inkişafı üçün əlverişli şərait vardır.

Lənkəran-Astara iqtisadi rayonu yaşıl çay yarpağı istehsalına görə respublikada ən başlıca rayondur. Respublikada istehsal olunan yaşıl çay yarpağının 98%-i onun payına düşür. Azərbaycan çayı özünün yüksək keyfiyyətinə görə fərqlənir. İqtisadi rayonda çayla yanaşı müxtəlif sitrus bitkiləri (limon, naringi, feyxoa,tunq, dəfnə və s.) becərilir. Taxılçılıq, tütünçülük, meyvəçilik yerli əhəmiyyət daşıyır. İqtisadi rayonda tərəvəz əkin sahəsinin azaldılması hesabına burada qədim təsərrüfat sahəsi olan çəltikçiliyin bərpasına və inkişafına başlanmışdır.

İqtisadi rayonun çoxsahəli kənd-təsərrüfanıda heyvandarlıq mühüm yer tutur. Respublikada istehsal olunan heyvandarlıq məhsullarının 7,7%-i (1990-cı il) bu rayonun payına düşürdü. Heyvandarlıq südlük-ətlik istiqamətində ixtisaslaşmışdır. Bütün inzibati rayonlarda qoyunçuluq, quşçuluq, dağ rayonlarında arıçılıq inkişaf etmişdir.

Lənkəran-Astara iqtisadi rayonunda heyvandarlığın özəlləşdirilməsi ilə əlaqədar bu sahə daha sürətlə inkişaf etdirilir. Bundan əlavə iqtisadi rayonda heyvandarlığın inkişafı üçün əlverişli

təbii və iqtisadi imkanlar vardır. Burada olan 83 min hektar otlaq, 19 min hektar biçənək, dənli və paxlalı bitkilərin 25 min hektara yaxın əkin sahəsi bu imkanların əsasını təşkil edir, Ərazinin mülayim iqlimə malik qışı il ərzində yem bitkilərindən iki dəfə məhsul götürülməsinə imkan verir ki, bu da heyvandarlığın möhkəm yem bazasının yaradılmasında əsas şərtlərdən biridir.

Lənkəran-Astara iqtisadi rayonunda aqrar islahatlarının aparılması, fermer təsərrüfatının yaradılması və bir sıra tədbirlərin həyata keçirilməsi ilə əlaqədar rayonun kənd təsərrüfatının yüksək inkişafı təmin olunacaqdır.

İqtisadi rayonun təsərrüfatının inkişaf etdirilməsində və rayonlararası iqtisadi əlaqələrin yaradılmasında nəqliyyatın böyük əhəmiyyəti vardır. Bakı-Astara dəmir yol xətti rayonun ərazisini meridian istiqamətində kəsir. Dəmir yoluna paralel olaraq Bakı-Astara avtomobil yolu salınmışdır. İqtisadi rayondan göndərilən yüklərin 75%-ni kənd təsərrüfatı məhsulları təşkil edir. İqtisadi rayona başqa yerlərdən gətirilən yüklərin 70%-i mineral tikinti materiallarının, neft məhsullarının, kübrə, maşın və avadanlıqların, meşə materiallarının payına düşür. Avtomobil nəqliyyatı vasitəsilə İran İslam Respublikası ilə sıx iqtisadi əlaqə saxlanılır.



## ŞƏKİ – ZAQATALA İQTİSADİ RAYONU.

**Şəki şəhəri, Şəki, Oğuz, Qəbələ, Qax, Zaqatala, Balakən rayonları**

**Sahəsi 8797 kv.km.**

**Əhalisi 533 min nəfərə (2000-ci il məlumatı)**

İqtisadi rayon Azərbaycan Respublikasının şimal-qərb hissəsində yerləşir. O, respublika ərazisinin 10,2%-ni, əhalisinin 6,7%-ni təşkil edir.

Şəki-Zaqatala iqtisadi rayonu respublikanın ərazi-əmək bölgüsündə mühüm rol oynayır. Rayonun müxtəlif təbii şəraiti və təbii sərvətləri müvafiq istehsal sahələrinin ixtisaslaşmasına, yerləşməsinə böyük təsir göstərir. Gürcüstan Respublikası ilə olan sərhəd boyunca axan Qanıx çayından başlamış Böyük Qafqaz sıra dağlarımn suayrıcı hissəsinə qədər davam edən ensiz sahədə relyef 100m-dən 4466 m-ə (Bazarduzu zirvəsi) qədər yüksəlir. Rayonun təbii şəraitinin, xüsusilə səth quruluşunun mürəkkəbliyi ərazidə müxtəlif təmayüllü xalq təsərrüfatı sahələrinin inkişafına, əhalinin qeyri-bərabər yerləşməsinə səbəb olmuşduş. Cənub yayla hissəsinin məhsuldar qış otlaqları, Qanıx-Əyriçay vadisinin intensiv suvarma əkinçiliyi zonasının müxtəlif təsərrüfat sahələri, sıx əhalisi olan yaşayış məntəqələri dağlıq zonaya doğru seyrəlir, daimi sakinləri olmayan yay otlaqları ilə əvəz olunur.

Kiçik Qafqaz sıra dağlarından fərqli olaraq Şəki-Zaqatala iqtisadi rayonu ərazisində yerləşən Böyük Qafqaz sıra dağlarının cənub ətəklərindən demək olar ki, əkinçilik üçün istifadə edilmir. İntensiv kənd təsərrüfatına və aqrar-sənaye istehsalına malik olan Şəki-Zaqatala iqtisadi rayonu respublikanın ictimai əmək bölgüsündə tütünçülük, baramaçılıq, üzümçülük, taxılçılıq, meyvəçilik, eləcə də ət-süd, ət-yun təmayüllü qoyunçuluqda ixtisaslaşmışdır.

Respublikada ümumi əkin sahəsinin 12%-ni, (o cümlədən taxılın 17%-nə), fındıq bağlarının 90%-nə malik olan bu iqtisadi rayon Respublika üzrə istehsal olunan tütünün 75%-ni, fındığın 90%-ni, qızıl gül yağının hamısını, taxılın 17%-ni, yaşıl çay yarpağının 1,6%-ni, baramanın 32%-ni, ətin 9%-ni verir.

İqtisadi rayonun təbii şəraiti və təbii sərvətləri rayon ərazisində bir sıra təsərrüfat sahələrinin yaranmasına və inkişafına, eləcə də əhalinin məskunlaşmasına güclü təsir göstərmişdir. İqtisadi rayonun şimal hissəsini əhatə edən orta və yüksək dağlıq zonanın təbiəti, təbii sərvətləri, bol su ehtiyatı, zəngin meşə sərvətləri, alp və subalp çəmənləri, Qanıx-Əyriçay vadisində, Acınohur yaylasında əkinçiliyin və heyvandarlığın inkişafına geniş zəmin yaradır. Dağlıq zonadakı çaylar və yeraltı sular vadidəki təsərrüfatları və yaşayış məntəqələrini su ilə təmin edir, yağıntılarla yanaşı torpaqlarda rütubət balansını tənzim edir, bitkilərin inkişafına əlverişli şərait yaradır.

Rayon ərazisinin 26%-ni örtən meşələr çox qiymətli ağac, bitki və nadir heyvan növləri ilə zəngindir. Hər il meşələrdə min tonlarla cır meyvə yetişir. Rayonun meşələri birinci dərəcəli əhəmiyyətə, yəni, torpağın, suyun, atmosferin mühafizəsi əhəmiyyətinə malik olduğundan onların qırılıb istifadə olunmasına icazə verilmir. Lakin leysan, sel və başqa təbii hadisələr nəticəsində meşələrdə yığılmış ağaclardan Zaqatala şəhərindəki meşə kombinatında istifadə edilir. Kombinatda yerli meşə materiallarından müxtəlif mebellər və avadanlıqlar hazırlanır. Dağ meşələrindəki nadir ağac və heyvan növlərini mühafizə etmək, çoxaltmaq məqsədilə Zaqatala və Balakən rayonlarının dağ meşələrinin bir hissəsi 1929-cu ildən dövlət qoruğu elan edilmişdir.

Rayon bol su ehtiyatına malikdir. Atmosfer yağıntılarının miqdarı burada qərbdən şərqə və şimaldan cənuba doğru dəyişdiyindən, kənd təsərrüfatının inkişafına və ixtisaslaşmasına xeyli təsir göstərir. Balakən və Zaqatala rayonlarında orta hesabla ildə 1000-1200 mm yağıntı düşdüyü halda, Oğuz, Qəbələ rayonlarında 750-800, Qanıx-Əyriçay vadisində, Acınohur, Tutur, Sarıca çöllərində bundan xeyli az yadış düşür. Kənd təsərrüfatının intensiv inkişaf etdirildiyi Qanıx-Əyriçay vadisində Turut, Sarıcada kənd təsərrüfatı bitkiləri, tütün, tərəvəz, taxıl, qardığalı, üzüm və meyvə bağları süni suvarma şəraitində inkişaf etdirilir.

Şəki-Zaqatala iqtisadi rayonu sıx çay şəbəkəsinə malikdir. Rayonu ərazisindəki Böyük Qafqaz sıra dağlarının cənub yamaclarından çoxlu iri və xırda çaylar (Mazım, Balakən, Katex, Tala, Qaraçay, Kürmük, Şin, Kiş) axır. Bunlar Qanıx çayına və onun sol qolu olan Əyriçaya tökülür. Yay vaxtı güclü yağan yağışlar və dağlarda sürətlə əriyən qarlar nəticəsində buradakı çaylar daşır və təsərrüfata xeyli maddi ziyan vurur. Dağ çaylarının suları bəzi sahələrdə yeraltı axınlarla axaraq bulaqlar şəklində yer səthinə çıxır.

Rayonun ərazisində geniş su hövzələri yaranmışdır. Bu hövzələr Qanıx və Əyriçay boyunca yerləşən düzənlik sahələri tutur. Bu sulardan təsərrüfat məqsədləri üçün geniş istifadə olunur.

Böyük Qafqaz sıra dağlarının suayrıcı hissəsindən düzənliyə doğru axan dağ çayları çoxlu su enerji ehtiyatına malikdir. Gələcəkdə belə çayların üstündə yerli əhəmiyyətli su-elektrik stansiyalarının tikilməsi Respublikanın elektrik enerjisi istehsalını bir qədər də artırardı. Bundan başqa su-elektrik stansiyaları axarı nizama salır, dövrü olaraq baş verən sellərin dağıdıcı gücünü zəiflədir, yaz daşqını vaxtı göllərdə, su anbarlarında toplanan suyun yazda və yayda kənd təsərrüfatı bitkilərinin suvarılmasında istifadə edilməsinə şərait yaradır.

Rayonda orta illik su sərfi onun ümumi su ehtiyatının 60%-ni təşkil edir. Ümumi su sərfinin 42%-i kənd təsərrüfatının, başlıca olaraq suvarma əkinçiliyinin payına düşür.

Müasir su təsərrüfatı balansı şəraitində rayonda xeyli su ehtiyatı qalır ki, bunlardan gələcəkdə səmərəli istifadə edilməsi suvarma əkinçiliyinin genişləndirilməsinə, yaşayış məntəqələrinin su təchizatını yaxşılaşdırmağa geniş imkanlarar açır.

Şəki-Zaqatala iqtisadi rayonunun təbii şəraitinin müxtəlifliyi ərazidə əhalinin məskunlaşmasına öz təsirini göstərmişdir. İqtisadi rayonun əhalisinin sayı 533 min nəfərdir (2000-ci il məlumatı).

Əhalinin 80%-i kənd təsərrüfatının intensiv inkişaf etdirildiyi Qanıx-Əyriçay vadisində yerləşir. Buradakı maili düzənlik, bol su mənbəyi, məhsuldar torpaqlar, əlverişli torpaq-iqlim şəraiti, bol günəş şuası, sıx əhali məskunlaşmasına səbəb olmuşdur.

Şəki-Zaqatala iqtisadi rayonunda ictimai istehsalda işləyən əmək qabiliyyətli əhalinin 60%-i maddi, 40%-i qeyri-maddi istehsalda çalışır, inzibati rayonlar üzrə maddi istehsal sahələrində işləyənlərin xüsusi çəkisi 66%-lə (Şəki şəhəri), 42% (Balakən

rayonu), qeyri-maddi istehsalda işləyənlər isə 58%-lə (Balakən rayonu), 34% (Şəki şəhəri arasında) tərəddüd edir.

İstehsala cəlb olunmuş fəhlə və qulluqçuların orta hesabla 23%-i sənayedə çalışır. Sənayenin müxtəlif sahələrində çalışan fəhlə və qulluqçuların xüsusi çəkisinə görə Şəki-Zaqatala iqtisadi rayonu respublikanın iqtisadi rayonları arasında dördüncü yerdə durur.

Hər hansı rayonda xalq təsərrüfatının inkişafında, əhalinin ictimai faydalı əməklə məşğul olmasında, onun maddi və mədəni həyat səviyyəsinin yaxşılaşdırılmasında təbii sərvətlərdən, əmək ehtiyatlarından, maddi-texniki imkanlardan səmərəli istifadə edilməsinin böyük rolu vardır.

İqtisadi rayonda sənaye əhəmiyyətli bir çox faydalı qazıntı sərvətləri vardır. Dağlıq və dağətəyi zonada, başlıca olaraq çay konuslarında toplanmış daşdan, çınqıldan, əhəngdən, gil və qumdan qədimdən bəri yerli əhali tərəfindən fərdi və ictimai binaların tikilməsində, yolların çəkilməsində, bəndlərin inşasında istifadə edilir. Hələ XX əsrin əvvəllərində Şəkidə saxsı borulardan su kəmərlərinin çəkilməsi, kiramit, bişmiş kərpic istehsalı, ərazidə olan tikinti, gil ehtiyatında geniş istifadə edilməsinin nəticəsi idi.

Qeyd etmək lazımdır ki, hazırda şəhərlərin, kənd yaşayış məntəqələrinin, fərdi, ictimai binaların, sənaye əhəmiyyətli tikililərin, şəhərdaxili su kəmərlərinin çəkilişinə olan tələbatın xeyli artdığı dövrdə mövcud yerli tikinti materialları ehtiyatından gələcəkdə geniş istifadə edilməsi mühüm məsələ kimi qarşıda durur.

Rayonun ictimai və fərdi təsərrüfatının mineral tikinti materiallarına olan tələbatını nəzərə alaraq, bunu yerli istehsal hesabına ödəmək, həmin məqsədlə yerli xammaldan, hazır bloklar, dəmir-beton, quraşdırma məmulatları, beton dirəklər hazırlayan tikinti müəssisələrinin istehsal gücünü bərpa etmək və yeni müəssisələr tikmək qarşıda durur.

Son illərdə iqtsiadi rayonda sənaye əhəmiyyətli polimetal yataqları aşkar edilmişdir.

Rayonun ərazisində yerləşən Filizçay polimetal yatağı ölkədə ən böyük yataqlardan sayılır.



İqtisadi rayonun bütün gələcək sənaye inkişafı həmin yatağın istismarı ilə bağlıdır. Bunlardan gələcəkdə səmərəli istifadə etməklə respublikada əlvan metallurgiya, kimya sənayesi məhsullarının, bununla əlaqədar müvafiq istehsal sahələrini genişləndirmək mümkündür.

Filizçay yatağının istifadəyə verilməsi istər respublikanın, istərsə də Cənubi Qafqazın əlvan metallurgiya və kimya xammalına, xüsusilə mineral kübrəyə olan tələbatının ödənilməsində mühüm rol oynaya bilər.

Şəki-Zaqatala iqtisadi rayonunun sənayesi əsas etibarilə kənd təsərrüfatı məhsullarını emal edən yüngül və yeyinti sənaye sahələri üzrə ixtisaslaşmışdır. Sənaye istehsalı işçilərinin 80%-nə, əsas sənaye istehsal fondlarının 75%-nə malik olan bu sahələr iqtisadi rayonda əldə edilən ümumi sənaye məhsulunun 96%-ni verir.

İqtisadi rayonun sənaye müəssisələri 2000-ci ildə 78 mlrd. manat həcmində məhsul istehsal etmişdir.

1990-cı ilə qədər yüngül sənaye istehsalının əsasını təşkil edən ipək sənayesi (Şəki ipək kombinatı) respublika ipək sənaye məhsulunun yarısından çoxunu, rayonun daxili müvafiq sənaye məhsulunun 90%-ni verirdi. Şəki ipək kombinatı yerli xammala yanaşı, başqa ölkələrdən, başlıca olaraq Orta Asiyadan da barama alırdı. İpəkəyirmə, trikotac, toxuculuq, rəngləmə, naxışlama proseslərinə malik olmuş Şəki ipək kombinatının bərpası ilk növbədə xammal bazasının yenidən yaradılmasını və möhkəmləndirilməsini tələb edir.

İqtisadi rayonun qədimdən ixtisaslaşmış ipək sənayesinin məhsul istehsalı son 10 ildə demək olar ki, öz fəaliyyətini dayandırmışdı. Bu müddət ərzində xam ipək istehsalı, ipək parça istehsalı və s. məhsulların istehsalı yox dərəcəsinə enmişdir. Yüngül sənaye istehsalının əsasını təşkil edən göstərilən məhsulların istehsalının tam azalması hər şeydən əvvəl istehsal əlaqələrinin pozulmasından, xammal bazasının zəifliyindən asılı olmuşdur. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, 1950-ci ilə qədər Şəki şəhərinin cənubunda, Əyriçay və Kişçay vadisində geniş sahə tutan tut plantasiyalarının sahəsi son dərəcə azalmışdır. Nəticədə

Şəki və onun ətrafındakı rayonlar ipək kombinatının tələb olunan xammalının cüzi bir hissəsini belə ödəmir.

Kombinatın xammala olan tələbatının yerli təsərrüfatlar hesabına ödənilməsi üçün Şəki-Zaqatala iqtisadi rayonunda mövcud olan geniş imkanlardan istifadə edilsə, ipək kombinatının məhsul istehsalını bərpa etmək olar.

Hələ XX əsrin əvvəllərində əhali üçün yaraşıqlı, zərif paltarlar, ayaqqabı, papaq, yapıncı, çarıq, qadın və kişi arxalığı, kələğayı istehsal edən Şəki sənətkarlarının emalatxanaları və bunlarda işləyən sənətkarlar son dərəcə azalmış, çoxları hətaydan getmişlər. Belə bir şəraitdə aradan çıxıb getməkdə olan, yüz illərlə formalaşmış, cilalanmış Şəki sənətkarlarının yaradıcı əməyinin bərpası, onların nadir, cəmiyyət üçün həmişə lazım peşələrin nəsildən-nəsilə keçməsi yaddan çıxmamalıdır. Bununla əlaqədar respublikanın bir sıra başqa rayonlarından fərqli olaraq Şəkidə olan peşə və orta ixtisas məktəblərində Şəki sənətkarlarının özlərinə məxsus olan bir sıra mühüm sənət nümunələri gənclərə aşılamaq faydalı olardı. Bunun üçün tədris proqramlarında müəyyən əlavələr və dəyişikliklər edilməlidir.

Yeyinti sənayenin əsasını tütün, heyvandarlıq və bağçılıq məhsullarının emalı təşkil edir.

Yerli xammal mənbəyi əsasında işləyən meyvə-tərəvəz məhsulları emalı, konserv sənayesi respublikada istehsal olunan müvafiq məhsulların xeyli hissəsini verir. Zaqatala və Nicdəki fındıqtəmizləmə zavodları, Şəki şərab zavodu, Zaqatala çay fabriki, Balakən və Qax rayonlarının konserv zavodları, Balakən tütün fabriki, qarışıq yem istehsalı zavodu, ət kombinatı yerli xammal bazasında işləyir.

Yağ-pendir, çörəkbişirmə, spirtsiz içkilər, şərq şirniyyatı məhsulları hazırlayan müəssisələr də rayonda fəaliyyət göstərir.

Şərq şirniyyat növlərinin istehsalına görə Şəki ölkədə özünəməxsus mühüm yer tutur. Burada istehsal edilən «Şəki halvası», «Şəki paxlavası», noğul, şəkər-qəndi, kəllə qənd və s. özünün yüksək keyfiyyətinə görə seçilir və həmçinin belə dadlı məhsullara başqa rayonlarda az rast gəlinir. Lakin Şəki rayonunda belə məhsullar hələlik əsasən yerli tələbatı ödəmək üçün istehsal



dilir. Şəki şərq şirniyyat məhsulları istehsalını genişləndirmək, əhalinin bu məhsullara olan tələbatını ödəmək üçün ölkənin əlaqədar təşkilatları qarşısında məsələ qaldırılmalıdır.

Sənaye müəssisələrinin ərazi üzrə yerləşməsində xeyli fərq vardır. İqtisadi rayon ərazisinin 27%-nə, əhalisinin isə 30%-nə malik olan Şəki inzibati rayonu ümumi sənaye məhsullarının demək olar ki, yarısını verir.

Müvafiq məhsulların 30%-ni Zaqatala, qalan 23%-ni Balakən, Qax, Oğuz və Qəbələ inzibati rayonları istehsal edir.

Yerli xammal, ucuz elektrik enerjisi, su, əmək ehtiyatlarının olması rayonun əlverişli nəqliyyat-coğrafi mövqeyi burada yeni sənaye sahələrinin yaradılmasına yaxşı zəmin yaradır.

Gələcəkdə iqtisadi rayonun sosial-iqtisadi inkişafından ötrü, başqa tədbirlərlə yanaşı, ixtisaslaşmanın dərinləşdirilməsi, təmərküzləşdirmənin sürətləndirilməsi, müvəqqəti fəaliyyətini dayandırmış sənaye müəssisələrinin bərpası və yeni istehsal sahələrinin yaradılması tələb olunur. Bununla əlaqədar yerli xammal əsasında bir sıra yeyinti və yüngül sənaye müəssisələri tikmək məqsədə uyğundur. Belə ki, toxuculuq, ayaqqabı, tikiş fabriki, alt trikotac fabriki, çörək zavodları, tütün fermentasiya zavodu, süd-pendir zavodları, meyvə-tərəvəz konserv zavodu, quşçuluq fabriki, süd kombinatı və s. tikilməsi üçün rayonda çox əlverişli imkanlar vardır.

Bundan əlavə iqtisadi rayonun ərazisində yerləşən çox zəngin ehtiyata malik olan Filizçay polimetal yataqlarının istismarına başlamaq günün ən vacib məsələlərindəndir.

İqtisadi rayonun yeraltı sərvətləri, çaylarının enerji qüvvəsi burada yüngül və yeyinti sənayenin genişləndirilməsinə, eləcə də maşınqayırma, kimya, metallurgiya, elektrotexnika, meşə sənayesinin inkişaf etdirilməsinə geniş imkanlar yaradır.

Əhali üçün yeni istirahət və sağlamlıq müəssisələri tikmək məqsədəuyğundur.

Şəki-Zaqatala iqtisadi rayonu ölkənin iri kənd təsərrüfatı rayonlarından biridir. İqtisadi rayonda istehsal edilən kənd təsərrüfatı məhsulları əmtəəlik olmaqla ölkənin ictimai əmək bölgüsündə iştirak edir.

Rayonda olan ümumi torpaq sahələrinin 45%-i kənd təsərrüfatına yararlıdır.

Kənd təsərrüfatına yararlı torpaqların 90%-dən çoxu Qanıx-Əyriçay vadisində, Acınohur yaylasında və dağətəyi zonada yerləşir. Yararlı torpaqların 35%-dən əkin üçün, 54%-dən yay və qış otlaqları kimi istifadə edilir. Burada kənd təsərrüfatı bitkilərinin 40%-i süni suvarma tətbiqi şəraitində inkişaf etdirilir. Belə şəraitdə inkişaf etdirilən tütün, çay, bostan, tərəvəz bitkiləri, üzüm və meyvə bağları təsərrüfatın çox gəlirli və yerli şəraitə uyğunlaşmış sahələridir.

Gələcəkdə yararlı torpaqların genişləndirilməsi üçün Şəki-Zaqatala iqtisadi rayonu məhdud imkanlara malik olduğundan intensiv istehsala keçmək qarşıda durur.

İqtisadi rayonda kənd təsərrüfatından əldə edilən gəlirin demək olar ki, 70%-i əkinçiliyin, 30%-i heyvandarlığın payına düşür. İqtisadi rayonun kənd təsərrüfatı 2000-ci ildə 258,4 mlrd. manat həcmində məhsul istehsal etmişdir. Kənd təsərrüfatından əldə edilən gəlirin yarısından çoxunu verən tütünçülük və fındıq istehsalı rayonun əsas ixtisaslaşmış sahəsidir. Bununla yanaşı, taxılçılıq (buğda, qarğıdalı), üzümçülük və mühüm təsərrüfat sahəsi olmaqla rayonun iqtisadiyyatında əsas yer tutur. Ərazinin qərb hissəsində – Zaqatala və Balakən rayonlarında çayçılıq və qızılgüldən ətir (efir yağı) alan ixtisaslaşmış təsərrüfatlar fəaliyyət göstərir.

Respublikada iri heyvandarlıq komplekslərinin inkişafında Şəki-Zaqatala iqtisadi rayonu mühüm yer tutur. Heyvandarlıq təsərrüfatının özəlləşdirilməsi ilə əlaqədar yaranan fərdi təsərrüfat sahələri öz müsbət təsirini göstərməkdədir. Rayondakı geniş və məhsuldar Acınohur qışlaqları, dağlıq zona və alp çəmənlikləri burada heyvandarlığın, xüsusilə qoyunçuluğun inkişafına əlverişli şərait yaradır. Hələ 1980-ci illərdə iqtisadi rayonda heyvandarlıq üzrə iri aqrar-sənaye kompleksi yaradılmış, qaragül qoyunçuluğu sovxozu istifadəyə verilmişdir. Burada camışçılıq, atçılıq da inkişaf etdirilmişdir. Şəki-Zaqatala iqtisadi rayonu fərdi təsərrüfatlarda heyvandarlığın inkişaf etdirilməsi üçün əlverişli təbii şəraitə və iqtisadi imkanlara malikdir. Bu imkanlardan səmərəli istifadə edilməsi hər şeydən əvvəl Acınohur qışlaqlarında, yaylaqlarda təbii yem ehtiyatlarının artırılmasını təmin etməkdən, təbii yem ehtiyatına uyğun yaylaq və qışlaqlarda mal-qaranın otarılmasını nizama salmaqdan, şirəli yaşıl yem ehtiyatını artırmaqdan, taxılçılıqdan əldə edilən qaba yem tədarükünün səmərəli təşkilindən ibarətdir.



Qeyd etmək lazımdır ki, iqtisadi rayonun kənd təsərrüfatının sürətli inkişafı burada torpaq islahatlarının başa çatdırılmasından, fermer təsərrüfatlarının təşkilindən, orta və xırda sahibkarlığın inkişafından asılıdır.

Yevlax-Balakən dəmir yolu rayonun iqtisadiyyatının inkişafına, təbii sərvətlərinin mənimsənilməsinə, rayondaxili və rayonlararası iqtisadi əlaqələrin təkmilləşdirilməsinə geniş imkanlar açır.

İqtisadi rayonun ərazisinin dağlıq və dağətəyi olması ilə əlaqədar burada avtomobil nəqliyyatının xüsusi əhəmiyyəti vardır. Bu nəqliyyat vasitəsilə qısa məsafələrə müxtəlif yüklər və sərnişin daşınır.

## ARAN İQTİSADİ RAYONU

**Ağcabədi, Bərdə, Beyləqan, Yevlax, Ağdaş, Göyçay, Ucar, Kürdəmir, Zərdab, İmişli, Sabirabad, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar, Saatlı rayonları, Mingəçevir və Əli-Bayramlı şəhərləri.**

**Sahəsi 21,1 min kv. km**

**Əhalisi 1520,3 min nəfər**

Aran iqtisadi rayonu Azərbaycan Respublikasının ictimai ərazi əmək bölgüsündə mühüm yerlərdən birini tutur. Rayon respublikanın əsas aqrar-sənaye rayonudur. Onun iqtisadiyyatında çoxsahəli sənaye ilə yanaşı, pambıqçılıq, üzümçülük, taxılçılıq, tərəvəz və bostançılıq, yem bitkiləri, heyvandarlıq məhsulları istehsalı əsas yer tutur.

Aran iqtisadi rayonu Kür-Araz ovalığında əlverişli təbii şəraitə, təbii sərvətlərə malik geniş ərazidə yerləşir. Yayı quraq keçən, mülayim-isti yarımsəhra və quru çöl iqlim zonasında yerləşən Aran iqtisadi rayonu başdan başa suvarma əkinçiliyi təsərrüfatına malikdir. Burada iqlimin quraq keçməsi, yağıntıların, səth sularının məhdudluğu şəraitində havanın orta illik temperaturu 13-14 dərəcə, kənd təsərrüfatı bitkilərinin vegetasiya dövründə isə 20 dərəcədən yuxarı olur. İlin isti vaxtı intensiv buxarlanma hesabına torpaqdan çıxan rütubət onun gəlir balansından çox olur. Torpaqda rütubət çatışmazlığı burada süni suvarma şəraitində ödənilir. İllik yağıntı 200-300 mm arasında dəyişir. Yer səthinə yaxında yerləşən yeraltı sular rayonun su ehtiyatını tamamlayır.

Aran iqtisadi rayonu respublikanın ən intensiv suvarma rayonudur. Kür, Araz çayları, Baş Mil, Baş Muğan, Əzizbəyov adına, Yuxarı Şirvan, Yuxarı Qarabağ kanalları, kollektorlar rayonun əsas suvarma mənbəyidir. Rayon müxtəlif torpaq örtüyünə malikdir. Burada boz-çəmən, şabalıdı, karbonatlı alluvial-çəmən, şoran və şorakət, boz-qonur torpaqlar yayılmışdır.

Aran iqtisadi rayonu bir sıra yeraltı sərvətlərə malikdir. Burada neft, qaz, yod-brom, kimya xammalı, tikinti materialları, termal mineral bulaqları və s. vardır.

Bir sıra iqtisadi rayonlardan fərqli olaraq, ərazidə əhali bərabər yerləşir və şəhər əhalisinin xüsusi çəkisi bir qədər yüksəkdir. Burada içtimai istehsala cəlb olunan əmək qabiliyyəti əhalinin 70%-i maddi istehsal, 30%-i isə qeyri-maddi istehsal sahələrində çalışır. Əmək qabiliyyətli əhalinin xeyli hissəsi şəxsi və yardımçı təsərrüfatlarında məşğul olur. Son illərdə kiçik sahibkarlığın və fermer təsərrüfatlarının inkişaf etdirilməsilə əlaqədar əmək ehtiyatlarının müəyyən hissəsi işə cəlb olunmuşdur. Lakin bununla belə, iqtisadi rayonda əmək qabiliyyətli əhalinin bir qisminin hələlik ictimai istehsaldan kənarda qalması bir daha onu göstərir ki, sənaye və əhaliyə xidmət müəssisələri sürətlə artmaqda olan əmək ehtiyatlarının ictimai istehsala cəlb edilməsi tələbatına cavab vermir. Müxtəlif təbii sərvətlərə, bol işçi qüvvəsinə, ixtisaslı kadrlara, istehsal prosesinin mexanikləşdirilməsi üçün geniş imkanlara malik olan bu rayon kənd təsərrüfatının intensivləşdirilməsini, yüngül, yeyinti və tikinti sənayesinin, əhaliyə xidmət müəssisələrinin genişləndirilməsini, fəaliyyətini dayandıran müəssisələrin bərpasını, yeni istehsal sahələrinin yaradılmasını tələb edir.

Xalq təsərrüfatının bu yolla inkişafı asudə işçi qüvvəsinin ictimai istehsala cəlb edilməsi üçün geniş imkanlar açır.

*Sənaye.* Aran iqtisadi raynu respublikanın iqtisadiyyatında inkişaf etmiş çoxsahəli sənaye rayonu kimi tanınmışdır. İqtisadi raynun sənaye strukturunda neftçıxarma, kimya və neft-kimya, maşınqayırma, elektrik enerji istehsalı, tikinti materialları, yüngül və yeyinti sənaye əsas yer tutur.

Rayonda yerli neft və qaz yataqları əsasında «Şirvanneft», «Salyanneft», «Neftçalaneft» neftçıxarma müəssisələri fəaliyyət göstərir. Burada il ərzində (1990-ci il) hasil edilən 2 mln. ton neft, neft kəməri vasitəsilə Bakının neft emalı zavodlarına göndərilirdi. Qeyd etmək lazımdır ki, xarici neft şirkətləri iqtisadi rayonun neftçıxarma sənayesinə böyük maraq göstərirlər.

Neft və qazçıxarma, eləcə də elektrik enerji istehsalı iqtisadi rayonun yanacaq enerji balansının əsasını təşkil edir. Respublikanın neft və təbii qaz ehtiyatının müəyyən hissəsi iqtisadi rayonun payına

dayır. Neft sənayesinin inkişafında Qırovdağ, Mişovdağ, Kürsəngi, Qarabağlı, Neftçala və Xıllı neft yataqlarının xüsusi əhəmiyyəti vardır.

Aran iqtisadi rayonu Abşeron rayonu ilə yanaşı respublikanın elektrik stansiyalarından Mingəçevir su elektrik stansiyasının, yeni Azərbaycan DRES-nin, Əli-Bayramlı açıq tipli rayon DRES-in rayonun ərazisində yerləşməsi buna əyani sübutdur.

Kimya və neft-kimyası iqtisadi rayonun perspektiv sənaye sahələrindəndir. Rayonun kimya və neft-kimyası sənayesi Neftçala və Xıllı yod-brom yataqları əsasında işləyən Neftçala yod-brom zavodu və Abşeron iqtisadi rayonundan gətirilən xammal əsasında fəaliyyət göstərən Salyan plastik kütlə emalı zavodları ilə təmsil olunmuşdur. Sahə yod-brom istehsalı ilə yanaşı, əhalinin təsərrüfat-məişət ehtiyacları üçün müxtəlif məhsullar istehsal edir. Rayonun yod-brom ehtiyatı Yeni Neftçala zavodunda texniki yod və brom istehsalının xeyli artırılmasına imkan verir.

Neftçala yod-brom zavodunun istehsal gücünün artırılması məhsul buraxılışını yüksəltmək və yerli əmək ehtiyatlarından daha səmərəli istifadə etmək imkanları ilə yanaşı, sahələrin ixtisaslaşmasının dərinləşməsini təmin etməyə imkan verir.

Lakin hazırda qeyd olunan müəssisələrin istehsal gücü xeyli azalmışdır.

İqtisadi rayonun sənayesinin strukturunda maşınqayırma və metal emalı əsas yer tutur.

Mingəçevir şəhərində yerləşən sahənin iri müəssisələrindən olan «Azərkabel», «Azərelektroizolit» zavodlarının istehsal etdiyi izolyasiyalı alüminium və mis məftillər, müxtəlif kabellər, rezin örtüklü kabel və məftillər ölkəmizin bir çox rayonlarına, eləcə də xarici ölkələrə göndərilir.

Rayonun maşınqayırma müəssisələri həmçinin yol nəqliyyat, tikinti və kənd təsərrüfatı maşınları və avadanlıqları istehsal edir. Bundan əlavə keçən əsrin 80-ci illərinin əvvəllərində rayon ərazisində elektrotexnika (Biləsuvar), konsentrat halında yem hazırlamaq üçün avadanlıq zavodu (Bərdə), maşınqayırma zavodu (Əli-Bayramlı) tikilib istifadəyə verilmişdir. İnzibati rayon mərkəzlərində (Bərdə, Göyçay, Yevlax, Salyan və s.) qaynaq



avadanlığı istehsalı, relslərin qaynaq edilməsi, avtomobil və kənd təsərrüfatı texnikasının təmiri müəssisələri vardır.

Yerli xammal, ucuz elektrik enerjisi, su, əmək ehtiyatlarının olması, rayonun əlverişli nəqliyyat-coğrafi mövqeyi yüngül sənayenin inkişafına səbəb olmuşdur.

İqtisadi rayonda istehsal olunan ümumi sənaye məhsulunun xeyli hissəsini verən yüngül sənayenin əsasını pambıq lifi, pambıq parça, yunun emalı, tikiş, pambıq təmizləmə müəssisələri təşkil edir.

Müharibədən sonrakı illərdə Mingəçevir şəhərində iri pambıq parça kombinatının tikilməsi ilə əlaqədar olaraq iqtisadi rayon respublikanın mühüm toxuculuq mərkəzlərindən birinə çevrilmişdir. Yevlaxda yun emalı fabrikinin işə salınması yüngül sənayenin daha da inkişaf etməsinə səbəb olmuşdur.

Bərdə, Yevlax, Əli-Bayramlı, Salyan, Sabirabad, Ləki və Ucar pambıqtəmizləmə zavodları iqtisadi rayonun iri ixtisaslaşmış yüngül sənaye müəssisələrindəndir. Bu zavodlar rayon üzrə istehsal edilən yüngül sənaye məhsulunun çox hissəsini verir. Xam pambıqdan alınan mahlıcın əksər hissəsi ölkədən kənara göndərilir. Bundan əlavə iqtisadi rayonda pambıqəyirmə fabriki, xalçaçılıq emalatxanaları, tikiş fabrikləri, istehsal kombinatları, əhaliyə məişət xidməti kombinatları və s. fəaliyyət göstərir. Yüngül sənaye müəssisələrinin özəlləşdirilməsi sahənin sürətli inkişafına səbəb olacaqdır.

Yerli xammalı emal edən yeyinti sənayesi iqtisadi rayonun əsas sənaye sahələrindən biridir. Rayonda respublika əhəmiyyətli bir sıra yeyinti sənaye müəssisələri yerləşir. Bunlardan Əli-Bayramlı şəhərində yağ ekstrakt zavodunu, Bankə qəsəbəsindəki balıq kombinatını, Qazıməmməd şəhərində yerləşən balıq yetişdirmə zavodunu, Yevlax şəhərindəki tütün-fermentasiya zavodunu, rayonun yerli xammalı əsasında mövsüm ərzində on min tonlarla üzüm emal edən çoxsaylı ilkin şərab zavodlarını, Ucar meyvə-tərəvəz konserv, Göyçay nar şərabı istehsal edən konserv zavodlarını və s. qeyd etmək olar.

İqtisadi rayonun şəhərlərində və inzibati rayon mərkəzlərində yağ, süd, ət emalı müəssisələri, unüyütmə və çörəkbişirmə, şərq şirniyyatı, heyvandarlığın inkişafı üçün yem istehsalı və s.

müəssisələri vardır. İqtisadi rayonda yeyinti sənaye müəssisələrinin özəlləşdirilməsi proqramı həyata keçirilir.

İqtisadi rayon daxilində gələcəkdə sənaye və mülki tikintilərin genişlənməsi ilə əlaqədar olaraq tikinti materiallarına tələbat artmaqdadır. Tikinti materialları sənayesi əsasən Əli-Bayramlı şəhərində yerləşən dəmir-beton məmulatları və drenac boruları zavodları, Sabirabad şəhərindəki sənaye kombinatı müəssisələri, yığma dəmir-beton məmulatları və konstruksiyalar, drenac boruları və təzyiqsiz borular, kərpic, şifer və s. məhsullar istehsal edir. Bərdədə su təsərrüfatı tikintisi üçün iri istehsal bazası, Mingəçevirdə ağac emalı zavodu, dəmir-beton məmulatı zavodu, iri panelli evtikmə kombinatı, çınqıl-qum zavodları, Bərdədə kərpic zavodu sahənin iri müəssisələrindəndir.

***Kənd təsərrüfatı.*** Aran iqtisadi rayonu respublikanın ən iri kənd təsərrüfatı rayonudur. Rayonda istehsal edilən kənd təsərrüfatı məhsulları əmtəəlik olmaqla respublikanın ictimai ərazi əmək bölgüsündə iştirak edir.

İqtisadi rayonda olan torpaqların 65%-i kənd təsərrüfatına yararlıdır ki, bunun da yarıdan çoxu suvarılır. Torpaq fondu kənd təsərrüfatı məhsulları istehsalının, xüsusilə əkinçiliyin təbii zəminini təşkil edir. Əkinçilikdə istifadə edilən torpaqların yararlı torpaqlara olan nisbətinə görə iqtisadi rayon respublikada qabaqcıl yer tutur. Dincə qoyulmuş torpaqların məhdudluğu və xam torpaqların azlığı üzündən rayonda əkin sahələrinin genişləndirilməsi imkanları məhduddur.

İqtisadi rayonda kənd təsərrüfatı istehsalının artırılmasının başlıca mənbəyi intensiv amillərdən hərtərəfli istifadə edilməsidir.

Əsas istehsal vasitəsi olan torpaqların saflaşdırılması, təbii məhsuldarlığının bərpa edilməsi kənd təsərrüfatının müasir inkişafında çox böyük əhəmiyyət kəsb edir. Burada əkin yerlərinin şoranlaşmasına şərait yaradan səbəblər yeraltı suların torpaqların səthinə yaxınlaşması, uzun müddət davam edən intensiv suvarma şəraitində buxarlanmanın şiddətli getməsidir.

Bunlara qarşı mübarizə tədbirləri isə müntəzəm olaraq həyata keçirilməlidir.



Aran iqtisadi rayonunun kənd təsərrüfatının inkişafı süni suvarmaya əsaslanır.

Rayonda su ehtiyatı azdır. Ərazidən axan tranzit çaylar (Kür və Araz), suvarma kanalları, süni su ambarları və yeraltı sular iqtisadi rayonun suvarma mənbələrini təşkil edir. Təxmini hesablamalar göstərir ki, əkinçilikdə əldə edilən ümumi məhsul dəyərinin 7-8%-i su təsərrüfatı xərclərinin payına düşür. Bu isə külli miqdarda kapital qoyuluşu, əmək və əsas fondlar sərfi hesabına əldə edilən yerüstü və yeraltı su ehtiyatından qənaətlə, səmərəli istifadə edilməsi vəzifəsini qarşıya qoyur. Relyefi başdan-başa düzənlikdən ibarət olan iqtisadi rayonun kənd təsərrüfatının inkişafı əsasən, suvarma əkinçiliyinə əsaslanır. Onun məhsuldar torpaqları intensiv sürətdə becərilir.

İqtisadi rayon respublikanın ictimai əmək bölgüsündə pambıqçılıq, taxılçılıq, üzümçülük, tərəvəzçilik, bostançılıq, meyvəçilik, baramaçılıq, ətlik-südlük, heyvandarlığ üzrə ixtisaslaşdırılmışdır. Respublikada ən böyük pambıqçılıq təsərrüfatına malik Muğan-Salyan, Mil-Qarabağ, Şirvan zonaları Aran iqtisadi rayonunun ərazisindədir. Eyni zamanda bu zonalar respublikada istehsal olunan kənd təsərrüfatı məhsullarının həlledici hissəsini verirlər.

İqtisadi rayonda kənd təsərrüfatı məhsullarının istehsal həcminə görə Bərdə, Salyan, Sabirabad, Kürdəmir, Yevlax, Ağcabədi və s. inzibati rayonlar xüsusilə fərqlənir.

İqtisadi rayonda həyata keçirilən aqrar islahatlar, fermer təsərrüfatının yaradılması, orta və xırda sahibkarlığın inkişaf etdirilməsi kənd təsərrüfatının sürətli inkişafına səbəb olacaqdır.

Aran iqtisadi rayonu əlverişli nəqliyyat-coğrafi mövqeyə malikdir. Rayonun ərazisindən Bakı-Tbilisi, Yevlax-Ağdam-Xankəndi, Yevlax-Balakən, Bakı-Astara dəmir yolları keçir. Rayon ərazisində Kür çayının bir hissəsində çay gəmiçiliyi üçün şərait vardır.

Bakı-Tbilisi-Ceyhan əsas neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin və bərpa olunan Qədim İpək yolunun rayon ərazisindən keçməsi ilə əlaqədar Aran iqtisadi rayonunun nəqliyyat iqtisadi əhəmiyyəti sürətlə artacaqdır.

İqtisadi rayonda məhsuldar qüvvələrin inkişafı ərzində Mingəçevir-Yevlax, Əli-Bayramlı-Salyan-Neftçala sənaye qovşaqlarının formalaşmasına səbəb olmuşdur. Bərdənin sənaye mərkəzi kimi əhəmiyyəti artmaqdadır.

Aran iqtisadi rayonunun gələcək inkişafında aqrar-sənaye və ərazi-istehsal komplekslərinin genişləndirilməsi, neft və qaz kəmərləri və Qədim İpək yolunun rayonun ərazisindən keçməsi, sıx əhali məskunlaşması, artmaqda olan işçi qüvvəsi həlledici rol oynayacaqdır.

# GƏNCƏ-QAZAX İQTİSADİ RAYONU

**Gəncə ş., Naftalan ş., Xanlar, Goranboy, Samux, Daşkəsən, Şəmkir, Tovuz, Gədəbəy, Ağstafa, Qazax inzibati rayonlar.**

**Sahəsi – 12,4 min kv.km.**

**Əhalisi – 1200,2 min nəfər**

Respublika ərazisinin 14,5%-nə, əhalisinin 14,3%-nə malik olan Gəncə-Qazax iqtisadi rayonu çox əlverişli coğrafi-nəqliyyat mövqeyinə malikdir. İqtisadi rayon Azərbaycan Respublikasının qərbində üç müstəqil dövlətin birləşdiyi ərazidə yerləşmişdir. Gəncə-Qazax iqtisadi rayonu inkişaf etmiş sənaye və kənd-təsərrüfatı rayonudur. Onun iqtisadi inkişafına əlverişli nəqliyyat coğrafi mövqeyi, təbii şəraitinin müxtəlifliyi, zəngin yeraltı sərvətləri, kifayət qədər əmək ehtiyatlarının mövcudluğu və s. təsir etmişdir.

Gəncə-Qazax iqtisadi rayonu əmtəəlik kənd təsərrüfatı ilə inkişaf etmiş sənayenin səmərəli əlaqələndirildiyi iqtisadi rayonlardan biridir.

Azərbaycan Respublikasının ərazi əmək bölgüsündə iqtisadi rayon müxtəlif sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşmışdır. Rayon ənənəvi yüngül və yeyinti sənaye məhsulları ilə yanaşı, vaxtilə Sovet İttifaqının bir çox müttəfiq respublikalarına qara və əlvan, metal, kimya məhsulları, tikinti materialları, cihazqayırma, elektrotexnika, yüngül və s. sənaye məhsulları göndərirdi.

***Təbii şəraiti.*** İqtisadi rayonun ərazisi dağlıq, dağətəyi və aran relyef formalarından ibarətdir. Rayonun şərq hissəsində relyef bərabər olmayan iki hissəyə: Kür çayı vadisinin çox da hündür olmayan şimal zonasına (100-300 m) və Kiçik Qafqazın hündür dağlıq cənub hissəsinə (500-3500 m) bölünür. Şahdağ və Murovdağ rayon daxilində geniş ərazi tutur. Gəncə-Qazax maili düzənliyinin cənub-qərbi və Ceyrançöl, Bozdağ silsiləsinin qərb hissəsi və Acınohür düzünün cənubu Gəncə-Qazax iqtisadi rayonuna daxildir. Rayonun bütövlüklə orta dağlıq və aran zonaları relyef baxımından xeyli əlverişli münbüt torpaq sahələrinin olması ilə fərqlənir.

Dağətəyi və aran sahələrdə dağ-meşə, qara və şabalıdı torpaq növləri üstünlük təşkil edir. Həmin torpaqlarda kənd təsərrüfatının müxtəlif sahələri inkişaf etdirilir.

Rayon ərazisində bir sıra relyef formalarının olması buranın iqliminində müxtəlifliyinə səbəb olmuşdur. Belə ki, dağlıq zonada mülayim-soyuq, yarımrütubətli, yüksək dağlıq ərazidə soyuq, rütubətli, aran hissədə isə isti və quru iqlim şəraiti mövcuddur.

Orta illik temperatur Daşkəsəndə +6, Gəncədə +13,1 dərəcə təşkil edir. Ən soyuq ay olan yanvarda Daşkəsən rayonunda temperatur –3-7, Gəncədə 0-7 dərəcədir. Dağlıq sahələrdə yay temperaturu çox da yüksək deyildir. Lakin rayonun qərbində aran hissədə ən isti iyul ayında temperatur +38 dərəcəyə qədər qalxır.

İqtisadi rayonun düzənlik əraziləri günəşli günlərin çoxluğu, nisbi temperaturun yüksək olması ilə fərqlənir. Burada qış yumşaq, qısamüddətli və az qarlı keçir. Qışın sərt keçməsi təsadüf hallarda olur. Yayda hava isti, yağıntılar isə az düşür.

Ərazi üzrə yağıntılar qeyri-bərabər paylanmışdır. Orta illik yağıntılar Daşkəsən və Gədəbəy rayonlarında 550 mm, Gəncədə 248 mm təşkil edir. Orta aylıq yağıntılar dağətəyi zonada 110 mm, aranda 35 mm-ə bərabərdir, Yağıntıların az düşməsi ilə əlaqədar olaraq əkinçilik suni suvarmaya əsaslanır.

Gəncə-Qazax iqtisadi rayonu nisbətən sıx çay şəbəkəsinə malikdir. Burada olan su ehtiyatının 87%-i səth sularının, 13%-i yeraltı suların payına düşür. Rayon çayları (Kür, Zəyəmçay, Gəncəçay, İncəçay, Axınçaqçay) böyük potensial enerji gücünə malikdir. İqtisadi rayonda bir sıra su təsərrüfatı obyektlərinin-Ağstafa gölü, Həsənsu gölü,Şəmkir, Yenikənd su ambarlarının-istifadəyə verilməsi, suvarma kanallarının çəkilməsi, çoxlu artezian quyularının istifadə edilməsi nəticəsində kənd təsərrüfatı bitkilərinin suvarılması qismən yaxşılaşmışdır. Yaşayış məntəqələrinin içməli suya olan tələbatı Kürdən çəkilən su kəməri, yeraltı sular (aran zonada) və bulaqlar (dağlıq zonada) hesabına ödənilir. Rayon ərazisində müalicəvi əhəmiyyətinə malik olan bir sıra mineral bulaqlar vardır. Dünyanın ən gözəl mənzərəli göllərindən biri olan Göygöl iqtisadi rayonun ərazisindədir. Dövlət qoruğu kimi mühafizə edilən Göygöl və onun ətrafı əhalinin mühüm



irahət və müalicə yeridir. İqtisadi rayonun dağlıq zonası soyuq və rmal mineral bulaqlardan ibarət balneoloji və iqlim kurortu kreasiya sərvətlərinə malikdir.

Gəncə-Qazax iqtisadi rayonu zəngin faydalı qazıntı ərvətlərinə malikdir. Məşhur Daşkəsən dəmir filizi, Zəylik alunit ataqları,Çirogizdor kükürd kolçedanı, Xaçbulaq aşqar əhəng ataqları, Ağcakənd gips mədəni, Xanlar rayonunun gilabi yataqları, oğanlı, Çolpan kükürd kolçedanı mədənləri, Daşsalahlı gilabi, olit yataqları iqtisadi rayonun ərazisindədir. Perspektiv Bitdibulaq is-mərgümüş, Alabaşlı hematitli dəmir filizi yataqlarını qeyd mək olar.

İqtisadi rayonun ərazisində yerləşən faydalı qazıntılarının səriyyəti böyük sənaye əhəmiyyətinə malikdir.

Gəncə-Qazax iqtisadi rayonunun əhalisi 1 mln. 200 min nəfər əşkil edir. Əhalisinin sayına görə rayon iqtisadi rayonlar arasında çüncü yer tutur. İqtisadi rayon üçün şəhər tipli qəsəbələrin sayının rtması və şəhər əhalisinin xüsusi çəkisinin yüksək olması əciyyəvidir. İqtisadi rayonda şəhər əhalisinin artması əsasən, bir ərəfdən təbii artımla, digər tərəfdən isə rayonun sənayeləşməsi ilə laqədar olmuşdur.

Respublikanın başqa iqtisadi rayonlarından (Abşeron iqtisadi ayondan başqa) fərqli olaraq Gəncə-Qazax iqtisadi rayonunda şəhər halisinin sayının çoxluğu ilk növbədə burada Respublikanın ikinci öyük şəhərinin – Gəncənin olması və eyni zamanda Şəmkir və enikənd su elektrik stansiyalarının istisməri, eləcə də Qazax, anlar, Tovuz, Şəmkir rayon mərkəzlərinin böyüməsi, rayonlarda rbanizasiya prossesinin inkişafı ilə izah edilməlidir.

Şəhər və kənd əhalisinin nisbətinin dəyişilməsinin digər mənbəyi mexaniki artımdır. Şəhər tipli yaşayış məntəqələrində miqrasiya kənd yerlərindəkindən intensiv olmuşdur. 1990-cı ildə mək qabliyyətli əhali şəhər əhalisinin 51%-ni, kənd əhalisinin 9%-ni təşkil etmişdir.

Qeyd etmək lazımdır ki, ictimai istehsala cəlb olunan əhalinin mumi miqdarında qadınlar şəhər yerlərində 42,1%, kənd yerlərində ə 45% olmuşdur.

İqtisadi rayon əmək ehtiyatları ilə yaxşı təmin olunmuşdur.

*Sənaye.* İqtisadı rayonun sənayesinin inkişafı yerli təbii mineral xammal ehtiyatlarına və kənd-təsərrüfatı xam-malına əsaslanır.

Hələ Sovet hakimiyyəti dövründə Gəncə-Qazax iqtisadi rayonu Respublikanın mühüm sənaye rayonlarından birinə çevrilmişdir.

İkinci dünya müharibəsi ərəfəsində Gəncədə respublika tabeliyində olan iyirmiyə qədər sənaye müəssisəsi fəaliyyət göstərirdisə, müharibədən sonrakı illərdə burada ittifaq əhəmiyyətli bir sıra böyük sənaye müəssisələri istifadəyə verilmişdir. Zəylik alunit bazasında Daşkəsən mədəni, onun xammalı əsasında Gəncə alüminium zavodu, Daşkəsən dağ mədən kombinatı, cihazqayırma, metaləritmə, metaltökmə, avtomobil təmiri, iri panelli ev quraşdırma, dəmir-beton məmulatları, çini qablar, ağac emalı zavodları, xalçaçılıq, toxuçuluq kombinatları, tikinti müəssisələri istifadəyə verilmişdir. Yerli xammal əsasında şərab, konyak istehsalı, yüngül sənaye müəssisələrinin istehsal gücü artırılmışdır. Dünya əhəmiyyətinə malik olan Naftalan kurortu genişləndirilmişdir.

Sənayenin strukturu Gəncə-Qazax iqtisadi rayonun respublika və dövlətlərarası əmək bölgüsündə iştirakı barədə aydın təsəvvür yaradır. Rayonlararası əhəmiyyətə malik sahələrin payına sənayenin ümumi məhsulunun 71,5%-i düşür. Rayonun iqtisadiyyatında mədən sənayesi aluminium oksidi, sulfat turşusu, rabitə cihazları və vasitələri, xalça, cod pambıq parça, elektroenergetika, şərabçılıq, maşınqayırma, meşə-ağac emalı, tikinti materialları sənayesi, pambığ təmizləmə, yeyinti sənaye sahələri əsas yer tutur. Şəmkir və Yenikənd su elektrik stansiyalarının tikilib istifadəyə verilməsilə əlaqədar iqtisadi rayon respublikada iri elektrik enerji istehsal edən rayona çevrilmişdir. Gəncə-Qazax iqtisadi rayonun sənayesinin əsas ixtisaslaşmış sahəsi əlvan metallurgiya sənayesidir.

Gəncə-Qazax iqtisadi rayonu əlvan metallurgiyanın inkişafı üçün geniş imkanlara malikdir. İri Zəylik alunit mədəni, kifayət qədər elektrik enerjisi, su, əmək ehtiyatları, ixtisaslı mütəxəssislər,



həmçinin ölkənin və xarici bazarlarda əlvan metallara artan tələbat bu imkanların əsasını təşkil edir.

Daşkəsən inzibati rayonundakı zəylik alunit yataqları əsasında XX əsrin 60-cı illərində Kirovabad (Gəncə) şəhərində istifadəyə verilmiş aluminium zavodu o vaxt SSRİ-nin iri müəssisələrindən biri idi. Bu zavodun istehsal etdiyi alüminium oksidindən (gil torpaq) Sumqayıtda alüminium təbəqələri, elektrikötürücü məftillər alınır. Əsas məhsulla yanaşı Gəncə alüminium zavodunda sulfat turşusu, sulfat duzu, kalium kübrəsi istehsal edilirdi ki, bunlar da əsasən respublikanın tələbatını ödəyir.

Neçə illərdi ki aluminium zavodu məlum səbəblərdən öz fəaliyyətini dayandırıb. Hazırda xarici şirkətlərlə birlikdə yenidənqurma işləri aparılır. Gil-torpaq istehsalına başlamışdır.

Maşınqayırma və metal emalı iqtisadi rayon sənayesinin mühüm sahələrindəndir.

Maşınqayırmanın strukturunda cihazqayırma, avtomobil təmiri, teatr avadanlığı, «Sənaye rabitə» zavodu, mexaniki zavod, kənd təsərrüfat texnikasının təmiri müəssisələri əsas yer tutur. Qeyd olunan müəssisələrin çoxu hazırda işləmir.

Gəncə şəhərində avtomobil istehsal edən zavodun tikintisinin davam etdirilməsi üçün xarici şirkətlərlə müqavilə imzalanmışdır.

Metal emalını təmsil edən on bir müəssisədə müxtəlif metal məmulatı istehsal olunur və texnikanın təmir işləri yerinə yetirilir. Metal emalı müəssisələri Gəncə şəhəri ilə yanaşı Xanlar, Goranboy, Daşkəsən, Şəmkir, Tovuz, Ağstafa, Qazax rayon mərkəzlərində yerləşərək rayonun bütün sənaye müəssisələrində təmir işləri aparırlar.

İqtisadi rayonun yüngül sənayesi – pambıq, yun parça istehsalı, pambıqtəmizləmə, xalça, tikiş sənayesi müəssisələri və s. sahələrlə təmsil olunmuşdur. Rayonun yüngül sənayesinin strukturunda toxuçuluq sənayesi üstün yer tutur. Gəncə toxuçuluq kombinatı sahənin ən iri müəssisəsidir. 1927-ci ildə yaradılmış həmin kombinat iplik, cod, kisə parçası istehsalı üzrə ixtisaslaşmışdır. İstehsal olunan pambıq parça boyadılmaq üçün Bakıya göndərilirdi. İpliyin bir hissəsi isə trikotaç və xalça məmulatı

istehsalı üçün respublikanın başqa rayonlarına göndərilirdi. Hazırda kombinat tam gücü ilə işləmir.

Toxuçuluq sənayesinin müəssisələrindən Ağstafa toxuçuluq fabriki gətirilmə xammal əsasında yun və pambıq parçalar, üst və alt trikotac məhsulları istehsalı üzrə ixtisaslaşmışdır. İqtisadi rayonun yüngül sənayesinin tərkibində Şəmkir və Tovuzda kələğayı, toxuçuluq-xırdavat, trikotac məmulatı istehsal kombinatı vardır. İqtisadi rayonun toxuçuluq sənayesinin strukturunda xalçaçılıq xüsusi yer tutur.

Gəncə xalça-mahud kombinatı rayonun iri müəssisələrindən biridir. 1964-cü ildən fəaliyyət göstərən bu kombinatın toxuduğu xalçalar yüksək qiymətləndirilirdi. Bundan əlavə Qazax şəhərində «Zili» xalça fabriki əl ilə toxunan və xarici bazarda yüksək qiymətləndirilən xalçalar istehsal edir. Onun Ağstafa və Gədəbəydə filialları vardır.

Yüngül sənayenin digər sahələri – trikotac, tikiş, ayaqqabı istehsalı yerli əhəmiyyətə malik olub əhalinin bu məhsullara olan tələbatını ödəyir. Hazırda iqtisadi rayonun yüngül sənayenin əksər iri müəssisələri işləmir.

Gəncə-Qazax iqtisadi rayonunun yeyinti sənayesi ət məhsulları, şərab, yağ-piy, süd məhsulları, unüyütmə-yarma, çörəkbişirmə, qənnadı və s. sahələrlə təmsil olunmuşdur. Yeyinti sənayesi rayonun bir çox xırda və orta şəhərlərinin sənaye ixtisaslaşmasını müəyyən etmişdir. Bundan əlavə, yeyinti şənayesinin bir sıra müəssəsiələri kənd yaşayış məntəqələrində yerləşərək, kənd-təsərrüfatı xam-malından səmərəli istifadə olunmasına şərait yaradır.

İqtisadi rayonun yeyinti sənayesi doqquz sahəni özündə birləşdirir. Bunlardan şərabçılıq və yağ-piy sənayesi xüsusi fərqlənir.

Gəncə yağ-piy kombinatı rayonda yeyinti məhsulları sənayesinin ən böyük müəssisəsidir. Yağ-piy kombinatı pambıq çiyidini emal edərək saflaşdırılmış pambıq yağı, paltar və əl-üz sabunu, distillə edilmiş qliserin və s. məhsullar istehsalı üzrə ixtisaslaşmışdır. Hazırda yağ-piy kombinatında istehsal prosesi dayanmışdır.

Yeyinti sənayesi iqtisadi rayonun bütün inzibati rayon mərkəzlərində inkişaf etmişdir. Onlardan öz əhəmiyyətinə görə əsas yeri respublikadaxili əmək bölgüsündə şərabçılıqla təmsil edilən Xanlar, Şəmkir, Tovuz inzibati rayonları tutur.

Gəncə şəhərində və iqtisadi rayonun inzibati rayon mərkəzlərində ət, süd, un kombinatı, çörək zavodları, ilkin şərab emalı müəssisələri, qənnadı sexləri və s. fəaliyyət göstərir.

İqtisadi rayonun tikinti materialları sənayesi yaxşı inkişaf etmişdir. Burada olan iri panelli evtikmə dəmir-beton məmulatı zavodu, mərmər bloklar, gips-beton zavodları yerli və ətraf rayonları müvafiq məhsullarla təmin edir. Bundan əlavə Dəllər tikinti materialları kombinatı, Zəyəm daş, Poylu çınqıl, Daşsalahlı əhəng daşı karxanaları yerli əhəmiyyət daşıyır.

İqtisadi rayonun ağac emalı sənayesi gətirilmə xammalla işləyir. Sahə mebel fabriki, ağac emalı zavodu və tikinti materialları kombinatı ilə təmsil olunmuşdur. Bundan əlavə Qazax, Tovuz və Şəmkir inzibati rayonlarında yerləşən meşə və ağac emalı sənayesi əsasən tərəvəz və meyvə üçün müxtəlif tara, pəncərə blokları, parket və s. məhsullar istehsal edir.

*Kənd təsərrüfatı.* Gəncə-Qazax iqtisadi rayonunun kənd təsərrüfatı çoxsahəlidir. Burada taxıl, üzüm, kartof, tərəvəz, meyvə, ət, süd istehsalı inkişaf etmişdir. Kənd-təsərrüfatının əsasını rayonun məhsuldar torpaqları təşkil edir. Ümumi torpaq sahəsinin yarısı kənd təsərrüfatına yararlıdır ki, bunun da 30-35%-i suvarılır. Burada dincə qoyulmuş torpaqların az olmasına baxmayaraq, geniş otlaqlar və biçənəklər vardır. Rayonda olan otlaq sahələrinin 80-85%-i Geyrançöl yaylağındadır. Rayon ərazisinin 40-45%-i əkinçiliyin, üzümçülüyün inkişaf etdirildiyi düzənlik zonanın, 35%-i səth suların qıtlıq təşkil etdiyi iqlimi quraq keçən Geyrançöl yaylasının, qalan faizi isə dəniz səviyyəsindən 600-2000 m arasında səthi çaylarla parçalanmış dağlıq zonanın payına düşür.

Gəncə-Qazax iqtisadi rayonunun kənd təsərrüfatının inkişafına rayonda aparılan torpaq islahatları, mal-qaranın özəlləşdirilməsi, fərdi və fermer təsərrüfatlarının yaradılması çox güclü təsir etmişdir. Elə bunun nəticəsidir ki, rayonun əkin sahələrinin quruluşunda

dəyişikliklər baş vermişdir. Üzüm, tərəvəz, kartof, taxıl əkin sahələri genişləndirilmiş, mal-qaranın sayı artmış və onların məhsuldarlığı yüksəlmişdir.

İqtisadi rayonun kənd təsərrüfatında bitkiçilik əsas yer tutur. Bütün kənd təsərrüfatı məhsullarından alınan gəlirin 70%-i onun payına düşür.

Son illər taxıl istehsalının həcmi artmışdır. Taxılçılığın inkişafına görə Xanlar, Goranboy, Şəmkir, Tovuz, Qazax rayonları xüsusilə fərqlənir. İqtisadi rayonda ümumi taxıl əkin sahəsinin 80%-i bu rayonların payına düşür.

Rayonun əsas texniki bitkisi olan pambıq Goranboy inzibati rayonunda suni suvarma tətbiqi şəraitində becərilir.

Gəncə-Qazax iqtisadi rayonu inkişaf etmiş üzümçülük rayonudur. Burada üzümçülüyün inkişafı üçün çox əlverişli təbii və iqtisadi şərait vardır. Üzümlüklərin əkin sahəsi və istehsalına görə Xanlar, Şəmkir, Tovuz, Ağstafa inzibati rayonları fərqlənir. İqtisadi rayonda üzümçülük-şərabçılıq üzrə iri aqrar-sənaye kompleksləri yaradılmışdır. İqtisadi rayon şərab məhsulları üzrə rayonlararası ərazi bölgüsündə iştirak edir.

İqtisadi rayon respublikanın kartof becərilən əsas rayonlarından biridir. Kartof əkinləri Gədəbəy, Daşkəsən,Şəmkir və Tovuz inzibati rayonlarında daha geniş sahələr tutur. Bu rayonlarda kartofçuluq üzrə ixtisaslaşmış bir sıra təsərrüfatlar vardır. İqtisadi rayon respublikanın bir çox rayonlarına və iri şəhərlərinə xeyli kartof göndərir. Rayonun bütün inzibati rayonlarında tərəvəzçilik inkişaf etmişdir. Lakin onun inkişafı yerli təbii və iqtisadi imkanlardan geri qalır. Bu eynilə meyvəçiliyə də aiddir. İqtisadi rayonda kənd təsərrüfatının əsas sahələrindən biri də heyvandarlıqdır. Bu sahə kənd təsərrüfatından əldə edilən ümumi gəlirin 30%-ni verir. Heyvandarlıq əsasən ət-süd və yun-ət istehsalı istiqamətində ixtisaslaşmışdır. İqtisadi rayonun təsərrüfatlarında zərif və yarımzərif yunlu qoyunçuluq inkişaf etmişdir. 1985-ci ildə iqtisadi rayonda dövlət camışçılıq ferması yaradılmışdır (Xanlar rayonunda). Təbii otlaqlar və biçənəklərlə yanaşı, tarla şəraitində yetişdirilən şirəli yaşıl yem kütləsi və sənaye müəssisələrində (dəyirmanlarda, pambıqtəmizləmə zavodunda, yağ-piy

kombinatında, şərabçılıq zavodlarında) istehsal edilən qarışıq və qüvvəli yem heyvandarlığın yem bazasını təşkil edir.

Gəncə-Qazax iqtisadi rayonunda nəqliyyatın bir çox növləri inkişaf etmişdir. Dəmir yolu, avtomobil və hava nəqliyyatı vasitəsilə MDB-ölkələri ilə iqtisadi əlaqələr saxlanır. Buradan keçən Bakı-Tbilisi elektrikləşdirilmiş dəmir yolu, respublika əhəmiyyətli şosse və hava yolları iqtisadi rayonla başqa rayonlar arasında yük və sərnişin daşınmasına xidmət edir. Onu da xüsusi qeyd etmək lazımdır ki, Bakı-Tbilisi-Ceyhan əsas neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və bərpa olunan Qədim İpək Yolu məhz iqtisadi rayonun ərazisindən keçəcəkdir ki, bu da respublikanın bütövlüklə və eyni zamanda Gəncə-Qazax rayonunun iqtisadiyyatının surətlə inkişaf etməsinə səbəb olacaqdır.

1990-cı ilə qədər Gəncə-Qazax iqtisadi rayonunda istehsal olunan ümumi sənaye məhsulunun 35-40%-i SSRİ-nin başqa respublikalarına göndərilirdi. Göndərilən məhsullar içərisində saflaşdırılmış dəmir filizi, aluminium xammalı, pambıq-mahlıc, hazır şərab və şərab materialları, xalça, pambığ parça, müxtəlif sənaye məhsulları əsas yer tuturdu. İstehsal olunan sənaye məhsulunun təxminən 40%-i respublikanın bir çox rayonlarına, xüsusilə Abşeron iqtisadi rayonuna göndərilirdi. Belə sənaye məhsullarından sulfat turşusunu, aluminium xammalını, kalium gübrəsini, pambıq mahlıcını, parça, xalça, şərab məhsullarını, şərab materiallarını, ət məhsullarını, bitki yağını, qənnadı məmulatını və s. qeyd etmək olar.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI
## Naxçıvan ş., Babək, Culfa, Ordubad, Sədərək, Şərur, Şahbuz inzibati rayonları
## Sahəsi 5,5 min kv. km.
## Əhalisi 355 min nəfər

Azərbaycanın hər bir bölgəsinin ümumixalq ənənəvi mədəniyyətinin və iqtisadiyyatının formalaşmasında öz yeri və payı olmuşdur. Ölkənin ayrı-ayrı bölgələri öz lokal xüsusiyyətlərinə görə fərqlənsə də, ümumi azərbaycan mədəniyyət və iqtisadiyyatı ilə sıx vəhdətdə olub, bir-birini tamamlayır. Bu cəhətdən qədim Naxçıvan diyarı da istisna deyil. Tarixi, arxeoloji və etnoqrafik abidələr azərbaycanlıların burada min illərlə bundan əvvəl məskunlaşmasına tutarlı subutdur. Qeyd etmək lazımdır ki, keçmişdə Naxçıvanın coğrafi hüdudları indikindən çox geniş idi. Vaxtilə Dərələyəz, Mehri və Qafan mahalları da bu bölgənin tərkibində idi. Sonralar istər çar Rusiya və istərsə də Sovet Hakimiyyəti illərində bu torpaqlar Ermənistana qatıldı və bölgənin ərazisi 5,5 min kv. km-ə endirildi.

1828-ci ildə ermənilərin İrandan Naxçıvana köçürülməsi burada etnik durumu xeyli gərginləşdirdi. Həmin il Rusiyanın səyləri nəticəsində Təbriz, Xoy, Səlmas və Urmiya mahallarından Naxçıvana xeyli (8 min nəfər) erməni köçürüldü. Onlar yerli əhalinin yaşadığı münbit torpaqlarda məskunlaşdılar. Əhali sıxlığı nəticəsində azərbaycanlıların bir hissəsi öz doğma yurdunu tərk etməyə məcbur oldu. XIX əsr müəllifləri (V.Qriqoryev, A.Dekonski və b.) burada yaşayan erməniləri hiyləgar, həris, möhtəkir, qapalı adamlar kimi səciyyələndirmişlər. Rusiya imperiyasının dövlət əmlak nazirliyinin Qafqaz bölgəsi üzrə məmur, S.Zelinskinin fikrincə, Səlmasdan gələn və Tumbul kəndində məskunlaşan ermənilər adam aldatmaq, saxta pul kəsmək, möhtəkirlik və xüsusilə qızıl alveri, xaç oğurlamaqla məşğul idilər. Məqsədlərini həyata keçirmək üçün onlar özlərini şəraitdən asılı olaraq pravoslav, yaxud müsəlman kimi qələmə verirdilər.

Tarix boyu Naxçıvan işğalçıların hücumlarına məruz qalmış, onun şəhər və kəndləri viran edilmişdir. Dinc əhali isə hər müharibənin vurduğu zərbələri aradan qaldırmaq üçün böyük səylə



ərpa və quruculuq işləri ilə məşğul olmuşdur. Naxçıvanın bügünkü blokada vəziyyətinə düşməsinin köklərini də tarixi keçmişdə axtarmaq lazımdır.

Hazırda Naxçıvan Muxtar Respublikası ağır blokada şəraitindədir. Lakin buna baxmayaraq Naxçıvan Muxtar Respublikası yaşayır, inkişaf edir və öz iqtisadi potensialını artırmaqdadır.

Azərbaycan Respublikasının Cənub-Qərbində, Zəngəzur dağları ilə Araz çayı arasında yerləşən Naxçıvan Muxtar Respublikası əlverişli coğrafi mövqeyə, zəngin təbii ehtiyatlarına malik olmaqla ölkəmizin ictimai əmək bölgüsündə fəal iştirak edir.

Azərbaycan Respublikasının ərazisinin 6,2 %-nə, əhalisinin ,7%-nə malik olan Naxçıvan Muxtar Respublikası, Azərbaycan Respublikasının sənaye məhsulunun 2,8%-ni, kənd təsərrüfatı məhsulunun 3%-ə qədərini istehsal edir.

Naxçıvan Muxtar Respublikasını Azərbaycandan eni 40 km olan Ermənistan ərazisi ayırır. Muxtar Respublika şimalda və şərqdə Ermənistan Respublikası, Cənubda Türkiyə (11 km) və İran İslam Respublikası ilə (163 km) həmsərhəddir.

Naxçıvan Muxtar Respublikasında məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinin təkmilləşdirilməsinə yönəldilmiş kompleks tədbirlərin həyata keçirilməsi sosial-iqtisadi inkişafı sürətləndirməyin və istehsalın səmərəliliyini yüksəltməyin mühüm amilidir. Bu problemin həll olunmasında yerli təbii xammal ehtiyatlarından hərtərəfli istifadə olunmasının müstəsna əhəmiyyəti vardır.

Muxtar Respublikasının təbii şəraiti və təbii ehtiyatlarının rəngarəng olması təsərrüfatın inkişafı üçün əlverişli imkanlar yaradır. Muxtar Respublikasının təbii şəraiti və təbii ehtiyatları məhsuldar qüvvələrin xüsusən kənd təsərrüfatının, mədən sənayesinin inkişafı və yerləşdirilməsinə, nəqliyyatın inkişafına güclü təsir göstərir. Onun müasir ərazi-istehsal kompleksi yerli təbii şərait və təbii ehtiyatlarla sıx əlaqədar surətdə formalaşmış və inkişaf etmişdir. Belə ki, təbii şərait və təbii ehtiyatlar iqtisadiyyatın bünövrəsini təşkil edir. Buna görə də müasir cəmiyyətin maddi-texniki bazasının yaradılması vəzifəsinin müvəffəqiyyətlə həlli

bilavasitə ölkəmizin və onun ayrı-ayrı regionlarının dərindən öyrənilməsi, diqqətlə nəzərə alınıb düzgün qiymətləndirilməsi, elmi əsaslarla onlardan səmərəli istifadə olunması və mühafizə edilməsi ilə bağlıdır.

Son onilliklərdə Muxtar Respublikanın ərazisinin hərtərəfli elmi-tətqiqi və yeni təbii ehtiyatların aşkara çıxarılması sahəsində böyük işlər görülmüşdür. Muxtar Respublikada məhsuldar qüvvələrin inkişafı, səmərəli yerləşdirilməsi və ixtisaslaşmasında buradakı nisbətən geniş düzənlik, dağətəyi və yastan sahələr, zəngin metal və qeyri-metal faydalı qazıntıları, mineral su ehtiyatı, ərazinin əksər sahəsində iqlimin əlverişli olması, Araz çayı sistemi və şirin sulu gölləri, müxtəlif torpaq, bitki örtüyü və heyvanat aləmi mühüm rol oynayır.

Naxçıvan dağlıq diyardır. Onun ərazisinin 5%-i dəniz səviyyəsindən 1000-2000 m, 20%-i 2000-3000 m, 30%-i 800-1000 metr hündürlükdə yerləşir. Muxtar Respublikanın əsas sənaye mərkəzləri, intensiv əkinçilik rayonları, nəqliyyat magistralları, əhalinin sıx məskunlaşması Arazboyu düzənlikdə və dağətəyi zonada yerləşir. Ümumi torpaq sahəsinin təxminən 35%-i dağlıq və dağətəyi zonadadır. Muxtar Respublikanın iqlimi kəskin kontinentallığı ilə fərqlənir. Mütləq minimum temperatur –31 dərəcə, mütləq maksimum temperatur +44 dərəcə C-yə çatır. İllik yağıntılar Arazboyu düzənlikdə 200-300 mm, dağlıq sahələrdə 500-800 mm-ə bərabərdir.

Muxtar Respublikanın ərazisində boz, boz-çəmən, açıq-şabalıdı, dağ-çəmən-meşə, dağ-qəhvəyi torpaqlar yayılmışdır.

Torpaq-iqlim xüsusiyyətləri Muxtar Respublikanın bitki aləminə də təsir göstərmişdir. Rütubət çatışmadığına görə hətta dağ yamaclarında tikanlı kolluqlar yayılmışdır. Dərələyəz və Zəngəzur silsilələrinin su ayrıcında qismən alp və subalp çəmənlikləri vardır. Bitki örtüyündə dərman və efir yağlı bitki növləri üstünlük təşkil edir. Çay hövzələrində meşə sahələri vardır.

Muxtar Respublikanın çayları Araz çayı hövzəsinə məxsusdur. Ordubadçay, Gilançay, Naxçıvan çay, Əlincə çay, Arpaçay Araza tökülür. Muxtar Respublikanın çaylarının illik su sərfi 100 mln. kub metrdən çoxdur. Çaylarda illik su axımı bərabər

olmadığına və suvarma əkinçiliyi üstün yer tutduğuna görə çaylar üzərində su anbarlarının yaradılmasının böyük əhəmiyyəti vardır. Arazçayı və Arpaçay su anbarları torpaqların suvarılmasında əsas yer tutur. Araz çayı böyük su enerji ehtiyatına malikdir. Muxtar Respublikanın su ehtiyatının artırılmasında şirin sulu göllərin xüsusilə Qanlıgöl, Batabat gölünün su anbarlarının əhəmiyyəti böyükdür. Bu yaxınlarda Sirab, Vayxır və başqa su anbarlarının tikintisinə başlanacaq.

Naxçıvan Muxtar Respublikasının ərazisi müxtəlif faydalı qazıntı sərvətləri ilə zəngindir və bu sərvətlər Muxtar Respublikanın iqtisadiyyatının inkişaf etdirilməsində mühüm yer tutur. Buradakı polimetal, sink, qurğuşun, mis, sürmə, mərgümüş, kobalt, volfram, manqan, kükürd, molibden, daş duz, xörək duzu, dolomit, mərmər, travertin, civə, tikinti daşı, sement xammalı, 200-dən artıq müxtəlif müalicə əhəmiyyətli mineral sular və s. mühüm xammal mənbəyidir. Mundidərədə qızıl yatağı müəyyən edilmişdir.

Azərbaycan Respublikasında olan molibden və dolomit ehtiyatının 80%-i, mineral su ehtiyatının beşdə üçü, duz ehtiyatının xeyli hissəsi, üzlük daş ehtiyatının isə yarısı Naxçıvan Muxtar Respublikasının payına düşür.

Bu yerlərin əvəzolunmaz nemətlərinin ən dəyərlilərindən biri də mineral sulardı. Yer kürəsində yayılmış bütün mineral suların analoqlarının əksəriyyəti Naxçıvanda var. Bu sulardan karbon qazlı, dəmirli, mərgümüşlü, kükürdlü və s. mineral suları göstərmək olar.

Muxtar Respublikada mineral bulaqların su ehtiyatlarından səmərəli istifadə edilməsində çox işlər görülmüşdür. Badamlı, Sirab və Vayxir zavodlarının istehsal gücü artırılmış, Qızılvəng, Cəhri, Suramlı mineral bulaqların suyundan istifadə edilməsi nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki, hələ 1934-cü ildə SSRİ Xalq Səhiyyə Komisarlığı Vayxır bulağında ümumittifaq əhəmiyyətli kurort kompleksi tikmək üçün layihə hazırlamışdır. Şahbuz rayonu ərazisində Batabat gölü ətrafında iri balneoloji istirahət evi tikilməkdədir.

Əsası 1947-ci ildə qoyulmuş Badamlı mineral sudoldurma zavodu tam mexanikləşdirilmişdir və burada 1987-ci ildə 110 mln. şüşədən artıq su istehsal olunmuşdur.

Badamlı-Vayxır-Naxçıvan mineral su kəmərinin çəkilməsi Naxçıvan Muxtar Respublikasının mineral su istehsalını xeyli artırmışdır. 1987-ci ildə Sirab zavodunda 56,5 milyondan, Vayxır mineral suyundan isə 31,5 milyondan çox şüşə su istehsal olunmuşdur.

Darıdağ termal suyundan karbon qazının alınması və təmizlənməsi texnologiyası hazırlanmış və butulkalara doldurulan mineral sular karbon qazının vurulması yerli xammal hesabına təmin edilmişdir.

Naxçıvan şəhərindən 17 km məsafədə müqəddəs Əshabi-Kəhf dağının ətəklərində mənzərəli bir yerdə Əshabi-Kəhf mineral suları yerləşir. Bu sular isti radonlu, karbonqazlı, hidrokarbonatlı, xlorlu, sulfatlı, natriumlu və kalsiumludur. Bu isə Rusiya Federasiyasında yerləşən məşhur Pyatiqorsk radonlu suyundan keyfiyyətlidir.

Təbii ehtiyatlar arasında duz ehtiyatı bir mlrd. ton hesablanır. Naxçıvan şəhəri yaxınlığında Duzdağ adlanan yerdə, dəniz səviyyəsindən 850-1000 m yüksəklikdə yerləşən bu mədənin istifadəyə verilməsi duz ehtiyatını xeyli artırmışdır. Naxçıvan duzu təkcə ərzaq məhsulu olmaqla qalmır, ondan mühüm xammal kimi sənayenin müxtəlif sahələrində də (yeyinti, kimya) geniş istifadə olunur. Nehrəm kəndi yaxınlığında yerləşən xörək duzu yataqları soda istehsalı üçün çox qiymətli xammaldır.

***Əhalisi və əmək ehtiyatları.*** 2001-ci ildə Naxçıvan MR-da 356 min əhali yaşayırdı. Əhalinin 72,8%-i kənd yerlərində yaşayır. Əhalinin 1 kv.km-də orta sıxlığı 65 nəfər təşkil edir. İqtisadi rayon ərazisində əhali qeyri-bərabər yerləşmişdir. Ən çox əhali Şərur rayonunda (34,1%), ən az əhali isə Şahbuz rayonunda (6,5%) yaşayır. Düzənlik və dağətəyi yerlərdə əhali, adətən, sıxdır. Su mənbələri yaxınlığında əhalinin sıxlığı daha yüksəkdir.

Son 10 ildə muxtar respublikanın əhalisi 32,2%, o cümlədən şəhər əhalisi 44,9%, kənd əhalisi 28,1% artmışdır.

Rayonun əmək ehtiyatları əhalinin ümumi sayının 50%-dən çoxunu təşkil edir. Əmək ehtiyatlarının 70%-ə qədəri Naxçıvan şəhərinin, Şərur və Babək rayonlarının payına düşür.

Muxtar respublikada olan əmək qabiliyyətli əhalinin 76%-i ictimai istehsalda, 24%-i fərdi təsərrüfatlarda çalışır. Göründüyü kimi, burada əmək ehtiyatlarının əsas hissəsi mövsümi xarakter daşıyan kənd təsərrüfatı ilə məşğuldur. Muxtar respublikanın kənd təsərrüfatında çalışanların sənayedə işləyənlərə görə xüsusi çəkisinin respublika səviyyəsindən orta hesabla 2,2 dəfə çox olması onu göstərir ki, burada sənaye hələ zəif inkişaf etmişdir. Son illər Naxçıvan MR-da xalq təsərrüfatının, xüsusilə sənaye istehsalının inkişafında bir sıra müvəffəqiyyətlərin qazanılmasına baxmayaraq, onun səviyyəsi hələ-də yerli təbii və iqtisadi imkanlardan geri qalır. Ərazidəki müxtəlif təbii sərvətlərdən, istehsalın ixtisaslaşması üçün zəruri olan imkanlardan, maddi-texniki bazadan kifayət qədər istifadə edilmir. Bu da istər işçi qüvvəsinin, istərsə də əmək məhsuldarlığının yüksəldilməsini məhdudlaşdırır. Belə şərait muxtar respublikada əmək ehtiyat-larından istifadə edilməsi səviyyəsinin respublikanın müvafiq göstəricilərindən aşağı olmasına səbəb olur.

Naxçıvan MR-da ictimai istehsalda çalışanların sayı respublika səviyyəsindən iki dəfə azdır. Hər min nəfər əhali üzrə sənaye müəssisələrində işləyən fəhlə və qulluqçuların miqdarı Naxçıvan MR-da Azərbaycan Respublikasında olduğundan 2,3 dəfə azdır. Bunun əsas səbəblərindən biri əhalinin uzun müddət kənd təsərrüfatı ilə məşğul olmasıdır.

Əmək ehtiyatlarından səmərəli istifadə edilməsinin bir yolu da ictimai istehsalın strukturunun təkmilləşdirilməsi və bununla yanaşı, maddi istehsalla qeyri-maddi istehsal sahələri arasında optimal səviyyənin yaradılmasıdır. Bu sahədə müəyyən irəliləyiş olmuşdur. Əgər 1978-ci ildə muxtar respublikada qeyri-maddi istehsal sahələrində çalışanların sayı 22% olmuşdursa indi bu göstərici 36%-ə qalxmışdır.

Naxçıvan MR-da 4 şəhər (Naxçıvan, Ordubad, Culfa, Şərur), 3 şəhər tipli qəsəbə (Şahbuz, Babək, Parağacı) və 214 kənd vardır.

… sənayesi əsasən Sovet Hakimiyyəti illərində, xüsusilə müharibədən sonrakı dövrdə yaradılmışdır. Müharibədən sonrakı illərdə Naxçıvan MR-da bir sıra mühüm sənaye müəssisələri istifadəyə verilmişdir. Bunlardan Naxçıvan elektrotexnika zavodunu, tikiş fabrikini, tütün-fermentasiya və Sədərək şərab zavodlarını, Parağaçay molibden, gümüşlü sink saflaşdırma fabriklərini, Şahbuz avtomobil təmiri zavodunu, Araz çayı üstündə tikilmiş Naxçıvan hidrotexniki kompleksini göstərmək olar. Bundan əlavə, keçən əsrin yetmişinci illərində muxtar respublikada şüşə qabları zavodu, ümumi gücü 40 min ton üzüm emal edən dörd ilkin şərab zavodları, pendir zavodu, un kombinatı, dəmir-beton məmulatı zavodu, tikinti materialları istehsal edən sex və s. müəssisələr tikilib istifadəyə verilmişdir. Bütün bunların nəticəsində muxtar respublikada sənaye məhsulunun, sənayedə çalışan fəhlə və qulluqçuların, sənaye istehsal fondlarının artım sürəti respublika üzrə müvafiq göstəricilərin artım sürətindən xeyli üstün olmuşdur.

Naxçıvan MR-sı respublikanın bir sıra iqtisadi rayonlarından sənayesinin nisbətən çoxsahəli strukturu ilə fərqlənir. Bu, ilk növbədə, muxtar respublikanın Azərbaycan Respublikasından ərazicə ayrı olması və bununla əlaqədar olaraq, yerli tələbatı burada müvafiq istehsal sahələri yaratmaq hesabına təmin etmək zərurəti ilə izah edilir. Hazırda Naxçıvan MR-nın ərazisində yüzə qədər müxtəlif sənaye müəssisələri vardır.

Son 20 il ərzində muxtar respublikada bir sıra yeni sənaye müəssisələri – alüminium qab-qacaq, şüşə qablar, dəmir-beton məmulatı, tütün fermentasiya zavodları, alt trikotac paltar fabriki, ilkin üzüm emalı zavodu, kərpic və başqa tikinti materialları istehsalı obyektləri tikilib istifadəyə verilmişdir. Bununla yanaşı, Azərbaycan Respublikasının sənaye məhsulu istehsalında Naxçıvan Muxtar Respublikasının xüsusi çəkisi hələ da azdır, cəmi 1,8% təşkil edir.

Muxtar respublikada sənaye başlıca olaraq yerli kənd təsərrüfatı məhsullarını emal edən yeyinti və yüngül sənaye müəssisələrindən ibarətdir ki, bunlar da ümumi sənaye məhsulunun 75-76%-ni verir.

Rayonun yeyinti sənayesi ət-süd, meyvə-tərəvəz konservi, meyvə şirəsi, çörək-bulka, tütün-fermentasiya, mineral su doldurulması və s. sahələrlə təmsil olunmuşdur.

Yeyinti sənayesinin strukturunda şərabçılığın xüsusi çəkisi böyükdür. Naxçıvan, Əbrəqunis, Şahbuz və başqa şərab zavodları fərdi təsərrüfatlarında yetişdirilən və əhalidən satın alınan üzümün ilkin emalı əsasında məhsul istehsal edir. Naxçıvan aqrar-sənaye birliyi müəssisələrində «Naxçıvan», «Əbrəqunis», «Əznəburt», «Şahbuz» markalı yüksək keyfiyyətli konyak və şərablar hazırlanır. Rayonun şərab zavodlarının məhsulunun xeyli hissəsi sonrakı emal prosesi üçün muxtar respublikadan kənara göndərilir.

Muxtar respublikada şərab istehsalı get-gedə azalmaq üzrədir. Bir sıra şərab zavodları üzümdən müxtəlif yeyinti məhsulları alınmasına keçmişdir.

Naxçıvan Muxtar Respublikasının yeyinti sənayesinin ixtisaslaşmış sahələrindən olan konserv sənaye Ordubad aqrar-sənaye birliyi yenidən qurularaq, ildə 20 milyon şərti banka yüksək keyfiyyətli mürəbbə, kompot, şirələr, konservlər və s. məhsul istehsal edir.

Hazır məhsulun əsas hissəsi ölkənin müxtəlif rayonlarına və bir sıra xarici ölkələrə göndərilir.

Naxçıvan MR-nın ərazisi daş duz ehtiyatı ilə zəngindir. Tarixi məlumatlara görə, Naxçıvan duz mədənindən qədim zamanlardan istifadə edilir. Duzdağ adlanan yerdə, dəniz səviyyəsindən 850-1150 m yüksəklikdə yerləşən bu mədənin istifadəyə verilməsi duz istehsalını xeyli artırmışdır. İndi burada çıxarılan on minlərlə ton Naxçıvan duzu təkcə ərzaq məhsulu olmaqla qalmır, ondan mühüm xammal kimi sənayenin müxtəlif sahələrində də (yeyinti, kimya) geniş istifadə olunur. Nehrəm kəndi yaxınlığında yerləşən duz yataqları soda istehsalı üçün çox qiymətli xammaldır. Nehrəm duz yataqları əhalinin bu məhsula olan tələbatının ödənilməsində mühüm rol oynaya bilər. Qeyd etmək lazımdır ki, Naxçıvan MR-da çıxarılan duz, əsasən Azərbaycan Respublikasından kənara aparılır. Onun yalnız dörddə bir hissəsindən respublikanın heyvandarlıq təsərrüfatlarında istifadə olunur. Respublikada xalq təsərrüfatının və əhalinin duza olan ehtiyacı xeyli artmışdır. İstehsalın səmərəli təşkili

nəticəsində Naxçıvan duzu hesabına respublika tələbatının çox hissəsi ödənilə bilər.

Badamlı, Sirab, Vayxır mineral su zavodları yeyinti sənayesinin müəssisələrindəndir.

Son illərdə Naxçıvan şəhərində şüşə tara zavodunun işə salınması ilə əlaqədar olaraq şüşələrə mineral su dolduran zavodların istehsal gücü xeyli artmışdır. Naxçıvan Muxtar Respublikasının yeyinti sənayesinin bir xüsusiyyəti də ondan ibarətdir ki, əlverişli təbii və iqtisadi imkanların olmasına baxmayaraq, əhalinin gündəlik tələbatını ödəyən ət-süd sənaye müəssisələri zəif inkişaf etmişdir, onların istehsal etdiyi məhsullar real imkanlardan geri qalır.

Qədim və ənənəvi yüngül sənaye muxtar respublikanın ictimai əmək bölgüsündə mühüm yer tutur. Ordubar baramaaçan, Naxçıvan tikiş fabriklərinin, Naxçıvan alt trikotac paltarı fabrikinin məhsulları ildən-ilə azalır. Yüngül sənaye ümumi məhsul istehsalına görə yeyinti sənayesindən sonra ikinci yeri tutur. Son illər rayonun yüngül sənayesinin strukturundan müəyyən dəyişikliklər baş vermişdir. Bu Naxçıvan şəhərində alt trikotac paltar fabrikinin işə salınması ilə əlaqədar olmuşdur.

Fabrik başlıca olaraq, gətirilmə süni liflə işləyir. Fabrikin işə salınması ilə əlaqədar olaraq, muxtar respublikanın müvafiq məhsula olan tələbatının ödənilməsi yaxşılaşmış və xeyli qadın əmək ehtiyatı ictimai istehsala cəlb olunmuşdur.

Ordubad ipək fabriki - respublikanın ipək sənayesi üçün xam iplik istehsal edir. Fabrik ildə 100 tondan artıq ipək sap hazırlayırdı. Lakin yerli xammal bazası zəif olduğundan xammalın çox hissəsi kənardan gətirilirdi. Hazırda ipək fabriki tam gücü ilə işləmir.

Naxçıvan şəhərində yerləşən tikiş fabriki rayonun yüngül sənayesinin iri müəssisələrindən biridir. Fabrikin işə salınması ilə əlaqədar olaraq, yerli qadın əmək ehtiyatlarının ictimai istehsala cəlb olunması xeyli yaxşılaşmışdır. Fabrik kişi və uşaq üst köynəkləri, həmçinin alt paltarı istehsal edir.

Naxçıvan şəhərində iri xalçatoxuma fabrikinin işə salınmasından sonra rayonun toxuculuq sənayesinin strukturu daha



da təkmilləşəcəkdir. Xammalın azlığı fabrikin tam gücü ilə işləməsinə mane olur.

Muxtar Respublikanın maşınqayırma və metal emalı sənayesi, nisbətən yeni sahə olub, rayonun ümumi sənaye məhsulunun 4,8%-ni verir. Rayonun maşınqayırma sənayesi Naxçıvan elektrotexnika zavodu, Şahbuz avtomobil təmiri zavodu, elektrik məişət cihazları təmiri müəssisələri ilə təmsil olunmuşdur. Maşınqayırma sənayesinin strukturunda radio aparatları, radiotexnika avadanlığı, işıq texnikası avadanlığı istehsal edən çox əmək tutumlu sahələr üstünlük təşkil edir. Naxçıvan şəhərində və muxtar respublikanın inzibati rayon mərkəzlərində kənd təsərrüfatı texnikasını təmir edən müəssisələr yerləşir.

Mədən sənayesi hələlik muxtar respublikanın sənayesinin zəif sahəsidir. Vaxtilə Parağaçayda çıxarılan molibden filizindən alınan konsentrat və Gümüşlü yatağından əldə edilən qurğuşun-sink konsentratı sonradan emal olunmaq üçün kənara göndərilirdi. Mundidərədə qızıl yatağı müəyyən edilmişdir.

Naxçıvan MR-nın tikinti materialları sənayesi dəmir-beton məmulatı, tikinti daşı, tikinti gipsi, əhəng, mərmər bloklar, kərpic və s. məhsullar istehsal edir. Qeyd etmək lazımdır ki, müxtəlif zəngin qeyri-filiz yataqlarının olmasına baxmayaraq, rayonun tikinti materialları sənayesi istehsalın həcminə və məhsulun çeşidinə görə kifayət qədər inkişaf etməmişdir və muxtar respublikanın tikinti sənayesi məhsullarına olan tələbatını ödəmir. Naxçıvan şəhərində şüşə tara zavodunun tikilməsi ilə yeni sahə olan şüşə sənayesinin əsası qoyulmuşdur.

Naxçıvan şəhərində yeni evtikmə kombinatı işə salındıqdan sonra sosial obyektlərin tikintisi daha da sürətlənəcəkdir.

Muxtar respublikanın meşə və ağac emalı sənayesi yalnız mebel fabriki və bir neçə xırda müəssisələrlə təmsil olunmuşdur. Onlar mebel həm də parket, pəncərə və qapı çərçivələri, taxtadan hazırlanmış bir sıra məişət malları istehsal edir.

Naxçıvan MR-da elektroenergetika sənayesinin əsası 50-ci illərdə qoyulmuş və sonrakı illərdə inkişaf etdirilmişdir.

Araz çayı üzərində İranla birlikdə elektrik stansiyasının tikintisindən sonra elektroenergetika sənayesi nisbətən inkişaf

etmişdir. Hazırda Naxçıvan MR-nın elektrik enerjisinə olan tələbatının 60-70%-i yerli istehsalın hesabına ödənilir, qalan hissəsi qonşu Türkiyə və İrandan alınır.

Ümumiyyətlə, muxtar respublikanın bütün inzibati rayonlarında sənaye zəif inkişaf etmişdir. Sənaye müəssisələrinin istehsal etdikləri məhsulların əksəriyyəti hazır məhsul səviyyəsinə çatdırılmadan, yarımfabrikat halında muxtar respublikadan kənara göndərilir. Belə ki, saflaşdırılmış qurğuşun və molibdenin hamısı, şərab məhsulunun 85%-i, fermentləşdirilmiş tütün və cod ipək parçaların hamısı sonrakı emal prosesi üçün başqa rayonlara göndərilir. Yalnız ət-süd, tikinti materialları, tikiş, trikotac müəssisələri öz məhsullarını hazır məhsul səviyyəsinə çatdırır. Ərazi üzrə sənaye qeyri-bərabər yerləşmişdir. Muxtar respublikada istehsal olunan sənaye məhsulunun yarıdan çoxu Naxçıvan şəhərinin payına düşür.

Yerli təbii və iqtisadi imkanlardan səmərəli istifadə etməklə sənayenin strukturunu təkmilləşdirmək və onun ərazi üzrə bərabər yerləşdirilməsinə nail olmaq olar.

Muxtar respublikanın sənayesinin gələcək inkişafı yerli xammal ehtiyatlarına əsaslanacaq. Eyni zamanda sənayenin sahəvi və ərazi strukturunun təkmilləşdirilməsinə xüsusi diqqət veriləcəkdir. Sənaye müəssisələrinin özəlləşdirilməsi proqramı həyata keçirilir.

***Kənd təsərrüfatı*** muxtar respublikanın iqtisadiyyatının əsasını təşkil edir. İqtisadi rayonun ümumi torpaq fondunun 30%-i kənd təsərrüfatına yararlıdır. Kənd təsərrüfatına yararlı torpaqların 27%-dən əkin, 45%-dən biçənək və otlaqlar, 10%-dən çoxillik bitkilər üçün istifadə edilir. Həmin torpaqların 12%-i dincə qoyulmuş, 3%-i həyətyanı torpaqlardan, qalan hissəsi bağlardan ibarətdir. Lakin düzənlik və dağətəyi zonalarda hələ də başlıca olaraq su çatışmazlığına görə istifadə edilməyən geniş məhsuldar torpaqlar vardır. Kənd təsərrüfatının inkişafı hələlik istifadəsiz qalan yararlı torpaqların mənimsənilməsi, mövcüd su ehtiyatlarından səmərəli istifadə edilməsi, suvarmanın təkmilləşdirilməsindən asılıdır. Araz çayı üstündə hidrotexnika kompleksinin, Arpaçay, Sirab su

anbarlarının, Sədərək suvarma sisteminin və s. tikilməsi və geniş miqyaslı meliorasiya-irriqasiya işlərinin görülməsi sayəsində kənd təsərrüfatının suvarma imkanları və su təchizatı yaşılaşmışdır. Bundan əlavə Naxçıvan, Əlincəçay suvarma sistemlərinin, Fəhrad, Artaşen, Aryadzyan suvarma kanallarının çəkilməsi və Nehrəm su anbarının tikilməsi çay, kəhriz, artezian sularından səmərəli istifadə edilməsinə imkan vermişdir.

Naxçıvan muxtar respublikasının kənd təsərrüfatının müasir quruluşunda taxıl, tütün, üzüm, ət, yun istehsalı mühüm yer tutur.

Kənd təsərrüfatının inkişafına görə Şərur inzibati rayonu fərqlənir. Qalan inzibati rayonlarda üzümçülük, tütün becərilməsi, heyvandarlıq, Ordubad rayonunda meyvəçilik üstünlük təşkil edir.

Muxtar respublikanın təbii-iqlim şəraiti rayonun təbii otlaqlarından əsasən yay aylarında istifadə etməyə imkan verir. Bu isə heyvandarlığın inkişafını müəyyən dərəcədə ləngidir. Muxtar respublikanın bütün inzibati rayonlarında heyvandarlıq, xüsusilə qoyunçuluq inkişaf etmişdir. İqtisadi rayonda heyvandarlıq üzrə bir sıra iri aqrar-sənaye kompleksləri fəaliyyət göstərir. Bunlardan Şərur rayonunda min başlıq camışçılıq, Babək rayonunda üç min başlıq kökəltmə və üç yüz başlıq düyə yetişdirmə komplekslərini göstərmək olar.

Naxçıvan MR-da aqrar-sənaye komplekslərinin yeni şəbəkəsi yaradılır. Bu, əkinçiliyin, meyvəçiliyin, üzümçülüyün və heyvandarlığın intensiv inkişaf etdirilməsinə imkan verəcəkdir.

Muxtar Respublikada aqrar islahatların həyata keçirilməsi kənd təsərrüfatın sürətli inkişafına zəmin yaradır.

böyükdür. Belə ki, perlit neft, mazut və s. kimi çirkabları asanlıqla özünə çəkir. Beləliklə perlitdən Xəzər dənizinin təmizlənməsində geniş istifadə edilməsi böyük səmərə verir.

Laçın rayonunda aşkar edilmiş Kopal (lak hazırlanmasında istifadə edilən təbii qətran) kimya sənayesində, məişətdə, yüngül sənayedə və s. geniş istifadə edilən qiymətli xammaldır. Kopaldan yüksək keyfiyyətli laklar, əlif, kopal məhlulu hazırlanır.

İqtisadi rayon ərazisində civə, qızıl, müxtəlif polimetal ehtiyatı və s. vardır. Məşhur İsti-Su müalicəvi mineral su bulaqları Kəlbəcər inzibati rayonunun ərazisindədir.

Orta illik su təminatı hesabı ilə ərazinin su ehtiyatı respublikanın ümumi su ehtiyatının 5,7%-nə, daxili su ehtiyatının isə 15%-nə bərabərdir. Burada Kür çayına axan Tərtər çayı, Araz çayına tökülən Bərgüşad, Həkəri çayları bol su axıdır və çoxlu enerji qüvvəsi yaradır. Tərtər çayı üstündə tikilmiş su-elektrik stansiyası, su anbarı və burada başlayan iri suvarma kanalları respublikanın iqtisadi inkişafında mühüm rol oynayır.

Kəlbəcər iqtisadi rayonu kurort, sanatoriya və rekreasiya sərvətlərinə malikdir. Bunların əsasını müxtəlif karbohidrogenli, sulfatlı mineral su bulaqları təşkil edir. Yuxarı İstisu, Bağırsaq, Tutqunçay, Minkond bulaqları bu sahədə böyük əhəmiyyətə malikdir.

Coğrafi mövqeyi və dağlıq relyefi ilə əlaqədar olaraq Kəlbəcər iqtisadi rayonu Azərbaycan Respublikasında ən seyrək əhali məskunlaşmasına və az şəhər əhalisinə malik olan rayondur. Burada 1 kv. km-ə orta hesabla 33 adam düşür ki, bu da respublika əhalisinin məskunlaşması səviyyəsindən 2,8 dəfə aşağıdır. Əhalinin 19%-i şəhərlərdə, 81%-i kəndlərdə yaşayırdı.

Respublika əhalisinin 3%-i, o cümlədən şəhər əhalisinin 1%-i və kənd əhalisinin 5,3%-i bu rayonun payına düşür.

Əmək ehtiyatları əhalinin ümumi sayının, demək olar ki, 52%-ni təşkil edir.

Əmək ehtiyatlarının 55-60%-i ictimai istehsalda çalışır, 25-30%-i isə ev təsərrüfatında və şəxsi yardımçı təsərrüfatında işləyir. (1990-cı il)

İqtisadi rayonda ayrı-ayrı coğrafi zonanın müxtəlif tipli və məhsuldarlığa malik torpaqları kənd təsərrüfatının əsasını təşkil edir. Burada olan 630 min hektar ümumi ərazinin 30%-i kənd təsərrüfatına yararlıdır. Kənd təsərrüfatına yararlı torpaqların 60%-dən çoxu otlaqlardır. İqtisadi rayonun bütün torpaq sahəsinin yarısından az hissəsi kənd təsərrüfatına yararlıdır. Ümumi torpaq fondunun 45%-ni tutan yararlı torpaqların təxminən yarısından əkinçilikdə istifadə edilir. Göstərilən rəqəmlər Kəlbəcər inzibati rayonunda müvafiq olaraq 40-7,5%, Laçın inzibati rayonunda 45-15% təşkil edir. Əkinə yararlı torpaqların çox hissəsindən taxıl və yem bitkiləri, təxminən 6%-dən çoxillik bitkilər, 6%-dən isə biçənəklər üçün istifadə edilir. Burada dincə qoyulmuş torpaqların məhdudluğu şəraitində yararlı torpaqların geniş sahəsi torpaq aşınmasına uğramış, yaşayış məntəqələri, yollar, karxanalar, qazılıb parçalanmış mədənlər altında qalmışdır.

Əsas istehsal vasitəsi olan torpaqdan səmərəli istifadə edilməsi, yararlı torpaqların, xüsusilə əkin sahələrinin münbitliyinin artırılması, bərpası, müxtəlif aşınmalardan mühafizəsi, əkinə yararlı torpaqlardan başqa məqsədlər üçün istifadə edilməsinin məhdudlaşdırılması əsas məsələlərdəndir.

Kəlbəcər – Laçın iqtisadi rayonunda kənd təsərrüfatı üstün yer tutur ki, bundan da əldə edilən ümumi məhsulun sənaye istehsalından üç dəfə artıqdır. Rayonun iqtisadiyyatında kənd təsərrüfatından alınan ümumi məhsulun 56-57%-i heyvandarlıqdan, qalan hissəsi bitkiçilikdən əldə edilir. Burada ət və süd təmayüllü qaramal təsərrüfatı və yun-ət istehsalı üçün qoyunçuluq da inkişaf etdirilir. Rayonda arıçılığın inkişafı üçün çox əlverişli imkanlar var.

Taxılçılıq, tütünçülük, üzümçülük əkinçilikdən əldə edilən gəlirin 65-70%-ni verir.

Heyvandarlığın, taxılçılığın, tütünçülüyün, kartofçuluğun, bağçılığın daha geniş miqyasda inkişaf etdirilməsi üçün iqtisadi rayon əlverişli torpaq iqlim şəraitinə malikdir.

Kəlbəcər – Laçın iqtisadi rayonunda sənaye zəif inkişaf etmişdir. Qeyd etmək lazımdır ki, XX əsrin yetmişinci illərinə qədər iqtisadi rayonda sənaye demək olar ki, yox dərəcəsində idi. Lakin yerli xammal və əmək ehtiyatlarından istifadə edilməsi nəticəsində

keçən əsrin yetmişinci illərinin əvvəllərində rayonda mövsüm ərzində on min ton üzüm emal edən ilkin şərab zavodu, ildə on iki mln şüşə mineral su dolduran zavod, mövsüm ərzində beş ton süd emal edən pendir zavodu və s. yeyinti sənaye müəssisələri tikilib istifadəyə verilmişdir. Beləliklə, ümumi sənaye məhsulunun 92%-ni yeyinti sənaye müəssisələri – ət, süd, pendir istehsalı, ilkin şərab zavodu, mineral sudoldurma zavodu verirdi.

Qeyd etmək lazımdır ki, iqtisadi rayonun şəhər və kəndləri, kənd təsərrüfatı və sənayesi erməni işğalçıları tərəfindən tamamilə dağıdılmışdır.

İqtisadi rayonunun ərazisinin erməni işğalçılarından azad olunmasından sonra mühüm problemlərdən biri iqtisadiyyatın bütün sahələrinin inkişaf etdirilməsi, ilk növbədə şose yolları şəbəkəsinin genişləndirilməsi və yerli xammal əsasında sənaye sahələrinin bərpası, ilk növbədə energetika bazasını, xüsusilə Xudafərin və Qız qalası SES-nin bərpasını qeyd etmək olar. Bütün bunlar yerli mineral xammal və əmək ehtiyatlarından geniş istifadə edilməsinə imkan verəcəkdir.

Sənaye istehsalını genişləndirmək üçün inzibati rayon mərkəzlərində və iri kəndlərdə toxuculuq fabrikləri, süd-pendir, çörək, mineral su zavodları və başqa müəssisələr tikilib və bərpa olunacaqdır.



## DAĞLIQ ŞİRVAN İQTİSADİ RAYONU

**Ağsu, Şamaxı, İsmayıllı inzibati rayonları**

Dəniz səviyyəsindən orta hesabla 750-800 metr yüksəklikdə yerləşən Dağlıq Şirvanın təsərrüfatı başlıca olaraq dəmyə əkinçiliyi, heyvandarlıq, bağçılıq və üzümçülükdə ixtisaslaşmışdır. Sənayesi əsasən yerli üzüm məhsulunu emal edən şərab və digər yeyinti məhsullarının istehsalından ibarətdir. Dağlıq zonanın şimalında ucalan Böyük Qafqaz silsiləsi, xüsusilə iqliminin, su ehtiyatının, təsərrüfatının formalaşmasında böyük əhəmiyyət kəsb edir.

Yüksəkliklərdən asılı olaraq rayonun iqlimi fərqlənir. Belə ki, 800-1000 metr yüksəklikdə iqlim mülayim-isti, 1000-1200 metrdə mülayim-soyuq, 1500 metrdə soyuqdur.

İl ərzində İsmayıllı və Şamaxı inzibati rayonlarda yağıntıların miqdarı 600-810 mm-dir.

İqtisadi rayonun gil, əhəng, qum ehtiyatlarından səmərəli istifadə etməklə iqtisadi rayonda bişmiş kərpic, kiramit, şifer istehsalını xeyli artırmaq üçün geniş imkanlar vardır.

İqtisadi rayon zəngin kurort ehtiyatına malikdir. Rayonun kurort-rekreasiya sərvətlərinin əsasını saf dağ iqlimi, meşələr, müalicə əhəmiyyətli mineral bulaqlar, alp çəmənlikləri və s. təşkil edir.

Dağlıq Şirvanda yerləşən meşələrlə əhatə olunmuş Avaxıl, Qəleybuqurt, Əngəxaran, Dədəgünəş, Çuxuryurd, Sis, Zaratxeybəri, Çobanı (Şamaxı rayonu) kəndlərinin ətrafı mineral bulaqlarla zəngindir. Buradakı bulaqların çoxu qədimdən bəri yerli əhali tərəfindən yel, dəri, qadın xəstəliklərinin müalicəsində istifadə olunur.

Meşələr, gözəl mənzərələr, meyvə bağları ilə əhatə olunmuş mineral bulaqlar bu yerlərdə kurort-müalicə və istirahət müəssisələrin, turist bazalarının tikilməsi üçün əlverişli şərait yaradır.

İqtisadi rayon nisbətən sıx meşə örtüyünə malikdir. Ərazinin 33%-i meşələrlə örtülüdür. Meşələr əsasən İsmayıllı rayonu ərazisindədir. Çay hövzələrində də meşə massivləri vardır. Rayonun meşələrinin sənaye əhəmiyyəti vardır.

)ağlıq Şirvan iqtisadi rayonunun sənayesinin inkişafı yerli htiyatlara və kənd təsərrüfatı xammalına əsaslanır. Keçən 0-ci illərində və 80-ci illərin əvvəllərində bu rayonda bir sıra ıaye müəssisələri, un kombinatı, çörək zavodları, kənd .fatı maşınlarının təmir müəssisələri və s. tikilib istifadəyə ışdir. Nəticədə rayonun sənaye strukturu təkmilləşmiş, burada daxili ehtiyacları deyil, eyni zamanda respublika xalq ıfatının və əhalinin tələbatını ödəyən müxtəlif sənaye lları istehsalı təşkil edilmişdir.

Məhsul istehsalının həcminə və dəyərinə görə yeyinti sənaye yer tutur. Yeyinti sənaye yerli xammal əsasında işləyir və ı inkişaf səviyyəsi ilə fərqlənir. İqtisadi rayonda 10-a qədər müəssisələri fəaliyyət göstərir. Rayonun təsərrüfatlarında rilən üzüm ilkin emalı müəssisələrinə, onların istehsal əri şərab materialları Bakı şərab zavoduna göndərilir. Burada nal prosesindən sonra hazır məhsul şüşələrə doldurulur. Ət, ıalı, çörək zavodları və başqa müəssisələr yeyinti sənayesinin byektləridir. Rayonda yeyinti sənayesinə xidmət edən bir sıra ıçı təsərrüfat sahələri inkişaf etmişdir.

İqtisadi rayonun əsas sənaye sahələrindən biri də yüngül ədir. Yüngül sənayenin strukturunda toxuculuq, tikiş və s. n yer tutur. Rayonda kələğayı, çuxa, xurcun, palaz istehsalı f etmişdir. Şamaxı və İsmayıllı şəhərlərində tikiş müəssisələri yət göstərir. Basqal kəndində kələğayı toxunması hələ qədim ən mövcud idi.

Rayonun tikinti materialları sənayesi yerli xammal ehtiyatına nır. Rayonun tikinti materialları kombinatının müəssisələri xı və İsmayıllı rayonlarında yerləşir.

Burada bir sıra karxanalar (çınqıl, qum, daş), kərpic və kiramit ları, pəncərə çərçivələri, qapı, parket, taxta istehsal edən sisələr, meşə kombinatı, bir sıra meşə təsərrüfatları fəaliyyət ṙir. Meşə və ağac emalı sənayesi yerli əhəmiyyətə malikdir. ıun sənayesinin strukturunda onun xüsusi çəkisi böyük deyil.

Dağlıq Şirvan iqtisadi rayonunda kənd-təsərrüfatının inkişaf məsi üçün nisbətən əlverişli təbii və iqtisadi imkanlar vardır. ıun kənd-təsərrüfatı başlıca olaraq üzümçülük, taxılçılıq, ət və

süd heyvandarlığı üzrə ixtisaslaşmışdı. Bundan əlavə kartof, meyvə, yun, yumurta, barama istehsalı, arıçılıq da inkişaf etmişdir. İqtisadi rayonun dağlıq zonasında kənd təsərrüfatı başlıca olaraq dəmyə, aran hissəsi isə suni suvarma əkinçiliyinə əsaslanır. Kənd təsərrüfatına yararlı torpaq sahələrinin azlığı şəraitində, torpaqlardan tam səmərəli istifadə edilməsini tələb edir.

## YUXARI QARABAĞ İQTİSADİ RAYONU

Rayonun ərazisinə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və ona qonşu Ağdam, Füzuli və Cəbrayıl rayonlarının dağlıq və dağətəyi hissələri daxildir.

İqtisadi rayonun ərazisi əsasən dağlıqdır. Onun səthinin çox hissəsini Murovdağ və Qarabağ silsiləsinin yamacları tutur. Əsasən vulkanik və çökmə süxurlardan təşkil olunmuş ərazi seysmik zonada yerləşir. Yüksəkliklərdən asılı olaraq rayonun iqlimi müxtəlifdir. Belə ki, 1000 m.yüksəklikdə iqlim mülayim-isti, 1000-2000 m-də mülayim-soyuq, 2000 m-dən yüksəkdə soyuqdur. Düzənlik və alçaq dağətəyi sahələrdə iqlim nisbətən quru və istidir. Yağıntılar düzən və dağətəyi yerlərdə 400-500 mm, yüksək dağlıq sahələrdə 800-900 mm-dən çoxdur.

Su ehtiyatı rayonun başlıca təbii sərvətlərindən biridir. Ölkənin su ehtiyatının 13 %-i rayonun payına düşür. Burada hər kv.km-ə və adambaşına düşən su ehtiyatı respublika səviyyəsindən xeyli çoxdur. İqtisadi rayonun çayları Kür və Araz çayları hövzələrinə aiddir. Ərazidən keçən tranzit sulardan Tərtər çayın, Qaraçayın, Xaçınçayın sularından iri suvarma əkinçiliyi təsərrüfatına və quraq iqlimə malik olan Aran iqtisadi rayonunda (Mil-Qarabağ ovalığı) suvarmada, məişətdə geniş istifadə edilir. Rayonun çaylarının enerji ehtiyatları böyükdür. Mənbəyi yüksək dağ zonalarından götürən çaylar qısa məsafədə 3000-3500 m. Hündürlükdə Qarabağ düzənliyinə qədər iti axaraq, çoxlu su enerjisi qüvvəsinə malikdir. Tərtər çayı üstündə tikilmiş hidrotexniki kompleks (su-elektrik stançsiyası, böyük su anbarı, suvarma kanalı), keçmiş Muxtar Vilayətin və onun qonşuluğunda yerləşən Mil-Qarabağ düzənliyindəki rayonların təsərrüfatının, xüsusilə suvarma əkinçiliyinin inkişafında, həmçinin əhalini su ilə təchiz etməkdə böyük əhəmiyyətə malikdir.

İqtisadi rayonun torpaq örtüyü müxtəlifdir. Burada şabalıdı, açıq şabalıdı, qonurdağ-meşə, dağ-çəmən torpaqları yayılmışdır. İqtisadi rayonda kənd təsərrüfatına yararlı torpaqların 53-60 %-i bu və ya digər dərəcədə su, külək eroziyasına, geoloji eroziyaya məruz qalmışdır. Yay otlaqları, meşələr ərazisində də belə sahələr vardır.

Torpaq eroziyasına qarşı təsirli tədbirlərin görülməsi mühüm məsələlərdən biridir. İqtisadi rayon müxtəlif yeraltı sərvətlərinə malikdir. Burada sənaye əhəmiyyətli qurquşun, sink, polimetal filizləri vardır. Qeyri-filiz yataqları- mərmər, üzlük daş, mişar daşı, mergel, gil, gips, əhəng daşı inert materialları və müalicə əhəmiyyətli mineral su da rayonun iqtisadi inkişafında mühüm rol oynayır.

İqtisadi rayon nisbətən sıx meşə örtüyünə malik rayonlardandır. Ərazinin 36 %-i meşələrlə örtülüdür. Meşələr əsasən Qarabağ silsiləsinin şimal-qərb yamaclarında 800-1500 m, bəzi yerlərdə isə 2000 m-dək yüksəklik sahələrdə yayılmışdır. Tərtərçay, İncəçay və Torağayçay hövzələrində də meşə massivləri vardır. Rayonun meşələrinin sənaye əhəmiyyəti vardır.

İqtisadi rayon zəngin kurort ehtiyatına malikdir. Rayonun kurort-rekreasiya sərvətlərinin əsasını saf dağ iqlimi, meşələr, müalicə əhəmiyyətli mineral bulaqlar, geniş alp çəmənlikləri və s, təşkil edir. Turşsu-Şirlan qrupuna daxil olan karbonatlı mineral bulaqlar xüsusi əhəmiyyət kəsb edir. Yuxarı Qarabağda 11 qrup mineral bulaqları ildə 10 min kub metrlərlə su axıdır. Lakin bunun çox cüzi hissəsindən istifadə olunur. Rayonun mineral bulaqlarından səmərəli istifadə edilərsə iqtisadi rayonun kurort təsərrüfatının gələcək inkişafı təmin olunar. Dəniz səviyyəsindən 1600 m yüksəklikdə yerləşən Şuşa balneoloji iqlim kurortu ölkə əhəmiyyətinə malikdir.

Yuxarı Qarabağ iqtisadi rayonunun əhalisinin sayı Ermənistanın təcavüzü nəticəsində kəskin azalmışdır. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan azərbaycanlılar ərazidən qovulmuş, ətraf rayonlar – Ağdam, Fizuli, Cəbrayıl rayonları işğal olunmuş, yerli əhali qaçqın vəziyyəti nə düşmüşdür. Odur ki, buranın əhalisinin sayı barədə dəqiq məlumat yoxdur. Hazırda keçmiş DQMR -da 30 minə yaxın yerli əhali yaşayır. Bir o qədər də hərbiçilərdir. Əhalinin 1 kv. km -də sıxlığı orta respublika səviyyəsindən bir neçə dəfə aşağıdır. Ərazi üzrə əhali qeyri bərabər yerləşmişdir. İqtisadi rayonun kənd yaşayış məntəqələrinin strukturunun 50% -dən çoxunu kiçik kəndlər təşkil edir. Kiçik kəndlərdən fərqli olaraq orta və iri kəndlərin sayı azdır. İri kəndlərin əksəriyyəti dağətəyi və düzənlik

sahələrdə, kənd təsərrüfatının intensiv inkişaf etdiyi rayonlarda yerləşir. 1990-cı ilə qədər iqtisadi rayonun əhalisinin milli tərkibi müxtəlif olmuşdur. Say etibarilə azərbaycanlılar ikinci yeri tutmuşdur. Lakin Erməni işğalçılarının rayonda yaşayan azərbaycanlıların qovulması nəticəsində hazırda yuxarı dağlıq Qarabağ bölgəsində az miqdarda ermənilər yaşayır. Bölgədə iqtisadi vəziyyətin son dərəcədə dözülməz olması nəticəsində yerli erməni əhali kütləvi olaraq yuxırı dağlıq Qarabağ ərazisini tərk edirlər. Hazırda burada az miqdarda yaşlı nəslin nümayəndələri qalır. Əhalinin əksər hissəsi hərbi qulluqçulardır.

Yuxarı Qarabağ iqtisadi rayonunun sənayesinin inkişafı yerli təbii ehtiyatlara və kənd təsərrüfatı xammalına əsaslanır. 1990-cı ilə qədər bu rayon respublika üzrə sənaye məhsulu istehsalının 2,8%-ni, əsas istehsal fondlarının 1,2%-ni, sənayedə çalışanların 2,9%-ni təşkil edirdi. Həmin dövrdə burada 30-dan artıq ümumittifaq və respublika əhəmiyyətli sənaye müəssisələri fəaliyyət göstərirdi. Keçən əsrin 70-ci illərində və 80-cı illərin əvvəllərində bu rayonda bir sıra iri sənaye müəssisələri – ayaqqabı fabriki, konserv zavodu, ət kombinatı, ilkin şərab emalı zavodu, tikinti materialları müəssisələri və s. tikilib istifadəyə verilmişdir. Nəticədə rayonun sənaye strukturu təkmilləşmiş, burada təkcə daxili ehtiyacları deyil, eyni zamanda respublika xalq təsərrüfatının tələbatını ödəyən müxtəlif sənaye məhsulları istehsalı təşkil edilmişdir. Nəticə etibarilə həmin dövrə qədər rayon sənaye istehsalının artım sürətinə görə respublika səviyyəsini ötüb keçmişdir. İqtisadi rayonunun sənaye strukturunda yeyinti sənayesi 65,9%, yüngül sənaye 24,2%, maşınqayırma və metal emalı sənayesi 6,7%, meşə və ağac emalı sənayesi 1,7%, tikinti materialları sənayesi 1,5% təşkil edirdi.

Məhsul istehsalının həcminə və dəyərinə görə yeyinti sənaye yerli xammal əsasında işləyir və özünün inkişaf səviyyəsi ilə fərqlənirdi. Rayonun bir sıra yeyinti sənayesi müəssisələri məhsul istehsalının həcminə və keyfiyyətli məhsul istehsalına görə respublika miqyasında fərqlənirdi. 1990-cı ilə qədər Stepanakert (Xankəndi) süd və ət kombinatları, şərab zavodu, Əsgərandakı spirtsiz içkilər zavodu, Stepanakert (Xankəndi) konserv zavodu və

çörək kombinatı belə müəssisələrdən idi. Süd kombinatında respublikada quru süd zərdabı hazırlayan yeganə sex işləyirdi.

İqtisadi rayonda 20-yə qədər şərab müəssisələri fəaliyyət göstərirdi. Rayonun təsərrüfatlarında yetişdirilən üzüm ilkin emalı müəssisələrinə, onların istehsal etdikləri şərab materialları və konyak spirti Stepanakert (Xankəndi) şərab zavoduna göndərilirdi. Burada son emal prosesindən sonra hazır məhsul şüşələri doldurulurdu. Rayonda yeyinti sənayesinə xidmət edən bir sıra yardımçı təsərrüfat sahələri inkişaf etmişdir.

İqtisadi rayonun ixtisaslaşmış sənaye sahələrindən biri yüngül sənayedir. Yüngül sənayenin strukturunda toxuculuq, tikiş, ayaqqabı istehsalı mühüm yer tutur. İqtisadi rayon ipək parça istehsalına görə respublikada ikinci mərkəz idi. İqtisadi rayonun yüngül sənaye məhsulunun 2/3% hissəsi və respublikanın ipəkçilik sənayesi məhsulunun təxminən 25%-i Yuxarı Qarabağ iqtisadi rayonunun payına düşürdü. Qarabağ ipək kombinatı sahənin ən iri müəssisəsidir. Stepanakert (Xankəndi) şəhərində yerləşən bu kombinatın Şuşa və bir sıra yaşayış məntəqələrində – Çartaz, Çanaxçı, Xıdzristan və s. filialları fəaliyyət göstərirdi. Gətirilmə xammalla işləyən kombinat ildə 20 milyon metr cod ipək parça, həmçinin xam və eşmə ipək sap istehsal edirdi. Qarabağ ipək kombinatında istehsal olunan ipək parçalar barama-bəzəkvurma prosesindən keçmək üçün Şəki ipək kombinatına göndərilirdi. Stepanakert (Xankəndi) ayaqqabı, tikiş fabrikləri, xalça toxuma emalatxanası və s. yüngül sənayenin ixtisaslaşmış sahələrindəndir.

İqtisadi royonun maşınqayırma sənayesi əsasən gətirilmə xammal əsasında inkişaf etdirilmişdir. Sahə elektrotexnika zavodu, minik avtomobillərinə texniki xidmət stansiyaları, müxtəlif texniki təmir müəssisələri ilə təmsil olunmuşdur.

Rayonun tikinti materialları sənayesi möhkəm yerli xammal ehtiyatına malikdir. Belə ki, respublikada olan üzlük daşın 15%-i, tikinti daşının 30%-i, mişar daşların 10%-i, sənaye əhəmiyyətli gilin 7-8%-i iqtisadi rayonun ərazisindədir. Tikinti materialları sənayesi tikinti materialları kombinatını və tikinti sənaye kombinatını əhatə edir. Burada çınqıl, qum, daş və mərmər karxanaları, kərpic zavodları fəaliyyət göstərir.